بسم الله الرحمن الرحيم

TBİLİSİ 2018

წიგნი დაბეჭდილია სსიპ სრულიად საქართველოს მუსლიმთა
სამმართველოს სამეცნიერო საბჭოს ინიციატივით და
რეკომენდაციით

Bu kitab Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi
Gürcüstan müftiliyinin elmi şurasının təşəbbüsü və məsləhəti ilə
nəşr olunub.

სსიპ სრულიად საქართველოს მუსლიმთა სამმართველო
მადლობას უხდის საქართველოს ახალგაზრდობის დახმარების და
საგანმანათლებლო საზოგადოებას წიგნის გამოცემის ნებართვისათვის

Bu kitabın nəşrinə icazə verdiyinə görə Bütün Gürcüstan
Müsəlmanları İdarəsi Gürcüstan Gənclərinə Yardım və
Maarifləndirmə Təşkilatına təşəkkür edir.

**Kitabın orijinal adı:** Mesnevi Sohbetleri Dinle Neyden
**Müəllif:** Prof. Dr. H. Kamil YILMAZ
**Nəşrə Hazırlayan:** Hacı BƏKİROĞLU
**Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran:** Azad Sultan
Dizayn: Elsevər ƏHMƏDOV

Esma Oniani st, Tbilisi, Georgia ,#23
Tel: (+995) 32 253 16 30
Mob: (+995) 577 62 30 31
ID: 401960794, Postal Code: 0159
E_mail: info.amag77@gmail.com

# მასნავის საუბრები

*Neyin Fəryadı*

# Məsnəvi Söhbətləri

(ilk 34 beyt - Açıqlama və Şərhi)

Prof. Dr. H. Kamil YILMAZ
პროფესორ-დოქტორი ჰასან ილმაზი

## Təqdim

Mövlana Cəlaləddin Rumi bütün dövrlərin ən böyük ariflərindən və Allah dostlarından biridir. Onun böyüklüyünə zəmin təşkil edən səbəblər yaşadığı dövr ilə yaxından bağlıdır. Məlum olduğu kimi Mövlana Cəlaləddin Ruminin yaşadığı XIII əsr Anadolunun Qərbdən gələn səlib yürüşləri ilə tar-mar edildiyi, Şərqdən gələn Monqol istilası ilə daşın daş üstündə qalmadığı çox məşəqqətli bir dövr idi. Bundan başqa Anadolu səlcuqlarının taxt-tac qovğaları və aralarındakı bəzi ixtilaflar Anadolunun müxtəlif yerlərində, Amasya və ətrafında baş verən Babayi üsyanları, böyük bir narahatçılıq doğurmuşdu. Hətta insanlar həyatlarından bezmiş bir vəziyyətə düşmüşdülər.

Belə bir dövrdə Allah-Təalanın bu bölgəyə böyük bir lütfü olaraq Anadoluya iki günəş doğdu. Bunlardan birisi Qərbdən doğan İbn Ərəbi günəşi idi. O Qərbdə, Avropada-İspaniyada doğuldu. İlk təhsilini orada aldı. Oradan Şimali Afrikadan keçərək Misir və Hicaz yolu ilə Anadoluya-Malatya və Konyaya gəldi. İkincisi isə Mövlana Cəlaləddin Rumi günəşi idi. O isə Şərqdə; bu gün Əfqanstan sərhədlərinə daxil olan Bəlx şəhərində dünyaya gəldi. Uşaq deyiləcək bir yaşda atası ilə birlikdə əvvəlcə Hicaza, sonra Şam/Dəməşqdən keçərək Qaraman və Konyaya gəlib məskunlaşdı.

Bu iki böyük Allah dostunun əsərləri, fikirləri və könüllərə aydınlıq saçan eşqləri Anadolu torpaqlarında 600 ildən artıq bir müddət yaşayacaq olan Osmanlı dövlətinə zəmin hazırladı. Hərçənd bu dövrdə Mövlana və İbn Ərəbi ilə birlikdə bir çox sufi var idi. Əhməd Yəsəvinin yetişdirib Anadoluya göndərdiyi Yəsəvi dərvişləri ilə Alp-ərən adlanan digər təriq/yola mənsub Əxi, Babayi dərvişləri gəldi. Hacı Bəktaş vəli və Yunus Əmrə də bu dövrün məşhur simalarındandır.

Bu dövr bir mənada mədəniyyətlər mübarizəsinin cərəyan etdiyi bir əsrdir. Səlib yürüşləri ilə İslam dünyasının, Anadolu və Qüdsun zərər gördüyü bir dövrdür. Mədəniyyətlər mübarizəsinə şahid olmuş Mövlana əsərləri ilə, xüsusilə də Məsnəvisi ilə insanların könlündə xalq və Haqq sevgisinin toxumlarını əkmiş, onları inkişaf etdirmiş, kammilləşdirmiş və bu surətlə uzun müddət davam edəcək olan bir mədəniyyətin və Osmanlı dövlətinin təməllərinin atılmasında mühüm rol oynamışdır.

Bu baxımdan Mövlananı mədəniyyətlər mübarizəsini sona çatdıran əhəmiyyətli bir mürşid olaraq qəbul etmək lazımdır. Üstəlik də Mövlananın Məsnəvisi özündən sonrakı dövrdə Anadoluda, Balkan yarmadasında və digər İslam ölkələrində; müasir dövrümüzdə Avropa və Amerikada böyük bir kütlə tərəfindən qəbul edilərək rəğbət qazanmışdır. Diqqətə layiqdir ki, Məsnəvinin qələmə alındığı dövr mədəniyyətlər mübarizəsinin yaşandığı bir dövr olmaqla yanaşı, Məsnəvinin xalq tərəfindən mənimsənildiyi XIX əsr də mədəniyyətlər mübarizəsinin gündəmə gəldiyi bir dövrdür.

XIX əsrdə İstanbulda Mövləvi dərgahları qədər digər dərgah və təkyələrdə də dərs olaraq oxunması və xalq tərəfindən mənimsənilməsi, Nəqşibəndilik və Qədiriyyə təriqətləri tərəfindən belə Məsnəvi dərslərinin keçilmiş olması bu baxımdan xüsusi qeyd edilməlidir.

XX əsrdə Məsnəvinin Qərbdə və xüsusilə də Amerikada ciddi bir oxucu kütləsi qazandığını görürük. Belə ki, 1999-cu ildə, yəni XX əsrin son ilində Amerikadakı *Time* jurnalı oxucu anketi ilə Mövlana Cəlaləddin Rumini XX əsrin sufisi seçmişdir. Yazıldığı gündən bu günə qədər Məsnəvi üzərində bir çox tədqiqatlar aparılmışdır. 2000-ci illərdə Məsnəvidən edilən tərcümələr Amerikada "best seller/ən çox satılan" kitab ol-

muşdur. Bu hal Mövlananın əsrlər boyu davam edən gücünü və təsirini göstərən əsas dəlillərdəndir.

Mövlananın Məsnəvisi 700 il əvvəldən günümüzə yazılmış bir məktub mahiyyətindədir. Onu oxuyan insanlar sanki bu məktubun xüsusilə özləri üçün yazılmış olduğu düşüncəsinə qapılır; Mövlanaya və Məsnəviyə ayrı hisslər ilə sahib çıxırlar. Bu baxımdan Mövlananın dəyəri hər keçən gün daha da artır. UNESCO tərəfindən 2007-ci ilin Mövlana ili olaraq qəbul edilməsi Mövlananın hələ də gündəmdə olduğunu sübut edir.

18 beytlik giriş hissəsi Məsnəvinin qaymağı, xülasəsi və ruhu mahiyyətindədir. Yəni altı cildlik Məsnəvini Hz. Mövlana 18 beytdə xülasə etmiş və ən gözəl ifadələr ilə insanların gözləri önünə sərmişdir. Mövlana Cəlaləddin Ruminin Məsnəvisini tanımaq üçün heç olmasa 18 beytlik hissəsini gözdən keçirmək lazımdır. Məsnəvi şərhçiləri ümumiyyətlə bu 18 beytlik hissəyə ayrı bir əhəmiyyət vermişlər və çox geniş bir tərzdə bu bölümü şərh etməyə çalışmışlar. Biz 18 beytlik hissəyə 16 beytlik bölümü də əlavə edərək 34 beytlik bir şərh meydana gətirdik.

Məsnəvi söhbətlərinin hazırlanmasında müxtəlif şərhlərdən istifadə etdik. Bunların başında Bursalı İsmail Hakkının *Ruhul-Məsnəvi*si ilə Tarixul-Mövləvi *Şərhi-Məsnəvi*si gəlir. Digər şərhlərə də yeri gəldikcə müraciət edilmişdir.

Üsküdar İstanbul

Prof. Dr. H. Kamil YILMAZ

## BİRİNCİ BEYT

### *NEYİN HEKAYƏSİ*
### *İNSANIN MACƏRASI*

بشنو این نی، چون حکایت میکند
از جدائ ها شکایت میکند

*Bişnev in ney çün şikayət mi konəd*
*Əz cudayiha hikayət mi-konəd*

*

***Tərcüməsi***
*Dinlə ki ney necə şikayət edir*
*Ayrılıq dərdindən hekayət edir*

***Mənzum Tərcüməsi***
*Dinlə neydən bax nələr söylər durar*
*Dərdlərindən, ayrılıqdan dəm vurar*

***Həzrət Mövlana*** *Məsnəvi*nin ilk beytində Qurana müvafiq mesajlar verir. Əslində elə o özü, ərəbcə ön sözündə əsərini Quranı təfsir etmək üçün, anlaşılmasını asanlaşdırmaq məqsədiylə yazdığını ifadə edir. Yəqin elə məhz buna görədir ki, Məsnəvisinə də elə ilk nazil olmuş Quran ayəsinə uyğun gələcək tərzdə ***"Bişnevi/Dinlə"*** deyə başlamışdır.

Qurani-Kərimin ilk ayəsi *"iqra/oxu"* ayəsidir. Allah-Təala Həzrət Peyğəmbərə (s.ə.s) Nur dağındakı Hira mağarasında Cəbrail vasitəsi ilə peyğəmbərlik vəzifəsi verdikdə göndərdiyi ilk əmr *"iqra/oxu"* idi. Allah-Təala bu əmrdə nəyin oxunmalı olduğunu dəqiq bildirməmiş, oxunacaq şeyin nə olduğunu qeyd etməmişdir. Burada qəsd edilən əlbəttə ki, oxunmalı olan nə varsa, hamısının oxunması idi. Çünki ayənin davamında:

***"Oxu! Rəbbinin adı ilə. İnsanı ana rəhmində yapışan rüşeymdən yaradan Rəbbinin adı ilə oxu".***[1] Ayədə ilk oxunmalı olan şeyin insanın özü, yaradılması və mövcudat aləminə gəlişi olduğu açıq şəkildə ifadə edilir. "Oxu" əmri ilə insanın özünü, kainat kitabını və Qurani-Kərimi oxumalı olduğu anlaşılır.

Mövlana da *"Bişnev/dinlə"* deyir. Oxumaq göz ilə, dinləmək isə qulaq ilə olur. Oxumaq ilə dinləmək arasında bir oxşarlıq vardır. Mövlana *"dinlə"* deyir. Çünki dinləmək, qulaq asmaq insanlarla ünsiyyət qurmağın ən əsas xüsusiyyətlərindən biridir. İnsan dinləyərək öyrənir və dinləyərək insanlar ilə bir-birini başa düşür. Dinləmək öyrənməyin ən əsas yol və metodlarından biridir. Öyrənmək istəyən insan dinləyər, dinləyən anlayar, qavrayar və öyrənərək həyatına tətbiq edər.

Məsnəvinin *"bişnev/dinlə"*deyə başlaması insanın dünyanı dinləməsi mənasında önəmli bir xəbərdir. Dünyadakı hadi-

---

1. əl-Ələq, 96/1-2.

sələri, səsləri dinləmək, qəlbi, könlü və zehni qavramağa hazır hala gətirmək deməkdir.

Dinləmək danışmaqdan da əhəmiyyətlidir. Çünki Allah insana iki qulaq, iki göz, bir ağız vermişdir. Yaxşı dinlə, yaxşı bax, yaxşıca gör, sonra danış. Çox dinləyib yaxşıca incələmək və az danışmaq xəta etmək ehtimalını azaldır.

*Bişnev*in ərəbcəsi "isməa", "səməun" kökündən olub "dinlə" deməkdir. "Səməun", "yəsməu", "səmia" eşitmək, dinləmək və qulaq asmaqdır. Quranı anlamaq üçün də dinləmək lazımdır. Belə ki, Allah-Təala buyurur:

***"Quran oxunduğu zaman onu dinləyin və susun ki, sizə mərhəmət edilsin".***[2]

Səməa/eşitmək və duymaq sayəsində insan dinləyib vəcdə gələr, həyəcanlanar. Gözəl səs insana *ələst bəzmini* xatırladır (zikr) və insan bu sayədə o səsi eşidəcək hala gəlir. (Səma). Belə ki, Cüneyd Bağdadi bu mövzuda belə bir bənzətmə etmişdir: Bəşər övladı dünyaya gəlməzdən öncə Allah-Təala ilə bir razılaşma etmiş və Allah-Təala ruhlar aləmində *Ələstu bi rabbikum?/Mən sizin Rəbbiniz deyiləmmi?* deyə soruşmuşdu. İnsanlar da *Bəla/bəli, ya Rəbbi.* Sən bizim Rəbbimizsən[3] demiş və Onun Rübubiyyətini/Rəbb olmasını təsdiq etmişdilər. Buna görə də bu razılaşmanın xatırlanması *zikr*, o səsin eşidilməsi isə *səma*dır.

Gözəl səsin meydana gətirdiyi həyəcanın yuxarı səviyyəsi cəzbədir. Cəzbə qulun Allaha doğru çəkilməsidir. Eşq isə qulun Allaha yönəlməsidir. Yəni eşq quldan Allaha, cəzbə isə Allahdan qula doğru olur. Cəzbə ibadətlərə yönəlişi, xidmət etməyə təvəccöh etməyi asanlaşdıran yüksək bir cərəyan,

2. əl-Əraf, 7/204.
3. əl-Əraf, 7/172.

mənəvi bir feyzdir. Belə ki, Allah-Təalanın qulunu seçdiyi və özünə doğru çəkdiyi bu ayədə ifadə edilir:

“***Allah istədiyini özünə seçər və özünə yönələni də doğru yola yönləndirər”.***[4] Təsəvvüf ənənəsində də: *“Rəhmanın cəzbələrindən bir cəzbə, ins(insanlar) və cinnin(cinlərin) əməllərinə bərabərdir,”*[5] anlayışı mövcuddur.

Mövlana bişnəv/dinlə, qulaq as deyərkən Allahın: “Ələstu birabbikum?/Mən sizin Rəbbiniz deyiləmmi?” səsini dinlə və o anı xatırla, deyilir. Bizə hər gün, hər dəqiqə bu səsi dinləməli olduğumuzu ifadə edir. Allahın “Ələstu birabbikum?/Mən sizin Rəbbiniz deyiləmmi?” sualını keçmişdəmi qaldı? Xeyr, Allah-Təala əzəlilik aləmində bunu söylədi və qurtarıb getdi, mənasında deyil. Bu gün də eşidən qulaqlara, görən gözlərə Allahın: *“Mən sizin Rəbbiniz deyiləmmi?”* sualı davam edir. Eşidən qulaqlar: “Bəli, ya Rəbbi, Sən bizim Rəbbimizsən” deyə təsdiq edirlər. Eşitməyən könüllər isə bundan məhrum qalırlar. Dolayısı ilə Mövlana *“Dinlə”* dedikdə ələst bəzmində müxatəb olduğun: *“Mən sizin Rəbbiniz deyiləmmi?”*səsinə qulaq as deyir.

Dinləmək çox əhəmiyyətli bir hadisədir. Çünki Qurani-Kərimdə: ***“Vəhy ediləni dinlə!”***[6] ayəsi ilə Allah-Təala vəhy ediləni dinlə, buyurur. Burada dinləmədən vəhyi başa düşməyin mümkün olmayacağına işarə edilir. Peyğəmbərlərin ilkin vəzifələri özlərinə vəhy edilənləri anlamaqdır. İnsanların vəzifələri isə: Özlərinə peyğəmbərlər vasitəsi ilə göndərilən xəbərləri dinləmək və anlamağa çalışmaqdır.

Bəşər övladının belə bir məsuliyyətinin mövcudluğu şübhəsizdir, amma insan anlamaq istəmədikdə eşitməmək üçün

---

4. əş-Şüəra, 42/13.
5. Bax: Keşfül-hafa, 1, 332 (1069).
6. Taha, 20/13

qulaqlarını tutar və ya başını bürüyər, üzünü çevirər. Qurani-Kərimin Nuh surəsində buna işarə edilmişdir:

***"Sənin onları bağışlamağın üçün mən nə zaman onları (imana) dəvət etdimsə, onlar (dəvətimi eşitməsinlər deyə) barmaqlarını qulaqlarına tıxadılar, (məni görməsinlər deyə) libaslarına büründülər, (küfrlərində) israr edib durdular və təkəbbür göstərdilər."***[7]

Bir-birlərini dinləmək istəyərək və razı olaraq qulaq asmaq və nə isə başa düşməyə çalışmaq mənalarını ifadə edir. Ünsiyyət dinləmək ilə başlayır. Hətta görmənin çox əhəmiyyətli olması ilə yanaşı, insanlar dinləmək sayəsində anlayar. Məsələn, heç gözü görməyən kor bir adam insanlar ilə danışaraq ünsiyyət qura bilər, amma heç eşitməyən, hətta əvvəlcədən eşitdiyi halda daha sonra kar olan başqaları ilə dialoq qura bilməz.

Peyğəmbərlər tarixinə baxdıqda, peyğəmbərlər arasında gözünü itirmiş, kor olmuş peyğəmbərlər vardır. Belə ki, Şuayb (ə.s) və Yaqub (ə.s) sonradan kor olmuşdular. Ancaq bunun müqabilində eşitmə qabiliyyətindən tamamən məhrum olmuş kar bir peyğəmbər yoxdur. Görmə xüsusiyyəti olmadığı zaman insanın başqaları ilə ünsiyyət qurması mümkündür, amma eşitmə xüsusiyyəti olmadığı zaman bu mumkün deyil. Ətrafımızdakı eşitmə qabiliyyəti olmayan insanlara baxdıqda, bunlar gənc ikən eşitmə qabiliyyətinə malik olmuş olsalar belə, bir məclisdə oturarkən söz və söhbət əsnasında eşitmə qabiliyyətlərini itirmiş olduqları üçün müzakirələrdən uzaq qalarlar. Çünki eşidə bilmədikləri üçün nə danışıldığını anlamaz və mövzuya vaqif ola bilməzlər. Bu baxımdan eşitmək, qulaq asmaq, dinləmək çox əhəmiyyətli bir hadisədir. Mövlana

7. Nuh, 71/7

buna işarə edərək deyir ki, siz birinci qulaq asmağı, dinləməyi öyrənin.

Mövlana bununla sanki belə bir mesaj vermək istəmişdi: Qurani-Kərim əsrlərdən bəri *İqra/ Oxu*, deyir. Müxatəb kütlə Türklər isə illər boyunca oxumamışdırlar. Mövlana: "Mən sizi tanıyıram, oxuyan deyilsiniz, oxumağı xoşlamırsınız, heç olmasa dinləyin, dinləməyi öyrənin". Mövlana bununla belə bir mesaj vermək istəyir.

Həqiqətən də bizdə şifahi ədəbiyyat çox mühümdür. Yəni söhbət mədəniyyəti, dinləyərək öyrənmə yolu bizdə oxuyaraq öyrənməkdən daha çox vüsət tapmışdır. Bəlkə də Mövlana bunu bildiyi üçün bizi bir daha yaxşıca qulaq asıb anlamağa və daha yaxşı dinləməyə təşviq edir. Heç olmasa bunu lazımınca etməyimizi istəyir.

Ney təsəvvüf mədəniyyətində xüsusilə də Mövləvilikdə çox əhəmiyyətlidir. Ney qamışdan düzəldilir. Qamışlıqdan qoparılır, iki ucu kəsilir, yarpaqları sıyrılıb təmizlənir. Biri altda, biri də üstdə olmaqla dağlanaraq gövdəsindən yeddi yerdən dəlik açılır, başına başparə (başlıq) , ayağına da parazvana (mil,altlıq) taxılır və üfürdükcə də yanıqlı-yanıqlı səslər çıxarmağa başlayır.

Neyin yanıq səs çıxarıb inləməsi, Mövlanaya görə bir həsrət ifadəsinin tərənnümüdür. Mövlana şair və sənətçi qabiliyyətilə təşxis və intaq yolu ilə neyə şəxsiyyət qazandırır və onu danışdırır.

Mövlana deyir ki: Ney inləyir. Onun dərdi qamışlıqdan qoparılıb uzaqlaşdırılmasıdır. Ney vətəninə qarşı duyduğu həsrət, ayrılıq, ələm və kədər hissləri ilə dərdlidir. Buna görə də dərdli-dərdli inləyib sızlayır.

Ney dedikdə ilk növbədə, qamışlıqdan qoparılaraq düzəldilən müsiqi aləti nəzərdə tutulur. Mövlana neyi başqa bir

şey ilə də simvollaşdırır və onun rəmzi olaraq istifadə edir. O da insan və kamil insandır. Ənaniyyətdən (eqoizm) fəna olmuş, Allah ilə baqi (əbədi) olma mərtəbəsinə çatmış kamil övliya, könlü diri arif və mürşiddir. Bir sözlə *Məsnəvi*`də nəzərdə tutulan ney, məcazi mənada kamil insandır.

İnsanın ruhu, ruhlar aləmindən bu dünyaya gəlmişdir:

***"Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona (ibadət yox, təzim məqsədilə) səcdə edin!"***[8] ayəsində bəyan edildiyi kimi, ilahi aləmdən ayrılıb tən (bədən) qəfəsinə; vücuda girmişdir. Yunusun dediyi kimi:

*Ətə-kəmiyə(sümüyə) büründüm,*
*Yunus deyə göründüm*

Ruhaniyyəti cismi ilə görüşmüşdür.

Mövlana ney ilə insanı təsvir edir. Belə ki, bir rübaisində belə deyir:

*Dinlə neyi, bak söyləyir nələr-nələr,*
*Allahın gizli sirlərindən verir xəbər,*
*Üzü saralmış, içi boşalmış, kəsilmişdir başı,*
*Neyzənin nəfəsiylə Hadi deyə inlədir dağı-daşı.*

Ney ruhaniyyət aləmində ayrılıq və həsrətdən xəbər verir, kamil insanın ilahi aləmdən bu dünyaya gəlişi ilə yaranan həsrəti dilə gətirir. Bu dünyada Allaha yadlaşmağın sıxıntılarını bildirir, mənəviyyatdan uzaqlaşmağın, maddi, dəni (aşağı, alçaq), dünyəvi şeylərə yaxınlaşmağın nəticələrini və dünyaya yönəlmənin verdiyi xoş olmayan duyğuları ifadə edir. İnsan gəldiyi və mənsub olduğu ülvi aləmə tərəf, mənəviyyat cəhətinə doğru yönəlməli ikən, süfli aləmə (aşağıya tərəf) yönəlir və gəldiyi aləmlə olan əlaqəni qoparır.

8. əl-Hicr, 15/29

Mövlana bu dünyada ruhumuz tən (bədən) qəfəsində ikən Allah ilə yenidən qovuşmağı təlqin edən nəsihətlər edir. O aləmə aid işarə və işıqlar qoyur qarşımıza. Beləliklə də bizi düşünməyə, anlamağa və idrak etməyə sövq edir. Təbii ki, anlamanın və anlaşılmanın ən gözəli səssiz və kəlməsiz olanıdır.

Bu dünyada bülbül səsindən gülün duruşuna qədər bütün gözəlliklər insanlara ilahi aləmi xatırlamalı, o aləm ilə əlaqə qurmasını təmin etməlidir. İnsan könlünü bütün gözəllikləri yaradan üçün:

***"Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!"***[9] deyə biləcək duyğuya hazırlamalıdır.

Əsas olan qulun Allah tərəfinə çəkilməsi, cəzb olunmasıdır. Çünki Allah-Təala bəşər övladını özündən bir ruh vermək surəti ilə ən uca bir tərzdə yaratmışdır. Belə ki, Qurani-Kərimdə buyurulur:

***"Biz insanı ən gözəl biçimdə yaratdıq! Sonra da onu qaytarıb rəzillərin rəzili edərik!"***[10] Ona bədən qəfəsini geyindirdik, onu bədən və dünya ilə qovuşdurduq. İnsanın bədən və dünya ilə qovuşması, aşağılara doğru tənəzzülü (enməsi) və bəzi ehtiyaclar səbəbilə mənəviyyatdan uzaqlaşması deməkdir. Dolayısı ilə bu aşağıların aşağısına, enişdən sonra yenidən yuxarıya doğru yüksəlmək üçün:

***"Yalnız iman gətirib yaxşı əməllər edənlərdən başqa! Onları minnətsiz (saysız-hesabsız) mükafat gözləyir,"***[11] ayəsində buyurulan səviyyəyə ehtiyac vardır.

---

9. əl-Muminun, 23/14.
10. ət-Tin, 95/4-5
11. ət-Tin, 95/6.

Bəşər övladının mükərrəmlik və mükəmməlliyi, yaxşılıq və pisliyə qabiliyyəti olmasındadır. İnsan övladının dərdi də, dəvası da özündədir. İmam Əli (r.a) deyir ki:

*Dəvan səndədir amma fərqində deyilsən,*
*Dərdin səndəndir fəqət bilməzsən.*
*Sən özünü kiçicik bir cisim sanırsan*
*Halbuki, nəhəng bir aləm səndə gizlidir.*

Bəşər övladı kainatdakı bütün özəlliklərdən bir rəmz daşıyır. Buna görə də Şeyx Qalib deyir ki:

*Xoşca bax zatına kim zübdeyi-aləmsən sən,*
*Mərdumi-didə əkvan olan aləmsən sən*

Sən özünə yaxşıca bir nəzər sal diqqətlicə bax ki, kainatın göz bəbəyisən. Və aləmdəki hər şey sənin mahiyyətində dərc edilmişdir. İnsanın içərisində Firon da var, Musa (ə.s) da. Firon nəfsdir, Musa isə ruhdur, könüldür. İnsan övladı bu ziddiyətlər arasında kamilliyi və gözəlliyi axtarıb tapmaq üçün bir ömür boyu çırpınar, çalışar. Onun vəzifəsi ilahi aləm tərəfinə cəzb edən səsləri dinləmək və o yönə yönəlmək üzrə hazırlıq içərisində olmaqdır.

Sanki, Mövlana belə deyir: Dinlə, bax! Ney necə dərdli-dərdli, yanıqlı-yanıqlı inləyirsə, sən də dərdinin, sıxıntının və çilənin fərqində ol! Sən ülvi bir aləmdən bu süfli (aşağı) dünyaya gəldin. Sənin bu dünyaya gəlişin bir nüzul (eniş), bir tənəzzüldür. Sən yenidən yuxarılara çıxmalısan. Yenidən gözəlliklərin ardınca qaçmalısan. Neyin yanıqlı səsi sənə bir kamal axtarışı içində olmağın zəruriliyini xatırlatmalı və sən də bunu xatırladan hər şeyə dəyər verməlisən. Çünki xatırlamaq və xatırlatmaq insanın bir ehtiyacıdır. Quran da elə deyir:

***“Sən (onlara Quranla) öyüd-nəsihət ver. Çünki öyüd-nəsihət möminlərə fayda verir.”***[12]

İnsana Allahı, axirəti, ülvi aləmi xatırladan hər gözəl səs, hər xəbərdarlıq dəyərlidir. Onun ardınca getmək, o tərəfə meyil etmək və nəticədə o aləm ilə əlaqədə olmaq lazımdır. Gəldiyimiz və qayıdacağımız aləmi xatırlamaq qulluğu asanlaşdırır.

Əttar deyir ki: “Allahdan bir an qafil olsan şeytanın həmdəmi, dostu olarsan.”

Bütün bunlar insanın təlim mərhələsində axtarışını, addım-addım kamala yaxınlaşmasını ifadə edir. Ancaq bu axşam yatıb, səhər duran kimi dərhal olacaq işlər deyil. Buna görə də Mövlana insanın mərhələ-mərhələ qulluq, Allaha ibadət və itaət yolunda kamal axtarışı içərisində olmalarına işarə etmək üçün bu sözləri ifadə edir, işin əməksiz, zəhmətsiz olmayacağını bildirmək istəyir. Ziya Paşa deyir ki:

*Gör zahidi kim, sahibi-irşad olayım der,*
*Dün məktəbə vardı, bu gün ustad olayım der.*

Dünən məktəbə gəlib, bu gün ustad olacam desən, bu iş nöqsanlı olar. Buna görə də insanın öncə bir nəfs mücahidəsi və təlimindən keçməsi zəruridir. Çilə çəkmək, dərd sahibi olmaq insanın kamil olmasına zəmin hazırlayan mühüm xüsusiyyətlərdəndir. Çiləsiz, dərdsiz bir insanın kamal sahibi olması mümkün deyildir. Ona görə də qızılın ən dəyərli olanı zərgərin əlində çəkiclə döyülə-döyülə gözəl bir şəklə düşənidir.

Deyirlər ki: Sahillərdəki bəyaz çınqıl daşları əslində qayalardan qopmuş iti parçalardır. Amma dalğalar tərəfindən döyülə-döyülə o daş parçalarının heç bir itiliyi qalmamış, san-

12. əz-Zariyat, 51/55

ki cilalanmış kimi parlaq hala gəlmişdilər. Daşların görünüşlərindəki gözəllik dalğalar tərəfindən döyülərək çəkdikləri çilələr sayəsində əmələ gəlmişdir. İnsan da belədir. Nə qədər çox çilə çəkərsə, nə qədər çox dərdə düçar olar və nə qədər çətinliklərdən keçərsə, o qədər yaxşılığa, gözəlliyə və kamala doğru qanad açar. Heç çiləsi, dərdi, sıxıntısı olmayan və heç bir sınaqdan keçməyən insanda kamillik axtarılmamalıdır. İnsan həyatında olğunluğun, yaşı ilə düz mütənasib olduğu aydın məsələdir. İyirmi yaşındakı bir insanın olğunluğu ilə, qırx yaşındakı bir insanın olğunluq dərəcəsi də eyni deyildir. Dolayısı ilə hər gün və hər yaş, insanı kamilliyə aparmalı və yuxarılara yüksəltməlidir.

Hafiz Şirazi deyir ki: “Mən bir bülbül gördüm, dimdiyində bir gül yarpağı, həzin-həzin oxuyur. Dedim ki: ayni-vüsalda, yəni vüslət halında deyilsənmi? Axtardığın, həsrətini çəkdiyin şey gül deyilmi sənin? O gül də dimdiyindədir. Ona da qovuşmusan. Bu fəryadın nədir bəs? Mənim bildiyimə görə sən gülə olan həsrətindən çırpınar, oxuyar və ağlayarsan. Gülə qovuşduğun halda nə üçün ağlayırsan?” Bülbül bu cavabı verir: “Məşuqun çiləsi bizə belə etdirir, yəni sevgilimin çiləsi məni belə oxumağa məcbur edir. Bəli, mən vüslət halındayam, amma onun qoxusu, gözəlliyi, cazibəsi məni coşdurur.

Mövlana bizə *dinlə* dedikdə əslində: “Mütəmadi olaraq axtarış içində olun. Onun camalını, kamalını axtarın, gözünüzlə, könlünüzlə axtarın, Haqq ilə birlikdə olmağın, Onun vüslətinə qovuşmağın axtarışına davam edin”, mənasını ifadə edir.

Təsəvvüf mədəniyyətimizdə arif ilə ney arasında, daha doğrusu kamil insan ilə ney arasında bir əlaqə olduğu ifadə edilmişdir. Çünki Məsnəvi şərhçilərindən Abidin Paşa ney ilə kamil arif insan arasında aşağıdakı bənzərliyə diqqət çəkir:

1- Ney qamışlıqdan qoparılmış bir bitkidir. İnsan da ruhlar aləmindən qoparılmışdır. Dolayısı ilə ney necə ki, qamışlıqda ikən təzə və canlı, kəsildikdən sonra qurumuş olursa, kamil insan da bu dünyaya gəlincə ruhlar aləmindən məhrum qalmış və onun həsrəti ilə yanmaqdan qamış kimi qurumuşdur.

2- Ney dediyimiz o alətdən aşıqanə, yanıqlı səslər çıxar. Kamil insandan da arifanə gözəl öyüdlər hasil olar. Ney ilə kamil insan arasında belə bir bənzərlik vardır.

3- Neyin sədası dinləyənlərin eşqini artırır. Arifin sözləri də dinləyənlrin eşqini, sevdasını, mənəviyyatını yüksəldir, dərdlərini azaldır.

4- Neyin səsindən bir eşq macərası hiss edilir, arifin sözlərindən də lahuti (ilahi) aləmin sirləri anlaşılır. Yəni ilahi aləmə aid sirlər süzülür və gözəlliklər ortaya çıxar.

5- Neyin hünəri zahirində deyil, daxilindədir. O gözəl səslər neyin içindən çıxar. Arifin də kamilliyi bədənində və xarici görkəmində deyil, içində və könlündədir.

6- Neyin boyu düz və doğrudur. Kamil insanın da halı, əxlaqı və davranışları düzgündür.

7- Ney qamışlıqdan ayrıldığı gündən bəri həmişə yanıqlı və qürbətdədir. Arif də ruhlar aləmindən bu dünyaya gəldiyindən bəri qürbətdədir. Yəni ruhlar aləmindən uzaqlaşmış, bədənə girmiş, hər zaman oranın həsrətindədir. Ona görə də ölüm ariflər və kamil insan üçün şəbi-arus, yəni Həbibinə qovuşmaqdır. Kamil insan və arif ölüm ilə Sevimlilər Sevimlisi olan Allaha qovuşar.

8- Neyin içi sadəcə eşq atəşi və nəfəsi ilə doludur. Arifin də içi hər cür boş sözdən, həsəddən, fəsaddan, insanlara ediləcək pislik duyğularından uzaqdır. Eşq Allah sevgisi ilə dopdoludur.

9- Ney özü-özlüyündən səs çıxara bilməz. Mütləq bir üfürən lazımdır. Ancaq ustad bir ifaçının əli ilə bu səsi çıxara bilər. Arif də Peyğəmbərimizə (s.ə.s) çatan və ondan gələn ardıcıl bir silsiləyə bağlı olaraq ondan feyz alır və onun feyzi ilə həyatını davam etdirir.[13]

Neyin yanıb-yaxılması aşiqlərin sevdasının əlaməti sayılır. Ney səsi üçün "aşiqin eşqini, fasiqin fisqini artırır" dedikdə elə məhz buna işarə edilir. Bundan başqa, ney gözəl səs ilə oxunan musiqi nəğmələrini dinləmək, insanda ondan sonra gələcək xəbərə hazırlıq meydana gətirir. Xəbərin daha asan anlaşılmasına psixoloji hazırlıq təmin edər və insan zehni və qəlbiylə dinləməyə hazır hala gələr. Hazır hala gəldikdən sonra dinlənilən hər şey birbaşa qəlbə və zehinə yerləşər.

Mövlananın çatdırmaq istədiyi məna, insanın Allahın əzəli aləmdən elə Onun əbədiyyət yurduna getdiyini bilməsi və bu dünya həyatının əbədi deyil, müvəqqəti bir məskən yeri olduğunu unutmamasıdır. İnsanın gedəcəyi yer Onun dərgahıdır. Bu dünya məhdud və sonu olan bir yerdir. Sonsuzluq aləminə hazırlıqlı getmək, oraya üzü ağ, pak bir könül ilə çıxmaq lazımdır.

Mövlana deyir ki: "Qardaş! Harimi-ilahi, yəni Allahın üluhiyyəti nəhayətsiz bir dərgahdır. O dərgahda hara çatsan vaxt itirmə. Allah rizası üçün irəli get." Mövlananın bu sözü Hz. Peyğəmbərin (s.ə.s) gündə yetmiş, hətta yüz dəfə istiğfar (tövbə) etdiyi rəvayətinə uyğun gəlir.[14] Çünki Allah Rəsulu hər an mənəvi bir yüksəlişdə olduğu üçün yeni vəziyyətində əvvəlki halına istiğfar etmək ehtiyacı hiss edirdi. Onun ümməti də bu anlayışla Mövlananın dediyi kimi daha yuxarılara qanad açmağa borcludur.

13. Terceme ve Şerh-i Mesnevi-i Şerif, İstanbul 1305, I, 22-23.
14. Bax: Buxari, Dəavat 3; Tirmizi, Dəavat 38; İbni Hanbəl, I, 38.

Görüldüyü kimi, bu beytdə Mövlana neyin hekayəsi ilə insanın macərasını, Allah və varlıq ilə münasibətini və gözəl əxlaqa nail olub övliyalıq mərtəbəsinə çatmaqdan bəhs edir.

## İKİNCİ BEYT

### *NEYİN VƏ İNSANIN VƏTƏNİ*

کز نیستان تا مرا ببریده اند
از نفیرم مرد و زن نالیده اند

*Kəz neyistan ta məra bobridə ənd*
*Əz nəfirəm mərdu zən nalidə ənd*

❃

***Tərcüməsi***
*Ney, məni qamışlıqdan qopardıqları gündən bəri*
*Fəryadımdan qadın və kişi inləməkdədir deyir.*

***Mənzum tərcüməsi***
*Kəsdilər der bir qamışlıqdan məni,*
*Dinlər ağlar ər, qadın candan məni.*

Beytdəki “neyistan” kəlməsi vətən mənasındadır. Ney üçün qamışlığı, insan üçün ruhlar aləmini ifadə edir. Ney qamışlıqdan qoparılmışdır, ancaq oradan qoparıldıqdan sonra başına başparə (başlıq), ayağına parazvana (mil, altlıq) keçirilmiş, buğumlarına tel sarılmış, daha sonra isə gövdəsində açılan yeddi dəlik isə səs çıxarmağa başlamışdır. Neyin yadında qamışlıq, insanın ağlında isə ruhlar aləmi vardır.

Üfürülərək neydən çıxan səs, aşina olanlara ayrılıq dərdini xatırladır, ürəklərini hicrət dərdi ilə dağlayır. Nəfsinin və istəklərinin əsiri olanlar isə bu ruh-nüvaz/könül oxşayan sədadan çox az təsirlənirlər. Çox vaxt da nəfsani həzlər duyarlar.

Təsəvvüfi nəzəriyyədə var oluş “kənzi-məxfi/gizli xəzinə” nəzəriyyəsi ilə izah edilmişdir. Yəni Allah-Təala gizli bir xəzinə ikən bilnməyi arzu etmiş, varlıq aləmini yaratmış və beləcə mərifəti/tanınmağı murad etmiş, istəmişdir. Bu hal ilahi elmin lövhi-məhfuzdakı yaradılış makro planına görə ortaya çıxmışdır.

İnsan ruhlar aləmindən, ya da ayani-sabitə aləmindən başlayan səfərindən sonra o aləm ilə əlaqə məsələsində çətinliklər ilə qarşılaşır. “Ələst bəzmi” də adlandırılan var oluş aləmində ruhlara xitab edilərək deyilən *“Ələstu bi-Rabbikum/Mən sizin Rəbbiniz deyiləmmi?”*ilahi xitabına: *“Bələ/Bəli”* deməklə insanlar dörd ünsür deyilən torpaq, su, hava və oddan yaranan mülk aləminə gəlməyə başladılar.

Bu minvalla ilahi camal və kamalı seyr və müşahidə ilə mərifət və məhəbbət sirrinə vaqif oldular. Kamil insan bu dünyada feyz mənşəyi olan o tərəflərin, ruhaniyyət iqliminin həsrətini çəkir, digərləri isə yadlaşır və fərqlı davranılşar nümayiş etdirir.

*Mərdu-zən/kişi və qadın* dedikdə ruhlar aləmindən varlıq aləminə doğru axan insan cinsi nəzərdə tutulur. İnsan əslən aid olduğu aləmdən kəsildikdən sonra Haqqın isim və

sifətlərinin təcəllilərinə layiq olaraq kövn/varlıq aləminə doğru yola düşür.

Təsəvvüfi nəzəriyyədə bu təayyünlərin (var olma hadisələrinin) birincisi Hz. Məhəmmədin həqiqətidir. Çünki ilk yaradılan onun nurudur. Belə ki, *"Adəm cəsəd və ruh arasında ikən mən nəbi idim"*[15] hədisi-şərifi bunu ifadə edir. Təayyünlərin sonuncusu isə insanın yaradılmasıdır.

İnsanın ən gözəl biçimdə yaradılması və ardınca da ən rəzil səviyyəyə endirilməsi,[16] onun ilahi mənşəli varlığı ilə təbii xüsusiyyətlərini birləşdirir. İnsan ruhu əmr aləmindəndir. Belə ki, Allah "ruhun nə olduğunu" soruşanlara verdiyi cavabda elə buyurmuşdur.[17]

İnsan təbiəti isə xəlq/yaratma, var etmə aləmindəndir. Belə ki, Allah Taəla ***"Mən cinləri və insanları yalnız Mənə ibadət etmələri üçün yaratdım!"***[18] ayəsi ilə xəlq/yaratma işinin özünə aid olduğunu, ***"əmr də, xəlq də Allahındır"***[19] ayəsi ilə hər ikisnin də özünə aid olduğunu ifadə edir.

Varlıq və insan ilə Allah arasında yetmiş min pərdənin var olduğu deyilir. Belə ki, bir hədisdə buyurulmuşdur: "*Allahın* **nuru** *və qaranlığı arasında yetmiş min hicab/pərdə vardır.*"[20]

Allah Təala öz zatını sifətləri ilə pərdələmişdir. İnsan ruhun bədən qəfəsinə girməsindən sonra özünə təcəlli edən sifət pərdəsi səbəbilə Haqqı görmə iqtidarına sahib deyildir. Halbuki həqiqi varlıq Haqqın varlığıdır. Digər varlıqlar Ona görə kölgə mahiyyətindədir.

---

15. Tirmizi, Mənaqib 2.
16. ət-Tin, 95/4-5.
17. əl-İsra, 17/85.
18. əz-Zariyat, 56.
19. əl-Əraf, 7/54.
20. Müslim, İman 293.

Varlıq lətif olandan kəsif olana doğru zühur edir, insan bu aləmdə tövbə, inabə(günahı tərk edib Haqqa yönəlmə) və əvbə (tövbə edib dönmə) ilə kəsafətdən lətafətə doğru yüksələrək yeni bir uruca(yüksəlişə) başlayar. Nəhayət cəm və fəna ilə kəsrətdə(çoxluq) vəhdəti tapar. Zülmani (qaranlıq) hicab qalxar, nuraniyyət qalib gələr. Bu mərtəbə: *"Allah onları, onlar da Allahı sevərlər"*[21] məqamıdır.

Beləcə lətafətdən kəsafətə eniş bir hilal, yəni yarımdairə; kəsafətdən lətafətə yüksəliş isə ikinci bir yarımdairə təşkil edər. Beləliklə bir tam dairə olmuş olarlar. Var oluş bu aləmdə Haqqa çatmağı təmsil edən dairəvi izaha təsəvvüfdə dövr nəzəriyyəsi deyilir. Bursalı İsmail Haqqı bu düşüncəni nəzm ilə belə təsvir edir:

*Dəmirdir Haqqıya olub xamuş,*

*Kəndini bu kəsafətdən azad et,*

*Necə bu şikayəti-hicran,*

*Necə bir ney misali fəryad et.*

*Necə bir cümbüş ey könül necə bir,*

*Yoxmudur bir qərarı bu dövrün?*

*Dövr üsulunda bir qərara eriş*

*Neyi-canın al əlindən cövrün.*

İnsan ruhaniyyət aləmindən gəldiyi üçün o aləmin hicran və həsərətini çəkir. Bununla birlikdə insanlar ruhi quruluşlarına və mənəvi qabiliyyətlərinə görə gəldiyi ruhaniyyət aləmində inanıb yönəlmə baxımından üç qrupdur:

1. Ruhaniyyət tərəfinə iman ilə mənəviyyatı qəbul edənlər:

---

21. əl-Maidə, 5/54.

Bunlar dinin tərif etdiyi və mənəviyyatı təbii bir ehtiyac olaraq görən və ondan həzz alıb o tərəfə yönələn mistik təbiətli insanlardır.

2. Ruhaniyyət və mənəviyyatı rədd və inkar edənlər:

Bunlar ruhaniyyət və mənəviyyatı qəbul etməyən, həyat maddi yönü ilə, varlığı şəhadət aləmi ilə məhdud zənn edən və maddi/nəfsani həzlər ardınca qaçan axirət qorxusu daşımayan insanlardır.

3. Ruhaniyyət mövzusunda tərəddüd üzrə olan şübhəçi insanlar:

Bu cür insanlar bəzi vaxtlar iman və təslimiyyət yolunu tapsalar da, bu mövzudakı qərarlılıqları zəif, məsələnin ciddiliyini qavraya bilməyən, qəflət və zəlalət əhlidir. Bunların ancaq güclü bir iradə ilə ixtiyari bir imana nail olmaları mümkündür. Əks təqdirdə işləri müşküldür.

Aləmdə heç bir şey təsadüfi deyildir. Buna görə də Allah-Təala istər heç inanmayanları, istərsə də şübhə və tərəddüd mövqeyində olanları kainat kitabını oxumağa, aləmin ibrət lövhələrini seyr etmələrini əmr edərək təfəkkür etməyə dəvət edir. Belə ki, Quranda üluhiyyəti isbata və ruhaniyyət tərəfinə doğru düşünməyə çağıran ayələrdən bəziləri aşağıdakılardır:

***“Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər vardır.***

***O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): “Ey Rəbbimiz! Sən bunları***

***boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!***[22]

***Məgər onlar göylərin və yerin mülkünə (Allahın göylərdəki və yerdəki səltənətinə, qüdrətinə), Allahın yaratmış olduğu hər şeyə, əcəllərinin yaxınlaşması ehtimalına diqqət yetirib düşünmürlərmi? Artıq buna (bu Qurana) inanmadıqdan sonra hansı kəlama inanacaqlar?***[23]

***Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim diriltə bilər?!" – deyə, hələ Bizə bir məsəl də çəkdi. (Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O, hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!***

***O yaradan ki, sizin üçün yaşıl ağacdan (Ərəbistanda bitən mərx və ifar ağaclarından) od əmələ gətirdi. Budur, siz indi ondan (o iki ağacı bir-birinə sürtməklə) od yandırırsınız". Məgər göyləri və yeri yaradan (bir daha) onlar kimisini yaratmağa qadir deyilmi?! Əlbəttə (qadirdir). (Hər şeyi) yaradan, (hər şeyi) bilən Odur!"***[24]

**Abidin Paşa** bu beytin izahında insanın fəryadı ilə bağlı olaraq bu üç nöqtəyə işarə edir:

1- Kamil insanın ruhani aləmə dair söylədikərindən dinləyənlər vəziyyətlərinə və qabiliyyətlərinə görə onunla həmdəm olaraq fəryad edərlər.

2- Nəfs və şeytanın təzyiqləri ilə dünyanın müxtəlif çətinlikləri səbəbilə insanların çəkdikləri üzüntülər qadın-kişi hər kəsi inlədir.

---

22. Ali-İmran, 3/190-191.
23. əl-Əraf, 7/185.
24. Yasin, 36/78-81.

3- Kiçik və zəif bir uşaq xəstəlik və sıxıntılarını hal dilləri ilə büruzə verir. Ata və ana da ona olan şəfqətləri səbəbilə göz yaşı töküb inləyərlər.[25]

Bu beytdə Mövlana *“neyistan”*dan bəhs edərək insanın gəldiyi aləmdən danışır, məbdə (başlanğıc) və məad (gediləcək yer, son) mövzularına diqqət çəkir.

25. Tercüme ve Şerh-i Mesnevi-i Şerif, İstanbul 1305, I, 48-49.

## ÜÇÜNCÜ BEYT

## *HƏSRƏTİ ÇƏKƏN BİLƏR*

سینه خواهم شرحه شرحه از فراق
تا بگویم شرح درد اشتیاق

*Sinə xahəm şərha-şərha əz firaq*
*Ta bə-guyəm şərhi-dərdi iştiyaq*

❋

***Tərcüməsi***
*Ayrılıq dərdindən parça-parça olmuş bir sinə istəyirəm ki,*
*Həsrət və hicranın nə mənaya gəldiyini ona başa sala bilim.*

***Mənzum tərcüməsi***
*Ayrılıqdan dağılan qəlb istərəm*
*Həsrətin hər nəysə durmaz söylərəm.*

*Məsnəvi*nin bu beyti çox mənalıdır. Bugünkü müasir psixologiyanın "impatiya" dediyi və insanın özünü qarşısındakının yerinə qoyması mənasına gələn bir təcrübə ilə danışmağı ifadə edir.

Mövlana "könül istəyirəm" dedikdə, "sinə" kəlməsindən istifadə edir. Sinə fars dilində köks mənasındadır. Sadr qəlbin zərfidir/qılıfıdır, onu mühafizə edir. Burada "zikri-mahal, iradeyi-hal" vardır.

Burada deyilən sinə ilə əslində nəzərdə tutulan şey oradakı duyğulardır. Qəlbin içində "fuad" vardır. Qurani-Kərimin ifadəsinə görə onun da içində bir öz, mənəvi bir əmanət var. Qəlb bir baxımından batinə, bir baxımdan zahirə xitab edər. Zahiri onun zərf, sadr/köks və xarici aləm ilə əlaqəli, şəhadət (maddi) dünya ilə bağlıdır. Amma fuad isə qəlbin qeyb və mənəviyyat aləminə, Allah tərəfinə baxan yönüdür. Dolayısı ilə, Mövlana bizim xarici aləm dediyimiz sadrımızın mənəviyyat tərəfi ilə yoğrulmuş insanlara ehtiyac duyduğunu, oranın da mənəviyyat tərəfindən əhatə edilməli olduğunu ifadə edir.

Mövlana: "Mən ayrılıq dərdindən paça-parça olmuş bir könül istəyirəm ki, həsrət və iştiyaqın nə demək olduğunu başa sala bilim", deyir. Həqiqi dostun camalını dünyada müşahidə edə bilməməkdən və ya ruhani aləmdən uzaq olmaqdan sinəsi/sadrı parça-parça olmuş bir igid istərəm. Ta ki, eşq dərdi ilə hiss etdiyim dərdləri, acıları, halları və duyğuları bir-bir danışa bilim. Bunları danışarkən də fəryad edim.

Allah dostlarının böyüklərindən Gelibolulu Yazıcızadə Məhmət Əfəndi *Muhammədiyə* adı ilə məşhur olmuş əsərində Mövlananın dediklərini Türkcə belə ifadə edir:

*Könül bir sinə istər firaq oduna yanmşdır*
*Ki, şərha-şərha olmuşdur yanıb dərdi-dil aradan*

*Ki ta şərhi-firaq edəm, bəyani-iştiyaq edəm*
*Ki vəsfi iftiraq edəm, deyilsə səngi-haradan*

Yazıcızada burada könlün ayrılıq odunda yanıb parça-parça olan bir könül istədiyini və ayrılığı ancaq ona başa sala biləcəyini deyir. Çünki dərddən anlayan dərdli insandır. "Yoxsa mərmər daşından danışarıq", deyir.

Mövlana hər kəsin özünün könlünü və dərdini anlaya bilməyəcəyini, çünki dərdlinin dərdini ancaq dərd çəkənin qavraya biləcəyini qeyd edir. Molla Nəsrəddinin *"Damdan yıxılanın halını ancaq damdan yıxılan anlayar"* sözü bu mənanı ifadə edir. Yəni bir insan dərd əlindən ələm çəkməmişdirsə, dərdin nə olduğunu ona başa sala bilməzsiniz. Baxın bir şair bunu necə də gözəl ifadə etmişdir:

*Şəbi-yelda müvaqqitlə münəccim nə bilir*
*Mübtəlayi-qəmə sor kim gecələr saat neçədir.*

Yəni ən uzun gecəni nə münəccim, nə də müvaqqit (vaxt ölçən) bilər. Ancaq dərd sahibi bu əziyyəti çəkən adam gecənin uzunluğunu hiss edə bilər. Hər kəsin yuxulara daldığı, istirahətə çəkildiyi bir əsnada özünü dərdi ilə baş-başa qalmış, xəstəliyi səbəbilə inim-inim inləyən bir xəstənin nə çəkdiyini və onun gözündə günün parlamasının, azanın oxunasının nə demək olduğunu, ancaq o dərdi çəkən anlaya bilər. Gecənin qaranlığında xəstə və dərdli insanların ürəyindəki yanğın və acı daha da artar. Çünki hər kəs yuxuya dalmışdır. Onun iniltisini dinləyəcək, ağrısına ortaq olacaq, istəklərinə cavab verəcək heç kim qalmamışdır. Ona görə də dərdli insan o an gecənin qaranlığında oyaq bir könül istər. Həmin oyaq könül daha öncə dərd çəkmiş, dərdlinin halını anlayan biri olarsa, bu daha çox mənalıdır. Belə ki, Üsküdarda Hüdayi dərgahının ətrafındakı xəstəxanada olan xəstələrin inim-inim inlədiyini görən dərgahın şeyxi bir gecə sübh azanını erkən oxutmuşdur.

Məlumdur ki, dan yerinin ağarması ilə başlayan səhər vaxtı, fəcri-kazib (yalançı dan) və fəcri-sadiq (həqiqi dan) olmaq üzrə iki mərhələlidir. Fəcri-kazibdə dan yerində bir ağarma olur və bir az sonra qeyb olur. Fəcri-sadiq isə ikinci dan yeri ağarmasından sonrakı aydınlanmadır. Şafeyi məzhəbində sübh azanı vaxt dan yerinin ilk ağarmasında, Hənəfi məzhəbində isə ikinci ağarmadan sonra girir. Buna görə də Şeyx Əfəndi fəcri-kazibdə azanı oxudaraq Şafeyi fiqhi ilə əməl etmişdir. Amma digər yandan xəstələrin könüllərini daha erkən rahatlatmışdır.

Azanı eşidən və inim-inim inləyən xəstələr, "Oh, bu gecə də keçdi, səhər açılır, yalnızlıq sona çatdı. İnsanlar gələcək və acımızı paylaşacaqlar", demişdilər. Şeyxin bu davranışı insanın halından anlamağın bir ifadəsidir. Çünki dərd sahibinin dərdini, ancaq dərd sahibi olan anlayar.

Rasional dediyimiz, ağıl və düşüncə aləminə aid şeyləri başa salmaq üçün ağıllı adama ehtiyac vardır. İnsan bir mənanı bəyan etmək, bir xüsusu çatdırmaq, bir problem, bir nəzəriyyə ortaya qoymaq istəyərsə, onu anlayacaq, o sahədə səriştəsi olan ağıllı və səviyyəli bir insan axtarar. Çünki anlamayana söz deyilməz. Əgər eşq dərdindən bəhs edirsinizsə, o tam başqadır. Onu başa salmaq üçün eşqin, dərdin, çilənin nə olduğunu qavraya biləcək insan lazımdır. Buna görə də təsəvvüfdə "dadmayan bilməz" anlayışı mövcuddur. Necə ki, Hüdayi iqtidarsız olanın cimam ləzzətindən xəbərsiz olduğu kimi, zahidin də mənəvi vüslət həzzini bilməyəcəyini belə ifadə edir:

*Vüsalın zövqünü cana, nə bilsin zahidi-miskin,*
*Əfəndi kandə fəhm eylər cimam ləzzətin innin.*[26]

---

26. M. Gülşən Əfəndi, Külliyat-ı Hüdayi, s. 158.

"Tox acın halını anlamaz" deyə mənalı bir söz vardır. Necə ki, Fransa inqilabında kralın sarayını mühasirəyə almış üsyançıların səslərini eşidən kraliça Marie Antoinette: "Bunlar nə istəyirlər, niyə qışqırışırlar?", deyə soruşur. Yanındakılar da: "Xalq, "acıq, çörək tapa bilmirik", deyir", deyə cavab verincə, kraliça da o məşhur sözünü deyir: "Çörək tapa bilmirlərsə, tort yesinlər".

İbadətlər içərisində impatiyanı ən yüksək səviyyədə yaşadan orucdur. Çünki insan ancaq oruc sayəsində aclığın, kasıblığın və çarəsizliyin nə demək olduğunu yaşayaraq öyrənə bilər. Allah məhz buna görə bizə oruc tutmağı əmr edir. Aclığın nə demək olduğunu anlamaq üçün oruc tutmaq bunun ən kəsə yoludur. Oruc tutan kimsə yoxsullar ilə eyni duyğunu yaşayır, aclığın nə demək olduğunu yaşayaraq öyrənir. İnsanlar Ramazanda daha da sıx bir ibadət mövsümü yaşayır, səxavət duyğuları coşur, mərhəmətləri artır və bunun nəticəsində ac insanın dərdinə dərman olmağın çarələrini axtarmağa başlayır. İslam müamilə, yaşama, həyat və paylaşma dinidir. İnsanın bir dərdinin olması çox mühümdür. Çünki dərd insanın içində enerjisini özü istehsal edən bir dinamo kimidir. Necə ki, avtomobilin içindəki dinamo öz enerjisini istehsal edib mühərriki işə salırsa, insandakı dərd də elədir. İnsana lazım olan enerji və motivasiyanı hasil edir.

Allahdan din, iman, Quran və axirət dərdi istəmək hər möminin vəzifəsidir. Dərdsiz insan olmaq məqbul deyildir. Başını yastığa qoyduğu zaman dərhal yuxuya gedən və ürəyində Allah, din, müsəlmanlıq, insanlıq, iman və vətən naminə heç bir dərd daşımayan insan olmaq talesizlikdir. Mövlana bunu izah edir və dərdini ancaq dərd əhlinə izah edə biləcəyini vurğulayır. Füzuli isə eşq dərdindən şikayətçi olmadığını nəfis üslubu ilə belə ifadə edir:

*Eşq dərdilə xoşam, əl çək əlacımdan təbib*
*Qılma dərman kim, həlakım zəhri-dərmanındandır.*

Yəni eşqin/ilahi eşqin mənə verdiyi dərdlə mən çox xoşbəxtəm, ey təbib, sənin mənə dərman deyə verdiyin şey mənim dərdimi artırır. Çək əlini üstündən, mən eşq dərdindən sevincliyəm, xoşbəxtəm və bundan bir şikayətim yoxdur. Füzuli eşq dərdini yaşayan insanın həyatı dünyanın mənasını, insanların nə  çəkdiyini daha yaxşı anladığını ifadə edir və bu surətlə də qul olduğunun şüuruna vardığını bəyan edir.

İnsan övladı kədərli olduğu zaman dərdini paylaşacaq birisini axtarır. Dərdini paylaşdığı insanın ona: "İnşallah keçər, Rəbbim sənə rahatlıq bəxş etsin," kimi dua və təlqinlər etməsi onu rahatlaşdırar. Amma üzünə belə baxmayan, dinləməyən, hətta təbəssüm edib azacıq istehza edən bir insana dərdini danışmaqdan dolayı peşman olar. İnsan belə bir hal qarşısında "dərdimi niyə danışdım", deyər. Çünki dərd çəkməmiş xam ruhlu bir insanın, dərdlinin dərdini anlaması mümkün deyildir. Onun üçün dərdli olan insan eşq sahibinin yanında bir şey dediyi zaman bunun bir anlamı və ifadə etdiyi bir məna vardır.

Türkcədə "anlamayana söz deyilməz" deyə bir ifadə vardır. Söz anlayana deyilər. Hətta *"sözün uzunu axmağa söylənər"* deyirlər. Ancaq arifə bir işarə kifayətdir. Yəni insanın qısaca söylədiyi, hətta bədən dili, üz ifadəsi, göz və qaş hərəkəti arif olan insan üçün kifayətdir. İnsanın bu davranışları psixologiyasını göstərən amillərdir. Dolayısı ilə, anlayan insan dərhal məsələnin fərqinə varar. Amma anlamayan biri ilə rastlaşmısınızsa, deməli, çətin bir vəziyyət ilə qarşı-qarşıya qalmısınız. O sizin başa salmaq istədiyiniz şeyləri anlamaz, bəlkə də tam tərsini anlayar. İnsan kədərli olduğu bir vaxtda dərdini danışıb bir başqası ilə dərdləşmək və haldan anlayan biri ilə onu paylaşmaq istəyər. Belə birisini tapdığı vaxt da sevinər. Belə ki, Qurani-Kərimdə belə buyurulur:

***"Hər firqə özündə olan fikir və inanc ilə xoşbəxt və sevinclidir."***[27] *(Hər firqə öz dininə sevinir. (Öz dinini haqq, digər dinləri batil hesab edib bundan məmnun olur).*

Ulularn *Şahnamə* sahibi Firdovsidən nəql etdikləri bir hekayəni Namiq Kamal üçün də deyirlər. Rəvayətə görə Maqosa həbsxanasında ikən Namiq Kamalın yanına bir nəfər yerləşdirirlər. Ustad şeirlər yazır və yazdığı bu şeirləri də zindan yoldaşına oxuyurmuş. O da şeirləri dinləyərkən gözlərindən yaşlar axaraq ağlayırmış. Namiq Kamal da bu haldan çox təsirlənirmiş Öz-özünə, "Necə də duyğulu və həssas insandır", deyirmiş. Bir gün bununla bağlı azadlıqdakı dostlarından birinə belə bir məktub yazır:

"Zindandayam, amma çox xoşbəxtəm. Çünki burada şeirlərimi anlayan birisinə rast gəldim. Mən oxuyuram, o ağlayır." Namiq Kamal, aradan bir müddət keçdikdən sonra zindandakı yoldaşına: "Mən oxuduqca sən ağlayırsan. Nələr hiss edirsən, mənə danışa bilərsənmi?" deyə soruşur. Zindan yoldaşı Namiq Kamala: "Sən şeir dəftərini duyğularla oxumağa başlayınca, saqqalın sallanıb oynadıqca mənim kənddə bir keçim vardı, o yadıma düşür, duyğularıma toxunur, onun üçün ağlayıram", deyir. Namiq Kamalın könül dünyası təbii ki bunu eşidən kimi alt-üst olur. Çünki nə umurdu, nə tapdı? Anlamayana başa salmaq çox çətindir. Amma anlayana sadəcə bir göz və qaş ifadəsi, bir baxış, bir təbəssüm səhifələrcə izah ediləcək, cildlər dolusu məna ifadə edəcək dərinlikədir. Dilimizdə bu mövzuda deyilmiş olan *"Anlayana sivrisinek (ağcaqanad) saz, anlamayana davul-zurna az"* sözü necə də mənalıdır. Əsas məsələ sözü doğru bir şəkildə anlayacaq kamilliyə çatmaq və o səviyyədə insan tapmaqdır.

---

27. əl-Muminun, 23/53.

Vadinin kənarındakı bir adama sərincdən bəhs edilsə, çay buradan keçir deyilər. Amma səhrada ağzı dodaqları susuzluqdan qurumuş, suzusluğun təsiri ilə ciyəri yanan kimsə bir sərinc tapdığı zaman hamamda yuyunarkən tasın suyun üstündə durmasından cazibə qanunu kəşf edən və *“evrika, evrika/tapdım, tapdım”* deyə qışqıraraq hamamdan çıxan Arximed kimi sevinər. Səhranın ortasında özünə lazım olan şeyi tapmaq onu məst edər və sevindirər.

Səhrada yaşayan üçün ən gözəl şey topladığı yağış suyunu qabın içinə qoyub lazım olduqca istifadə etməkdir. Bir bədəvinin sultana aparacaq ən qiymətli hədiyyəsi də, yenə Məsnəvidə deyildiyi kimi, o yağış sularından yığıb saxladığıdır. Məsnəvidə belə deyilir:

Səhrada yaşayan bir bədəvi xəlifəyə ən gözəl hədiyyə niyyəti ilə topladığı yağış suyunu bir qaba yığar və günlərcə məsafə qət edərək xəlifənin sarayına aparar. Qapıdan içəriyə girmək üçün icazə istəyər. Uzun çək-çevirdən sonra icazə verilər. Gətirdiyi hədiyyə xəlifəyə bildirilər. Xəlifə əvvəlcə tərəddüd edər, amma daha sonra da, “Madam ki, bu insan səhradan gəlib və bizə bir qab su gətirib, biz də ona ikram edək”, deyə düşünər və bədəvini qəbul edər. Xidmətçilərinə bədəvinin qabını qızıl və gümüşlərlə dolduraraq sarayın arxa bağçasından yola salmalarını əmr edər. Sarayın arxa bağçası böyük bir çaya açılırmış. Bədəvi çayın böyük dalğalarını görüb utanar və: “Heyif, mən də günlərdir belimdə bir qab suyu xəlifəyə gətirməyə çalışıram, halbuki xəlifənin sarayının arxası dərya imiş” deyər və heyiflənər.[28]

Bədəvinin gözündə bir qab su necə də dəyərlidir. Çünki o səhrada yaşayır. Suyun nə demək olduğunu, nə işə yaradığını bilir. Xəlifə də qədirbilən bir insan imiş ki, onun səhradan cəfa

28. Məsnəvi I, b. 2683.

çəkərək gətirdiyi şeyi təltif edir və qarşılığını verir. Əsas olan insanın susuzluq çəkməsə belə susuzluğun nə demək olduğunu biləcək bir anlayışa sahib olmasıdır. Bir şair belə deyir:

*İltica etməyəsən namərdə*
*Kəşfi-hal etməyəsən bi-dərdə.*

Əsla namərd olan insana "mənə yardım et" deyə sığınma! Dərdi olmayana da halını başa salmağa çalışma. Belə birisi sənin dərdini anlamadığı üçün hər yerdə danışar və bəlkə də səni alçaldar. Belə bir halda insan dərd ortağı tapmaq istəyərkən dərdi daha da artmış olar. Necə ki, şair belə deyir:

*Dərdsiz nəsihətçi ilə danışma dərdin*
*Beyhudə açığa vurma gizli kədərin.*

Allah dostları həm dərdlərini bölüşmək, həm də qarşısındakı insanlara məhəbbət aşılamaq üçün mütəmadi məhəbbətə istedadı olan, eşqdən anlayan insanlarla söhbət etməyə çalışmışdılar. Hətta o vaxtlar bir təriqətə girmək istəyən insana şeyxlər soruşarmış: "Övladım, heç aşiq oldunmu?" "Oldum", desə alacağı təhsil fərqli olarmış, "Olmadım", desə fərqli olarmış. Çünki təsəvvüfün əsl məqsədlərindən biri, eşq oyandırmaqdır.

Təsəvvüfdə iki xüsus əhəmiyyətlidir. Biri cəzbə, digəri isə sülük. Sülük mənəvi təlimdir. Mənəvi təlimin ünsürlərindən biri eşqdir, insanı eşqə qovuşdurmaqdır. Yəni bir insanın sülükü var, amma cəzbəsi və eşqi məqbul deyildir. Eşqi var, amma sülükü, mənəvi təlimi yoxdursa, o da məqbul deyildir. Cəzbə ilə sülük eyni zamanda bir adamda olmalıdır.

Təsəvvüf klassiklərindən olan *Avarif*də Saliki-məczub, məczubi-salik anlayışları bu mənalarda istifadə edilir.[29] Məczub kəlməsinin mənası bu gün istifadə edildiyi kimi dəli demək

29. H. Kamil Yılmaz, İrfan Gündüz, Təsəvvüfün Əsasları, İstanbul 1993.

deyildir. Əksinə cəzb olunmuş, Allaha tərəf çəkilmiş deməkdir. Cəzb olunan insan aşiqdir. Eşq dərdi ilə xoşbəxtdir. Eşq və süluk bərabər olmalıdır.

Allah dostları istedadlı insan axtarardılar ki, ona eşq aşılasınlar. Beləcə eşq ilə Allaha getmə imkanı qazanmış olsunlar. Mövlana da: “Mən bir könül arayıram”, deyirdi.

Bir şeyxin hüzuruna ona bağlanmaq üçün bir gənc gəlir. Şeyx soruşur: “Övladım, heç aşiq oldunmu?”. Gənc cavab verir: “Yox, şeyxim, xatırlamıram”. Şeyx: “Filan şeyi sevirsənmi, filan şeyi sevirsənmi?”, deyə soruşur. Nə soruşsa, heç cür müsbət cavab ala bilmir. O əsnada bayırda yağış yağmağa başlayır. Yağışın yağdığını hiss edən gənc, şeyxə: “Şeyxim, icazə versəydiniz ulağım çöldə yağışın altında qalıb. Heyvan islanmasın, onu yağış düşməyən bir yerə bağlayım”, deyincə, Şeyx: “Yaxşı, get bağla, övladım”, deyir və beləcə gəncin heyvanını sevdiyini anlayaraq ona heyvana mərhəmət tərəfindən yaxınlaşa biləcəyini düşünür.

Məhz insanın belə bir yönünün, bir mərhəmət tərəfinin olması son dərəcə mühümdür. Yoxsa insanın insan olaraq bir işə yaramasını gözləmək mümkün deyil. Ona görə də Osmanlı dövlətinin yıxılış dönəmində ürəyi yanan Mehmet Akif deyir ki:

*Getmə ey yolçu həp bərabər ağlaşalım*
*Ələmin bir ürəyin karı deyil, paylaşalım.*

Bir başqa şair də üzüntü və kədərin haldan anlamayanlara danışılmasını məsləhət bilmir və bu elə bir dərd ağacının gülüdür ki, onun qönçəsi hər yerdə açmaz, deyir:

*Sakın dağı-qəmin açma ona kim halini bilməz,*
*Bir vərdi-nihali-dərddir ki hər yerdə açılmaz.*

Həyatda insanın dərdlərini paylaşmağa ehtiyacı olduğunu göstərən bu misra necə də anlamlıdır:

*Dərd çox dərman yox, düşmən qavi, tale zəbun*

“Sevinclər paylaşıldıqca artar, ələmlər və dərdlər paylaşıldıqca azalar” sözü insanın həm dərdli zamanında, həm də sevincli zamanında paylaşma hissi içərisində olduğunu ifadə edir. Ona görə də insan sevincli günü olan toyunda dostlarının onun yanında olmasını istədiyi kimi, kədərli günü olan xəstəlik anında da yanında olmalarını umur. Həm sevinc, həm də kədərli zamanlarda haldan anlaya biləcək tərzdə bir insan və dost olmaq ən gözəlidir.

Mövlana *Məsnəvi*sinin bir başqa yerində eyni mənada bu sözləri deyir:

*Mən bir məclisdə sözü cəzb edən birini tapsam*
*Qəlb çəmənliyində yüz min gül bitrirərəm*
*Əgər bir məclisdə də söz öldürücü birini görsəm*
*O zaman nüktələr və zarafatlar oğru kimi qaçar.*[30]

Mövlana deyir ki: Siz nə qədər dinləyər, qulaq asar və könlünüzü açsarsanız, mən də o qədər danışaram. Çünki xətibi danışdıran həmsöhbətlərdir. Necə ki, belə gözəl bir söz vardır: “Siz nə qədər alıcısınızsa, mən də o qədər satıcıyam”. Sizin nə qədər alma istedadınız var, nə qədər eşqlə məni dinləməyə və məndəkiləri almağa həvəs göstərirsinizsə, mən də o qədər coşqu ilə, həyəcanla sizə nə isə sata bilərəm.

“Söz gözə deyilər” deyirlər. Gözünü qaldırıb xətibə baxmayan insana xətibin deyə biləcəyi elə də çox söz yoxdur.

İnsan bir könüldaş, eyni duyğuları daşıyan bir duyğudaş, impatiya qura biləcəyi bir dost axtarar. (dəstədaşlıq, duyğudaşlıq) Dəstə və duyğu həmrəyiliyi son dövrlərdə ortaya çıxan önəmli iki məfhumdur. Əslində duyğu həmrəyliyi dedikdə

30. Mesnevi, IV, b. 1318-19.

nəzərdə tutulan başqalarının duyğularını öz duyğusu kimi bölüşmək, dərdlərini öz dərdi kimi hiss etməkdir.

İmpatiya isə, dinləyərkən özünü danışanın yerinə, danışanı da öz yerinə qoymaqdır. Yəni qarşındakının duyğularını, düşüncələrini yaşamaqdır. “Mən səni anlayıram, səni yaşayıram”, deyə bilməkdir. Mövlana və əhlullahın üzərində durduqları budur. Həyat bu duyğu ilə mənalı və əhəmiyyətlidir.

Bu gün ən yaxşı lider, ən yaxşı idarəçi idarə etdiyi insanların duyğularını anlaya bilən, onların dərdlərini gözlərindən oxuya bilən və onların yerinə özünü qoyaraq hərəkət edə biləndir. Qarşısındakını anlayan, özünü onların yerinə qoyan və o duyğusunu halı ilə və əməlləri ilə göstərəndir.

Hadisələrə əlçatmaz bir qüllədən baxan və ya cəmiyyətdən kənarda, insanlardan uzaq yaşayan insan yaxşı bir lider, yaxşı bir idarəçi deyildir. Necə ki, Hz. Peyğəmbərin Mədinədə Məscidi-Nəbəvinin inşa edilməsi əsnasında şəxsən özünün səhabələr ilə birlikdə kərpic daşıması bunun ən gözəl örnəklərindən biridir. Hz. Peyğəmbər hər cür işin içərisində əshabı ilə birlikdə olmaq istəyərdi. Xəndək döyüşündə xəndək qazılması əsnasında səhabələr ilə birlikdə işlədi.

Əshabın çəkdiyi çətinlikləri, yorğunluğu şəxsən özü yaşayırdı və onlar ilə paylaşırdı. Onlardan fərqli bir duyğu yaşamadığını, əksinə onların çəkdikləri sıxıntıları şəxsən yaşayaraq duyğu bütünlüyünü nümayiş etdirdi. Bu həm bir təvazökarlıq, həm də ortaq həyəcan ifadəsi idi.

Mövlana əslində insanlarla ünsiyyət qurmanın yolunun ortaq məkanlarda görüşməkdən, ortaq duyğuları paylaşmaqdan və birlikdə işlər görməkdən keçdiyini bildirir. Elmalılı Hamdi Əfəndi bu mənada belə deyir: *“Tövhidi-əfal, tövhidi quluba vabəstədir”.* Yəni ortaq işlər görənlərin zaman keçdikcə qəlbləri

bütünləşər. Birlikdə bir yerdə yemək yemək, eyni süfrədə toplaşmaq belə qəlbləri birləşdirir.

Süfyan Sevri (q.s) deyir ki: “Eyni qabdan yemək yeyənlər, eyni məmədən süd əmənlər kimi qardaş olurlar”. Necə eyni məmədən əmmək süd qardaşlığına səbəb olursa, eyni qabdan yemək də eyni  səmimiyyəti yaradır. Yemək əsnasında insanlar göz-gözə, diz-dizə gələrək, əlləri bir-birinin əllərinə təmas edərək toxunma və göz aşinalığı ilə sevgi atmosferi təşkil edirlər. Dolayısı ilə dostluq, sevgi və qardaşlıq üçün ortaq məkanların artırılması, birlik və bütünlük baxımından son dərəcə əhəmiyyətlidir.

Bu beytdə varlıqda nüzulun tamamlanmasının ardınca yenidən Haqq ilə vüslətə çatdıqdan sonra irşad şüuru ilə xalq arasına qarışmağa diqqət çəkilir.

## DÖRDÜNCÜ BEYT

### *MƏNƏVİ VƏTƏN HƏSRƏTİ*

هر کسی کاو دور ماند از اصلِ خویش
باز جوید روزگار وصلِ خویش

*Hər kəsi ku dur mand əz əsli-xıyş*
*Baz cuyed ruzgari- vəsli-xıyş*

❃

***Tərcüməsi***

*Hər kim ki, əslindən/vətənindən uzaq qalmışdır*
*O orada keçirdiyi vüslət zamanının həsrətini çəkər*

***Mənzum tərcüməsi***

*Kim ki əslindən uzaq qalmış arar*
*Hər nə keçmiş, keçmiş gəlsə təkrar olsa yar!*

İnsanın əsl vətəni ruhlar aləmidir. Dünya isə imtahan üçün müvəqqəti olaraq gəldiyi bir məhbəs, zindan və sürgün yeridir. Buna görə də əslindən, mənsub olduğu yerdən uzaq qalan Vasi, orada yaşadığı vüslət günlərini, xoş vaxt keçirdiyi zamanlarını arzular, onların ardınca qaçar.

Mövlana bu beytdə zahiri olaraq neyin/qamışın, qamışlığa olan həstətini, orada keçirdiyi zamana həsrətini və qovuşma arzusunu ifadə edir, batini və mənəvi olaraq isə bəşər övladının gəldiyi aləmə həsrətini, hicran və qovuşma arzusunu ifadə edir.

Bəşər övladı ünsiyyət xüsusiyyəti səbəbilə olduğu yerə asanca öyrəşər, ünsiyyət qurar, isinişər və oranı mənimsəyər. Ayrılıb getdiyi vaxt da orada keçirdiyi sevincli və kədərli günlərini xatırlayar və anar. İnsanın dünyaya gələrkən ilk qaldığı yer olan ana rəhmi belə qaranlığına baxmayaraq insanın öyrəşib isinişdiyi və sevdiyi bir yerə çevrilir. Buna görə də insan övladı doğularkən o yerin hüznü ilə ağlayaraq dünyaya gözlərini açar.

Həsrət və hicran duyğusu insanın fitrətində vardır. Xüsusilə uşaqlıq dövrü və onun yaşandığı yerlər insanın gözündə daha çox canlanar və izləri daha dərindir. Belə ki, şəxs yaşda ailəsindən ayrılıb hərbi xidmətə gedən bir gənc, cəbhə xəttində növbə tutarkən vətənini, ailəsini, qardaşlarını xatırlayar, onlar üçün darıxar və həsrətlərini ürəyində hiss edər. Anasının ona olan şəfqətini, atasının mərhəmətini xatırlayar. Qardaşları ilə yaşadığı gözəlliklər üçün burnunun ucu göynəyər. Bunları xatırladıqca da gözlərində canlanar. *Nostalji* burun sızlaması demək imiş, yəni insanın keçmişə aid duyğular ilə ürəyindəki həsrət, gözündəki yaş və burnundakı sızıltı. Həsrət və qürbətdə olanın dərdi mümkün qədər tez vüslətə və vətənə qovuşmaq, orada onu gözləyənlərlə, sevdikləri, qohumları ilə görüşmək və onlar ilə keçmiş günləri yenidən yaşamaqdır.

*"Vətən sevgisi imandandır"*[31] buyurulmuşdur. İnsanın ilk və mənəvi vətəni ruhlar aləmidir. Bəşər övladı yaşadığı ərazini özünə vətən torpağı etmək üçün oraya özündən izlər buraxmağa, inancından, mədəniyyətindən işarə və simvollar qoymağa, əcdadının məzarlarını abidə halına gətirməyə, görkəmli məbədlər inşa etməyə çalışır. Çünki üstündə doğulub böyüdüyümüz və yaşadığımız vətən torpağının bizə aid dəyərlərlə dolu olması, bizimkiləşməsi mühüm bir hadisədir. Buna görə də əcdadımız yaşadığı hər yerdə bizə aid dəyərləri bayraq kimi dikmiş və bu torpaqların bizim olmasını təmin etmişdir. Bizlər də onların bu həssasiyyətlərinə minnətdarıq.

*"Bu ərazi bizim vətənimizdir"* demək üçün insan torpağa ülfət duyğusu ilə sarılmalıdır. Belə ki, Orta Asiyadan gələrək bu torpaqların İslamlaşıb, Türkləşməsində böyük pay sahibi olan "Alpərən" dərvişləri bu torpaqlarda gördüyü ilk iş məscid, dərgah və ya türbə inşa etmək olmuşdur. Torpaq altındakı məzar, məzar sahibləri üçün "bu torpaq bizimdir" sənədi mahiyyətindədir. Çünki torpağın altındakılar bu bölgənin özlərindən sonrakılara vətən olması üçün canlarını fəda etmişdirlər.

1930-cu illərdə Türkiyənin əhalisi haqqında soruşulduqda Yahya Kamal: "40 milyon" demişdir. "Biz 20 milyon bilirik, 40 milyon haradan çıxdı?" deyildikdə isə belə cavab vermişdir: "Bir də torpağın altında olanlarımız var. Biz, onlarla bərabər varıq və əhalimizə onları da əlavə edirik."

Əcdadımız Balkan yarmadasında demək olar ki, hər məbədin yanında bir də türbələr inşa etmişdirlər. Osmanlının süqutunda onlara sahib çıxmaq istəyənlər əvvəlcə məbədlərə göz dikərək türbə və məbədləri yox etmək yolu ilə: "Bu torpaqlar Türklərin deyil, bizimdir", deməyə çalışmışdırlar. Çün-

31. Kəşfül-xəfa, II, 87 (1102)

ki ərazinin vətən torpağı olmasında məbəd və türbələrin çox önəmli və mənalı yeri vardır.

Bolqarıstanın Razqrad şəhərində Dəmin Baba türbəsi vardır. Oranı bir neçə dəfə ziyarət etmişəm. Bolqarıstanlı türklərin danışdıqlarına görə bolqarlar bu türbənin əvvəllər xristian müqəddəslərdən birinə aid olduğunu, türklərin bu türbəni mənimsəyərək müsəlman qəbri tikdiklərini iddia edirlərmiş. Bolqarların iddia etdiyi kimi, orada əvvəllər xristian müqəddəslərindən birinin var olduğunu qəbul etsək belə (ki belə bir şey mükün deyil) əcdadımızın oranı sonradan bir müsəlman türbəsi halına gətirməsi çox ağıllıca bir hərəkətdir. Əgər əksi olmuşdursa (ki elədir) bolqarlar buranın bir müsəlman qəbri olduğunu bilə-bilə xristian müqəddəslərindən birinə aid olduğunu iddia edirlərsə, özləri baxımından ağıllı addım atırlar. Çünki o türbə türklərə aid isə bu qədər zamandan bəri o torpağın türklərin olduğunu, əgər xristianlara aid isə bu qədər zamandan bəri onlara aid olduğunu göstərən bir dəlildir.

Bir hədisi-şərifdə: *"Dünya möminin zindanıdır"*[32] buyurulur. Bu müsəlmanın dünyada davamlı olaraq sıxıntı çəkmək məcburiyyətində olduğu mənasında deyildir. Əsl nəzərdə tutulan şey, möminlərin cənnətdə görəcəyi mükafata nisbətlə bu dünyada yaşadıqları rahat həyatın belə, zindan kimi olacağıdır. Mömin axirətdə o qədər böyük nemətlərə qərq olacaqdır ki, dünyada gördüyü nemətlər ona görə zindan həyatı kimi gələcəkdir və insan övladı bədən qəfəsindəki ruhu ilə özü arasına girən dünya pərdələri səbəbilə cəmalullahı seyr etmə imkanına sahib deyildir. Ancaq bədəndən ayrılan uca ruhlar qınından çıxmış qılınc kimi Allahın cəmalına tamaşa edəcəklər. Buna görə də dünya həyatı mömin üçün nə qədər gözəl olursa olsun, axirət və cənnət həyatına görə zindan kimi bir yerdir. Kamil insan bu dünyada görünüşə aldanaraq fani şeylər

32. Müslim, Zöhd, 1.

ilə əylənməz, onlara dəyər verməz. Naqis insan isə nəfsini doyurmaq üçün çırpına-çırpına durar. Nəticədə hər şeydən bezər, səbəbini anlaya bilmədiyi bir zövqsüzlük içində yaşayıb ömrünü başa vurar. Necə ki, Allah-Taəla belə buyurur:

***"Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar (yaxud qəbir evində şiddətli əzaba düçar olar) və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!"***[33]

Bu dünya həyatını gözəlləşdirmənin yolu Allaha qul olmaqdır, yoxsa dünya ilə əlaqələrimizi kəsmək deyil. Qul axirətə hazırlıq içərisində olmalıdır. Çünki bizim bu dünyadakı əsas vəzifələrimizdən biri də axirət hazırlığı içərisində olmamızdır. Allah-Təala bu dünyanın cənnət halına gəlməsinin mümkün olduğuna da işarə edir:

***"Şübhəsiz ki, Rəbbinin məqamından (hüzurunda haqq-hesab üçün durmaqdan) qorxanları iki cənnət (Ədn nə Nəim cənnətləri) gözləyir!"***[34]

Bu cənnətlərdən birisi dünya cənnəti, digəri isə axirətdəki əbədi cənnətdir. İnanan insanın bu dünyadakı çiləli həyatına baxmayaraq könlü hüzurlu, qəlbi rahatdır. Çəkdiyi çilələr onu əsla ümidsizliyə sövq etməz. Çünki o, Rəbbinin yardımına güvənir, bu dünyada çəkilən çilələrin o biri aləmdə bir qarşılığının olduğuna inanır. Mömin buna inanar və duyğusu ilə yaşayarsa, bu dünyada da cənnət həyatı yaşamış olar. İnanan insan maddi sıxıntılarından, başına gələn fəlakətlərdən şikayət etməz, razı olar. Şair belə deyir:

*Xoşdur mənə səndən gələn,*
*Ya qönçə gül, yaxud tikan,*

33. Taha, 20/124.
34. ər-Rəhman, 55/46.

*Ya xilətü, yaxud kəfən*
*Lütfün də xoş, qəhrin də xoş.*

Madam ki, Allahdan gəlir, Onun imtahanı olaraq mənə gəlib çatır, ona görə də xoşdur. Çünki sevənə sevgilidən gələn hər şey xoş gələr. Əbu Bəkr Şibli, Xəllaci Mənsur ilə birlikdə edam ilə cəzalandırıldı. Ancaq daha sonra edamdan vaz keçildi və Şibli həbsə atıldı. Həbsdə ikən dostları onu görməyə gəldilər. Əbu Bəkr Şibli dostlarının gəldiyini görüb dərhal yerə əyildi və aldığı çınqıl daşlarını onlara atmağa başladı. Dostları:

− Nə edirsən? Biz sənin dostlarınıq, dedilər. Əbu Bəkir Şibli dedi ki:

− Dost olduğunuzu deyirsiniz. Dost dostun acısından inciməz. Niyə qaçırsınız? Sevən sevdiyinin cəfasına qatlanmağı şərəf bilər və bir hikməti vardır deyərək sevdiyi insanı əsla qınamaz.

Dostdan gələnə belə davranılırsa, Allahdan gələndən heç incimək olarmı? Çünki inanan bilir ki, çətin günlərin və məşəqqətli şeylərin ardında mütləq bir asanlıq vardır.[35] Niyazi Misri deyir ki:

*Cəmali zahir olsa tiz cəlalı yaxalar anı,*
*Görərsən bir gül açılsa, yanında xar olar peyda.*

Haqq-Təalanın bu dünyada cəlalı ilə camalı gündüz ilə gecənin bir-birini təqib etməsi kimi davamlı olaraq bir-birini təqib edər. Gündüz olar və ardından da gecə gələr. Camalı zahir olar, ardınca cəlal gələr. Bir gül açılarsa, bu camalın görüntüsüdür, amma bir də baxarsan ki, yanında tikan vardır. Çünki tikansız gül olmaz. Bir asanlıq gəlmişdirsə, arxasından bir çətinlik, bir məşəqqət gəlmişdirsə, ardınca bir rahatlıq var-

35. əl-İnşirah, 94/6.

dır. İnanan insan hadisələri belə düşünməli, bu dünyada qarşılaşdığı sıxıntıları görməlidir.

Beytdə keçən “rüzigar” zaman deməkdir. Zaman, gün, an və hazırkı an mənalarını ifadə edir. İnsan keçmiş və gələcək zamandan çox, an ilə məşğul olmalıdır. Bununla birlikdə insanların bəzən hadisələrdən zamanı məsul tutduqları vaxtlar olur. Bəzən şərtlər dəyişdi deyərək zamanı qınayar, amma heç kim qüsur bizdədir deməz. Hətta insanlar bəzən “zalım fələk” deyərək zamanı ittiham edərlər. Halbuki Peyğəmbərimizin (s.ə.s) bu mövzuda bir hədisi-şərifi vardır: *“Əsla dəhrə/zamana söyməyin. Çünki zamanın sahibi Allahdır.”*[36] buyurur.

Ortada bir imtahan vardır, onu edən də Allah-Təaladır. Kamil insan dünyanın gözəlliklərinə könül verməz, çətinlikləri dərd edib gözündə böyütməz. Çünki o, bu dünyada mütləq bir rahatlığın mümkün olmayacağını bilir.

Bəşər övladının maddi doyumu sərhədsizdir. Buna görə də bizim dini anlayışımızda dünya nemətlərindən doymağa məhdudiyyət qoyulmuşdur.

Peyğəmbərimiz (s.ə.s): *“Yemək yeyərkən belə süfrədən doymadan qalxın. Heç bir insan mədəsindən daha təhlükəli bir qab doldurmamışdır. Halbuki insana özünü ayaq üstə saxlayacaq bir neçə loğma kifayətdir. Əgər mütləq çox yeyəcəksə, mədəsinin üçdə birini yeməyə, üçdə birini içəcəyə, üçdə birini də nəfəsinə ayırmalıdır”,*[37] buyurur. Yəni bunun mənası, mədənizin 2/3-nin yarısını su, yarısını yemək ilə doldurun. Geriyə qalan 1/3-ni də tənəffüs üçün boş buraxın, deməkdir.

Bir nemətdən ifrat şəkildə doymağın yeni aclıqlara səbəb olduğu məlumdur. Hətta İslam ailə həyatına belə bir məhdudiyyət qoymaq üçün qüsl dəstamazını fərz qılmışdır.

36. Buxari, Təfsirus-surə, 45.
37. Bax. Tirmizi, Zöhd 47; İbn Macə, Ətminə, 50.

Qüsl dəstamazının fərz olmasının hikmətlərindən biri də insanın həyat yoldaşından ifrat şəkildə doyum nöqtəsinə varmamasını təmin etməkdir. Qüsl dəstamazı psixologiyası ilə bu günü sabaha saxlayaraq, ər ilə arvadın bir-birinə istəklərinin artması və bir-birilərini arzu edərək yanaşmaları hədəflənmişdir.

Bu gün hər istədiyi vaxt, zaman və məkan düşünmədən və heç bir qayda-qanun məhdudiyyətini tanımadan cinsi ehtiyacını təmin edə bilənlərin halı çox qorxuncdur. Kişi qadına doymuş, qadın kişidən bezmiş və bunun nəticəsində həmcinslər arasında əlaqələr gündəmə gəlməyə başlayır. Qadın və kişinin məhdudiyyətsiz və məsuliyyətsizcə ifrat bir şəkildə doymaları yeni aclıqlar meydana gətirmişdir.

İslam hər şeydən ifrat şəkildə doymağı qadağan edir, hətta halal və məşru(qanuni) olanlara belə məhdudiyyətlər gətirir və qüsl dəstamazı ilə buna əngəl qoyur. Deməli, İslam həyəcanın canlı qalmasını təmin edəcək nizamlamalar gətirir. Dünya nemətlərindən ifrat doyuma çatanlar dünya həyatından həzz almamağa başlayırlar. Dünya onu arxasnca sürüyür, həyatını mənasız hala gətirir.

Bəşər övladı görmədiyi, eşitmədiyi, anlamadığı və tanımadığı şeyin köləsidir. Görmək doymaq deməkdir. Doymaqda usanmaq və bezmək vardır. Bu dünyada hər nemətdən tam olaraq doymamaq əsasdır. Bir rəng üzrə olanın doyması və bezməsi daha asandır. Amma hər gün ayrı bir rəng üzrə olanlardan doyulmaz, bezilməz. Necə ki, Qurani-Kərimdə buyurulur ki: ***“O hər gün (hər an) bir işdədir (birini öldürər, birini dirildər; acizə kömək, zalıma zülm edər; birinin duasını qəbul edər; birinə mərhəmət əta edib digərinə cəza verər. Bir işlə məşğul olmaq Onu digərindən yayındırmaz).”***[38]

38. ər-Rəhman 55/29.

Əslində insanın dünya həyatında qovuşmaq istədiyi maddi doyumlar, onları ələ keçirdiyi zaman çox kiçilir: “Qaçan balıq böyük olur” hesabı ilə, çətinliklə əldə edilən nemətlər insanın gözündə daha da böyüyür. Ev alan birisinin gözündə bir müddət sonra bu nemət kiçilir, filan model bir maşınım olsaydı, deyir. Onu əldə etdikdən sonra, o da gözündə kiçilir. Elə isə dünya zövq və həzləri, arxasında sürünülərək gediləcək şeylər deyildir. Təbii ki, dünya nemətlərindən faydalanmaq lazımdır, amma bunlar məqsəd halına gətirilməməlidir. İnsanın böyük və səviyyəli hədəfləri olmalıdır, əks təqdirdə hədəfsiz insan dünyadan dad almamağa başlayar. Bu gün xüsusilə intihar edən insanların, intihar etmələrinin başlıca səbəblərindən biri budur. İnsanların dünyada zövq alacaq bir şeyləri qalmadıqda, yaşamaq mənasız hala gəlir. Dünya nemətlərini lazmi miqdarda istifadə edənlərdə doyumsuzluq meydana gəlməyəcəyi üçün dünyaya baxışları da fərqli olacaqdır.

Bizim dinizmizdə qadın və kişi münasibətlərinin məhdud olmasının hikmətlərindən biri də budur. Məhdud münasibət olduğu təqdirdə kişi qadın üçün, qadın da kişi üçün içindəki istəyini davam etdirir və hər iki tərəf bir-birinin gözündə dəyərdən düşmür. Arada məhdudiyyət olmadan bir münasibət meydana gəldikdə isə ifrat doyma baş verir. İslamın qoyduğu bütün qaydalar haqqında bu mənada düşünmək lazımdır.

İnsanın əsl vəzifəsi Allaha qulluqdur. Heç bir məhdudiyyəti olmadan yaşanan həyat insana Allaha qarşı olan qulluq vəzifəsini unutdurur. Qulluq Allahı anmaq, Onunla birlikdə olmaqdır. Allahın özü ilə birlikdə olduğu duyğusunu hər an yaşayır. İnsan belə yaşamadıqda Allahı zikr etməkdən və qulluqdan qopur.

Həyatın mənalı hala gəlməsi üçün insan gəldiyi aləmi unutmamalıdır. Allah-Təala Tövbə surəsində münafiqlərdən bəhs edərkən belə buyurur:

***“Münafiq kişilərlə münafiq qadınlar (ikiüzlülükdə) bir-birinin eynidirlər. Onlar (insanlara) pis işlər görməyi əmr edər, yaxşı işləri qadağan edərlər. Hələ əlləri də bərkdir (xəsisdirlər). Onlar Allahı unutdular, Allah da onları unutdu. Həqiqətən, münafiqlər (Allahın itaətindən çıxmış) fasiqlərdir!”***[39]

Bu beytdə Mövlana yekun olaraq bunları ifadə edir: Biz bir aləmdən gəldik, bir başqa aləmə gedirik. Gəldiyimiz yer Allahın dərgahıdır. Allah bizi öz aləmində yaratdı, bu dünyaya göndərdi və yenidən Allaha qayıdacağıq. Elə isə bu dünya da məhduddur, ömrümüz də. O biri dünyanı da unutmayaq, o dünya ilə qəlbi əlaqəmiz qopmasın. Mövlana *Fihi ma Fih* adlı əsərində bunları deyir: İnsanda bir eşq, bir tələb, bir iztirab, bir məşəqqət, yəni sıxışma və təzyiq halı vardır. Bu aləmin yüz min qatını versələr həqiqi rahatlığa qovuşa bilməz. Dünyaya aid hər şeyi əldə edər, amma heç cür könlü rahat ola bilməz. Çünki məqsədi olan şeyi əldə edə bilməmişdir. Əsl məqsəd Məşuqa qovuşmaqdır. Məşuq isə Allah-Təaladır.

Sevilən, aşiq olunan və qulluq edilməli olan Odur. Ona qovuşmadıqdan sonra insan hər zaman iztirablı bir halda və axtarış içindədir. Qul bu dünyada qəlbi ilə Ona qovuşmuşdursa, o biri aləmdə də ruhu ilə Ona qovuşacaqdır. Qul o zaman xoşbəxt və sevincli ola bilər. Dolayısı ilə dünyanın yüksələn pillələri ilə addımlayarkən, məhdud ömrümüzü başa vurarkən könlümüzü o ilahi qüdrət ilə, ilahi varlıq ilə qovuşdurmaq və Onun rizasına nail olmaq üçün gözəl işlərdə tələsmək lazımdır. O unutmaz. Biz Onu unudarsaq, O da bizi unudar, bizdən üz döndərər.

Mövlana bu beytdə gəldiyimiz mənəvi vətəni və gedəcəyimiz aləmi gündəmimiz halına gətirir. Bunun üçün də gəl-

39. ət-Tövbə, 9/67.

diyimiz aləmi unutmamaq, könüldən Allahı zikr etmək, Onunla bərabər olma duyğusuna sahib olmaq və qulluq şüurunu itirməmək lazımdır.

Bu beyt, salikin Rəbb ismi ilə əhadiyyət (birlik) təcəllisinə nail olacağından bəhs edir.

## BEŞİNCİ BEYT

### *YAXŞI DA PİS DƏ NEYİN DOSTUDUR*

من بهر جمعیتی نالان شدم
جفت بَد حالان و خوش حالان شدم

*Mən bə hər cəmiyyəti-nalan şodəm*
*Cofti-bəd-halanu-xoş halan şodəm*

❃

**Tərcüməsi**
*Mən hər cəmiyyətdə inlədim durdum*
*Pis hallı və yaxşı hallı ilə də dost oldum*

***Mənzum Tərcüməsi***
*Yoldaş oldum düşmənim, dostumla həm*
*Sürdü hər məclisdə bitməz inləməm.*

Burada danışan, dilə gəlib dərdini açan, ağlayan və ağladan neydir. Mövlana neyin dili ilə danışır. Mən hər cəmiyyətdə, insan olan hər yerdə inləyirəm, ağlayıram, yaxşı hallılar da pis hallılar da mənimlə yoldaş və mənə dost olmuşdurlar. Cəmiyyətdəki xoş, yəni gözəl sifətli olanlar da, bəd, yəni pis əxlaqlı insanlar da məni dinləyər, öz hallarına görə mənim inləməyimdən, yanıb yalvarmağımdam həzz alır.

Bəd hallılar: Maddi aləmə aludə olmuş, Haqdan və hallarının sonundan qafil, nəfsani duyğular üçün yaşayan, ruhani tərəfi olmayan nəsibsizlərdir.

Xoş hallılar isə, ruhani həyat yaşayan, Haqqı tanıyan, bilən, hallarının sonunu idrak edən, işin aqibətini düşünən gözəl əxlaq sahibləridir.

Mövlana bu beytdə bunu ifadə etmək istəyir: Mən sadəcə eşq əhlinə söz söyləyən, başqaları ilə maraqlanmayan bir insan deyiləm. Allahın  yaratdıqları arasında mömin də var, kafir də. Bunların hamısı Allahın peyğəmbərinin və kamil ariflərin xitab etdikəri insanlar arasındadır. Belə ki, Allah-Təala buyurur:

***"Sizi yaradan Odur. Kiminiz kafirsiniz, kiminiz mömin. Allah nə etdiklərinizi görəndir!"***[40]

İnsan övladı yaradılışı etibarilə günah, qəflət və zəif tərəfinə meyil etməyə, o tərəfdən təsirlənməyə daha əlverişlidir. Xoş hallıların/yaxşıların da, bəd hallıların/pislərin də bu baxımdan sıxıntıları vardır.

*Bəd hal olanlara şəhvət və həvaları hicab,*
*Xoş hal olanlara zöhd və təqvaları nikah*

Quran insanın bu meylinə belə işarə edir:

40. ət-Təğabun, 64/2.

***“And olsun axşam çağına (ikindi vaxtına, əsr namazına, zamana və ya Peyğəmbərin əsrinə) ki, İnsan (ömrünü bihudə işlərə sərf etməklə, dünyanı axirətdən üstün tutmaqla) ziyan içindədir? Yalnız iman gətirib yaxşı əməllər edən, bir-birinə haqqı tövsiyə edən və səbri tövsiyə edən kimsələrdən başqa! (Beləlləri Cənnətə nail olub əbədi səadətə qovuşanlardır!)”***[41]

Allah-Təala ayədə əvvəlcə ziyandan bəhs edir, insan övladının zərər və nəfsanilik yolunu seçəcəyini ifadə edir. Ardınca da qurtuluş üçün imanla, irfanla xoş hallılar ilə görüşməyə dəvət edir.

Cəmiyyəti **“inananlar” və “inanmayanlar”** deyə ayırmaq nə insanlığa, nə də İslama yaraşır. Çünki belə olduqda **inanmayanların** İslam ilə tanış olmaları çətinləşir. Cəmiyyətdə müxtəlif cür insanlar mövcuddur. Xoş hallı mömin insanlar **inanmayanlara** gözəl əxlaq ilə örnək olaraq dəyişmələrinə səbəb ola bilər.

Təlim dediyimiz şey kamal sahibi insanların digərləri üzərində buraxdığı təbii təsirdir. Təlim yazılı mətn və qanunlar məcmuəsi deyildir. Necə meyvə günəş işığından faydalanaraq saralıb yetişirsə, insanlar da gözəl əxlaq sahibi insanların yanında olmaqla olğunlaşıb kamala çatarlar. Bu, kamal sahibi olan insanlar ilə birlikdə olmaqla mümkündür. Buna görə də Mövlana xoş hallılarla da, pis hallılarla da bərabər olduğunu hər kəsin ondan nəsibinə görə istifadə edəcəyini ifadə edir.

Peyğəmbərləri, kamil insanlar olan arifləri və könüllər sultanı vəliləri (övliyaları) dinləyənlər arasında da yaxşı hallılar və pis hallılar vardır. Necə ki, Mövlananın mənqibələrində onun ətrafında işə yaramaz, fasiq və facir (günahkar), cəmiyyətin hər təbəqəsindən bir dəstə insanın toplandığı və bu halın bəzi

---

41. əl-Əsr, 103/1-3.

dedi-qodulara səbəb olduğu rəvayət edilir. Mövlana bu dedi-qoduları eşidəndə belə deyir: "Mənim ətrafımdakı insanlar alim, arif, saleh insanlar olsalar, onda gərək mən onlara mürid və tələbə olum. Onlar mənim yanıma, məndən istifadə etmək üçün gəlirlər. Mən onlar ilə də birlikdə oluram, başqaları ilə də. Mən hər kəs ilə dost və yoldaşam. Allahın kəlamını və Haqqın gözəlliklərini insanlara başa salmaq ilə vəzifəliyəm."

Peyğəmbərimiz (s.ə.s) başda olmaqla Peyğəmbərlər həyatları boyunca bu şəkildə davranmışdırlar. İnsanlara tövhid/Allahın birliyi prinsipini, iman əsaslarını başa salmaq və inanmayanlara çatdırmaq üçün onların arasına girmiş, onlara da xitab edə bilmək üçün məclislər təşkil etmişdir. Necə ki: ***"Əvvəlcə ən yaxın qohumlarını qorxut (xəbərdarlıq et)!"***[42] ayəsi nazil olduqda Allah Rəsulu (s.ə.s) əmisi oğlu Hz. Əlini çağırdı və dedi ki: *"Ya Əli! Bir qoyun kəs, ziyafət verək. Bütün ailəni toplayaq və onlara İslamı təbliğ edək".*[43] Dəvət edilən insanların hamısı müşriklər idi. Allah Rəsulu (s.ə.s) onlara İslamı, Quranı, tövhidi və nübüvvət həqiqətini təbliğ etdi. Çünki onun göndərilmə məqsədi də elə bu həqiqəti insanlara çatdırmaq idi.

Peyğəmbərlər və xələfləri vəlilər ilə ariflər demək olar ki, bir su kimi axıb gedirlər. Necə ki, bir çayın təmiz suyuna bəzən az miqdarda kirli suların da qarışması o suyu kirlətməz, hətta bir müddət sonra o suların da saflaşmasına vəsilə olursa, ariflərin məclisinə gələnlər də böyük və təmiz suya qarışan kiçik su axıntıları kimi bir müddət sonra rəngləri, qoxuları və dadları baxımından təmiz hala gələr. Peyğəmbərlər, ariflər və vəlilər cəmiyyətə təsir edən, yön verən, könülləri açan və qəlbləri fəth edən insanlardır. Onlar vəzifələrinin bir tələbi ola-

42. əş-Şüəra, 26/214.
43. Təbəri, Tarihül ümem vel-müluk, II, 216-217, İbnül-Esir, El-Kamil fit-tarih, II, 62.

raq, müşriqlərlə də, salehlərlə də, fasiqlərlə də birlikdə olarlar. Onların bu ünsiyyətləri saydığımız insanlara rəhmət və onları qorumaq üçündür. Kamil insan hər kəsin imdadına yetər, əlindən tutub onu düşdüyü bataqlıqdan xilas edər. Necə ki, Mehmet Akif deyir ki:

*Möminlərə imdada yetiş mərhəmətinlə,*
*Mülhidlərə lakin daha çox mərhəmət eylə*
*Sünnə imiş kafir olsa vermə azar*
*Könqlü qatığ dil-azardan Xuda bi-zar.*

Bununla birlikdə Allah-Təala möminlərin mütəmadi zalım və fasiq insanlarla ixtilət (söhbət) etməsini və onların arasında olmasını xoş görmür və belə buyurur:

***"(Ya Rəsulum!) Ayələrimizi istehza edənləri gördüyün zaman onlar söhbəti dəyişənə qədər onlardan üz çevir. Əgər Şeytan (bu qadağan əmrini) sənə unutdursa, xatırlayandan sonra o zalım tayfa ilə bərabər oturma."***[44]

Biz ətrafımızdakı insanlar ilə görüşməyə və dərdlərini paylaşmağa məcburuq. Bu vəzifədən boyun qaçırma alternativimiz yoxdur. Ancaq insan təbliğ edəcəksə, ticarət edəcəksə, işin tələbi olaraq bu cür insanlar ilə lazımi qədər görüşməli, onların təsirinə düşəcək şəkildə birlikdə olmamalıdır.

Mövlana bunu demək istəyir: bu gün fasiqlərdən biri mənim sözümü dinləyir, sabah bir başqa sözümə, üçüncü və dördüncü gün daha başqalarını və beləcə kamala çatar və daşları üst-üstə qoyaraq iman və irfan binasını inşa etmiş olar. Həyatını başa vurduqda da bu aləmdən iman ilə köçmə imkanı əldə edər. Peyğəmbərlər başda olmaqla ariflərin, alimlərin insanlar arasında olması da bir rəhmətdir. Peyğəmbərimiz (s.ə.s) müşriklər tərəfindən Məkkədən Mədinəyə hicrət etməyə məcbur edildikdə Məkkədə elə bir qıtlıq meydana gəldi ki,

44. əl-Ənam, 6/68.

müşriklər Allah Rəsulunu və əshabını hicrət etməyə məcbur etdiklərinə peşman oldular. Çünki Peyğəmbərimiz (s.ə.s):

***"Səni də (Ya Rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik..."***[45] sirrinə məzhər olan bir peyğəmbər olduğu üçün maddi və mənəvi bir rəhmət idi. Həmçinin Qurani-Kərimdə Allah-Təala:

***"Halbuki sən onların arasında ola-ola Allah (sənə hörmət əlaməti olaraq) onlara əzab verən deyildir. (Tövbə edib) bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!"***[46] buyurur.

Peyğəmbərimizin (s.ə.s) onların arasında olması bir rəhmət idi. Onun (s.ə.s) yolunu davam etdirən ariflərin, alimlərin cəmiyyət içində olmaları da rəhmətdir. Peyğəmbərimiz cismani olaraq aramızdan ayrıldıqdan sonra onun əxlaqına sahib insanların bir cəmiyyətdə var olmaları, Peyğəmbərimizin o cəmiyyətdə mənən yaşadığının bir əlamətidir. Bu cür insanlar var olduqları müddətcə o cəmiyyət ilahi əzaba düçar olmayacaqdır. Bu ayə Peyğəmbərimizin (s.ə.s) cəmiyyətimizdə, ailəmizdə, könlümüzdə yaşamasına vəsilədir. Kamala çatmağın yollarını axtarmaq hamımızın bir vəzifəsidir. Gözəl insanların var olmalarına dua etmək, sayılarının çoxalmasını istəmək vəzifəmizdir. Çünki onların mövcud olmaları ümmətə rəhmətdir.

Ney Mövləvilikdə önəmli bir alətdir. Mövlana neyin dilindən danışır. Ney xüsusilə Ramazan iqlimində, iftar saatlarında, sahur vaxtlarında yanıqlı-yanıqlı səs çıxardığı zaman insanın ruhuna rahatlıq verir. Təbii ki, insanlar neyi sadəcə Ramazan ayında və ya ruhani mühitin olduğu zamanlarda dinləmir. Başqa məqsədlər üçün də neydən istifadə edilir. Neyin öz yanıq

45. əl-Ənbiya, 21/107.
46. əl-Ənfal, 8/33.

səsindən istifadə etməyə çalışılır. Amma onların aldıqları həzz digər insanların aldığı həzdən fərqli olur. Necə ki, Neyzən Tevfik deyir ki:

*Zənn etmə ciddiyyətlə sərf edərəm sənətimi,*
*Ney əlimdə suyu qurumuş musluq kimidir,*
*Bəzmi-meydə süfəhanın saza məftun oluşu*
*Nəzərimdə su içən eşşəyə ıslık kimidir.*

Neyzən Tevfik içki məclislərində ney dinləmək istəyənlərə neyin su içən eşşəyə fit səsi kimi olduğunu deyir. Neyin bizi "ələst bəzminə"doğru aparan çağırışını onların anlamasının mümkün olmayacağını ifadə edir. Onlar ancaq öz dəmlərindəki, içki aləmlərindəki duyğular ilə neydən istifadə etməyə çalışırlar. Neyzən Tevfik ney səsinin insanı daha çox ruhani iqlimə apardığını, o iqlimdə istifadə edildiyi zaman daha xoş olacağını ifadə edir.

Mövlananın neyin dilindən: "Mən hər cəmiyyətdə ağlayan oldum və hər kəs məni özünə dost gördü, yaxşı hallılar da məni özlərinə görə başa düşdü", dedikdə qəsd etdiyi şey, ney kimi kamil insanın da cəmiyyətdə hər kəs ilə görüşdüyü və hər kəsin öz halına görə ondan istifadə etməsidir. Hafiz Şirazi deyir ki:

*Eşq dəzgahında küfrün olması zəruridir,*
*Əbu Ləhəb olmazsa, od kimi yandıracaq?*

Hər şey Haqqın məzhəridir. Bu aləmdə Allahın camal və cəlal sifətləri zuhur edir. Camaldan iman, gözəllik, gündüz və cənnət, cəlaldan küfr, pislik, gecə və cəhənnəm zühur edər. Bu aləmdə hər şey ziddi ilə mövcuddur.

Şeyx Sədi də belə deyir:

Mən bütün aləmə aşiqəm. Çünki aləm Haqqın xilqətinin əsəridir. Onun tərəfindən yaradılmışdır. Deməli, bu aləmi Onun əsəri olaraq sevmək lazımdır.

Allah Rəsulu bir gün buyurdu ki: *"Nəfsim qüdrət əlində olan Allaha and içirəm ki, bir-birinizə mərhəmət etmədiyiniz müddətcə cənnətə girə bilməzsiniz".* Səhabələr dedi ki: *"Ya Rəsulallah! Biz hamımız mərhəmətliyik".* Allah Rəsulu belə buyurdu: *"Mənim qəsd etdiyim mərhəmət, sizin anladığınız şəkildə sadəcə bir-birinizə olan mərhəmətiniz deyil, əksinə bütün yaradılanlara şamil edilən mərhəmətdir."*[47]

**Yunus**umuz da deyir ki:

*Əlif olduq ötürü,*
*Bazar eylədik götürü,*
*Yaradılanı sevəriz,*
*Yaradandan ötürü*

Kamil insan da ney kimi, sanki bir aynadır. Hər kəs ona baxar, öz kamalını və camalını, ya da nöqsanını görər. Əsas olan da insanın öz qüsurunu görüb düzəldə bilməsi və gözəl insanların yolunda gedə bilməsidir. Peyğəmbərlər insanlara nümunə olsun deyə göndərilmişdir. Necə ki, Mövlana bir qəzəlində belə deyir:

*Xeyirli bir iş üçün mən dünya həbsxanasında qaldım,*
*Yoxsa zindan hara, mən hara, mən kimin malını çalımışam?*[48]

Fəna və bəqa mərtəbələrini aşmış, məhvdən səhvə çatmış kamil insanlar yıxılanları qaldırmaq, qəflətdəkiləri də oyandırmaq ilə vəzifəlidirlər. Belələri vəzifələrinin tələbi olaraq salehlərlə də, fasiqlərlə də görüşür. Kamil insan hər kəsin imdadına çatır. Əlindən tutub onu düşdüyü bataqlıqdan xilas edir.

47. Hakim, Müstədrək, IV, 185 (7310).
48. Şefik Can, Divan-i-Kebir, Seçmələr, II, 348.

Peyğəmbərimizin (s.ə.s) ifadəsilə: *”Alimlər nəbilərin varisləridir.”*[49] Onlar öz dövrlərində nəbilərin məqamlarına vəkalət və ümmətə rəhbərlik edirlər.

Bu beytdə Mövlana neyin təzahüründə kamil mürşidin yaxşı və pis olan hər kəslə oturub-durmasına işarə edir.

49. Buxari, Elm 10; Əbu Davud, Elm 1, Tirmizi, Elm 9; İbn Macə, Müqəddimə, 17.

## ALTINCI BEYT

### *HƏR KƏS ÖZÜNƏ GÖRƏ ANLAYAR*

هر کسی از ظنّ خود شد یار من
از درون من نَجَست اسرار من

*Hər kəsi əz-zənni xod şod yari-mən*
*Əz dəruni mən nə-cost əsrari-məb*

❃

***Tərcüməsi***

*Hər kəs öz zənnincə mənim yarım oldu*
*Amma heç kim mənim könlümdəki sirləri aramadı*

***Mənzum Tərcüməsi***

*Anlayış mislincə hər kəs yar mənə*
*Ərməmişlər fəqət könlümün əsrarına*

Mövlanaya görə ney xoş hallılara da, bəd hallılara da nə isə bir şey deyir, hər kəs öz halına görə ondan nə isə başa düşməyə çalışır. Bir şair belə deyir:

*Quru əfsanə sanır sufi sədayi-neyi*
*Neylə salik idi görəsən Mövlanayı.*

Xalq ümumiyyətlə zahirə baxır, neyin səsini eşidincə ona əlaqə duyur və onunla kifayətlənir. Amma ney niyə inləyər? Nədən dərdlidir? Nə üçün bu sədaları çıxarır? Heç kim işin o tərəfinə baxmaz və işin əslini axtarmaz. Ya da danışan arifə kamilin dediyi gözəl sözlərin nə mənaya gəldiyinə, onun hansı mənanı çatdırdığına heç kim diqqət etməz. İnsan övladının qafil olduğu sahə buradır, insan işin özünə, həqiqətinə və dərinliyinə elə də çox həssas yanaşmaz.

Hərçənd naqis görünüşlü insanlar neyin də, kamil insanın da sadəcə xaricinə baxıb dəyərləndirirlər. Və xarici görünüşündən xoşları gəlir. Fəqət onların həqiqətlərini anlamağa çalışmazlar.

Mövlana insanların öz sözlərindəki mənanın həqiqətini anlamağa çalışmadıqlarından şikayətlənir. Mənanı və mahiyyəti qavramaq üçün Rəbbani eşqə nail olmaq lazımdır.

Rəbbani eşqə nail olmaq üçün də əvvəlcə uca bir qəlbə sahib olmaq, ardından məşru (qanuni) insani vəzifələri gücü çatdığı qədərilə yerinə yetirmək lazımdır. Namaz, oruc, zəkat və gözəl əxlaq ilə vəzifəyə diqqət etmək, istiqamət, ticarətçilər üçün dürüstlük və çalışqanlıq imtinaedilməz şərtlərdəndir.

Yalnız ibadət, ya da sadəcə əxlaq tək başına kifayət deyildir. Bunların hamısı birlikdə olmalı, həm ruhi, həm fiziki vəzifələr yerinə yetirilməlidir.

Bir sənət əsərinə bir sıravi insanın baxması var, bir də sənətdən anlayan insanın baxışı vardır. Sənətdən anlayan insanın gördüyü fərqli, anlamayan insanın gördüyü fərqlidir.

Sənətdən anlayanın gözü təfərrüatlarda, ahəngdə və tənasübdədir. O qıvrımları, qıvrım arasındakı uyum və ahəngi görər. Gördüyü gözəlliklər səbəbilə sənətkarı təqdir edər. Sıravi insan isə ən çox "gözəl bir şey imiş" deyər. Amma o gözəlliyin harada olduğunu, hansı təfərrüatlarda və xırdalıqlarda gizləndiyini fərq etməz.

Bir musiqi nəğməsini hamımız dinləyirik, amma o nəğmədəki keyfiyyət və ahəngi hər kəs anlaya bilməz. Musiqişünas biri isə daha çox fərqli şeylər anlayır.

Yenə bir xəttatlıq sənətinə baxıb, gözəl yazılmışdır deyirik, amma o gözəlliyin harada olduğunu bilə bilmirik. Çünki sənət təfərrüatlarda və o gözəllikləri fərq etməkdədir. Baxarkən o göz ilə baxılmalıdır.

*"Baxmaqla görmək bir deyildir."* Baxa bilərsiniz, amma görməzsiniz. Bir məscid içinə girib çıxdığınız vaxt yanınızdakılara: "Nə gördünüz?" deyə soruşsanız, hər kəsin verəcəyi cavab fərqli olacaqdır. Hər kəs öz maraq və diqqətinə görə fərqli şeylər görür. Bəziləri bir tək şey görər, bəziləri isə çox şeylər görə bilər. Çünki bəziləri təfərrüat və detallara daha diqqətlidir.

Mövlana neyi danışdırarkən insanın sadəcə zahirə baxan, zahirdəki səs və ahəngi görən tərəfinə diqqət çəkərək bizi bir az da işin mahiyyətinə yönəlməyə dəvət edir. Çünki kainatdakı hər şey əslində *Əhsənül-xaliqin* olan uca yaradıcını çağırır.

Mövlana əsərlərinin bir çox yerində buna diqqət çəkir. Məsələn o, çəng/saz və ud səsindən belə *"Əntə hasbi, əntə kafi, ya Vədud":* "Ey Dost, Sən bizə yetərsən, kafisən!", sədasını eşitdiyini ifadə edir.

Bir saz və ud səsindən və musiqi nəğməsindən Allah-Təalaya xitabən belə bir zikr mənasının anlaşıldığını deyir. Quranda bu fikir öz əksini tapmışdır. Allah-Təala buyurur ki:

***“Yeddi göy, yer və onlarda olanlar (bütün məxluqat) Allahı təqdis edir. Elə bir şey yoxdur ki, Allaha tərif deyib Ona şükür etməsin, lakin siz onların (dillərini bilmədiyiniz üçün) təqdisini anlamazsınız. (Allah) həqiqətən, həlimdir, bağışlayandır!”***[50] Yəni hər şey: *“Sübhanallah, əlhamdulillah”,* deyərək Onu təqdis edir.

Həmçinin Quranda: “səbbəbə” və “yusəbbibu” ilə başlayan ayələrin hamısında yerdə və göydə olan mövcudatın öz dillərində Allahı təqdis etdikləri bildirilir[51]

İbni-Ərəbi kainatda Allahı ən çox təqdis edən varlıqların cəmadat (cansızlar), onlardan sonra nəbatət (bitkilər) olduğunu, ən az təqdis edənlərin isə insanlar olduğunu ifadə edir.[52]

Hər varlıq öz dili ilə Allahı təqdis edir. Bu, eşidən qulaqlara və oyanıq qəlblərə gizli olmayan bir xüsusdur. Mövlana leyləyin belə qaqqıltılarından Haqq-Təalanı təqdis sədaları eşitdiyini və mütəmadi olaraq Allah-Təalaya xitab edərək:

*“Əl-Hamdu lək, vəş-şukru lək, vəl-mulku lək/ həmd Sənə aiddir, şükür Sənə aiddir və mülk Sənindir, ya Rəbb”* deyərək, lək-lək və laq-laq səsləri ilə şükür etdiyini ifadə edir.

Rəvayətə görə İmam Əli (r.a): Kilsə zəngindən: *Subhanallahi haqqa, innəl-Məvlə yəbqa* səsini eşitdiyini ifadə edərmiş. Deməli, taxta zəngdən çıxan, bizim taqqıltı və s. zənn etdiyimiz səslərdən, oyanıq könüllər “Haqq olan Allahı təqdis edirəm, O, baqidir” mənasını anlayırlar.

Keçmişdə metal zənglər olmadığı üçün taxta istifadə edilirmiş. Belə ki, azan məşru qılınmadan əvvəl ibadətə çağır-

50. əl-İsra, 17/44.
51. Bax. əl-Hədid, 57/1, Saf, 61/1.
52. El-Fütuhatül-Mekkiyye, III, 490-491, Fusasu`l-hikem, trc. A. Avni Konuk, haz. M. Tahralı, Selçuk Eraydın, İstanbul 1989, II, 97-99.

maq üçün istifadə edilməsi təklif edilən vasitələr arasında zınqırovdan da istifadə edirdilər.

Görən gözə, eşidən qulağa görə aləmdəki hər şeyin bir mahiyyəti və verdiyi bir mənası vardır. Əsas məsələ bunu anlayacaq bir könülə sahib olmaqdır. İnsanlara görə aləmdə hər şey dəyişir, səslər də, səslərin ahəngi də, mənası da. Rəhmətlik Mahir İz xoca deyərdi ki:

−Əvvəllər elə dəvələr vardı ki, boyları üç metr hündürlüyündə olardı. Onların boyunlarından əlli santimetr böyüklüyündə zınqırov taxardılar. Dəvə yeridikdə Ərzurum Van, Ərzurum Van!, deyərdi. İndi dəvələr kiçildi, boyları bir metr, bir metr yarım hündürlüyündədir. Boyunlarına kiçicik bir zınqırov taxırlar. Dəvələr yeridiyi vaxt Ankara Çankırı, deyir.

Yəni hər şey görən gözə və zamana görə dəyişir. Əsas olan mahiyyətdəki ahəngə və aləmdəki hər varlığın içindəki mənanı qavraya bilməkdir. Şairin dediyi kimi:

*Bir kitabullahi-azamdır sərasər kainat,*
*Hansı hərfi yoxlasan mənası həp Allah çıxar.*

Naqis görünüşlü insanlar həmişə zərfə baxar və ona görə danışar. Amma kamal əhli olanlar, işin əsas mahiyyətinə baxar, hikmətlərini araşdırar və Hakimi (Hikmət Sahibi) görməyə çalışar. Hikmət sahibi olan, Allah-Təalanın hikmətlərini görərək Hakimi-mütləqi müşahidə etməyə çalışar. Baxarkən bu nəzərlə baxar.

İnsanın bəsirət ilə baxması könül dünyasının genişlənməsi ilə yaxından əlaqəlidir. Bu isə ilahi eşq ilə dolu olan bir qəlbə sahib olmaq və peyğəmbər əxlaqı ilə təchiz olunmuş bir hal sahibi olmaq deməkdir. İnsana hadisələrin arxa planını göstərə biləcək bəsirət budur.

İbadət və əxlaq ilə bütünləşən insan ilahi eşqə sahib bir könül ilə kainat kitabını oxuyar və hər kəlmədən Allah mənasının çıxdığını görər.

Əvvəlcə insan və qul olduğumuzu idrak etmək, qulluğumuzun bir tələbi olaraq Rəbbimizə səcdə etmək, Ona boyun əymək, əmrinə ram olmaq, Onun yaratdıqlarını sevmək, bu aləmdə baxdığımız hər şeyə şəfqət və mərhəmət nəzəri ilə baxmaq: Bunlar qulluq vəzifələrimizdir.

İnsan olmaq üçün ruhi bəzi vəzifələrimiz, fiziki bəzi vəzifələrimiz, maddi bəzi məsuliyyətlərimiz var. İnsan, ancaq bunların hamısını etdiyi təqdirdə kamala çata bilər. Allah-Təala buyurur:

***“(Ya Rəsulum!) Quranda sənə vəhy olunanı oxu və (vaxtı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək (Allahın cəlalını və əzəmətini həmişə, hər yerdə yada salmaq), şübhəsiz ki, (savab etibarilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi (bütün yaxşı və pis əməllərinizi) bilir!”***[53]

İnsan övladı namaz qıldığı halda hələ də pisliklər etməyə davam edirsə, deməli, orada bəzi nöqsanlar var. Onlar da aşağıdakılardır:

1- Namaz ilə birlikdə edilməli olan digər qulluq vəzifələrini trək edir. Namaz qılır, amma oruc tutmur, zəkat vermir və digər İslami və insani öhdəliklərini yerinə yetirmir. Halbuki namaz, oruc, həcc, zəkat və gözəl əxlaq bir-birilərini tamamlayan şeylərdir. Bunlar birlikdə edildiyi təqdirdə insanı kamala çatdırır va bu halda qılınan namaz insanı pisliklərdən uzaqlaşdırır. Namaz qılmaq tək başına kifayət deyildir. Çünki Allah-

53. əl-Ankəbut, 29/45.

Təala namaz ilə birlikdə orucu, zəkatı, həcci, zikri və digər gözəl əxlaqları əmr etmişdir.

2- Namaz və digər ibadətlərə riyakarlıq qarışa bilər. Riyakarlıq ixlasın ziddi olub, hədislərdə gizli şirk olaraq dəyərləndirilən mənəvi qəlb xəstəliklərindəndir. Qəlbdə riya duyğusu olaraq namaz qılan bir insanı, namazın yenidən formalaşdırması çətin məsələdir. Çünki əvvəlcə xəstəlik haradadırsa, onu təsbit edərək oradan müalicəyə başlamaq lazımdır. Qəlbdəki riya xəstəliyi ixlas və tövbə prinsipləri ilə düzəldilməli, ondan sonra rahat bir qəlb ilə İlahi hüzurda durulmalıdır ki, ibadət və namazdan umulan nəticə əldə edilə bilinsin. Quran riyanı çəkinilməsi zəruri olan nifaq əlaməti olaraq sayır. Allah buyurur ki:

***“Münafiqlər Allahı aldatmağa çalışırlar. Halbuki əslində (Allah) onları aldadır. Onlar namaza durduqları zaman (yerlərindən) tənbəlliklə (könülsüz) qalxar, özlərini (yalandan) xalqa göstərər və Allahı olduqca az zikr edərlər.”*** [54]

**3- Bəziləri üçün namaz ibadət olmaqdan çıxmış, adət halını almışdır.** Belə qılınan namazlarda səmimiyyət nöqsanlıdır. Halbuki ibadətin adət halını alması deyil, adətlərin belə ibadət şüuru ilə ibadət halına gətirilməsi arzu ediləndir. Namaz ilə bağlı bir şüur olmadıqda, qəlbdə həyəcan əmələ gəlməz və özünə nəzarət mexanizmi hərəkətə keçməz. Bunu təmin edəcək olan şeylər ixlas və səmimiyyətdir. Belə ki, Allah-Təala buyurur:

***“Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cis-***

54. ən-Nisa 4/142.

***mən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)"***[55]

Nicat tapmaq üçün namazı xüşu (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha yönəlmək) ilə qılmaq lazım olduğu, xüşu ilə qılınan namazın da hər cür pisliklərdən insanı çəkindirəcəyi ayələrdən aydın olur. Qəflətdə qılınan namazın bir işə yaramayacağı bu ayədə bəyan edilir. Allah-Təala buyurur:

***"Vay halına o namaz qılanların ki, Onlar öz namazlarından qafildirlər (səhlənkarlıqları üzündən namazlarını vaxtlı-vaxtında qılmazlar)."***[56]

Bu şəkildə namaz qılanlar kimin hüzurunda durduqlarının fərqində deyildirlər, yəni xüşudan məhrumdurlar. Namazın namaz olması və bizi kamilləşdirməsi üçün xüşu ilə qılınmasına diqqət göstərmək lazımdır.

İnsan övladı bu aləmə Allah-Təalanın rizasını qazanmaq, Onun əmrlərini yerinə yetirmək üçün gəlib. Amma Onun əmrlərini yerinə yetirərkən işin bir duyğu yönü, sevgi və eşq cəhəti də olmalıdır ki, insan ibadəti istəyərək etsin. İbadətin qayələrindən biri, könüllərdə Allah sevgisini yerləşdirib insanların arzu və istək ilə ibadət etmələrini, Rəbləri ilə görüşmələrini təmin etməkdir. İbadətlərin zamana bağlı olaraq əmr edilməsinin hikmətlərindən biri də qəflət pərdəsinin enməməsi, Allah ilə aramızda bir soyuqluq meydana gəlməməsidir. Çünki qulluqda soyuqluq meydana gəldikdə yenidən bərpa etmək çətindir. Belə ki, Bektaşiyə soruşurlar:

− Niyə namaz qılmırsan? Bektaşi:

− Qıla bilmirəm, heç cür alınmır, deyir. Bir nəfər:

55. əl-Muminun, 23/1-2.
56. əl-Maun, 107/4-5.

− Hələ sən qirx gün çalış, ondan sonra qılacaqsan, deyir.

Bektaşi də:

− Sən qırx gün namazı tərk et, ondan sonra başla görüm başlaya bilirsən? -deyir.

Bir dəfə ibadətdən soyuma başladısa, yenidən isinmək olduqca çətin olur. Ona görə də o soyumaya imkan verməmək üçün çalışmalı, həssaslıq göstərməli və eşq axtarışında olmaq boynumuzun borcudur. Gündə beş dəfə namaz və zikr ilə əmr olunmağımızın səbəbi məhz budur.

Bu aləmdə insanlar əvvəlcə öz könüllərini təshih və təmir etməli, ardınca da aləmi tamaşa edərək aləmdəki var olma səbəblərini görməyə çalışmalıdırlar. Burada sıralama mühümdür. Nəyi, nə üçün necə edəcəyini bilmək lazımdır. Bektaşiyə deyirlər:

-Köynəyin kirlənib. Niyə yumursan? Bektaşi:

− Yusam necə olsa yenə də kirlənəcək, deyir.

− Onda yenə yuyarsan, deyirlər.

− Yenə kirlənəcək, deyir.

− Onda yenə yuyarsan, deyirlər.

− Biz bu dünyaya köynək yumağa gəlmişik?, deyə cavab verir.

Bəli, bizim bu dünyada işimiz köynək yumaqdan ibarət deyil? Biz bu dünyaya köynək yumaq üçün gəlməmişik. Biz bu dünyaya Yenişehirli Avni bəyin dediyi kimi:

*Sanmam tələbi-dövlətü cah etməyə gəldik,*
*Biz aləmə bir Yar üçün ah etməyə gəldik*

Muhiddin Macid deyir ki:

*Mənim min yarə ərzi-hacətim bir Yar üçündür həp*

Füzuli də deyir ki:

*Yar üçün əğyara minnət ettiyim eyib eyləmə*

*Bağban bir gül üçün min xarə xidmətkar olur.*

Allah-Taəla Qurani-Kərimdə 256 yerdə zikrdən bəhs edir. Bu bizim zikr sayəsində qəlbən Ona mərbut/bağlı olmağımız, Ondan əsla uzaqlaşmamağımız ilə yaxından əlaqəlidir. Çünki zikr unutmamaq, yadda saxlamaq deməkdir.

Yadda saxlanacaq olan Allah-Təaladır. Allah ilə bağlanan müqavilə/sözləşmədir. Çünki biz Allah ilə bir razılaşma, sözləşmə etdik. Allah bizə: *Ələstu bi-Rabbikum/Mən sizin Rəbbiniz deyiləmmi?* -deyə soruşdu. Biz də: “Bəli, Rəbbimizsən,” dedik. Məhz o sözə bağlı qalmaq və onu təsdiqləmək üçün bu aləmdə bəzi davranışları etmək bizim bir vəzifəmizdir.

Bu dünyada məşğuliyyətimiz Allah rizasını qazanmağa yönəlik olduğu zaman qovuşdurucu, müvəffəq edici və müsbət davranışlardır. Amma davranışlarımız qəflət ilə sarsılmış olarsa, bu heç bir məna ifadə etməz. Dolayısı ilə bu dünyada olmağımız Allah-Təalanın rizasını qazanmaq və hər şeyin sahibinin O olduğunun fərqində olaraq yaşamaqdır. Eşitdiyimiz hər səsdə Onun səsini eşitmək, gördüyümüz hər şeydə Onun gözəlliyini seyr etməkdir.

Bu beytdə bilik və inancın, zənn və şübhədən təmizlənərək qətilik keyfiyyəti qazanmasına işarə edilir.

## YEDDİNCİ BEYT

### *NEYİN FƏRYADININ SİRRİ*

سِرّ من از نالۀ من دور نیست
لیك چشم و گوش را آن نور نیست

*Sirri-mən əz naleyi-mən dur nist*
*Leyk çeymu guş-ra an nur nist*

❃

**Tərcüməsi**
*Mənim sirrim fəryadımdan uzaqdır*
*Lakin göz və qulaqda onu eşidəcək nur yoxdur.*

***Mənzum Tərcüməsi***
*Sirrim olmaz heç iniltimdən uzaq,*
*Görməyən çox duymamışdır hər qulaq*

Mövlana bu beytdə ney vasitəsi ilə öz könül dünyasının fəryad səbəblərini danışır. “Mən fəryadımla sirrimi faş edirəm, amma mənim səsləndiyim adamların göz və qulaqlarında onu anlayacaq, idrak edəcək nur və idrak qabiliyyəti yoxdur” -deyir. Göz və qulaq onun fəryadı ilə ifadə etdiyi sirləri anlaya biləcək qabiliyyətdə olmadıqda təəssüf ki, çatdırılmalı olan məna da anlaşılmır.

Zahiri orqanlar ilə idrak olunan şeylər daha çox cism və cismaniyyət sahəsi ilə əlaqəlidir. Ruh və sirrə aid şeylər isə idrak olunur. İnsanda bir “bəsar” (göz), bir də bəsirət vardır. Bəsar insanın bədən gözü ilə surət iqliminə, əşyaya baxan yönüdür. Bəsirət isə könül, qəlb və məna gözü ilə varlıq aləminə baxaraq yeganə vacib varlıq olan Allahı anlamağa və digər varlıqların Ona qarşı mövqelərini qavramağa çalışan tərəfidir.

Qulağın eşitməsi də, gözün görməsi də könül dünyası ilə əlaqəlidir. Könül dünyası geniş olanlar batini mənalar qavraya biləcək bir qavrama qabiliyyətinə və idraka sahib olurlar.

Aləmə və hadisələrə bəsar ilə ətdən, sümükdən və yağdan ibarət olan bədən gözü ilə baxanlar isə sadəcə zahiri görür, zahiri qavrayar, mahiyyətdəki mənanı qavraya bilməzlər. Belə ki, Mövlana sirlərinin səs halına gəlmiş sözlər olduğunu, fəqət gözləri qapalı, ya da pərdəli, qulaqları tıxalı və nurdan məhrum olanların bunu qavraya bilməyəcəyini ifadə edir.

*Mənim sirrim deyildir fəryadımdan uzaq,*
*Hər kəsdə yoxdur onu anlayacaq göz və qulaq,*
*Mənim zahiri sözlərim hiss qulaqlarına çatar,*
*Fəqət cana aid nurlarımı heç kimsə duymaz*

Başqa bir şair də deyir ki, varlıq sirrinin ney nəğməsindən eşidildiyini və bu aynadan Haqqın camalının əksinin göründüyünü belə ifadə edir.

*Sədayi nəğmeyi neydən bilindi sirri vücud*
*Bəli, bu ayinədən əks edər cəmali-şühud*

Neyin səsini anlamaq üçün necə musiqini bilmək lazımdırsa, kamal əhli ariflərin səsini duymaq və sözünü anlamaq üçün də irfan sahibi olmaq lazımdır.

Qəlblərini həva və həvəsdən arındıranlar boş və mənasız söz danışmazlar. Çünki hər qəlb içindəkini sızdırar. "Sirkə küpündən sirkə, bal küpündən bal sızar." "Hər satıcı özündə nə varsa, ondan satar." Necə ki, Allah-Təala bu xüsusiyyəti aşağıdakı sözləri ilə bizə çatdırır:

***"O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir."***[57]

Mövlana Məsnəvisinin bir çox yerində düzgün başa düşülməmə qayğısı daşıdığından danışır. Bəzən: "Sözü düzgün anlayan insan həsrəti ilə yanıb tutuşduğunu" dilə gətirir. Xüsusilə Hüsaməddin Çələbiyə "Gül mövsümü keçdi, güldən geriyə suyu qaldı" deyir.

Gül dedikdə qəsd etdiyi Şəmsdir. Gül suyu isə Hüsaməddindir. Çünki Şəms ilə kəlməsiz, sözsüz, qəlbdən-qəlbə, hal və duyğuyla bir-birini başa düşərdilər. Şəms getdikdə Hüsaməddin qaldı. Məsnəvisini ona yazdırmaq məcburiyyətində qaldıqda, Mövlana qayğılandı. Buna görə də sözünü doğru başa düşən insan həsrəti çəkdiyini ifadə edir.

Sözü anlaya bilmək üçün göz və qulaqdan çox qəlb və könül lazımdır. Hz. Əliyə (r.a) aid edilən bir söz vardır: *"Qəlbdən çıxan söz qəlbə gedər. Ağızdan çıxan söz qulağı keçə bilməz".*

Bir söz könüldən çıxırsa, mütləq ünvanına, qəlbə gedib çatar. Amma bir söz də ağızdan çıxırsa, qulaq divarını keçməz.

57. ən-Nəcm, 53/3-4.

Deyilən söz də mühümdür, dinləyən də. Deyənin qəlbdən deməsi, dinləyənin də könüldən dinləməsi qarşılıqlı anlaşılmaq üçün son dərəcə əhəmiyyətlidir. Mövlana Məsnəvisinin bəzi yerlərində könül əhli olan insanların kəlməsiz və sözsüz bir-birilərini anladıqlarını deyir. Əşrəf oğlu Rumi belə deyir:

*Dil-dodaq tərpənmədən sözdən anlayan gəlsin*

İnsanda göz və qulaq, zahiri aləm ilə bağlı ən önəmli iki orqandır və mütəmadi olaraq zahiri aləmdən görüntü və səs qəbul edib qəlbə göndərir. İnsan bunlara reaksiya vermək surəti ilə zahiri aləm ilə əlaqə saxlayır. Bunların siqnalları ilə məşğul olan qəlb, Allah ilə birlikdə olmaqda çətinlik çəkər. Buna görə də təsəvvüfi təlimdə: *"Nəzər bər-qədəm",* deyə bir prinsip vardır.

Nəzər bər-qədəm: Yolda gedərkən könlün bulanmasına imkan verməmək üçün ətrafa deyil, ayaq uclarına baxmaqdır.

Göz kortəbii olaraq ətrafa baxdıqda sadəcə görülməli olanları deyil, görülməli olmayanları da görür. Görülməməli olanları gördüyü vaxt onunla məşğul olmağa başlayır və qəlbə xəvatir (yad düşüncələr) gəlir. Qəlbin bunlardan xilas olması üçün gözə, qulağa nəzarət etmək lazımdır. Vəhyin Hz. Peyğəmbərə (s.ə.s) və digər peyğəmbərlərə əsasən gecə gəlməsi yəqin ki, bu hikmətə görədir. Gecə vaxtı insanın gözünün ətrafa baxması azaldığı üçün daxili aləmə baxan gücü artar. Allah-Təala gecənin canlılığının idraka daha faydalı olduğunu açıqca ifadə edərək belə buyurur:

***"Şübhəsiz ki, gecə (namaz qılmaq üçün) qalxmaq (çox çətin olsa da) daha əlverişli və (o zaman) söz demək (Quran oxumaq, dua etmək) daha münasibdir!"***[58]

---

58. əl-Müzzəmmil, 73/6.

Gecənin ibadət ilə, təfəkkürlə keçirilməsinin qulluqda əhəmiyyətli bir yeri vardır. Bu səbəbdən səhər vaxtı dediyimiz, sübh azanından əvvəlki vaxtlarda oyaq olmaq, Haqq-Təalanı zikr etmək, Quran tilavət etmək və təsbihat ilə məşğul olmaq həm Quranın, həm də Peyğəmbərimizin (s.ə.s) öydüyü xüsuslardandır. Belə ki, bu mövzu bir çox ayələrdə yer alır:

***"Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən (ehtiyacı olanlara) sərf edərlər."***[59]

***"Onlar (müsibətlərə) səbir edən, (sözlərində və işlərində) doğru olan, (Allaha) itaət edən, mallarından fəqirlərə verən və sübh vaxtı (Allahdan) bağışlanmaq diləyənlərdir.***[60]

***"Səhərlər isə (Allahdan) bağışlanmalarını diləyirdilər."***[61]

Səhər vaxtı məğfirət diləməyin gözəlliyi, gecə qaranlığı səbəbilə gözün zahiri aləm ilə əlaqəsinin azalaraq könlə dönməsi imkanının ortaya çıxmasındandır. Çünki səhər vaxtı insandakı könül aləminin açıldığı, qəlbə aid duyğuların yüksək olduğu zamanlardır. Belə ki, Allah Rəsulu səhər vaxtının bərəkətini izah edərək buyurur:

*"Hər gecə, Rəbbimiz gecənin son üçdə biri girdikdə dünya səmasına enər və: "Yoxdurmu Mənə dua edən ki, duasına qarşılıq verim? Yoxdurmu Məndən bir şey istəyən, ona istədiyini verim? Yoxdurmu məndən bağışlanma diləyən ki, onu bağışlayım? -deyər".*[62]

59. əs-Səcdə, 32/16.
60. Ali-İmran, 3/17.
61. əz-Zariyat, 51/18.
62. Buxari, Tövhid 35, Təhəccüd 14, Dəavat 13, Müslim, Salətul-Müsafirin 166. (758); Muvatta, Quran 30, (I, 214); Tirmizi, Dəavat 80, (3493); Əbu Davud, Salət 311, (1315).

O vaxtlarda oyanıq olmaq insanın bəsarından çox, bəsirətinə yönəlməsini təmin edir. Bəsirətli möminlər beş vaxt namazdan başqa bu vaxtı dəyərləndirməyə diqqət edərlər. Belə ki, Peyğəmbərə (s.ə.s) təhəccüd namazı qılmaq vacib hökmündə idi. Ayədə buyurulur:

***"(Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl. Ola bilsin ki, Rəbbin səni (qiyamət günü hamı tərəfindən) bəyənilib tərifələnən bir məqama (axirətdə ən böyük şəfaət məqamına) göndərsin!"***[63]

Peyğəmbərimizin (s.ə.s) təhəccüd namazını qılmadığı çox nadirdir. Qalxıb qıla bilmədiyi o nadir vaxtlarda onun yerinə duha (səhər və günortanın arası) vaxtında on iki rükətlik nafilə namaz qılardı.

Oyanıq bir könlə sahib olmaq üçün ibadət və itaətlə könül dünyamızı nurlandırmağa ehtiyacımız var. İbadət və təqva ilə aydınlanan könüllərin elm, irfan və mərifətləri ilahi aləmdən gələn kəşf, ilham və lədünni(ilahi) bilgilər ilə zənginləşər.

Belə olanlara Allah bir furqan və nur, yəni hadisələrin arxa planını, xeyirini-şərini, yaxşısını-pisini ayırd etmək, bilmək qabiliyyəti verər. Allah-Təala Qurani-Kərimin aşağıdakı ayələrində buna işarə edir:

***"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər), günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf (mərhəmət) sahibidir!"***[64]

***"Ey iman gətirənlər! Allahdan qorxun və Onun peyğəmbərinə iman gətirin ki, (Allah) sizə Öz mərhəmətindən iki pay versin, sizə (qıl körpüsü üstündə) getməyiniz üçün***

63. əl-İsra, 17/79.
64. əl-Ənfal, 8/29.

***nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!"***[65]

***"Allahdan qorxun! Allah (ehtiyacınız olan şeyləri) sizə öyrədir. Allah bütün işləri biləndir!"***[66]

İbadət və itaətlər sayəsində qəlbi mühafizə edəcək bir forma və təqva əldə edilə bilər. Çünki qulun Allaha yaxınlıq və ilhama məzhər olmasının yolu itaət və ibadətdən keçir. Fərz və nafilə ibadətlər insana təqva duyğusu qazandıran və qulu Allaha yaxınlaşdıran önəmli vasitələrdəndir. Bir qüdsi hədisdə buyurulur:

*"Qulum ona əmr etdiyim fərzlərdən daha sevimli bir şey ilə Mənə yaxınlaşa bilməz. Qulum Mənə nafilə ibadətlər ilə yaxınlaşmağa davam edər. Nəhayət Mən onu sevərəm. Mən qulumu sevdikdə isə onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən nə istəsə, mütləq verərəm, mənə sığınarsa, onu qoruyaram".*[67]

Qulun Allaha yaxınlığı kəşf və ilhama məzhər olma xüsusiyyəti qazanması ilə əlaqəli bəzi rəvayətlər müvcuddur. Onlardan bəziləri aşağıdakılardır:

*"Hər ümmətin mühəddəsləri/ilhama məzhər olanları vardır. Mənim ümmətimin mühəddəslərindən biri Ömər bin Xəttabdır".*[68]

*"Öyrəndikləri ilə əməl edənə Allah bilmədiklərini öyrədər."*[69]

*"Qırx gün müddətində ixlasla Allaha qulluq edənin qəlbindən dilinə hikmət çeşmələri axar."*[70]

65. əl-Hədid, 57/28.
66. əl-Bəqərə, 2/282.
67. Buxari, Riqaq 38.
68. Buxari, Fəzail 16.
69. Hilyətül-Övliya, X, 15.
70. Kəşfül-xəfa, II, 224 (2361).

Allah Rəsulu bu xüsusiyyətlərə sahib olan fəzilətli insanların görüldükləri zaman Allahı xatırladacağını bildirir.[71] Allahın qulunun qəlbinə verdiyi nur sayəsində hadisələri və insanları daha yaxşı anlamaq və şərh etmək mümkün olur. Bir hədisi-şərifdə də belə buyurulur: *"Siz möminin fərasətindən çəkinin. Çünki mömin Allahın nuru ilə baxar."*[72]

Allahın nuru ilə baxa bilmək üçün könülə Allah sevgisini yerləşdirmək lazımdır. Bu sayədə insana bir çox sirr açılar, axirət halları isə insana ancaq ihtizar (çəkinmə) halında açılar. Kəşfə məzhər olmağın yolu, Allahın fərz qıldığı ibadətlər ilə səhər vaxtlarını oyaq keçirməkdən keçir.

Könül gözü açılanların hadisələrə baxışı fərqlidir. Səadət əsrində bunun çoxlu sayda misalları vardır. Vida həcci Peyğəmbərimizin (s.ə.s) iyirmi üç illik peyğəmbərliyi dövründə kətana naxış işlədiyi kimi könüllərlə Ərafat meydanında toplu halda görüşdüyü mühüm bir hadisədir. Peyğəmbərimiz vida xütbəsində nübüvvət həyatı boyunca Qurani-Kərimdən aldığı ümumi mahiyyətli bəyanları xülasə olaraq bəşərə bir daha təqdim etmişdir. Vida həcci əsnasında Haqq-Təala Peyğəmbərini çalışmalarının səmərə verdiyi, dinin tamamlandığını bildirən ayə ilə müjdələmişdir. Allah-Təala buyurur ki:

***"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim."***[73]

Din nemətinin tamamlandığını bildirən bu ayənin nazil olması əshabi-kiram arasında böyük bir coşqu və sevincə vəsilə olmuşdur. Yəni 125 000 səhabə Rəsulullahın (s.ə.s) ətrafında

71. İbn Macə, Zöhd 4.
72. Tirmizi, Təfsir Hicr (3125).
73. əl-Maidə, 5/3.

toplaşmış, onun könül sözlərini dinləyir və belə bir şərəfə məzhər olmağın həyəcanı ilə gözlərindən sevinc yaşları axırdı. Ardınca bu ayə nazil olduqda bütün səhabələrin könülləri bir daha coşur. Belə sevincli bir mühitdə Hz. Əbu Bəkr (r.a) dərdindən için-için ağlayır. Bu halını görənlər soruşurlar:

"− Ya Əbu Bəkr, hər kəsin coşub sevindiyi bu gündə sizin bu hüznlü göz yaşlarınızın səbəbi nədir? Hz. Əbu Bəkr (r.a) digərlərinin görə bilmədiyini görür, hiss edə bilmədiyini hiss edir və deyir ki:

"− Bütün bunlar, dinin tamamlanması, Rəsulullahın ətrafındakı 125 000 nəfərlik səhabə ordusu ilə həcc etmək çox gözəldir. Bu dinin kamala çatdığını, nemətlərin tamamlandığını bildirən ayənin bir mənası da var. O mənanın nə olduğunu bilirsinizmi?

Bu ayə Rəsulullahın (s.ə.s) aramızdan ayrılma vaxtının gəldiyini bildirir. Mən, buna ağlayıram. Yoxsa dinin kamala çatması, nemətlərin tamamlanması əlbəttə ki, məni də sevindirir."

125 000 nəfərlik səhabə içərisində sadəcə o, hadisənin əsl mahiyyətini və iç üzünü oxuyaraq başqa bir məna çıxarır. Onu görüb hiss edə bilmək üçün Hz. Əbu Bəkr kimi könülə sahib olmaq lazımdır. Çox sevdiyimiz hadisələrin arxasında bir kədər, çox kədərləndiyimiz hadisələrin ardında da bir ümid işığı hər zaman vardır. Ancaq bunu görə biləcək göz və könül lazımdır. Bəşəriyyət bü cür könüllərə sahib qullar sayəsində istiqbala ümidlə baxmış və ümidsizlik girdabını asanlıqla aşmışdır.

Əhli-beyt imamlarından Cəfər Sadiq (r.a) deyir ki: Allah-Təala məxluqatına kəmalında təcəlli etmişdir. Ancaq qəlb gözü olmayanlar bunu görə bilməzlər. Sirlərim məndə səs

halına gəlmiş sözlərdir. Fəqət gözləri dumanlı, qulaqları bağlı olanlar onu görübeşidə bilməzlər.

Sirri duymaq üçün zahir qulağını bədənə və maddi aləmə qapamaq lazımdır. Baş gözünü batini aləmə çevirmədikcə bəsirət gözü açılmaz. Bəsirət gözü ilə baxanlar da ancaq görülməsi lazm olanı görərlər. Əskik, ya da artıq deyil. Necə ki, Quranda buna belə işarə edilir:

***"Göz nə (sağa-sola) yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü)".***[74]

Bu beytdə Mövlana anlayan könüllərə sirrinin fəryadında gizli olduğunu bildirir.

---

74 ən-Nəcm, 53/17.

## SƏKKİZİNCİ BEYT

### *RUH-BƏDƏN ƏLAQƏSİ*

تن ز جان و جان ز تن مستور نیست
لیك کس را دیدِ جان دستور نیست

*Tən zi-canu can zi tən məstur nist*
*Leyk kəsra did-i can dəstur nist*

❃

**Tərcüməsi**
*Bədən candan/ruhdan, ruh da bədəndən gizli deyildir.*
*Ancaq heç kimsəyə canı/ruhu görməyə izin yoxdur.*

***Mənzum Tərcüməsi***
*Gizli qalmaz təndə can həm canda tən,*
*Canı bilmək izni yoxdur, bil ki sən!*

Bədən ət və sümükdən ibarət, göz ilə görünən vücuddur. Can və bədənin bir-birinə açılan qapıları vardır. Can/ruh, nurani, ilahi və rəbbani bir varlıqdır, görünməzdir. Bədən və can əmr aləminə görə tək gövhərdir. Ney bədənə, səsi isə cana bənzəyir. Tən canın örtüyü və məzhəridir. Aynaya üzərindəki örtü, pərdə olmadığı kimi cana da bədən pərdə deyildir. Ancaq canı görməyə icazə yoxdur. Çünki can lətif varlıqdır. Belə ki, Quranda da Allahın lətif olması səbəbilə görülə bilməyəcəyinə işarə edilir:

***"Gözlər Onu (görüb) dərk etməz. O, gözləri dərk edər. O, lətifdir (cisimlikdən uzaqdır), (hər şeydən) xəbərdardır!"***[75]

Can/ruh görünməz, amma əlamətləri, xüsusiyyətləri, təcəlliləri görünə bilər. Bu beytin iki mənası vardı:

1- İcazə olsa ruh görülə bilər. Çünki ruh məxluqdur. Yaradılmış olan nə qədər lətif olsa da dərk edilməsi qeyri-mümkün deyildir. İdrak olunmamaq zəiflik ilə bağlıdır. Allah güc verdikdə bəsar və bəsirət açılar, ruh da görülə bilər.

2- Can bədənin görünməsi ilə ortaya çıxar. Bu səbəbdən can bədəndən ayrılınca bədən surəti ilə təşəkkül edər. Ruhlar qarşılaşdıqları vaxt bir-birilərini bu surət sayəsində tanıyarlar. Bədən demək olar ki, canın rəngidir. Hafiz deyir ki:

*Məşuq sənin üçün aşikar gəzinir lakin,*
*Örtüylə örtündüyündən əğyar onu tanıya bilmir.*

Şeyx Fəzli də belə deyir:

*Cəmali-şahidi-məqsudə pərdədir bu bədən*
*Görür o canı bədən pərdəsin yaxıb kül edən.*

Peyğəmbərimiz bəzən ətrafındakı müşriklər ilə Yəhudilərin bəzi suallarına cavab verməli olurdu. Belə ki, bir gün Peyğəmbərimizdən (s.ə.s) ayın hilal, qəmər və bədir olmasını,

75. əl-Ənam, 6/103.

yəni hilaldan yarım aya, yarım aydan dolunaya dönməsinin nə mənaya gəldiyini və hikmətinin nə olduğunu soruşdular. Allah-Təala bu ayəni nazil edərək buyurdu:

***“(Ya Rəsulum!) Yeni doğan aylar (hilal) barəsində səndən sual edildikdə, söylə ki, bunlar insanların istifadəsi və həcc üçün vaxt ölçüləridir.”***[76]

Bu sualın cavablandırılmasından sonra bu dəfə Yəhudilər Peyğəmbərimizin (s.ə.s) yanına gəlib: “Ya Məhəmməd! Ruh nədir? Xüsusiyyəti nədir? Görülən bir şeydirmi? Hiss edilən bir şeydirmi? Haradan gəlmişdir? Haraya aiddir? Bizə bir bilgi ver!” dedilər. Bu sualın qarşılığında Haqq-Təala bu ayəni nazil etdi:

*“**Sənə ruh haqqında sual soruşurlar, de ki: Ruh Rəbbimin əmrindəndir. Sizə bu mövzuda ancaq azacıq bilgi verilmişdir**.”*[77]

Allah-Təala ruhun “əmr” aləmindən olduğuna işarə edən bir ifadə işlətmişdilər. Quran mədəniyyətimiz aləmi iki yerə ayırır: Birincisi yaradılan, göz ilə görünən “xəlq aləmi”, digəri “əmr aləmi”. Haqq-Təalanın əmrini yerinə yetirmək üzrə özündən idarə etmə xüsusiyyətinə sahib “mələkut aləmi” də deyilən bir “əmr” aləmi vardır. Qəlb və ruh mələkut aləmindəndir.

***“Hər şeyin hökmü (ixtiyarı) əlində olan (Allah) pakdır, müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız!”***[78]

“Əmr” kəlməsinin kökündə ruhun xüsusiyyətləri ilə bağlı bəzi nüanslar vardır. “Əmr” idarə etmək deməkdir. Ruhdakı bu əmr/idarə etmə xüsusiyyəti yer üzündə insanı Allah adına Onun hökmlərini icra etmək üçün xəlifə edən xüsusiyyətdir.

---

76. əl-Bəqərə, 2/189.
77. əl-İsra, 17/85.
78. Yasin, 36/83.

Mövlanaya görə bu aləmdə insan mələk ilə heyvan arasında orta bir yerdədir. Mələk ağlı olan, amma nəfsi olmayan, heyvan ağlı olmayan, amma onun əvəzinə nəfs və şəhvəti olan varlıqdır. İnsan isə həm mələkdəki ağlı, həm də heyvandakı nəfsi özündə cəm edən Allahın xəlifə olaraq yaratdığı bir varlıqdır. Belə ki, Qurani-Kərimdə bu mövzu haqqında belə danışılır:

***"(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", - dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara: ) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu."***[79]

İnsanın xlifə olmaq vəzifəsi ilə yaradılmasına etiraz edənlər yer üzü mələkləri, cinlər və şeytandır.

Mövlana Məsnəvisinin bəzi başqa yerlərində belə deyir: "Firon da, Musa da insanın içindədir." Ruh yönü ilə Musalıq, nəfs yönü ilə Fironluq var. Mövlana və onun kimi Allah dostları insandakı ruh, ağıl və nəfs xüsusiyyətlərini tarixi misallarla şərh edirlər. İnsan bədənini Misir ölkəsinə bənzətsək, nəfsi Misir ölkəsinə hakim olmaq istəyən Firona, ruhu Musaya, Fironun havadarları olan Misirli Qibtiləri həvaya (nəfs), ağlı da Musanın vəziri Haruna bənzədə bilərik. Necə ki, Musa və Harun Misir ölkəsini ələ keçirmək üçün Firon və Qibtilər ilə mübarizə edirdilərsə, insanın içində də ruh və ağlın, nəfs və həvaya qarşı mübarizəsi davam edir. Bəzən Musa və Harun üstün gəlir, bəzən də Firon və Qibtilər qalib gəlir. Gözəllik bu mübarizənin səbirlə davam etməsindədir. Çünki səbir insana xas bir xüsusiyyətdir. Mələklərdə səbir yoxdur. Çünki onların

79. əl-Bəqərə, 2/30.

səbir etmələrini zəruri edəcək hər hansı bir səbəb yoxdur. İradə və ağıl olmadığı üçün heyvanda da səbir yoxdur. Səbir insana aid bir xüsusiyyətdir. Belə ki, Allah-Təala belə buyurur:

***“Ey iman gətirənlər! Səbir və dua ilə (namazla Allahdan) kömək diləyin. Çünki Allah səbir edənlərlədir (onların dostudur) .”***[80]

Bu gün psixologiya deyilən “ruh elmi”nin tədqiq etdiyi ruh ilə Quranda və təsəvvüfdəki ruh arasında fərq var. Psixologiyanın tədqiq etdiyi sahədəki ruh, ruhun aşağı mərtəbəsi olan nəfsdir. Nəfsin həvası, arzuları və duyğularıdır. Psixologiya röyanı, röyanın təsirlərini, sevinc, qorxu və kədəri tədqiq edir. Bunlar nəfsə aid duyğulardır.

İnsandakı ruh ilahi əsllidir. Belə ki, Qurani-Kərim ayələrində buna işarə edilir:

***“Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan (özünün yaratdığı ruhdan) üfürdü (həyat verdi). O sizə göz, qulaq və ürək verdi. Siz (bu nemətlərə) az şükür edirsiniz!”***[81]

Bu ayə və yuxarıda keçən *ruh Rəbbinin əmrindəndir* ayəsi ilə, ilahi aləmdən gəldiyi bildirilən ruhun incəliklərinə və ucalığına psixologiyanın çatması mümkün deyildir. Geniş yayılmış bir fikrə görə dörd cür ruh vardır:

1- Camid/cansız varlıqların ruhu,

2- Nəbatət/bitkilərin ruhu,

3- Heyvani ruh: Xəlq aləmindəndir. Qəlb, ağıl və nəfs də deyilir. Maye yağ kimi bütün orqanlara yayılar. Bəzi həkimlər heyvani ruh haqqında onun qan olduğunu irəli sürmüşdülər.

80. əl-Bəqərə, 2/153.
81. əs-Səcdə, 32/9.

Bu ruhun görünən hissəsi beyindir. Buna görə də “ağıl başdadır” deyilir.

4- İnsani ruh, sultani ruh.

Hər şeyin, canlı və cansız hər varlığın bir ruhu olduğu üçün ilahi xəbəri qavraya bilməkdə özlərinə əmr edinləni, o ruh və bəsirət sayəsində yerinə yetirə bilir. Belə ki, Mövlana deyir ki:

*Əgər Allah rüzigara gözsüz bir görmə verməsəydi*
*Ad qövmünün inananlarını inanmayanlarından necə ayırd edə bilərdi?!*
*Nil çayında o ilahi nur, o göz olmasaydı;*
*Qibti və Sibtini heç seçə bilərdimi?*
*Dağların-daşların görən gözləri, eşidən qulaqları olmasaydı;*
*Davudun (ə.s) səsini dinləyib onunla dost olardılarmı?*
*Əgər bu yer üzünün can gözü olmasaydı*
*Qarunu necə çəkib uda bilərdi?*[82]

Psixologiya nəfsə aid xüsusiyyətləri tədqiq edə bilir. Buna görə də ruh ilə nəfs bəzən qarışdırılmış və ya eyni şey kimi görülmüşdür. Ruh ilə nəfs eyni şey olaraq görüldükdə nəfs, suyun donma nöqtəsi sayılan sıfır dərəcədən aşağıdakı halına bənzəyər. Necə ki, buz sıfır dərəcədən yüksəldikcə əriyib su halına gəlirsə, nəfs də mütməin (mənəvi rahatlıq) olma həddinə çatdıqdan sonra ruh mərtəbəsinə doğru yüksəlir.

Əsfələ-safilinə/ən aşağı dərəcəyə doğru düşdükcə[83] ruh xüsusiyyətlərini itirər, daha çox bədənə aid və nəfsani duyğular ilə şəhvət hakim olar. Sıfır nöqtəsi necə ki, suda donma nöqtəsidir, mütməinnə məqamı da nəfs üçün son nöqtədir. Mənəvi rahatlığa qovuşmuş ruh, nəfsdir. Bu halda olanlar nəf-

---

82. Məsnəvi, 2412-2417.
83. ət-Tin, 95/5.

sin əmrində və onun nəzarətində sayılır. Mənəvi rahatlığa qovuşduqdan sonra insan bədənində ruh hakim olmağa başlayır.

Nəfsin bir də insanın şəxsi mənliyi mənası vardır. Yunusun dediyi kimi:

*Mənə məndə demən, məndə deyiləm,*
*Bir mən vardır məndə, məndən içəru.*

Allahın insanda təcəlli edən nəfəsi ruhdur. İnsanın bədəni zahir şəkildə göründüyü kimi ruhun da əsərləri ağıl, zəka, məhəbbət və feyz şəklində zühur edər. Çünki bunlar ruhun funksiyalarıdır. İsmail Rüsuxi Ankaravi ruhun həqiqət cəhətindən göz ilə görülə bilməyəcəyini, ancaq hal cəhəti ilə görülə biləcəyini deyir.

Xilqəti etibarilə ruhu anlamaq mümkün deyildir. Ruhu anlamaq və xüsusiyyətlərindən bəhs etmək ancaq təzahürləri və tərzləri etibarilə mümkündür. Mövlana belə deyir: Can bədəndən, bədən ruhdan gizli deyildir. Bir-birindən xəbərdar olduqları bəlli nöqtələr vardır.

İnsanın dörd ünsür dediyimiz torpaq, su, hava və od xüsusiyyətlərindən torpaq və su bədən yönünü, hava və od isə ruh deyilən görünməyən tərəfini təşkil edir. Təsəvvüfdə dörd ünsürdən torpaq və suyun azalması, hava və odun artmaması üçün riyazət yolu ilə mübarizə aparmaq tövsiyə edilir. Yəni bədəni zəiflədəcək, gücü azaldacaq bir fəaliyyət icra etmək lazımdır ki, ruh güc, qüvvət qazanaraq bədən mülkünə hakim olsun. Bu surətlə Allaha qulluq və ibadət, eşq və şövqlə edilə bilsin. Mövlananın eşq motivini çox işləməsinin əsas səbəbi budur.

Mövlanaya görə ilahi aləmdən gəliş səbəbi ilə insan ruhunda bir ayrılıq və həsrət vardır. Məhz bu həsrət, eşq atəşi halında insan könlünə düşər və insan bu sayədə göz yaşı tökərsə, həqiqi qulluğa nail ola bilər.

Eşq dərd hasil edər, insanın ürəyində dərd varsa, yuxuları qaçar və onun hərəkətə keçməsinə stimul verər. İçində dərdi və sıxıntısı olmayan bir insanın hərəkətə keçməsi, yeni şeylər etməsi, məşəqqətlərə sinə gərməsi mümkün deyildir. Buna görə də Mövlana insanın qəlbinə eşqin girməsini istəyir. Eşqin də həqiqi və ilahi olanını istəyir. Çünki gerçək eşq Allaha, bu aləmi yaradan uca qüdrətə duyulan sevgidir. Allaha duyulan sevgi həqiqi eşq, digər varlıqlara duyulan sevgi isə məcazi, rəmzi və müvəqqətidir. Bununla birlikdə *"əl-məczu qantaratul-haqiqa"* sözündə ifadə edildiyi kimi həqiqətə məcaz körpüsündən keçilir. Dolayısı ilə insan bu dünyada məcazi şeyləri sevərək ilahi eşqə nail olma imkanı əldə edər.

Təsəvvüfdə məcazi eşq də məqbuldur. Çünki Leylidən Mövlaya keçilir. Ancaq bir çox sevginin bir yerdə olması məqbul deyildir. Eyni anda həm Leyliyə, həm sərvətə, həm şöhrətə talib olmaq mötəbər deyildir. Könüldəki sevgi tək olduğu təqdirdə Leyli sevgisinin Mövla sevgisinə çevrilməsi ümid edilir. Leylinin, sərvətin və şöhrətin Mövla sevgisinə çevrilməsi mümkün deyildir. Bunun üçün o sevgilərin əvvəlcə birə azaldılması zəruridir. İnsan sevgiləri təkə azaldıb birinin üstünə diqqətini cəmlədikdə o sevginin Mövla sevgisinə çevrilməsi daha asan olur.

Təsəvvüf tarixinin mühüm şəxsiyyətləri böyük mürşidlər həmişə bu sevgi motivini işləmiş və insanları sevgiyə istiqamətləndirmişlər. Sevməyi bilən insanın ilahi sevgiyə və eşqə nail olması daha asandır. Sevməkdən, mərhəmət və şəfqətdən nəsibi olmayan, ürəyi daş kimi olan birini sevən halına gətirmək, aşiq etmək çətindir. Bu, elektrik nasazlığı səbəbilə işləməyən bir avtomovili uzun müddət itələyərək işlətmək kimi bir şeyə bənzəyir. Belə bir haldakı avtomobil bəzən işləyər, amma bəzən də işləməyə bilər. Eşq insanın içindəki dinamodur, öz enerjisini özü istehsal edir. Mövlananın çalışdığı şey,

insanın ürəyinə eşqi nəql etmək və beləcə onu enerjisini öz dinamosunda istehsal edə biləcək hala gətirməkdir. Mövlana: *"Ondan gəldik, Ona qaydacağıq"*[84] anlayışını könülərə yerləşdirməyə çalışır. Bu dünyadakı çırpınmamız Ona olan həsrətimizdəndir. Ölüm şəbi-arus (qovuşma gecəsi) Sevgiliyə qovuşmaq, Allah ilə üzləşməkdir. İnsanın bədən qəfəsindəki sürgündən qurtulub Allah-Təalanın camalı ilə şərəflənməsidir. Mövlana ölümü sevilmi hala gətirmişdir. Ölmək bir tükənmək, yox olmaq deyildir ona görə. Ölmək bu aləmdən əbədi aləmə və aləmlərin sahibinə səfər və vüslətdir.

Qurani-Kərimdə eşq kəlməsi yoxdur. İbni-Ərəbiyə görə eşq kəlməsinin Qurani-Kərimdəki qarşılığı "əşəddü-hubb" məfhumudur.[85] Allah-Təala belə buyurur:

***"İnsanların içərisində Allahdan qeyrilərini (Allaha) şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır."***[86]

İbni Ərəbi yüksək sevgi eşqdir, deyir. Mövlana, Yunus Əmrə və onlar kimi digər ariflər də bu anlayışı mənimsəmişlər.

Eşq sarmaşıq deməkdir. Sarmaşıq necə sarıldığı ağacı, divarı və ya başqa sahələri kənardan baxanların görə bilməyəcəyi şəkildə əhatə edərsə, eşq də insanın bütün zərrələrini sarar. Sadəcə bir anlıq sevgi qığılcımı eşq deyildir. Eşqin eşq oması üçün insanın hər tərəfini əhatə etməlidir. Quran buna işarə edir:

***"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar ancaq öz Rəbbinə təvəkkül edər."***[87]

84. əl-Bəqərə, 2/156.
85. el-Fütuhatül-Mekkiyye, II, 337
86. əl-Bəqərə, 2/165.
87. əl-Ənfal, 8/2.

Məhz eşq belədir. Əshabi-kiram Allah və Rəsulunun adı xatırlandığı zaman qəlblərindəki hərəkət səbəbilə əlləri ilə qəlblərini sıxmaq ehtiyacı hiss edərdilər. Bizim bu gün adət olaraq etdiklərimizi onlar zərurət olaraq edərdilər. Allah deyildikdə Peyğəmbərimizin (s.ə.s) adı xatırlanan kimi qəlbləri yerindən çıxacaqmış kimi olduğu üçün əlləri ilə sıxmaq lüzumu hiss edərdilər. Eşq səhabələrin yaşadığı bu duyğudur. Bütün vücudu, zehni və qəlbi idarə edəcək sevgidir.

Ruhun prizma kimi müxtəlif görüntüləri və xüsusiyyətləri vardır. Bir tərəfdən baxıldıqda qəlb, digər tərəfdən baxıldıqda ağıl olur. Başqa bir tərəfdən baxıldıqda isə nəfs halına gəlir. Hamısı ruhun təzahürləridir. İnsandakı bu ilahi əsinti bizi Rəbbimizin dərgahına doğru çıxarır. Onu dinləsək bizi yuxarı tərəfə çəkib çıxarar. Amma insanın aşağıya doğru çağıran bir tərəfi də vardır. O da bizim torpağa və bədənə aid duyğularımızdır.

Bu beytin xüsusiyyəti ruh-bədən, maddə-məna əlaqəsi haqqında bəhs etməsidir.

## DOQQUZUNCU BEYT

### *NEY SƏSİ YANDIRAN BİR ATƏŞDİR*

آتش است این بانگِ نای و نیست باد
هر که این آتش ندارد، نیست باد

*Atəş əst in bangi-nayu nist bad*
*Hər ki in atəş nə darəd nis bad*

❃

**Tərcuməsi**

*Neydən çıxan yanıq səs atəşdir, yel/rüzgar deyil,*
*Özündə bu atəşi tapa bilməyən kimsə yox olsun*

***Mənzum Tərcüməsi***

*Atəş artıq, yel deyildir ney səsi*
*Kimdə od yox, yoxluq olsun hissəsi*

“Bank” Fars dilində səs deməkdir. Gülbank/gülsəs isə dua mənasındadır. Ney səsi ürəkləri dağlayan bir sədadır. Assosiasiya (çağırışım) psixologiyası ilə dinləyənləri yanıb yaxılaraq gəldikləri aləmə, “ələst bəzmi”nə aparır.

Mövlana bu beytdə insanın ürəyində bir atəşin lazım olduğunu açıqca ifadə edir. İnsan olmaq, insanlığınızın fərqinə varmaq istəyirsinizsə, ürəyinizdə dərd, atəş və sızıltı olmalıdır.

Bu atəş həsrət atəşidir. Araya girən dünya bədən və digər pərdələr səbəbi ilə Haqdan uzaqlaşmağın atəşini ürəyində hiss etmək, mütəmadi olaraq Ona qovuşma, Onunla bərabər olma arzusu ilə yanıb tutuşmaqdır. İlahi eşq bir dəfə parladısa, məşuqdan başqa hər şeyi yandırar.

Bu beytdə atəş dedikdə İlahi eşq nəzərdə tutulur. Bu mənaya görə beyti bu şəkildə şərh etmək mümkündür.

1- Kamil ariflərin sözləri eşq atəşi kimidir. Həva və həvəsdən ibarət olan boş sozlərə bənzəməz. Eşqdən uzaq öz mənliyində qərq olanlara bu atəşin təsiri olmaz.

2- Bu eşq atəşini dadıb feyz ala bilməyənlər özlərini riyazət və mübarizə ilə fəna/yoxluq iqliminə çatdırsınlar. Beləcə nəfsani istəklərindən yaxa qurtararaq ruhani eşqi dada bilərlər.

3- Eşq atəşini dadmayan, cism və maddədən ibarətdir. Külək kimi xəfif deyildir.

Ney dinləyəcək insanda təsirlənəcək bir qəlb, ruhani bir sevinc, cəzbəyə açıq bir sirr və könül olmalıdır.

Allah quluna yaxındır. Ancaq insanlar çox vaxt araya girən dünya, bədən və digər pərdələr səbəbilə bunun fərqinə varmazlar. Allah-Təala bu yaxınlığı belə ifadə edir:

***“And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da***

***yaxınıq! (İnsanın adi hərəkətlərindən tutmuş ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur!)”***[88]

**Mövlana Şibli deyir ki,** Allah bu bərabərliyi xəbər verdiyinə görə əgər insanın bu bərabərlikdən xəbəri yoxdursa, deməli, qüsur və əskiklik özündədir. Belə ki:

***“Siz harada olsanız, O sizinlədir. Allah sizin nə etdiklərinizi görəndir!”***[89] ayəsini şərh edən bir vaizə Mövlana Şibli deyir ki: “Bəli, möhtərəm vaiz, harada olursunuzsa olun, Allah bizimlə bərəbərdir, bunda şübhə yoxdur.”

Amma sən kiminlə bərabərsən?

Ürəyin onunla döyünürmü?

Gözün Onunla görürmü?

Qulağın onunla eşidirmi? Yoxsa başqası iləmi görür, eşidir? Onunla birlikdə olmaq bu mənaya gəlir.”

İnsan olmağın yolu mənlikdən qurtulmaqdır. “Mən, mən”, deyən və dayanmadan özünə aid xüsusiyyətləri önə çıxaran və bunların Haqqın bir ehsanı olduğunu deyən və özündə əsla bir varlıq görməyəndir.

Bu gün “fərdi inkişaf” deyə bir idarəetmədən bəhs edilir. Fərdi inkişafçılar, şəxsiyyəti təlim etməyin əsas ünsürlərindən birinin heçlik duyğusu olduğunu bildirirlər. Heçlik insanın təvazökarlıq nöqtəsinə çatmasıdır. Bir insan “mən” duyğusunu önə çox çıxarırsa, ətrafına narahatlıq verməyə başlayar.

Əvvəllər dərgahlardan içəri girilən yerdə tam qiblə istiqamətində “Ədəb, ya Hu” yazılardı. Qapıdan girildikdə ilk görülən lövhə bu idi. Yəni bir növ sən ədəbin təlim edildiyi bir yerə, Allahın evinə girirsən. Burada əvvəlcə Allaha, sonra burada olanlara qarşı ədəblə davran mənasında bir ədəb təlqini idi.

---

88. Qaf, 50/16.
89. əl-Hədid, 57/4.

Qapıdan çıxarkən də qapının tam üstündə böyük hərflərlə bir "HEÇ" lövhəsi olardı. O da: "Özünə yaxşıca bax, sən heçsən və heç olduğun təqdirdə nə isə bir şeysən. Heçliyinin fərqində olmadığın zaman isə həqiqətən bir heçsən" -deməkdir.

Mövlana demək istəyir ki: Ürəyində bir həsrət və bir eşq atəşi Allahdan gəlib Ona qayıdacağın qayğısı varsa, onda sən neyin səsini, bülbülün səsini və başqa səsləri dinləyərkən də bunların Ona aid olduğunu anlayarsan. Onlara o gözlə baxar, qəlbən Allaha ilə əlqə qurarsan.

İnsanlar və varlıqlar onlara eyni duyğu və həyəcanları paylaşanlara özlərini daha yaxın hiss edərlər. Ona görə də kəklik ovçuları kəklikləri toplamaq və onları bir vadidə ovlamaq üçün, ya kəklik səsini təqlid edərlər və ya qeydə aldıqları kəklik səslərini onların eşidə biləcəkləri şəkildə oxutdurarlarmış. Beləcə kəkliklər vadidə dostlarının olduqlarını zənn edib vadiyə gələr və ovçular da onları ovlayarlarmış.

Kəklikdə belə öz cinsinin səsinə doğru can atma xüsusiyyəti olduğuna görə, insanda da öz həmcinsinə doğru bir meyil vardır. Belə ki:

***"De: "Hərə öz qabiliyyətinə (xislətinə) görə iş görər. Rəbbin kimin daha doğru yolda olduğunu daha yaxşı bilir!""***[90] ayəsində buna işarə edilir.

***"Amma (ümmətlər) öz dinini aralarında parçalayıb firqə-firqə oldular. Hər firqə öz dininə sevinir. (Öz dinini haqq, digər dinləri batil hesab edib bundan məmnun olur) .""***[91] ayəsi də bu mənaya gəlir. Yəni hər kəs öz halından məmnundur. Mömin imanı ilə sevinclidir və möminlər ilə birlikdə olmağın xoşbəxtliyini yaşayır.

90. əl-İsra, 17/84.
91. əl-Muminun, 23/53.

Kamil arifin kəlamı atəş kimi insanın ürəyini yandırar və onu əvvəldən içində olduğu aləmlərə doğru çəkər. Bu həva və həvəsdən meydana gələn bir söz deyildir. Necə ki, neyin səsi dinləyənlərə görə ayrı-ayrı təsir edirsə, kamil mürşidin də sözü insanların ürəklərinə hərəkətverici bir səda kimi təsir edər. Şəmsin Mövlananın qəlbini oyatması kimi.

Mövlana, Şəmsi Təbrizini tanımazdan əvvəl Konya mədrəsəsində müdərrislik edirdi. İmam Qəzali səviyyəsində bir alim idi. Amma Şəmsi Təbrizini tanıdıqdan sonra onun ürəyində alovlandırdığı məşəl səbəbilə qəlbi yanmağa başladı. Buna görə Mövlana: *"Xam idim, bişdim və yandım",* sözünü Şəms ilə tanış olduqdan sonrakı dövr üçün istifadə etmişdir.

Mövlanadakı istedad Şəms tərəfindən ortaya çıxarılmışdır. Onsuz da nəbilər, mürşidlər və gerçək müəllimlər, insanlarda var olan istedadları ortaya çıxarır və ona görə təlim edirlər. Peyğımbərlərin, mürşidlərin vəzifəsi budur. Ona görə də Peyğəmbərimiz:

*"İnsanlar qızıl, gümüş və mədənlər kimidirlər. İslamdan öncəki dövrlərdə xeyirli olanlar, İslam dövründə də İslamı qavramaq şərtilə xeyirlidirlər. Ruhlar hərbi dəstələr kimidirlər. Bir-birlərini tanıyan ruhlar bir-biriləri ilə ünsiyyət qurar, dostlaşar, tanımayanlar da ixtilafa düşərlər."*[92]

İnsanda bəzi mədənlərin filizləri vardır. Müəllimlər, mürşidlər, mürəbbilər (tərbiyəçilər) o mədən filizlərini ortaya çıxarıb təlim edər, qabiliyyətlərini inkişaf etdirərlər və onları insan halına gətirərlər. Allah-Təala insanların fitrətlərinə bu cür qabiliyyətlər qoymuşdur. Bunun ortaya çıxması üçün müəllim, mürəbbi və mürşid tapmaq lazımdır. Ən azından insan özözünə dərdlənib ürəyindəki yanğını alovlandrmalıdır ki, insan olduğunun fərqinə vara bilsin.

---

92. Buxari, Ənbiya 2; Müslim, Birr 159-160.

Təsəvvüf təlimində “əxyar” və “əbrar” adı verilən təlim tətbiqatları vardı. Əxyar yolundan getmək daha çox ibadət və itaət ilə Allah eşqinə nail olmaqdır. Nafilə ibadətlər, zikr və Quran tilavəti ilə insanları eşqə hazırlayar. Əbrar yolu isə mücahidə ilədir. Burada salik daha çox riyazət ilə təlim etdirilir. Çətinliklərə qatlanaraq, çilə çəkərək, az yeyərək, az yataraq, az danışaraq ürəyində bir atəşin alovlanması əsasdır.

İbadət, itaət və qulluqda eşqin birlikdə olması kamal ifadəsidir. İbadətsiz və itaətsiz eşq bir məna ifadə etmir. İnsanı eşq səviyyəsinə çatdırmamış, ürəyində bir yanğın əmələ gətirməmiş ibadət və itaət kamala çatmaq üçün kifayət deyildir. Kamala çatmış bir mömin və müsəlman olmaq üçün həm eşq sahibi, həm də itaət və ibadət sahibi olmaq lazımdır. Təsəvvüfdəki əxyar və əbrar metodunun qayəsi Allah eşqini alovlandırmaq və bu surətlə insanı çətinlik çəkmədən ibadət etməyə yönləndirməkdir. Sübh erkəndən yatağından qalxarkən:

***“Onlar ibadət üçün yataqlarından qalxar (gecələr az yatar), qorxu və ümid içində (Allahın əzabından qorxaraq, mərhəmətinə ümid bəsləyərək) Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən (ehtiyacı olanlara) sərf edərlər”***[93] ayəsində buyurulduğu kimi Allah rizasını umaraq və Ondan qorxaraq eşq ilə ibadətə can atsın, tənbəl-tənbəl ərinərək deyil. Eşq olduğu zaman bütün bunlar asanca olur. Əsas olan insanın könlündə bu eşq atəşinin alovlanmasını təmin edəcək mühiti yaratmaqdır.

İnsan etdiyi ibadətlərdən əsla özünə pay çıxarmamlıdır. Yəni “mən hər kəsin yatdığı saatda təhəccüd namazı qıldım, təsbihat və Quran tilavəti ilə məşğulam” deyərsə, bu, onun üçün bir itkidir. Əksinə insan: “Mən əslində bir heçəm. Allahın

93. əs-Səcdə, 32/16.

sonsuz nemətlərinin qarşılığında heç bir şey etmirəm" -deyə bilməlidir. Etdiyi ibadət, xeyirxahlıq və yaxşılıqları az bilər və daha çox etməli olduğuna inanarsa, onda bu duyğu insanı kamilləşdirir. Bu səbəbdən Mövlana, "nist bad/yox olmağa çalış", yəni fənaya, heçliyə can at, varlıq dünyasından uzaqlaşmağa cəhd göstər, deyir.

Keçmişdə dərgahlarda "mənim xirqəm", "mənim cübbəm", deyə əşyaları özlərinə aid edənləri əşyaları ilə birlikdə dərgahdan qovarlarmış. İnsanda "mən, mən" olmamalıdır. Bu səbəbdən gerçək tövhid, təsəvvüfi ifadəsi ilə "isqatul-yaat"dır."

İsqatul-yaat demək "yə" hərfini ortadan qaldırmaq deməkdir. Ərəb dilində "yə" birinci şəxsin təki üçün mənsubiyyət şəkilçisidir və əşyanın, əməlin aidiyyətini bildirir. Məsələn, "kitəbi/mənim kitabım" (kitəbi, sözünün sonunda görünməyən "yə" hərfi var) deyərkən sondakı "yə" hərfi "mənim" mənasını verir.

Bunun mənası belədir: Sözün həqiqi mənasında tövhid əhli olmaq istəyirsinizsə "yə" ilə məşğul olmayın, "mən, mənim" deməkdən qurtulmağa çalışın. Çünki bu aləmdə "qaim bi nəfsih/varlığı özündən olan" deyilik. Allah lütf etdiyi üçün varıq.

Allah göstərdiyi üçün görür, yedirdiyi üçün yeyirik. Hər şeyimiz Ondan asılıdır. Dolayısı ilə, bizim özümüzə aid bir varlıq olaraq iddia etməyimiz Haqq-Təalanın xoşuna gəlməz. Mövlana, Allah dərgahında saheh bir qul, insanlar arasında məqbul olmaq istəyirsinizsə, eqoizmdən xilas olun, demək istəyir.

Mövlana eşq atəşini alovlandırmaq üçün qulun maddi varlığından uzaqlaşıb, mənəvi varlığa doğru yönəlməsini, könül dünyasını abad etməsini bir vəzifə olaraq qarşıya qoyur. Kamal sahibi insanların əsl məqsədi varlıqlarını nümayiş etdirmək deyil, Allahın varlığı qarşısında öz varlığından arınmaq,

nəfsini paklaşdırmaq və qəlbini saflaşdırmaqdır. Allah-Təala buyurur:

***“And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır.”***[94] Nəfsi paklaşdırmağın yolu “mən, mən”, deməkdən uzaqlaşıb özümüzə aid iddialardan yaxa qurtarmaq və nəfsin qurduğu tələlərdən xilas olmaqdır. Çünki ayədə:

***“Nəfs (insana) pis işlər görməyi (şəhvətə uymağı) əmr edər.” –buyurur.***[95]

Nəfsi paklaşdırmaq üçün daim ağıl və qəlb arasında bir uyğunluq qurmaq, bununla birlikdə davranışımızı qəlb mərkəzli etməyə çalışmaq məcburiyyətindəyik.

Ney səsinin eşq olduğunu və eşq əsintisinin insanın ürəyini yaxdığını ifadə edən bu beyt eyni zamanda eşqdən nəsibi olmayan kəsin fəna yoluna doğru qanad açmalı olduğunu ifadə edir.

Bu beytdə Mövlana özündən keçmədən, fəna məqamına çatmadan həqiqi mənada kamalın və bəqanın mümkün olmayacağına işarə edir.

94. əş-Şəms, 91/7-10.
95. Yusuf, 12/53.

## ONUNCU BEYT

### *NEY VƏ MEYDƏKİ EŞQ ATƏŞİ*

آتش عشق است کاندر نی فتاد
جوشش عشق است کاندر می فتاد

*Atəşi-eşqəst kəndər ney futad*
*Cuşişi-eşq əst kəndər mey futad*

❃

**Tərcüməsi**
*Neyə düşən eşq atəşidir*
*Meyi də coşduran eşq atəşidir.*

***Mənzum Tərcüməsi***
*Eşqin atəşidir gəlib düşmüş neyə,*
*Eşqdən artıq çağlayış keçmiş meyə*

Mövlana Məsnəvisinin girişi sayılan on səkkiz beytlik hissəsində eşq kəlməsini ilk dəfə bu beytdə tələffüz edərək aləmin yaranması və davam etməsində eşqin, cəzbə və sevginin əhəmiyyətinə işarə edir. Birinci misrada neyin düçar olduğu şeyin ilahi eşq olduğu deyilir. İkinci misradakı mey/şərab isə ruh mənasında, ya da məcazi eşq mənasındadır.

Mey/şərab sözünün Ərəb dilindəki qarşılığı *xamr*dır. *Xamr* isə örtmək deməkdir. İçki ağlı örtdüyü üçün bu ad ilə ifadə edilir. Xumur kəlməsi də yenə eyni kökdən olub, baş örtüyü mənasındadır. Eşq kəlməsindəki örtmə mənası xamrda da var. Məcazi eşq, şərabın təsiri kimi müvəqqətidir.

Hər şeydə eşqin təsirinin varlığı ümumiyyətlə qəbul edilən bir görüşdür. Belə ki, kənzi-məxfi (gizli xəzinə) sirri bunu açıqlayır: *"Mən gizli bir xəzinə idim. Mərifətimi/bilinməmi məhəbbət etdim. Məxluqatı yaratdım".*[96] Məhəbbət əvvəlcə Haqda zühur etmişdir. Aləmlər içində Haqqa və eşqə yad olan heç bir zərrə yoxdur.

*Hər kəsin halınca vardır bir təcəlligahi-eşq*
*Bi-sütun Fərhada kuhi-Tur şəklin göstərir.*

Bu dünyada atomun içindəki neytron və protondan səmadakı göy cisimlərinə qədər hər şey cəzbə, sevgi və eşq ilə dönür. Hətta deyilir ki: Bülbülün gülün qarşısında ürəyindən nazlı-nazlı ahəngli sədalar çıxararaq oxumasına səbəb olan da eşqdir. Bir sərxoşun bağırtılarının təməlində də eşq vardır.

Amma birisi himari, digəri isə həzaridir. Yəni ki, biri uzunqulağın eşqi və sevgisi, digəri bülbülün eşqi və sevgisidir. Biri süflidir, digəri ülvidir. Himaridən həzariyə, həzaridən ilahi və həqiqi olana qanad açmaq lazımdır. İnsan sadəcə himari sevgidə qalmamalıdır. Belə ki, Qurani-Kərimdə buyurulur:

96. Kəşful-Xəfa, II, 132, (2016).

***“Yerişində müvazinət gözlə (nə çox yeyin, nə də çox asta get) və (danışanda) səsini qaldırma. Çünki ən çirkin səs uzunqulaq səsidir!”***[97]

Ayədə ən çirkin səsin uzunqulaq səsi olduğu bildirilir. Bu ayənin təfsirində müfəssirlər səsin çirkinliyinin uzunqulağın anqırma səbəbinə bağlı olduğuna görə olduğunu bildirirlər. Çünki uzunqulaq iki halda anqırır: Qarnı acdığı və qarşı cinsdən bir uzunqulaq gördüyü vaxt, uzunqulağın anqırma səbəbinə görə uzunqulaq səsini Allah-Təala ən çirkin səs olaraq səciyyələndirmişdir.

Ədəbiyyatımızda sadəcə heyvani duyğular ilə sevgisini ifadə edən insanların eşqinə uzunqulaq eşqi deyilmişdir. Eşq ruhun ruha qarşı həvəsidir. Bədənin bədənə olan sevgisi isə şəhvətdir. Könüldə daha ülvi, iffətli məhəbbət duyğularının sevgisinə eşqi-həzari/bülbül eşqi, yəni bülbülün gülə olan eşqi kimi bir eşq ifadəsi istifadə edilmişdir ki, bu da məcazi eşqdir. Amma əsas olan həqiqi və ilahi eşqdir. O da insan könlünün Haqqa açılması və ilahi məhəbbətin qəlbə dolmasıdır.

Belə bir rəvayət vardır: *“Kim qarşı cinsə eşq ilə bağlanaraq məhəbbət duyar, amma bu duyğunu himari bir duyğu ilə nəticələndirmək kimi bir hədəf tutmaz və sonra da qovuşmadan bu iffətli sevgisi ilə ölərsə, bu kimsənin ölümü şəhidlikdir.”*[98]

Burada bir iffət var. Kim eşq ilə birini sevər, iffət ilə yaşayar və bu sevgisini gizlər, sonra da ölərsə, bu sevgisinə görə şəhidlik mərtəbəsinə çatar. Burada şühud/gözün açılması, könlün açılması və müşahidə iqliminə girmək əsasdır. Şəhid kəlməsində görmə, müşahidə etmə, ilahi gözəllikləri seyr etmə mənası da vardır. Dolayısı ilə o insanın bu iffətli sevgisi səbəbilə məcazi eşqdən ilahi eşqə keçməsi ümid edilir.

97. Loğman, 31/19.
98. Zadul-məad, IV, 251.

Sivasi həzrətləri Allah-Təalaya könlü yanıq bir aşiq kimi xitab edərək: “Ya Rəbbi, əgər Sən mənim mənliyimi istəmir və Sənin hüzuruna bu şəkildə gəlməyimi qəbul etmirsənsə, mən öz nəfsimi yox etməyə hazıram. Sən nədən xoşnud deyilsənsə mən də xoşnud olmaram. Madam ki, Sən məliksən və “mən, mən” deyilməsini xoşlamırsan, mən də onda mənliyimdən vaz keçərəm:

*İstəməzsən məni Sən, öldürərəm kəndimi mən*
*Sənə hər kim yaramaz isə, mən dahi yaramam*

**Molla Caminin** də bu mənada belə bir sözü var. Sən öz mənlik aləmindən zərrə qədər bir şey azalda bilmirsənsə, ibadətini artırmağının elə də bir faydası yoxdur:

*Ey şeyx taət xırmanını artırsan nə fayda*
*Əgər əskiltmirsənsə öz vücudundan bir arpa*

Çünki əsas olan sənin “mən, mən” deməkdən xilas olub: Ya Rəbbi, Sən varsan, mən yoxam, nə verdinsə odur, hər şeyimiz Səndəndir, deyə bilməkdir. Allah lütf edir namaz qılırıq, alnımızı səcdəyə qoyuruq, oruc tuturuq və digər ibadətləri edirik. Bunların hamısı bir ilahi lütf olaraq görüldükdə gözəldir. İbadətlər mənlik iddiasına vəsilə olduqda bir işə yaramaz. Hüdayi həzrətləri də on üç, on dörd yaşlarında ikən iki əziz övladını epidemik bir xəstəlik səbəbilə torpağa tapşırarkən belə demişdi:

*Alan sənsən verən sənsən qılan sən,*
*Nə verdinsə odur dahi nəmiz var.*

Hər şey Səndəndir, ya Rəbbi! Mənim varlığım da, övladlarımın varlığı da, mənə aid olduğu görünən hər şey Sənin lütfünün əsəridir. Bursalı İsmail Haqqı həzrətləri deyir ki:

*Kərəmi-eşq olmasa könül çu tənnur*
*Necə mümkün ola ki, məhzəri-nur*

*Naleyi-neyə tutulmadıqca qulaq*
*Bülbüli-vaxt isə də var ötə dur.*

Eşqin kərəmi olmasa bizim könül dünyamız necə təndir olsun? Könlümüz eşq ilə dolmazsa, könlün ilahi nurun təzahürü olaraq görünməsi mümkün deyildir. Sən neyi dinləmirsənsə, neyin və kamil arifin Allaha dəvət edən səsini can qulağı ilə dinləməyib o duyğular ilə bülbül kimi oxumursansa zamanın bülbülü olsan da o biri tərəfdə, get uzaqda oxumağa davam et, mənə yaxın durma. Ya da əgər zamanın bülbülüsənsə, onda Allah deyərək oxu!

Eşq məhəbbətin bir az yuxarı səviyyəsidir. Cəzbənin Allah qatına doğru çəkilişin ilk pilləsi məhəbbət, yuxarı səviyyəsi isə eşqdir. Eşq zatın sifətə meyili zamanı qəlbdə zühur edən və bütün damarlara gedib çatan hissdir. Qulluqdakı həyəcan ilahi məhəbbət ilə başlar və eşq ilə zirvəyə çatar. Əslində eşq insan vücudunda axan və daima var olan bir sevgi hissinin insan damarlarında və vücudunun hər tərəfində hiss edilməsidir. Bu səbəbdən "nuri-məhəbbət, nari-eşq" ifadələri işlədilmişdir. Məhəbbətdən hasil olan nur, eşqdən hasil olan isə nardır (atəş). Nur işıq, nar isə atəşdir. Nar nurun batinidir.

Cüneyd Bağdadi rəvayət edir: Rəvayətə görə nar/atəş Allaha soruşur: "Ya Rəbb, mən sənə itaət etməsəm məndən daha şiddətli əzabın varmı?" Allah-Təala buyurur: "Bəli, övliyaların qəlblərindəki məhəbbət atəşi, səndən daha şiddətlidir."

Təsəvvüf ədəbiyyatında nur Adəm kimi müzəkkər/kişi cinsi, nar isə müənnəs/qadın cinsi qəbul edilir. Nurda bir aydınlatma xüsusiyyəti var. O insanı aydınladır, amma nur yüksəldikdə istiliyi nara/atəşə çevrilir və yandırmağa başlayır. Məhəbbətin yuxarı səviyyəyə çıxması Mövlananın ifadəsində "eşq" adlanır.

Eşq ümumiyyətlə iki kateqoriyada qeyd edilir. Məcazi və həqiqi eşq. Məcazi eşq Allahdan başqa varlıqlara duyulan sevgidir. Həqiqi olmayıb, keçici və müvəqqətidir. Amma qalıcı olan ilahi və həqiqi eşqdir. Həqiqi eşq günəş kimidir. Necə ki, günəşin istiliyi ona yönəldikcə insanı isidir, yandırır və olğunlaşdırırsa, ilahi eşqə könül qapılarını açmış bir insan da zaman keçdikcə olğunlaşır, kamala çatır və yanıb qovrulur.

İlahi eşqə nail olmuş bir insanın könlündə başqa sevgilər də ola bilər. Çünki ilahi sevgi günəş kimidir. Tort kimi bölüşdürüləcək bir şey deyildir. İlahi sevgi eşqin qaynağı olduğu üçün içində hər cür sevgiyə: peyğəmbər sevgisinə, ailə sevgisinə, övlad sevgisinə yer vardır. Amma digər sevgilər məcazi və dünyəvi olduğu üçün ilahi eşqin qarşısına keçib ona kölgə düşürməməlidir. Bunun üçün məcazi eşq ilahi eşqə aparan bir körpü və vəsilə olaraq qəbul edilir. “Əl-məcazu qantaratul haqiqa”, deyilmişdir. Məqsəd və hədəf ilahi eşqə nail olmaqdır.

Kainatda hər nə var isə ilahi gözəlliyin təsiri ilə olduğunu şair belə ifadə edir:

*Səndə qaldı təcəlli hüsnü əzəl*
*Hüsnünə bəndə oldu cümlə gözəl*

Çünki bu kainatda bütün gözəlliklərin sahibi Allah-Təaladır:

***“Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!”***[99]

Hüsn gözəllik deməkdir. Kainatda Haqq-Təalanın camal təcəlliləri vardır. Hüsn və camal axtarışında olan insan ehsan ruhu içində, yəni Allahı görürmüş kimi qulluq etmək dərdindədir ki, beləcə həqiqi gözəl olanı tapa bilsin. İnsan bu

99. əl-Muminun, 23/14.

gözəllikləri əldə edə bildikdə qulluq etməsi asanlaşır, kainatdakı digər varlıqlara sevgi bəsləməsi reallaşır. Bir Allah dostu belə deyir:

*Eşq bir mənayi-lə yurafdır ki, cümlə aləmi*
*Zövqü miqdarınca sərqanı xuruşan eylər.*

Eşq elə bilinməyən bir mənadır ki, hər kəsi öz qabiliyyətinə görə sərxoş edər və Allah-Təalaya doğru gedən bir sevgi ilə bağlanmasını təmin edər. Belə ki, "ənəl-həqq" sözünün sahibi Həllaci-Mənsur edam edildiyi əsnada qanı yerə axarkən, qanının üzərində "Allah, Allah" deyə ləfzətullahın göründüyü nəql edilir. Başqa bir rəvayətdə, Yusifə (ə.s) aşiq olan Züleyxanın qanında da "Yusif, Yusif" adının nəqş olunduğu rəvayət edilir.

Kimin könlünü hansı sevgi sarmışdırsa, o sevgi təzahür edir. Pulu çox sevən insanın son dəmində əlinin elə hey pul saymaq işarəti ilə hərəkət etdiyi və ya ağzından onunla bağlı şeylər çıxdığı bilinən hadisələrdəndir. İnsan nəyə könlünü aludə edərsə, könlünü nə ilə doldurarsa, son dəmində də onu tələffüz edər. Ona görə də qulun dili ilə Allah adını tələffüz edən və qəlbi ilə Allahı zikr edən hala gəlməsi üçün mütəmadi olaraq qəlbinin zikr ilə məşğul olması əmr edilir. Qurani-Kərimdə 256 yerdə keçən zikr kəlməsinin təməlində də bu vardır.

Quranda bir mütləq zikr, bir də muqayyəd zikr əmrləri vardır. Mütləq zikr Allahı heç unutmayacaq tərzdə Onu qəlb ilə anmaqdır. Belə ki, bu ayələr mütləq zikrə işarə edir:

***"Ey iman gətirənlər! Allahı çox zikr edin!"***[100]

***"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar..."***[101]

100. əl-Əhzab, 33/41.
101. Ali-İmran, 3/191.

Muqayyəd zikr əmr edilmələri zamana, şərtlərə bağlı olaraq, müəyyən şəkillərdə qılınan namaz, Quran oxunması və digər şəkillərdəki ibadətlərdir. Allah-Təala belə buyurur:

***“Səhər-axşam Rəbbinin adını zikr et! (Səhər, günorta və ikindi namazlarını qıl!)”***[102]

Bu ayədə həm vaxt baxımından, həm də açıq şəkildə ad bildirilərək muqayyəd zikr əmr edilir. Allahı mütəmadi olaraq xatırlayacaq hala gəlmək eşqdir. Çünki ilahi eşqə nail olan kimsə Allah-Təalanı durmadan anar. Məcazi eşqə tutulan yeməkdən-içməkdən kəsilər, gecələri yuxusuz qalar, tənha gəzib-dolaşmağa başlayar, durmadan sevdiyini düşünər, ondan bəhs etmək istəyər. Məcazi eşqə tutulanların sonu bu olunca ilahi eşqə talib olan ilk növbədə yeməyi, içməyi, yatmağı azaltmalı və durmadan Allahın adı ilə məşğul olmalıdır ki, ilahi eşq onun hər tərəfini sarsın. Yusifin (ə.s) sevgisi könlünə düşən Züleyxa üçün Qurani-Kərimdə belə deyilir:

***“Şəhərdəki qadınlar dedilər: “Vəzirin övrəti cavanı (cavan qulunu) tovlayıb yoldan çıxartmaq (onunla yaxınlıq etmək) istəyir. (Yusifin) məhəbbəti onun bağrını qan etmişdir. Biz onun açıq-aşkar (doğru) yoldan çıxdığını görürük”.***[103] Züleyxanın könlü və bədəni Yusif sevgisi ilə dolub daşırdı.

İlahi eşqin ucalığı haqqında Bəqərə surəsində belə buyurulur: ***“Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir.”***[104] Həqiqi iman sahibləri eşq sayəsində Allah sevgisinə sahib olmuşdular.

Qurani-Kərimin Əhzab surəsində Allahın insana yüklədiyi əmanət məfhumunu bəzi Allah dostları eşq mənasında açıq-

102. əl-İnsan, 76/25.
103. Yusuf, 12/30.
104. əl-Bəqərə, 2/165.

lamış, bəziləri isə ağıl olduğunu demişdirlər. Allah-Təala belə buyurur:

***“Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən (götürüb özləri ilə daşımaqdan) qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir. (İnsan bu ağır əmanəti götürməklə özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi).”***[105]

Təsəvvüf əhli burada keçən əmanətin, eşq səviyyəsinə gəlmiş bir iman olduğunu ifadə etmişdirlər. Belə ki, Hüdayi həzrətləri deyir ki:

*Kənzi-məxfidən zühura gəldi əşya lə-cərəm*
*Badi-hub ilə təməvvüc etdi çün dəryayi-eşq.*

Bursalı İsmail Haqqı həzrətləri də belə deyir:

*Kim olur boynuna deyu,*
*Haqq-Təala çün etdi xəlqə xitab*
*Aldı insan o barı gərdanına*
*Gördü kimsə gətirmədi ona tab*
*Kəndi ne`tti gör insani-zəif*
*Nari-kübraya düşüb oldu kabab*
*Duzah ol nardan sığındı Haqqa*
*Gördü yox aləm içrə öylə əzab*
*Haqqı, eşqin şərabın içtin isə*
*Qalmadı sənə hacət meyi-nab*

Yəni Allah-Təala: əmanəti, bu eşq məsuliyyətini kim boynuna götürər deyə xitab etdikdə insan o yükü boynuna götürdü. Bəşər övladı başqa varlıqlardan ona gücü çatmayacağını görüncə talib oldu. Amma bax gör insan nə qədər aciz qaldı. Eşq yükünü götürən insan övladı böyük bir sevdaya düşüb

105. əl-Əhzab, 33/72.

kabab kimi yandı. Cəhənnəm belə o eşq atəşindən Allaha sığınmışdır.

Bursalı İsmail Haqqı özünə xitab edərək deyir ki, Sən əgər eşq şərabını içib quluq şüurunda bir sevgiyə nail oldunsa, onda başqa şeydən sərxoş olmağına ehtiyac yoxdur.

Mövlana neyin yanıqlı-yanıqlı inləməsinə səbəb olan şeyin eşq iksiri olduğunu bildirir. “Meyin/şərabın içindəki daşqınlığa səbəb olan da eşqdir” ifadəsində izah etməyə çalışdığı şey, kainatın təməlində eşqin və sevginin var olmasıdır. Kainatın yaradılış səbəbi eşqdir. Hər şey bir sevgiliyə yaxındır, amma eşq, ilahi və həqiqi olan Allah sevgisidir. O sevgiyə nail olmaq, o sevgidə fani olmaq və o sevgi ilə Allaha qul olmağa çalışmaq əsas məqsəddir.

Bu beyt ilahi eşqdən və onun insanı coşduran xüsusiyyətlərindən danışır.

## ON BİRİNCİ BEYT

### *YARINDAN AYRILANIN SİRDAŞI NEY*

نی حریف هر که از یاری بُرید
پرده هایش پرده های ما درید

*Ney harifi-hər ki, əz yari-barid*
*Pərdexayeş pərdehaye ma dərid.*

❃

**Tərcüməsi**
*Ney yarından ayrılmış olanın məhrəmidir*
*Onun pərdələri bizim pərdələrimizi cırmışdır*

***Mənzum Tərcüməsi***
*Yardan ayrılmışların yoldaşı ney,*
*Pərdə cırmış pərdəmizdən ahi-ney!*

İnsan yalnızlaşdıqca özünə dost və sirdaş axtarar. Dağ başına çıxıb yalnız qaldığı zaman belə öz-özünə nə isə zümzümə etmək istər. Bunu tənha qalmasının verdiyi sıxıntını aşmaq və yalnız olmadığı duyğusuna qovuşmaq üçün edər. Bu duyğu insanın fitrətində vardır. Qürbətdə olan insan öz dərdini paylaşmaq üçün dostlar axtarar, dostun səsi, nəfəsi və təlqinləri onu sevindirər. Ney qürbətdə olanların, sevgilisindən ayrılmış olanların ən gözəl dostu, ən sadiq yarıdır. Qürbət duyğusuna qapılmış insanlar, ney səsi ilə təsəlli taparlar. Bəlkə göz yaşı tökər, acı çəkərlər, amma içlərindəki hicranın verdiyi gözəlliyi paylaşarlar.

Neyə bənzədilən kamil insan kəsrət (çoxluq) aləmində sevib, özünə yar etdiyi şeylərdən soyuyar və özü kimi aşiq salikin sirlərinə məhrəm olar. Onun mərtəbələri və dərəcələri salikin mərtəbələrini dağıdıb, aradan qaldırar.

**Xacə Hafiz** deyir ki: “Adəm (ə.s) yasaq edilmiş meyvədən yeyərək təqva pərdəsinin içərisinə girmişdir. Eşqin tələbi olaraq Adəm övladı bu dünyada şiddət və bəla ilə mübtəla oldu. Eşq mədh edilən bir xüsusiyyətdir. Ariflərə görə bir eşq min təqvadan daha yaxşıdır. Çünki bu məna bizə Adəm babamızdan mirasdır. Bu səbəbdən bizim də pərdələrimiz parçalandı”.

Əhli-vəhdətə görə neydən özgə “ənis/dost və yoldaş” olmaz. Çünki ney, sağlam zövq və doğru təb üçün ruhun qidasıdır. Gözəl səsdən zövq almayanlar nəsibsizdirlər. Heyvanata qədər bütün canlılar musiqini duyar. Hətta bitkilərin belə musiqini duyduqları təsbit edilmişdir. Botanika bağlarında musiqi səsi dinlədilən bitkilərin daha sürətlə inkişaf etdikləri müşahidə edilmişdir.

Neyin əyani olaraq digər varlıqlara və insana belə bir təsiri olduğu kimi, ney dedikdə nəzərdə tutulan kamil arifin də in-

sanlara dərdlərini, kədərlərini unutduran, gözəllikləri yaşadan, olğunlaşdıran və kamala çatdıran bir xüsusiyyəti vardır. Kamil insan, başqalarının dərdlərini, kədərlərini bölüşən, onlara müsbət enerji verən və təsəlli edən insandır. Çünki insan övladı təlqin edilməyə meyilli bir varlıqdır. İnsan nəsihət edilməyə meyilli olduğu üçün özünə müsbət təlqinlər edildikdə səadət və xoşbəxtliyi artar. Mənfi təlqinlər edildikdə də dərdi və kədəri çoxalar.

İnsana təlqin edənlərin ən başında peyğəmbərlər və xüsusilə də Hz. Məhəmməd Mustafa (s.ə.s) bu xüsusiyyəti səbəbilə iyirmi üç illik peyğəmbərliyi müddətincə bəşəriyyətə gözəl halı, nüfuzedici səsi və nəfəsi ilə model olmuş və onlara gözəlliklər təlqin etmişdir. Onun gözəl əxlaqını şəxsən yanında yaşayaraq görmüş səhabələr olğunlaşıb kamala çatmış və cəhalətdən mədəniyyətə yüksəlmişlər.

Hz. Peyğəmbər (s.ə.s) peyğəmbərlik ilə vəzifələndirilməzdən əvvəl Ərəbistan yarımadasındakı insanların cahiliyyə cəmiyyəti olduğu bizə məlumdur. Bunlar qız övladlarını diri-diri torpağa basdıracaq qədər azğınlıq, bir-birilərinin hüquqlarına hörmət göstərməyəcək dərəcədə anarxiya içərisində çırpınırdılar. Belə bir cəmiyyəti Allah Rəsulu (s.ə.s) təlqinləri, gözəl nəsihətləri və örnək əxlaqı ilə kainatın ən mədəni və adil cəmiyyəti halına gətirdi.

İslam gəlməzdən əvvəl cahiliyyə dövründə halvadan düzəltdiyi bütə sitayiş edən və qız övladını diri-diri torpağa basdıran Ömər, İslamı tanıyıb Rəsulullahın (s.ə.s) təlqinləri ilə təlimləndirilib onun əxlaqının olğunluğunda kamala çatdıqdan sonra Hz. Ömər olmuş və:

*Kənari-Dəclədə qurd qaparsa bir qoyunu*
*Ədli-ilahi gələr də Ömərdən sorar onu*

deyəcək bir olğunluğa çatmışdır. Onu bu nöqtəyə çatdıran Rəsulullahın (s.ə.s) gözəl əxlaqıdır. Çünki əxlaq qanunlar toplusu, kitablardan oxunan və oxunduqca tətbiq edilən şeylər deyildir. Əxlaq “gözəl xarakterlərin mənimsənməsi və refleks olaraq insanda yerləşməsi” deməkdir. Bunun əmələ gəlməsi üçün insanların əxlaq sahibi insanlar ilə yan-yana olması, məclislərdə bir yerdə olması lazımdır.

Bu beytdə Mövlana “neyin pərdələri bizim pərdələrimizi cırmışdır” deyərkən, kamil arifin sözləri bizim pərdələrimizi, məqamlarımızı parçalamış və içində olduğumuz hallardan və məqamlardan addım-addım yuxarılara doğru aparmışdır. Çünki insan övladının mənəvi kamal yolunda təsəvvüfi ifadəsi ilə nəfsi-əmmarədən nəfsi-ləvvaməyə, oradan da nəfsi-kamiləyə doğru bir səyahəti vardır. Əslində dünya yolçuluğu başdan sona “səfər-dər vətən”, yəni vətən səthində bir yolçuluqdur.

Bu yolçuluğun əmmarədən safiyəyə və kamiləyə çatana qədər mərhələləri vardır. Bir kamil arifin yanında olanlar onun məclisindən, söhbətindən aldığı gözəlliklər ilə zaman keçdikcə əmmarədən ləvvaməyə doğru irəliləyər. Nəfsi-əmmarə insanı durmadan pisliyə çağıran, pislik ilə məşğul olmağa səsləyən nəfsdir. Yusuf surəsində Yusif (ə.s) öz nəfsi üçün belə deyir:

***“Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi (şəhvətə uymağı) əmr edər.”***[106]

Yəni insan nəfsində pisliyə çağırma xüsusiyyəti vardır. Amma bu bir mənəvi təlim ilə, ibadət və itaətlə yüksəldilməli, heç olmasa ləvvaməyə yəni, ettiyi pisliklərə görə özünü qınayan, ayıblayan və peşmanlıq duyan bir məqamə gəlməlidir. Ardından bir addım daha ataraq yavaş-yavaş nəfsinin gözəlliklərinə könlü ilə dəstək verəcək bəzi ilhamlarla özünə

---

106. Yusuf, 12/53.

nəzarət edə biləcək bir mexanizmə nail olmalı, onun ardından da mutməinnəyə, yəni mənəvi rahatlıq və kamala çatmaq üzrə bir yüksəliş yolu nümayiş etdirməlidir.

***(Qiyamət günü Allah-Təala mömin kimsəyə belə buyuracaqdır:) "Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs! (Və ya: "Ey arxayın nəfs!") Dön Rəbbinə, sən Ondan razı olaraq, O da səndən! (Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol! (Onlarla birlikdə) Cənnətimə varid ol!"***[107] xitabına məzhər olan nəfs, mutməinnə, raziyyə və mərziyyə məqamlarından keçmək surətilə nəfsi-kaminəyə qədər yol qət edər. Bunlar arif kamilin, yəni kamil mürşidin yanında olmaqla, sadiq və saleh insanlar ilə birlikdə olmaqla gerçəkləşə bilər. Çünki Allah-Təala sadiq qul olma yolunda olanlara belə buyurur: ***"Ey iman gətirənlər! Allahdan qorxun və (imanında, sözündə, işində) doğru olanlarla olun! (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)",***[108] yəni imanın təqva ilə, təqvanın da sadiq və saleh insanlar ilə birlikdə olacağını ifadə edir. Eşq səviyyəsində bir imana nail olmaq və bu eşq səviyyəsində iman ilə Allah-Təalaya sarı gedə bilmək, bu kainatda insanların və müsəlmanların hədəflədiyi ən nəhayət məqamdır. Allaha həqiqi mənada qul olmaq, Ona eşq ilə bağlanmaq mənasına gəlir. Bursalı İsmail Haqqı həzrətləri beləl期rinin kainatın məşəqqət və sıxıntılarından təsirlənməyəcəyini, sevənin segilisinin cəfasından usanmayacağını belə ifadə edir:

*Saqiya dərdü-bəla hər dəm mənə şərbət gəlir,*
*Aşiq odur kim ona zəhri-sitəm ləzzət gəlir,*
*Pərdeyi-pindarmı yaxud qəmi-dildarmı?*
*Hər kəsin halincə Haqdan sər nüvist əlbət gəlir*

107. əl-Fəcr, 89/27-30.
108. ət-Tövbə, 9/119.

Ey saqi, ey mənə gözəllik və eşq şərbətini verən kəs!" Bil ki, mənə bu dünyanın dərdi şərbət kimi gəlir və bunlardan incimirəm. Aşiq ona deyilir ki, sevgilisinin sitəmi ona ləzzət kimi gəlir. Haqq-Təala alın yazısı olaraq kimə nə yazmışdırsa –istər öyünmə, istərsə də dərd sahibi olmaq olsun- mütləq başına gələcəkdir. Elə isə özünü parçalamağın, qəmlənməyin, hüznlənməyin, dərd çəkməyin bir mənası yoxdur.

Məcnun və Leyli arasında keçən məşhur bir hekayə vardır. Leyli qazanın başına keçib əlində çömçə ilə gələnlərin qablarına yemək qoyur. Məcnun da Leylinin payladığı yeməkdən bir kasa alıb içmək üçün sıraya keçir. Sıra Məcnuna gələndə Leyli əlindəki çömçə ilə Məcnun kasasına vurur, kasa qırılır. Məcnun da başlayır sevincindən oynamağa və deyir ki:

" − Məni sevir, çünki mənə hər kəsə davrandığından fərqli davrandı. Leyininin onun kasasını qırması və xalqın içində onu alçaldacaq bir davranışı belə onun xoşuna gəlir. "Ey Məcnun, Leylinin sevdiyini zənn edirsən, halbuki, o sevmək bir yana qalsın, sənin kasanı belə qırdı", deyirlər. O da belə cavab verir: "Bu sirri anlamayanlara ancaq məcnun deyilir. Kasanı qırmaq ifna etmək/yox etməkdir. Talib olan isə məqsədinə ancaq varlığı ifna edərək/yox edərək nail ola bilər".[109]

Bir başqa baxımdan da sevən sevdiyinin sitəminə və qəhrinə qatlanmaqdan həzz duyar. Bu dünyada hər şey Allahdan gəldiyinə görə Allahı həqiqi mənada sevən bir insan Onun dərd, sıxıntı, ələm və kədərindən şikayət etməz. Çünki bunların hamısının dərəcələri yüksəltməyə vəsilə olduğunu bilir.

Bəziləri: "Bütün dərd və sıxıntılar nə üçün mənim başıma gəlir?", deyə üsyan edərcəsinə sözlər danışarlar. Bunların mənası yoxdur. Necə olsa bizim başımıza gələcək və biz bunları və biz bunları səbirlə, təslim olaraq, iman ilə qəbul etmək

---

109. Ruhul-bəyan, Beyrut 2001, V, 243.

və Sevgilidən gəlmiş ərmağanlardır, deyə dəyərləndirmək lazımdır.

İnsanın həyatın sıxıntıları qarşısında üsyan etmədən: “Ya Rəbbi! Bunlar Səndəndir və Sənin imtahanlarındır”, deyə bilməsi imanın kamilliyindəndir. Belə ki, Allah-Təala buyurur ki:

***“Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbr edən şəxslərə müjdə ver!”***[110]

Bu dünyada acı, ələm, kədər, hüzn hamısı bir imtahan vəsiləsidir. Allah-Təala bizi bunlar ilə sınayır və imtahan edir. Amma nəticədə səbir edənləri müjdələ, yəni səbir edənlər imtahanı qazanacaq, buyurur.

Əyyub (ə.s) illərcə davam edən xəstəliyindən və dərdindən sonra:

***“Ya Rəbbi! Mənə bəla üz verdi (Sənə pənah gətirdim). Sən rəhmlilərin rəhmlisisən!”*** şəklində dua edətək Allaha yönəlmişdi.[111] Şikayət etmədən, mən bir dərdə düçar oldum, dedi, Sən bilirsən, Ya Rəbbi! -deməyi, bu mövzuda nə qədər səbirli olmaq lazım olduğuna dair peyğəmbərlərdən bir örnəkdir. İllərcə çəkdiyi xəstəliklər səbəbiylə: Ya Rəbbi, mən uzun zamandır bu sıxıntını çəkirəm, demədi. Ya Rəbbi, mənə dərd üz verdi, amma bunu Sən bilirsən. Şəfa verəcək olan Sənsən. Mən Sənə bir bəşər olaraq sadəcə dərdimi ərz edirəm, deyə üsyan etmədən, Haqq-Təalaya yönəlib şəfa tələb etdi.

Bu hər insanın həm haqqı, həm də vəzifəsidir. Amma üsyan etmək, Haqq-Təalaya baş qaldırmaq əsla qulluğa yaraşmaz. Ona görə də həyatın çətinliklərini, ələmlərini və kə-

110. əl-Bəqərə, 2/155.
111. əl-Ənbiya, 21/83.

dərlərini bu həyatın eniş-yoxuşları kimi görmək lazımdır. Bir də çox vaxt bizim dərd və kədər kimi gördüyümüz şeylər bizim üçün bir lütf və olğunlaşdırıcı ola bilər. Çünki Allah-Təala buyurur ki:

***“...Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. (Onu) Allah bilir, siz bilməzsiniz.”***[112]

Dolayısı ilə biz Allah-Təaladan xeyir diləmək ilə vəzifəliyik. Ya Rəbbi bizə dünyada və axirətdə xeyirli olanı və gözəl olanı ver.

“Bəziləri isə: “Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru!” deyirlər”[113] şəklində Haqq-Təaladan gözəlliklər dilyərlər. amma biz, bizim üçün nəyin gözəl olduğunu bilmirik. Dolayısı ilə, biz Allahdan gözəllik istəyiriksə, Allah da bizə bir şey verirsə, demək ki, ən gözəlini verir, deyə inanmaq bizim imanımızdan və təslim olmağımızdan irəli gələn bir zərurətdir.

İmam Qəzali deyir ki: “Biz bu mövzuda çox səmimi deyilik. Allaha “Ya Rəbbi, bizə xeyir və gözəlliklər ver” deyə dua edirik. Amma Ondan gələnə də: “Ya Rəbbi, niyə belə oldu, kaş ki, belə olmayaydı” dediyimiz vaxtlar çox olur. Madam ki, Allahdan xeyir diləyir, Ona inanırıq, Ondan gələnin də xeyir olduğunu bilib təslim olmalıyıq.”

Həqiqətən də bu belədir, çünki biz bəzi şeyləri, qədərə aid xüsusları dəyişdirməyə qadir deyilik. Dərdlərin, müsibətlərin qarşısını almağa müqtədir deyiliksə, onların bizə gəlmə səbəblərinə görə başımızı ağrıtmaq, Allahdan olduğunu bilib təslim olmaq həm dünyəvi, həm də uxrəvi baxımdan yeganə çıxış yoludur.

112. əl-Bəqərə, 2/216.
113. əl-Bəqərə, 2/201.

Ariflərin insanlara müsbət təlqinləri, həyatın məşəqqətlərini keçməkdə mühüm vasitə və vəsilələrdir. Çünki insan təlqinə meyilli bir varlıqdır. İnsan həyatın çətinliklərini durmadan gündəmdə saxlayar və onlardan şikayət edərsə, həyatı zindan olar. Amma həyatın çətinliklərini xoş görəcək, onlardan ibrət alacaq bir xüsusiyyətə sahib olarsa, yəni cəlal içində camalı axtararsa, onda həyat daha gözəl olar. Cəlal içində camalı axtara bilmək kamal işidir. Allahın cəlala məzhər olan hadisələri vardır. Cəlala məzhər olan hadisələr içində də bir camalın olduğunu görmək lazımdır. Məşhur hekayədə İsa (ə.s) üçün belə rəvayət edilir:

İsa (ə.s) bir gün həvariləri ilə birlikdə yoldan gedərkən bir leş görür. Təbii ki, leş görüb üfunət qoxusunu hiss etdikdə də insanın nifrət etməməsi mümkün deyildir. Həvarilərin bəziləri burnunu tutaraq, bəziləri üzünü çevirərək, bəziləri də üzlərini turşudaraq reaksiya verdikdə Hz. İsa (ə.s) deyir ki: "Nə gözəl dişləri var imiş."

Leşin belə gözəl bir tərəfinin olduğunu görə biləcək bir bəsirət içərisində olmaq həyatı daha mənalı hala gətirər. Güldə tikan görən, gülün qoxusunu duymaz, həyatın çətinliklərinə qatlanmaz. Mövlana deyir ki:

"Gülə soruşdum, bu sənin gözəl qoxun haradan gəlir?" Gül dedi ki:

"Tikana dözməyimdən." Yəni gül tikanına qatlandığı üçün gül olmuş və gözəl ətir saçır. Həyat da belədir. İnsan çilələrə, sıxıntılara qatlandıqca, bunları özünün olğunlaşması üçün bir vəsil olaraq qəbul edərsə kamala çatar. Bu baxımdan həyatın sıxıntıları qarşısında üsyan etmək yerinə ya "mən aləmlərin Rəbbinə təslim oldum, Ona boyun əydim, Onun qədərinə razıyam" deyə biləcək bir olğunluq göstərməli, ya da bu olğunluğa sahib kamil ariflərin yanında olmalıdır.

**Şeyx Sədi Şirazi** bir gün hamama gedər. Hamamda o vaxtlar indi olduğu kimi şampun və sabun yox idi. İnsanlar gil ilə yuyunurdular. Sədi tam yuyunacağı əsnada gili burnuna yaxınlaşdırdıqda çox gözəl bir ətir hiss edir. Şairanə bir tərzdə dərhal təşxis və intaq sənətinə keçir və başlayır torpaq ilə danışmağa:

− Ey torpaq, sən mənim bildiyim, ayaqlar altında əzilən, hər kəsin üstünə basıb keçdiyi palçıq, torpaq deyilsənmi? Bu gözəl qoxun səndən necə gələ bilər? Torpaq dilə gələrək şairin ifadəsi ilə deyir ki:

− "Bəli, mən sənin bildiyin kimi hər kəsin üstündən tapdalayıb keçdiyi adi bir torpağam. Fəqət mənim bir müddət gül ilə dostluğum oldu. Bu dostluq və gülün dibində olmağım, onun qönçələrindən damlayan şəbnəm qoxuları məni belə gözəl ətirli hala gətirdi. Yoxsa mən adi bir palçığam. Gözəl qoxum dostumun və yoldaşımın təsiri ilə əmələ gəlmişdir." Yəni insan övladı təlqinə və birlikdə olmağın təsirinə düşən bir xüsusiyyətə sahibdir. Onun üçün ney ilə, neyin təmsil etdiyi kamil arif və kamil mürşid ilə yoldaş olan insanlar o insanların gözəl qoxularını könüllərinə, qəlblərinə və xarakterlərinə hopduraraq kamala çatarlar.

Bu beytdə Mövlana pərdə mahiyyətindəki vəlayət (övliyalıq) məqamlarını təsvir edir.

## ON İKİNCİ BEYT

### *NEY HƏM ZƏHƏR, HƏM PANZƏHƏRDİR*

همچو نی زهری و تریاقی که دید؟
همچو نی د مساز و مشتاقی که دید؟

*Həm çu ney zəhri tiryaki ki did*
*Həm çu ney dəmsazu müştaqi ki did*

❃

**Tərcüməsi**
*Ney kimi həm zəhər, həm panzəhəri kim gördü?*
*Ney kimi həm dəmsaz, həm müştaqı kim gördü?*

***Mənzum Tərcüməsi***
*Həm zəhərdir həm panzəhər ney denən*
*Belə bir müştaqı varmıymış görən*

Ney torba içində bir küncdə asılı durduqda deyil, üfürüldükdə təsir edər. Ricalullah və əhlullah deyilən Allah adamları da elədir. Danışdıqları vaxt təsir edərlər. Onların sözləri şaqilərə (günahkar) zəhər, səidlərə (saleh insan) panzəhər və şəfa olar. Ney həm zəhərdir, həm də panzəhərdir, yəni ney ilə dost və ona müştaq olan çox insan vardır. Ney bunların bir qismi üçün zəhər, həyatları üçün təhlükə, bir qismi üçün isə panzəhər, dərman mahiyyətindədir.

Dünyada hər şey mənfi və müsbət, yaxşı və pis, dərd və dəva kimi zidləri ilə mövcuddur. Çünki aləmdə varlıqlar Haqq-Təalanın camal və cəlal adlarının məzhəri olaraq yaradılmışdır. Bir şeyin içində faydalı xüsusiyyətləri eyni zamanda var ola bilər. Yemək qida ikən bəzi insanlara və ya həddindən artıq yeyənlərə zərərdir. Bu səbəbdən ney üçün də Mövlana deyir ki: Bəzi insanlar üçün zəhər, bəziləri üçün panzəhərdir.

Məlum olduğu kimi Peyğəmbər (s.ə.s) hədisi-şərifdə milçəyin qanadlarında zəhər ilə panzəhərin birlikdə olduğuna işarə edir. *“Sizdən birinizin (yemək) qabına milçək düşsə, onu yaxşıca batırın. Çünki onun bir qanadında xəstəlik, digərində isə şəfa vardır. O içərisində xəstəlik olan qanadı ilə qorunur.”*[114]

Tibb elminin mikrobları tanımadığı dövrlərdə bu hədisin mənasını anlamaq müşkil idi. Amma daha sonra aydın oldu ki, milçəyin qanadları altında olan vəzlərin birində zəhər, digərində isə panzəhər var imiş, ikisi birlikdə yeməyin içərisinə girdikdə təsir neytrallaşır. Amma biri tək girərsə, yeməyi zəhərli hala gətirə bilər.

Ney və musiqi, şəri hüdudlar çərçivəsində məqbul hesab edilmişdir. Ruhaniyyətə çağıran, bədii həyəcan oyadan, maddi və mənəvi duyğulara xitab edən ney və musiqi məqbuldur.

114. Əbu Davud, Ətimə 49, (3844); Buxari, Tibb 58, Bədül-Xalq 14; İbn Macə, Tibb 31, (3504, 3505)

Ancaq insandakı nəfsani və heyvani duyğuları hərəkətə gətirən, insanları eyş işrətə çağıran musiqi məqbul və mübah hesab edilmir. Hər kəs öz halına görə neydən istifadə edər, öz qabiliyyətinə görə musiqidən istifadə edər, öz qabiliyyətinə görə musiqidən həzz alar və ya hər kəs hadisələri özünə görə şərh edər.

"Filankəsi necə tanıyırsan?" deyə soruşurlar. "Özüm kimi", deyir. Görmə qabiliyyəti olmayan iki insan küftə yeyərkən birisi o birinə: "Dostum, küftələri iki-iki yeyirsən", deyir. Qarşısındakı: "Sən də mənim kimi görmə qabiliyyətindən məhrum deyilsənmi? Necə gördün küftələri iki-iki yediyimi? -deyir. Digəri: "Mən elə edirəm, ona görə bilirəm" -deyir.

İnsan övladı özünü necə tanıyırsa, qarşısındakını da elə zənn edər, danışdıqlarını könlündəki duyğulara görə qavrayar və şərh edər. O səbəbdən hər kəsə anlaya biləcəyi sözləri demək və layiq olduğu davranış ilə davranmaq Allah dostlarının həssasiyyətlərindəndir. Qılınc istifadə ediləcək yerdə ehsan, ehsan ediləcək yerdə qılınc istifadə edilə bilməz. Kərəm sahibi olana kərəmli davranmaq, qınayana da qınamaq yaraşır. Belə ki, nəzakətə layiq olana nəzakət ilə davranmaq ədəbli olmağın bir tələbidir. Amma nəzakətdən anlamayan, tənbeh edilmək istəyənə də gərəkli cavabı vermək lazımdır. Ziya Paşanın tərkibbəndində dediyi kimi:

*Nush ilə yola gəlməyəni etməli təkdir*
*Təkdir ilə uslanmayanın haqqı kötəkdir*

Nəsihətdən, gözəl sözdən, ədəbdən anlayana çox söz deməyə ehtiyac yoxdur. Belə ki, arifə bir işarə kifayətdir. İnsanın bir qaş işarəsindən və ya göz hərəkətindən nə demək istədiyini arif adam başa düşər. Amma anlamayana başa salmaq, yenə də başa düşmürsə danlamaq, yəni hansı dildən anlayırsa o dil ilə ona başa salmaq əsasdır. Necə gözəl

deyiblər: “Arifə bir işarətdə kifayətdir.” Hər kəs özünə deyiləni o andakı psixologiyası və duyğu dünyasına görə anlayar, davranışlarını da ona görə müəyyənləşdirər.

Rəsulullah (s.ə.s) əshabına dəyər verər, hamısı ilə görüşər, maraqlanar, qarşılaşdığı vaxt onlar ilə əl-ələ görüşər, onlar çəkilmədikcə əllərinizi buraxmazdı. Onlar da harada və necə hərəkət ediləcəyini, kimə sərt, kimə mərhəmətli və şəfqətli davranılacağını bilərdilər. Allah-Təala əshabının bu vəsflərinə Qurani-Kərimdə belə diqqət çəkir:

***“Məhammədd (əleyhissəlam) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar (möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər. Sən onları (namaz vaxtı) rüku edən, səcdəyə qapanan, Allahdan riza və lütf diləyən görərsən. Onların əlaməti üzlərində olan səcdə izidir. (Qiyamət günü onlar üzlərindəki möminlik nuru ilə tanınırlar).”***[115]

Allah-Təala əshabın bəşəri münasibətlərdə kafirlərə, inkarçılara qarşı sərt, bir-birilərinə mərhəmətli olduğu üçün hər kəsə qarşı eyni münasibət bəsləməyəcəyini ifadə edir. Bir başqa ayədə Peyğəmbərin (s.ə.s) şəxsində ümmətə, kafirlərə qarşı münasibətlərdəki ölçüləri belə bildirir:

***“Ya Peyğəmbər! Kafirlərə və münafiqlərə qarşı vuruş! (Kafirləri qılıncla, münafiqləri isə dəlil-sübutla, sözlə məhv et!) Onlarla sərt davran! Onların məskəni Cəhənnəmdir. Ora nə pis yerdir!”***[116]

Onların sərt, qəzəbli və kobud davranışları qarşısında mülayim olmaq məcburiyyətində deyilsən. Mədam ki, onlar sənin və əshabının varlığını qəbul etməkdə problem törədib

115. əl-Fəth, 48/29.
116. ət-Tövbə, 9/73; ət-Təhrim, 66/9.

sizə işgəncələr verirlər, sən və əshabın da onlara qarşı yerinə görə sərt və güclü olmağa çalış.

Allah-Təala digər tərəfdən, Firona qarşı olsa belə mülayim davranmağın əhəmiyyətinə diqqət çəkir. Bu bir təzad deyildir, bəlkə bir diplomatiyadır. Musa və Harunu (ə.s) Fironu küfrdən üz döndərmək üçün təbliğ etmələri məqsədilə göndərdikdə buyurur ki:

***"Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin. (Bu sizin ürəyinizə mətanət, dizinizə qüvvət verər). Fironun yanına yollanın. O (İllahlıq iddiasına düşməklə), həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!"*** [117]

Yumşaq davranmağın, yaxşı münasibətin bəşəri münasibətlərdə böyük təsiri vardır. Ən hirsli insana yumşaq münasibət ilə yanaşdığınız vaxt onun da yumşaldığını görə bilərsiniz. Yolda gedərkən ayağınızı tapdalayan bir adama: "Ayağımı tapdaladın, korsan?, görmürsən?," demək var, bir də: "Üzr istəyirəm, ayağınızın altını tapdaladım!", demək var. Belə dediyiniz vaxt qarşınızdakı adam istər-istəməz qəbahətin özündə olduğunu anlayacaqdır. Amma birinci variantdakı kimi desəniz əlbəttə ki, o da sizə dediyinizin qarşılığında sərt bir cavab verə bilər. Onun üçün Allah-Təala "***Fironun yanına yollanın. O (allahlıq iddiasına düşməklə), həqiqətən, azğınlaşıb həddini aşmışdır. Onunla yumşaq danışın" -***buyurur.

Ayədə keçən "leyyin" kəlməsinin mənası ilə bağlı Misirdə olduğum vaxt tanıdığım Şeyx İbrahim əl-Batavi belə bir izah vermişdi:

a- Leyyin suyun səciyyəsidir. "əl-maul-leyyin", deyirlər ərəblər. Yəni yumşaq, axıcı su mənasında istifadə olunur. Qav-

117. Taha, 20/42-44.

li-leyyin deməklə Allah-Təala su kimi təmiz və saf danışmağı əmr edir.

b- Suyun formulu $H_2O$-dur, yəni suda iki hidrogen bir oksigen molekulu vardır. Bunlardan biri yanan, o bir isə yandıran xüsusiyyətə malikdir. Amma ikisi birləşdikdə su olur və axıcı bir maddə halına gəlir. Sizə "qavli-leyyin" ilə suyun xüsusiyyəti olan "leyyin" sifəti ilə insanlara xitab etsəniz, sudakı $H_2O$ ayrılar və əvvəlcə hidrogen ilə sizin kobudluğunuz yanar, sonra oksigen ilə qarşınızdakının sərtlik və kobudluğunu yandırar.

Bursalı İsmail Haqqı həzrətləri *Ruhul-Məsnəvi*sində keçən bir rəvayətdə Abbasi xəlifələrindən Məmun deyir ki: Bəşəri münasibətlərinizdə ixvan/qardaş və dostlar üç növdür:

**1- Qida kimi olan** hər vaxt özlərinə möhtac olduğumuz dostlar və qardaşlar.

**2- Dəva/əlac kimi olan** bəzən görüşmə ehtiyacında olan dostlar və qardaşlar,

**3- Dərd, xəstəlik kimi olan** dostlar, onlara ehtiyacımız olmaz.

Ney, ya da kamil arif və kamil insan bizim mütəmadi ehtiyac duyduğumuz qida mahiyyətindəki dostlar kimidir. Onların söz və söhbətlərindən qidalanır, rahatlıq və enerji alırıq.

Peyğəmbərin (s.ə.s) sevinc və qayğıları mənəvi və axirətə aid sevinc və qayğılar idi. O, mənəvi baxımdan diqqətlərini cəlb etdiyi ibadət, itaət və Quran tilavəti ilə ruhaniliyin yüksəldiyi əsnada cəm halından fərq halına çıxaraq dünya işləri ilə məşğul olmaq və xalqın arasına qarışmaq istədikdə Hz. Aişə (r. anhə) anamıza: *"Gəl səninlə söhbət edək ey Hümeyra"*[118] deyərdi. Dünyəvi məşğuliyyətlərin, kənar münasibətlərinin artdığı zamanlarda isə fərqdən cəmə yüksəlmək üçün Hz. Bi-

118. Münavi, Feyzül-qadir, V, 228.

lalı çağırıb: *“Ya Bilal, gözəl səsinlə gözəl bir azan oxu ki, könüllərimiz rahatlasın, hüzura qovuşsun.”*[119] -deyərdi.

Bizlər də dünyəvi işlərə daldığımız vaxt Quran tilavəti, tövbə və istiğfar ilə, dəstamaz alıb namaz qılmaqla dünyanın yükündən qurtulub mənəvi bir rahatlıq yaşamaq ehtiyacındayıq. İnsanın dünyəvi məşğuliyyətləri tərk edib qəlbini paklaşdıraraq birbaşa: “Allahu Əkbər” deyib Onun hüzurunda dura bilməsi asan bir hadisə deyildir. Çünki mexaniki bir varlıq deyildir ki, düyməsinə basıldıqda dünya işi ilə məşğul ikən axirət işlərinə qayıda bilsin. Əksinə etdiyi işlərin təsiri altında qalan bir xüsusiyyətə sahibdir. Məşğuliyyətindən əl çəkməsi bir xeyli vaxt tələb edir. Bu səbəbdən Allah-Təala əvvəlcə hadəsdən sonra nəcasətdən təharət kimi hazırlıqlar ilə, ardınca da sünnə və nəhayət fərz namazı ilə mərhələ-mərhələ içində olduğumuz atmosferdən çıxmamızı istəyir. Beləcə Rəbbimizin hüzuruna layiqli bir qəlb və zehin ilə çıxmağımız təmin edilmiş olsun.

Camaat ilə namaz üçün məscidlərə getmək bu ləyaqəti daha da artırır. Çünki insanın ən çox sevdiyi yer həyat yoldaşı, övladları və ailə üzvləri ilə birlikdə olduğu atmosferdir. İnsanın bu mühitdə namaz qılması ilə məsciddə namaz qılması arasında fərq vardır. Evdə insanın diqqətini dağıda biləcək bir çox şey var. Amma insan dəstamazını alıb evindən çıxaraq məscidə doğru addım-addım gedərkən mənəvi dərəcəsini artırmış olur.

Çox vaxt məscidlərin ətrafında olan məzarlıq və məzar daşları həyatın faniliyi və ölümün insana doğru günbəgün yaxınlaşdığını düşündürür. İnsan öz-özünə: “Ölüm var” deyir. Bütün bunlar yol boyunca məscidə hazırlıq mərhələsidir. İnsan məzar daşlarını seyr edərək ölüm gerçəyini xəyalında canlandıraraq məscidə gedər. Hələ dünən, ya da on və ya

119. Bax. Əbu Davud, ƏdƏb 86 (4985-4986)

iyirmi il əvvəl mənim kimi canlı olan bu insanlar bu gün burada yerin altında yatırlar. Sabah mən də belə olacağam, deyə düşünür. Sağ ayağı ilə məsciddən içəri girər, əvvəlcə nafilə namazını və ya məscid haqqı namazını qılar. Ardınca da addım-addım daha da həyəcanlı bir qəlb və duyğu ilə səmimiyyət içində fərz namazı üçün Allahın hüzuruna çıxmağa hazırlaşar. Hədəf dünyəvi məşğuliyyətlərin zehnimizi və qəlbimizi işğal etməsindən ilas olub Allah-Təalanın hüzurunda ixlas ilə ibadət edə bilməkdir. Çünki insanın nicat tapmasına vəsilə olacaq, möminlərə mütləq qurtuluş verəcək olan, xüşu (qorxu) ilə qılınan namazdır. Allah-Təala belə buyurur:

***“Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında xüşu (Allahı sevərək ondan qorxmaq) içindədirlər.”***[120]

Deməli, edilən hər əməlin könlümüzdə bir təsiri vardır. Zehnimizdə və könlümüzdə meydana gələn bu təsirlərin dünyəvi olanlarını silib uxrəvi olanlarıyla birləşib Allah-Təala ilə görüşlərimizi artırmaq üçün belə bir gərginlik mərhələsi lazımdır. Peyğəmbərimizin (s.ə.s) yuxarıdakı hədisində də buyurulduğu kimi: *“Namazla, namaza dəvət ilə rahatlamaq və rahatlığa qovuşmaq lazımdır.”* Allah-Təala ən doğrusunu və ən gözəlini ayədə belə buyurmuşdur:

***“O kəslər ki, nə ticarət, nə alış-veriş onları Allahı zikr etməkdən, namaz qılmaqdan və zəkat verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi (dəhşətdən ürəklərin duymaqdan, gözlərin görməkdən qalacağı) bir gündən (qiyamət günüdən) qorxarlar.”***[121]

120. əl-Muminun, 23/1-2.
121. ən-Nur, 24/37.

Bu səviyyəyə çata bilmək işin ən gözəl yönüdür. Amma insan bu səviyyəyə çatmış olsa, bəzən xəbərdarlıq edilməyə, özünə dönməyə ehtiyac duyar. Ona görə də Allah-Təala buyurur ki:

***"Və sənə yəqin (ölüm) gələnədək Rəbbinə ibadət et!."***[122]

Nur ilə oyaq bir könülə sahib olmaq üçün kamil arif və kamil insan sözlərindən nə isə anlamağa çalış, könlünü oraya bağla. Oradan Rəsulullahın (s.ə.s) könlünə və oradan da Allah-Təalanın sonsuz rəhmət və məğfirətinə nail ol. Qul olmağa, insanlar nəzdində məqbul olmağa cəhd göstər.

Bu beytdə Mövlana zidləri birləşdirir, lütf ilə qəhri, zəhər ilə panzəhəri həyatın davam etməsi üçün bir-birinin ayrılmaz hissələri olaraq görür.

---

122 əl-Hicr, 15/99.

## ON ÜÇÜNCÜ BEYT

## *NEY QANLI EŞQ HEKAYƏSİ DANIŞIR*

نی حدیث راهِ پُر خون میکند
قصه های عشقِ مجنون میکند

*Ney hadisi rahi-pur xun mi konəd*
*Qisseyi eşqi-məcnun mi konəd*

❃

**Tərcüməsi**

*Ney qanlı yolun sözlərindən bəhs edər*
*Məcnunanə eşq hekayələri danışar*

***Mənzum Tərcüməsi***

*Eşqi-Məcnun neysə, ney nəşr etmədə*
*Qanla dolmuş yol nədir bəhs etmədə*

İnsan bu aləmə gələrkən də, gedərkən də ələmlidir. Ağlayaraq dünyaya gələr və bu aləmdən kədər ilə ayrılar. İlahi camala aşiq olanlar bu fani dünyadan usanmışlar. Çünki onlar Baqi olana talibdirlər. Eşq yolunun yol kəsəni çoxdur. Mənzil başı uzaqdır, bu yolda çox mşəqqətlər çəkilir.

Neyin qamışlıqdan kəsilib bağrının od ilə dağlanması, qollarının kəsilməsi, saflaşmağın/təmizliyin başlanğıcıdır. Şairin ifadəsi ilə:

*Ney kimi başım kəs, sinəm oy, bağrımı dəl!*
*Mən sənin xidmətində bəstəniyanam neysəm*

Neyin sinəsində bir inilti və hicran, hicranında bir hüzn, həsrət və eşq vardır. Bu dünyaya gəlişi ilə birlikdə insan övladının həyatında çilə, dərd, uzaqlaşma və yadlaşma başlayar. Bir gözləmə və qovuşma arzusu vardır onda. İnsan bunun fərqinə vararaq bu dünyada yaşadığı müsibətləri və çəkdiyi sıxıntıları şəxsiyyətinin inşasına, yüksəlməsinə vəsilə edə bilsə, çəkdikləri ona vüslət və qovuşma vasitəsi olar. Çünki bunlar insanı olğunlaşdırır.

"Bəla saflaşmağa səbəbdir," deyərdilər keçmişdə. Yəni insanın çəkdiyi bəlalar, sıxıntılar, onun qəlbinin saflaşmasına, nəfsinin paklaşmasına, əxlaqi baxımdan yüksəlməsinə səbəb və vəsilədir. Çilə çəkmədən, məşəqqətlərə düçar olmadan insanın kamal mərtəbəsinə yüksəlməsi mümkün deyildir. İnsan nə qədər çox çilə çəkməyə düçar olmuşdursa, o qədər olğunlaşar.

Bu misal çox verilən misallardandır: Dənizlərin sahillərində kiçik çınqıl daşları vardır. Bu çınqıl daşlar böyük qayalardan qırılıb parçalanmış kiçik parçacıqlardır. İlk dəfə qırıldıqları vaxt iti və üzəri kələ-kötür olur. Amma sahillərə çırpılan sərt dalğaların onları çırpması, bütün itiliklərini hamarlayıb yox

edir, dəzgahdan çıxmış kimi yupyumru, parlaq və cilalı hala gətirir.

Qızıl filizi yüksək tempraturda qızdırılaraq əridilir və zərgərin çəkic zərbələri ilə forma alır, bu sayədə dəyəri daha da artmış olur. Belə ki, Həllaci-Mənsur deyir ki:

"Ey mənim etimad etdiyim dostlar, mənim nəfsimi öldürün ki, mənim həyatım nəfsimin ölümündədir."

İnsan da belədir. Nə qədər çox çilə, sıxıntı çəkər və bunun qədrini bilərsə, bütün bunlar onun olğunlaşmasına vəsilə olar. Bu dünyada çilə çəkməkdən, sıxıntılara düçar olmaqdan şikayət etməmək, əksinə başımıza gələn müsibət, sıxıntı və bəlalara: "Bütün bunlar Allahdan gəlmişdir, Ondan gələn hər şey məqbuldur," deyərək qatlanmaq və dərəcələri yüksəltməyə bir vəsilə kimi görmək lazımdır.

*Xoşdur mənə Səndən gələn,*
*Ya qönçə gül, yaxud tikan*
*Ya xilətü, yaxud kəfən,*
*Lütfün də xoş, qəhrin də xoş.*

"Sevgilinin kəndindən gələn də sevgilidir", deyirlər. Məşhur bir rəvayət var: Leylinin kəndi tərəfdə bir qaraltı görünür. Məcnuna: "Qaç, Leyli gəlir," -deyirlər. Məcnun da dərhal qaçaraq gələnə yaxınlaşır və ona sarılır.

"-Dayan bir dəqiqə! O leyli deyil", deyirlər. Məcnun:

"-Eybi yoxdur, o Leylinin yaşadığı yerdən gəlir!" deyir.

"-Madam ki, Leylinin yaşadığı yerdən gəlir, elə isə mənim üçün Leylidir, sevgilidir".

Dolayısı ilə sevənin, sevdiyindən gələn hər cür məşəqqətlərə qatlanması ayrı bir sevgi ifadəsidir. *"Sevənin sevdiyi hər şey sevgilidir."*

Bizim sevgilimizin sevdiyi hər şey bizə sevgili olmalıdır. Madam ki, Allahı sevirik, madam ki, o bizim xaliqimizdir, ruzimizi verənimizdir. Ondan gələn hər şeyə bu anlayış ilə baxmaq lazımdır.

Molla Cami bu beytin şərhi mahiyyətində belə deyir:

*Demə sakın ki, eşq yolun aşmaq kolaydır,*
*Bəla dağları səhra qumlarıdır, aşmaq olaydır*

Eşq yolunda getmək çox asan deyildir. O yolda qum dənələri sayısınca müsibət, sıxıntı və ələmlər mövcuddur. O dağ deyə gördüyün eşq yolundakı şeylərin hamısı qum sayısınca bəlalardır. Dolayısı ilə qulluqda irfan və eşq yolunu asan zənn etmə. Bunlara qatlanmağı bacarsan, təvəkkül etsən, təslim olub: “Səndən gəlmişdir,” deyə bilsən, onda həqiqi mömün, gerçək müsəlman ola bilərsən.

Peyğəmbərimiz (s.ə.s) buyurur: *“Bəlalardan ən şiddətliləri nəbilərədir. Bu dünyanın ən çətin imtahanları, ən sıxıntılı dəmləri nəbilər üçün, sonra ondan aşağı övliyalara, saleh qullara və bütün insanlaradır.”*[123] Eşq və təbliğ yolunun sıxıntılar ilə dolu olduğu bir gerçəkdir. Nəbilər yaşadıqları müddətcə çilə çəkmişlər. Peyğəmbərimizin (s.ə.s) həyat yolu doğumundan vəfatına qədər hər zaman məşəqqətlər, sıxıntılar və bəlalar ilə doludur. Amma o daim təslimiyyət içindədir.

Dünyaya atasız olaraq göz açması, sonra yetim və himayəsiz qalması, peyğəmbərlik vəzifəsi ilə vəzifələndirilməsi və bu əsnada çəkdiyi məşəqqətlər, Məhəmmədul-Əmin olmasını qəbul etmələrinə baxmayaraq insanların onun gətirdiyi ilahi hökmlər mövzusunda göstərdikləri davranışlar, daha da hədlərini aşıb ona məcnun(dəli) demə cəsarəti göstərmələri, bunların hamısı böyük imtahan vəsilələri və üstəlik də asanca sinə gərilə biləcək bir imtahan deyildir.

123. Tirmizi, Zühd, 57.

Siz insanları Haqqa çağırırsınız, Allaha dəvət edirsiniz, amma müqabilində əziyyət və işgəncələrə məruz qalırsınız, özünüz və ətrafınızdakı insanlar cəmiyyətdən təcrid edilir, embarqo qoyulur, sizinlə ticarət əlaqələri kəsilir və ruhdan düşürsünüz. Yeni bir cəmiyyət axtarmaq, münasibətlər qurmaq üçün məmləkətinizi tərk edib gedirsiniz, orada daşa basılırsınız. Gözlədiyiniz və umduğunuzun tam tərsi davranışlar ilə qarşılaşırsınız. Belə bir zamanda Cəbrail (ə.s):

"Dağlar mələyi arxamdadır ya Məhəmməd, istəyirsəsə Taifin altını üstünə çevirsin, həlak etsin", deyir və siz, *"Xeyr, ya Cəbrail, xeyr! Mən onların həlak olmasını deyil, onlardan mömin bir nəslin gəlməsini arzu edirəm,"*[124] -deyirsiniz. Bunlar bir peyğəmbərə, nübüvvət məktəbinin müəllliminə yaraşan kamal və camal ifadəsi olan gözəlliklərdir.

Ona məcnun, sehrbaz deyilmiş, haqqında həqiqətə uyğun olmayan bir çox iftiralar yersiz edilmişdi, amma Allah-Təala onun qırıq qəlbini, insanların onu yaralayan davranışlarını aradan qaldırıb təsəlli vermək məqsədilə buyurmuşdu ki:

***«Sən (ya Rəsulum!) Rəbbinin neməti sayəsində divanə deyilsən! Və həqiqətən, səni minnətsiz (tükənmək bilməyən) mükafat gözləyir! Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən! (Tezliklə) sən də görəcəksən, onlar da görəcəklər, Hansınızın divanə olduğunu!"***[125]

Haqq-Təala bunu dünyada hər kəsə göstərdi. Belə ki Peyğəmbərimiz (s.ə.s) iyirmi üç illik peyğəmbərlik fəaliyyətinin sonunda 125 000 nəfərlik səhabə ordusu il Vida həccini əda edərkən onlara cahanşümul xəbərlər çatdırırdı.

İyirmi üç ilin nəticəsində Allah-Təala demək olar ki, bütün Ərəbistan yarımadasındakı insanların könlünü onun könlü

---

124. Buxari, Bədül-xalq 7; Müslim, Cihad 111.
125. əl-Qələm, 68/2-6.

ilə birləşdirmişdi. Ona məcnun, sehrbaz deyənlər həlak olub getmişdilər. Amma Rəsulullahın (s.ə.s) gətirdiyi ilahi kitab, onun sahib olduğu Məhəmmədi əxlaq o gündən bəri yaşayır və qiyamətə qədər yaşayacaq.

İnsanı ucaldan, böyüdən, olğunlaşdıran çəkdiyi sıxıntılar, çilələrdir. Ona görə də Mövlana bunu demək istəyir ki: Dinlə bax, ney nə cür çilələrdən, dərdlərdən və sıxıntılardan bəhs edir. Onun dayanmadan danışdığı şey eşq dərdidir. Sevginin və məhəbbətin dərdidir. Eşq və sevgi sahibi olmaq, insanın içindəki enerjini özü istehsal edə biləcək bir mexanizmanı qurmaq deməkdir. Belə həyəcan hasil edən bir dinamoya sahib olmaq necə də gözəldir. Üstünə ölü torpağı səpilmiş kimi cansız və ölü olmaqdan əlbəttə ki, eşq sahibi olmaq daha yaxşıdır.

Mövlana ətrafındakı insanları sevgi ilə eşqə və məhəbbətə, eşq və məhəbbət ilə Allaha qul olmağa çağırır. Çünki eşq ilə ediləcək olan qulluğun səviyyəsi daha yüksək, keyfiyyəti daha dəyərli və təsiri də daha uzunömürlü olar. Allah-Təala buyurur ki:

***“Allah, şübhəsiz ki, Allah yolunda vuruşub öldürən və öldürülən möminlərin canlarını və mallarını Tövratda, İncildə və Quranda haqq olaraq vəd edilmiş Cənnət müqabilində satın almışdır.”***[126] Möminlər Allaha həm canlarını, həm mallarını, cənnət müqabilində və Allahın rizasını qazanmağı umaraq Allaha həsr edib vermişlər və Ona təslim olmuşdurlar. Bu hal dünya həyatının faniliyini, müvəqqətiliyini görərək Haqq-Təalanın camalına qovuşma arzusu və Haqq ilə görüşmə qayğısı ilə qul olmağın çox əhəmiyyətli bir nişanəsidir.

---

126. ət-Tövbə, 9/111.

Qurani-Kərimdə Allah-Təala İbrahimi (ə.s) ***Xəlil*** deyə yad edir:

***"Yaxşı əməl sahibi olan, özünü Allaha təslim edən, İbrahimin hənif millətinə (dininə) tabe olan şəxsdən din etibarilə daha gözəl kim ola bilər? Həqiqətən, Allah İbrahimi (Özünə) xəlil/dost tutmuşdur!"***[127]

İnsanın dünyada ən çox sevdiyi şey: əvvəlcə canı, sonra övladı, sonra da bunların davam etməsi üçün lazım olan var-dövlətidir. İbrahim (ə.s) mancınıq ilə oda atıldığı vaxt Cəbrail (ə.s) gəldi və:

"− Ya İbrahim! Rəbbin salam edir, bir ehtiyacın varmı, deyə soruşur."

"− Sənəmi?" -dedi İbrahim (ə.s). Cəbrail:

"− Bəli," dedi. İbrahim (ə.s):

"− Xeyr! Sənə ehtiyacım yoxdur. Rəbbim isə məni görür. O mənim nə halda olduğumu, nəyə ehtiyacım olduğunu bilir!" dedi.

Allah-Təala oda:

***"Ey od! İbrahim üçün soyuq və zərərsiz ol"***[128] -deyə əmr edincə atəş onu yandırmadı. Əslində yanmayan İbrahimin könlü idi. Çünki İbrahimin könlü eşq atəşi ilə onsuz da yanmışdı. Dolayısı ilə, görünən atəş onu yandırmayacaqdı və yandırmadı.

Saffət surəsində bildirildiyi kimi İbrahim (ə.s) İsmaili (ə.s) Allaha qurban etmə əmrini aldığı vaxtda da böyük bir sınaqdan çıxmışdı.

***"O, yüyürüb qaçmaq (atasına kömək edə bilmək) çağına (on üç yaşına) çatdıqda (İbrahim) dedi: "Oğlum! Yu-***

127. ən-Nisa, 4/125.
128. əl-Ənbiya, 21/69.

***xuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbirlilərdən olduğumu görəcəksən!" Onların hər ikisi (Allahın əmrinə) təslim olduğu və (İbrahim İsmaili qurban kəsmək üçün) üzüstə yerə yıxdığı zaman. Biz ona belə xitab etdik: "Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin!" (Sənə yuxuda nə əmr olunmuşdusa, onu yerinə yetirdin. Allah sənə lütf edərək oğlunun yerinə bir qoç kəsməyi buyurur). Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. Şübhəsiz ki, bu, açıq-aydın bir imtahan idi."***[129]

Burada böyük bir itaət örnəyi vardır. Canından keçmək də, övladını qurban verməyə hazır olmaq da asan bir hadisə deyildir.

İbrahim (ə.s) bir dəfə Allah deyənə qoyunlarının, mal-qarasının yarısını, ikinci dəfə Allah deyənə bütün mallarını, üçüncü dəfə Allah deyənə öz köləliyini təklif edəcək qədər var-dövlətdən keçmiş böyük bir nəbi idi.[130] Çünki sevən kəs, sevdiyi uğrunda hər şeyini verər. Var-dövlət şirin şey olduğu üçün vermək çətindir, amma yonqar çıxmadan odundan mebel olmaz.

Peyğəmbərimiz (s.ə.s) də canını, malını, bütün maddi varlığını Allah yolunda vermişdi. Bu səbəbdən vəfat etdiyi vaxt heç bir miras buraxmamışdı.

İnsanın bəzi vaxtlarda ölüm haqqında təfəkkür etməsi, *"Ölməzdən əvvəl ölmək"* sirrinə nail olmağa çalışması, həyata ölüm tərbiyəsi verməsi, həyatı daha mənalı etməkdir, Çünki

129. əs-Saffat, 37/102-106.
130. Bax. Ruhul-bəyan, V, 285.

ölüm deyə soyuq bir həqiqət vardır. Amma Yunusun dediyi kimi ürəyində eşq olan ölməz:

*Yunus ölü deyu sala verirlər*
*Ölən heyvan imiş, aşiqlər ölməz.*

Eşq könlün sifətidir. Könül isə ət və sümükdən, torpaq və sudan deyildir. Könül ilahi mənşəlidir. Dolayısı ilə o ölməz və torpaqda çürüməz. Ölən bədəndir. Torpaqda çürüyəcək olan ondan yaradılmış bədəndir. Ruh və könül tərəfimiz canlı qalmaq üçün eşq atəşi ilə bişib olğunlaşmalıdır. Yunus necə də gözəl söyləmişdir:

*Yalançı dünyaya qonub köçənlər*
*Nə söylrlər nə bir xəbər verərlər*
*Üzərində dürlü otlar bitənlər*
*Nə söylərlər nə bir xəbər verərlər*
*Kimin başında bitər ağaclar*
*Kimin başında saralar otlar*
*Kimi məsum, kimi gözəl igidlər*
*Nə söylərlər, nə bir xəbər verərlər*
*Yunus der ki: Gör təqdirin işləri*
*Tökülmüşdür kiprikləri qaşları*
*Başları ucunda heca daşları*
*Nə söylərlər, nə bir xəbər verərlər*

Ölüm mütləq baş verəcək olan bir aqibətdir. Əsas olan ölümü təfəkkür etməklə həyatımız ibrət vəsiləsi halına gətirməkdir. Hüdayi həzrətləri deyir ki:

*Yalançı dünyaya aldanma yahu*
*Bu dərnək dağılar, divan əylənməz*
*İki qapılı bir viranədir bu*
*Bunda qonan köçək mehman əylənməz*
*Varlığını nisar eylə Mövla yoluna*
*Bunda nə eylərsən onda buluna*

*Bir gün səfər düşər bərzah elinə*
*Otağı qalxacaq sultan əylənməz*

Otağı qalxdı və "haydı səfərə!" deyildisə, sultan belə dayana bilməz, yola çıxar. Sultan da olsan, mehman da olsan kim olursansa ol, bu dünyada ölüm gələcək. Sən ölümü həyatın üçün bir təfəkkür, bir imtahan vəsiləsi və bir dərəcələrin yüksəlməsi üçün yardımçı ünsür olaraq görməyə çalış!

Hüdayi həzrətləri III Muradın ölümü haqqında yazdığı bu mənzumədən başqa ölmədən əvvəl ölmək sirri üçün bunları deyir:

*Bəyim ölməzdən əvvəl öl,*
*Həyati-cavidanı bul*
*Ola gör bir qapıya qul*
*Gəl Allaha, gəl Allaha* [131]

Bu beytdə Mövlana cünun və cəzbəni, məcnun və məczubu, ağıl və eşqi işarə edir.

131. Aziz Mahmud Hüdayi, Divani-İlahiyat, hazırlayan Mustafa Tatcı, Musa Yıldız, İstanbul 2005, s. 235.

## ON DÖRDÜNCÜ BEYT

### *AĞLINDAN KEÇMƏK*

محرم این هوش، جز بی هوش نیست
مر زبان را مشتری، جز گوش نیست

*Məhrəmi-in huş cuz bihuş nist*
*Mər zəban ra müştəri cuz guş nist*

❃

**Tərcüməsi**

*Ağıla dost olmaq ağıldan keçməkdən başqa bir şey deyildir*
*Necə ki, dilə də qulaqdan başqa bir müştəri yoxdur*

***Mənzum Tərcüməsi***

*Söyləyin dil varsa talibdir qulaq,*
*Ancaq aşiq ağla sirdaş oldu bax*

Huş və guş fonetikası bir-birinə yaxın olan iki kəlmədir. Biri ağıl digəri isə qulaqdır. Allaha vüslətin yolu ağıl deyil, eşqdir. Bu beytdə Mövlana bu iki kəlməni açıqlayaraq belə deyir: İslami anlayışda biri əqli-məad, digəri əqli-məaş olmaq üzrə iki cür ağıl vardır.

Əqli-məaş məişət dərdi çəkən, dünyəvi qayğılar dalınca qaçmağı, gündəlik ehtiyaclarını hesablayaraq onları təmin etmək üçün bütün gün çalışan ağıldır. Sadəcə gündəlik yaşayan və nəfsani arzularını, şəhvətlərini və maddi mənfəətlərini düşünən mənfəətpərəst ağıldır.

Əqli-məad ilə axirət aləmini, gedəcək olduğumuz yeri, əbədiyyət iqlimini düşünərək hərəkət edən, ona hazırlaşan, axirət qayğısı daşıyan ağıldır. Əqli-məada nail ola bilmək üçün əqli-məaşı tərk etmək lazımdır. Dünya hesabını tərk edərək, şəhvət və nəfsin qayğılarını aşmaq lazımdır.

Kamil mürşidlərin söhbətlərində olmadıqca, “huş” deyilən əqli-məadın məhrəmiyyətini qazanmaq olmaz. Əvvəlcə qulağı Allah dostlarının kəlamlarını dinləmək üçün açmaq lazımdır. “Huş”, “guş”dan təsirləndikcə cüzdən küllə, məaşdan məada doğru yol qət edilə bilər.

“Dil üçün qulaqdan daha yaxşı müştəri yoxdur”. Dilin müştərisi, onun satdığını alan qulaqdır. Necə ki, belə bir söz vardır:

*Mərifət iltifata tabedir/Müştərisiz mal zaydır.*

Əgər qəbul etmək niyyəti ilə dinləyərsinizsə, onda qulağınız ən yaxşı müştəri olmuş olar. Beləcə dilin nə dediyini, dildən çıxanların nə mənaya gəldiyini daha yaxşı anlamış olarsınız.

*Qumaşa qiymət olmaz müştərisiz,*
*Gövhər bir parə daşdır cövhərsiz*

Burada ağlın nə mənaya gəldiyi üzərində bir az durmaq və bunu bir balaca izah etmək lazımdır. Çünki ağıl ilə qəlb,

ağıl ilə könül və ağlın insana təmin etdiyi rəhbərlik məsələsi İslam tarixi boyunca hər zaman problem olmuşdur.

Ağıl kəlmə mənası baxımından "iqal" kökündən gəlir və bağ, maneə deməkdir. Bir şeyi bağlamaq, cilovlamaq, yəni sürüşən, hərəkət edən, nəzarətdən çıxan bir şeyi bağlamaq mənasında işlədilir.

Ağıl əslində nəfsi, şəhvəti, dünyəvi istəkləri cilovlayan, onları nəzarətdə saxlayan, onları bir mənada bağlayan və idarə edən deməkdir. Elmləri ilə qürurlanan alimlər ilə filosoflar, cüzi ağılları ilə özlərini bağlayarlar. Beləcə nəbilərə və vəlilərə tabe olmaqdan məhrum qalarlar. Ağlın kamil olanı nəfsi-əmmarəni bağlayan ağıldır. Ağıl tək başına bir rəhbər, bir hidayət vəsiləsi və bir yol göstərici deyildir. Ağlın insanların duyğularını cilovlayıcı, onlara nəzarətedici bir xüsusiyyəti vardır. Bu səbəbdən ağlın kamillik dərəcəsi nəfsi-əmmarəni cilovlaması ilə ölçülür. Əgər bir ağıl nəfsi-əmmarəni cilovlaya bilirsə, o əqli-məaddır. Amma əqli-məaş bizim nəfsani duyğularımızı, məişət qayğılarımızı təhrik edirsə, bu ağıl məqbul sayılmaz.

Bu səbəbdən ağlı ilə yol tapmağa çalışan filosoflar əksəriyyəti etibarilə bir nöqtəyə gedib çatmışdırlar, amma gedib çatdıqları nöqtə çox vaxt həqiqət nöqtəsi olmamışdır. Çünki ağlın ilahi bir rəhbərə ehtiyacı vardır. O da vəhydir. Yəni ağlın yol göstəricisi və rəhbəri ilahi vəhydir. Allah-Təalanın nazil etdiyi Qurani-Kərimdir.

Ağıl söz və davranışlarda rəhbərdir, mənvi məsələlərdə, axirətə aid dərin mövzularda insana yol göstərmə nöqtəsində isə palçığa batmış uzunqulaq kimidir.

Bu mövzularda ağıl yol göstərici, bələdçi ola bilməz. Mövlana deyir ki: *"Sən ağlı Mustafa hüzurunda qurban et! Onun bazarında, sünnəsinə və şəriətinə müqabil onu sat və xilas*

*ol!"*[132] Yəni ağlı tək və mütləq bir yol göstərici/hidayət vəsiləsi olaraq qəbul etmə, vəhyə güvən! Hz. Peyğəmbərə (s.ə.s) tabe ol, beləcə nicat yolunu taparsan. Peyğəmbərimiz (s.ə.s) bir hədisi-şərifində: *"Yazıq o kimsəyə ki, nəfsini ağa, ağlını qul etmişdir. Müjdə o kimsələrə ki, ağlını/əqli-məadını ağa və nəfsini əsir etmişdir."*[133]

Bu hədisdə ağıl ilə nəfs arasındakı əlaqəyə diqqət çəkilir. Əgər nəfs ağlın hakimi olmuşdursa, o, əqli-məaşdır, ona təəssüflər olsun. Amma ağıl nəfsin və şəhvətin hakimi olub, onu cilovlayır, tutur və bağlayırsa, onda o ağıl, əqli-məaddır, ona müjdələr olsun.

Mövlana ağlın qeyb aləmi haqqında verdiyi bilgiləri, korun rənglər, karın səslər haqqında verdiyi bilgiyə bənzədir. Sadəcə dünyəvi və məhdud mövzularda ağlı, axirətə aid mövzularda isə vəhy, eşq və məhəbbəti rəhbər/yol göstərici olaraq qəbul etmək ən qısa və ən isabətli yoldur.

Hz. İbrahim kimi: *"Rəbbi ona müsəlman ol, deyib, o da: Aləmlərin Rəbbinə boyun əydim"*[134] -deyərək Haqq-Təalaya təslim olmaq dünya və axirət səadəti üçün təməl şərtdir. Allahın bizdən istədiyi qurtuluş yolu budur.

Qəlb ilə ağıl bir-birinin ziddi deyil, köməkçisidir. Ağıl nəfsdən dəstək alaraq onunla birlikdə hərəkət etməyə başlayar və qəlbə də nüfuz edərsə, onda problemlər meydana gəlməyə başlayar. Ona görə də qəlb və könül Allah ilə qovuşmalı, mənəvi hüzur tapmalı, zikr ilə kamilləşməli, nəfsin də arzu və istəkləri azaldılmalıdır.

Dünyəvi/məcazi eşqə aludə olmuş bir insandan nələr sadir olar? Qılləti-təam, qılləti-mənam, qılləti-kəlam, uzlət anil-

---

132. Məsnəvi IV, b. 1407.
133. Faruzanfer, Ahadis ve Kasası-Mesnevi, Tehran, 1385, səh. 481, el-Menhecül-kavi, V 355-dən rəvayətən.
134. Bax. əl-Bəqərə, 2/131.

ənam. Yəni belə birisinin əvvəlcə yeməsi azalar, gecə yuxusu azalar, az danışmağa başlayar, insanlardan uzaqlaşmağa başlayar.

Allah eşqinə talib olan insanın da yeməyi, içməyi, dünyəvi məşğuliyyətləri azaltması, danışmağı ən az həddə endirməsi və yuxusunu da səhər vaxtı oyanıq qalacaq dərəcədə azaltması bu yolun metodu olaraq qəbul edilmişdir. Çünki Allah-Təala Qurani-Kərimdə səhər vaxtlarında istiğfar etməyi, gecənin şirin yuxusundan qalxıb təhəccüd namazı qılmağı mədh edər.[135]

Beytin ikinci misrasında Mövlana "dil üçün ən gözəl müştəri qulaqdır" deyir. Qulağın dildən və ağızdan çıxanı anlayacaq ən dəyərli müştəri olduğuna işarə edir. Ancaq burada əhəmiyyətli bir şey də vardır. Allah dostları nəzdində elm və irfan öyrənməyin yolu, Allah adamlarının gözəl ağızlarından çıxan dəyərli sözləri dinləməkdir. Belə ki: "Elmi, irfanları ilə Haqq dostlarından sayılan elm əhli olan insanların ağızlarından alın," -deyilir.

Mürşid alim yol göstərən müdrik, danışan kitabdır. Kitab isə susqun mürşiddir, susan yol göstəricidir. Dolayısı ilə danışan, deyən, bəyan edən mürşid, susan kitabdan daha təsirlidir. Birincisi olmazsa, ikincisinə müraciət etmək lazımdır. Mövlana bu sözləri ilə elmi və irfanı, elə məhz elm və irfan əhlindən öyrənmək lazım olduğunu ifadə edir.

Məsnəvinin ilk beytinə Mövlana, insanın irfanı tanımasının ən təsirli yollarından birinin qulaq olduğuna diqqət çəkmək üçün "dinlə!" deyə başlamışdı. Quran isə "oxu!" deyə başlayırdı.[136] Biri göz ilə digəri isə qulaqla edilən işdir. Görmək və dinləmək insan qəlbinin və zehninin dünyanı tanıma baxımından iki vasitəsidir. Bəşəri münasibətlərdə dinləmək qəlbə da-

135. Bax. Ali-İmran 3/17, əs-Səcdə, 32/16; əz-Zariyat, 51/18.
136. əl-Ələq, 96/1.

ha çox təsir edir. Bizdə şifahi ədəbiyyatın daha yayğın olduğu üçün dinləmək oxumaqdan daha çox vüsət tapmışdır. Sadəcə dinləmək deyil, eyni məclisi paylaşmaq da insanlarda müsbət enerji meydana gətirir. Məsciddə çiyin-çiyinə, eyni səfdə birlikdə Allaha yönəlmək, eyni məkanı paylaşmaq insanların könül dünyalarında müdhiş bir duyğu və həyəcan meydana gətirir. Eyni səfləri paylaşarkən çiyinlərin, ayaqların bir-birinə dəyərək bədən təması, sevgi alış-verişi ciddi bir təsir göstərər.

Mövlananın bu sözündə qulaq asma, dinləmə nöqtəsində bir xəbərdarlıq vardır. Yəni sözü yaxşıca qulaqlarını açaraq, cani-könüldən dinləyin və yaxşı anlayın. Qurani-Kərimdə Allah-Təala müşriklərin qulaqlarını tıxayaraq Quranı dinləmək istəməmələrindən danışır. Bundan qaçışlarını misal verir.[137] Mövlana bu ifadələri ilə insanın qulağını, gözünü açmaq surətilə ilahi kəlamı dinləməyə, kainat kitabını seyr etməyə və elm-irfan məclislərində iştirak edərək oradakı elmdən faydalanmağa ehtiyacı olduğunu bildirir.

Təsəvvüfdə insan bədəni mülk olaraq qəbul edilir. İnsan bədəni bir məmləkətdir. Bu məmləkətdə sultan olmaq istəyən varlıqlar vardır. Ruh və nəfs. Bu ikisi bədən iqliminə hakim olmaq üçün bir-birinə rəqibdirlər. Ruh ilə nəfs arasındakı mübarizə ağıl, ruhun vəziri/köməkçisi olaraq qəbul edilir.

Qurani-Kərimdə Musa (ə.s.) ilə Firon arasındakı mübarizədən danışıldığı ayələrdə işari mənada belə bir izah verilir. Necə ki, Misir mülkündə sultan olmaq üçün Musa ilə Firon arasında bir mübarizə olmuş və bu mübarizədə Musanın yanında bir köməkçisi Harun varsa, Fironun yanında da havadarları Qibtilər vardı. Bir ağıl vardır ki, Musanın köməkçisi Harun kimi ruhun köməkçisidir. Bədən Misirindəki ağıl ruha dəstək verir. Nəfsin köməkçiləri həva və həvəs, nəfsani duyğulardır.

137. Bax. Nuh, 71/7.

Onlar da Firona yardım edən Misir Qiptiləri kimi bədən mülkündə hakim olmaq istəyən nəfs Fironuna yardım edir və dəstək verirlər.

Gerçək tövhid bədən mülkündə Allahın birliyi əsasını həyata keçirərək orada ruhun hakimiyyətini qurmaqdır. Tövhid insanın könül dünyasında, yəni can mülkündə tövhidi həyata keçirmək ilə başlar. Bədəndə ruhun hakim olmasını təmin edəcək fəaliyyətlərə ən böyük dəstək əqli-məaddır, əqli-məaş deyildir.

Bir də bəzən ağıl özünə olan güvəni səbəbilə vəhyin rəhbərliyinə möhtac olmadığını zənn edə bilər. Necə ki, tarix boyunca bu mənada bir çox filosof və fikir adamları çıxmışdır. Vəhyin rəhbərliyi olmadan ağıl mütləq hidayət rəhbəri deyildir. Necə ki, Füzuli də elə deyir:

*Mən ağıldan istərəm zəlalət*
*Ağlım mənə göstərir zəlalət*

Zəlalət və zəlalət bir-birinin ziddi olan iki kəlmədir. Zəlalət yol göstərmək "dəl" hərfi ilə yazılır, zəlalət/azmaq "dad" hərfi ilə yazılır.

Bu baxımdan ağlın təlimləndirilməsi üçün zikrə, xatırlatmağa və xatırlamağa ehtiyac vardır. Quranın zikr əmrlərini ağlı tərbiyələndirən xüsusiyyətlər olaraq qəbul etmək lazımdır.

Ağıl ilə eşq bəzən müqayisə edilir. Ağıl ilə eşq qarşı-qarşıya gəldikdə əlbəttə ki, eşq üstün tutulmalıdır. Çünki eşqdə təslim olma, itaət, məhəbbət və bir iç yanğısı vardır. Ağılda isə mənfəətçılık vardır. Ağıl rəndə kimi hər şeyi elə hey özünə sarı yontar, hər şeydən özünə pay çıxarar.

Ağıl ilə eşq əslində su ilə od kimidir. İkisinin bir yerdə olması elə də mümkün deyildir. Necə su odu söndürərsə, ağıl da bəzən eşq atəşinin qarşısını ala bilər. Ona görə də ağlın hüdudlarını aşan bir eşq duyğusuna sahib olmağı istəmək

bir möminin ən mühüm xüsusiyyətlərindən birisi olmalıdır. Bir hədisi-şərifdə Peyğəmbərimiz (s.ə.s) buyurur ki:

*"Sizdən birinizin imanı, insanlar onun haqqında "Bu məcnundur", demədikcə kamil olmaz".*[138]

Yəni tərz və davranışlarında dəyərləri irəli çıxaran, hər şeyə rəğmən həyata keçirməyi hədəfləyən, bu yolda insanların qınanmasına əsla əhəmiyyət verməyən: "Mənim etdiyim əməlim Rəbbimin nəzdində nə məna ifadə edər?" qayğısı daşıyan bir insan əlbəttə ki, insanların nə deyəcəklərinə əhəmiyyət verməz. Belə birisi üçün insanlar: "Bu adam yəqin ki, məcnundur" deyərlər. Çünki o, imanının, peyğəmbərinin, Rəbbinə sevdalıdır. Bu yolda canını, malını, hər şeyini verməyə hazırdır. Molla Cami deyir ki:

*Leyliyə gedən yolda bir çox təhlükə vardır*
*Ona atılacaq addımın ilk şərti məcnun olmaqdır*

Eşq mənəvi səfər ilə olar. Dünya aləminə aid duyğu, xəyal və həvəslərdən uzaqlaşmaq və əbədiyyətə tərəf istiqamətlənmək ilə olar. Təsəvvüfdə ona "səfər dər-vətən" deyilir. Xalq özlərində ənənəvi olan şeylərə uymayanlara məcnun deyir. Ancaq bir müsəlman bir münafiqin ona belə göz ilə baxmasından əsla narahat olmaz. Qulluğunu, ibadətini və insanlara olan ehsanını əsla tərk etməz. Yeri gəldikdə malının hamısını da verə biləcək bir coşqu və həyəcan içərisində olar. Onu görənlər: "Bu adam dəlidir," -deyə bilərlər.

Peyğəmbərimiz (s.ə.s): *"Orduya yardım edin!",* dediyi vaxt Hz. Əbu Bəkr Siddiq (r.a.), bütün var-dövlətini vermişdi. *"Övladlarına nə saxladın, ey Əbu Bəkr?"* deyə soruşulduqda da: "Allah və Rəsulunu" cavabını vermişdi.[139] Bax bu bir sevdadır,

138. Müsnəd, III, 68 (11671).
139. Əbu Davud, Zəkat 40.

eşqdir. Kənardan görən bir insan bunu dəlilik zənn edə bilər, amma bu eşq və sevginin ən yüksək göstəricisidir.

Mövlana deyir ki: *"Ey Haqq yolçusu! Bil ki, ağıl şəhvətin ziddidir. Şəhvətə əsir olan ağıla sən ağıl demə! Şəhvət dilənçisində olana ağıl deyil, vəhm de!"*[140]

*"Ey Haqq yolçusu! Sən ağlı, zəkanı sat və heyrəti al! Çünki zəkalı olmaq bir fikir yürütməkdən ibarətdir. Halbuki heyrət Haqqın sənətini, qüdrətini görüb valeh olmaqdır. Necə ki, Nuhun oğlu Quranda ağıl yürütmüşdür."*

*"Ağıl və zəka sənə qürur və təkəbbür verir. Sən heyrət üzrə ol ki, könlün düzəlsin. Ağlı dostun eşqində qurban et. Çünki bütün ağıllar dostun olduğu tərəfdir. Ruhun da, ağlın da çıxış yeri Haqqdır. Bu səbəblə Haqqın eşqində qurban et!"*[141]

Bu beytdə əqli-məaş ilə əqli-məad arasındakı fərqə işarə edilərək eşqi təmsil edən ağlın əqli-məad olduğu vurğulanır.

---

140. Məsnəvi IV, b.1407-1411.
141. Məsnəvi IV, b.2301-2303

## ON BEŞİNCİ BEYT

### *QƏMLİ GÜNLƏR UZANIB GEDƏR*

در غم ما روزها بیگاه شد
روزها با سوزها همراه شد

*Dər qəmi-ma ruzha bigah şod*
*Ruzha ba-suza həmrah şod*

❋

**Tərcüməsi**
*Qəmli günlə uzandı, sona çatması gecikdi*
*O günlər ayrılıqdan hasil atəşlə yoldaş oldu*

***Mənzum Tərcüməsi***
*Dərdlərimdən çox uzaq günlər yenə*
*Yoldaş idim mən də hicran dərdinə*

Bizim qəm, kədər, həsrət və eşq dərdləri ilə dolu günlərimiz uzanıb getdi. Ardı-arası kəsilmədi, qəm və dərd ilə dost oldu. Şeirdə mütləq mənada verilən qəm, eşq dərdi deməkdir.

Mövlana burada sözün uzandığını, söhbəti uzatdığını ifadə edir. Dərdlərdən şikayət mənasında deyil, hüzn və dərdlərin təsiri ilə zamanın daha da uzun hiss edildiyindən danışmağa çalışır.

*Şəbi-yeldanı münəccimlə müvaqqit nə bilir?*
*Mübtəlayi-qəmə sor ki, gecələr neçə saatdır*

Ayrılıq kədər və iztirabından qaynaqlanan bir xüsus ilə günlərimiz hüznə, kədərə dost və yoldaş oldu. Vaxtımız hüznlə, dərd ilə keçib gedir. Bilindiyi kimi zaman izafi (nisbi) bir məfhumdur. Gəncdə, yaşlıda, xəst və ya həbsdəki insan da zamanın keçməsi və qavranılması fərqlidir.

Gün vardır bir il kimi keçər, bitib-tükənmək bilməz. Amma il vardır ay kimi gəlib keçər. “Hələ il təzəcə başlamışdı, ramazan ayı idi. Nə vaxt gəldi, bir göz qırpımında keçib getdi sanki...” dediyimiz vaxtlar çox olmuşdur.

Xüsusilə dərdi və problemi olan insanların zamanı hiss etmələri digər insanlardan daha fərqli olur. Dərdi olan insanlar vaxtın daha gec və yavaş keçdiyini zənn edərlər. bu baxımdan Mövlana eşq dərdinin insanı yorduğunu və günlərin dərd ilə dolu olduğunu ifadə edir. Əslində bunu deyərkən də dərdli insanları üçün bunun təbii və normal bir hal olduğunu demək istəyir.

Bu beytdə “üslubi-hakimanə” istifadə edilmişdir. Üslubi-hakimanə: “Danışan kəsin xitab etdiyi kimsəyə onu incitmədən xəbərdarlıq etməsi” deməkdir. Dilimizdə: “Qızım sənə deyirəm, gəlinim sən eşit!” ifadəsi bu mənadadır. Allah Rəsulu əshabının hər hansı bir qüsuru olduğunu gördükdə: *“Mənə görəsən*

*nə olub ki, mən bəzilərinizin filan-filan hallarına şahid oluram?"*[142] deyərdi.

Kamal yolundakı insan bu dünyada qəlbən mütəmadi olaraq Haqqa vüslət dərdi içində olar. Könlü Allah ilə birlikdə olma şövqünə nail olsa belə, aradakı bütün pərdələri qaldırıb Haqqa vüslət şərbəti içmək istəyən bir eşq içindədir.

Mövlana haqqında rəvayət edirlər ki: Mövlananın son xəstəliyində onun müasiri və dostu olan Sədrəddin Konəvi ona baş çəkməyə gəlir. Baxır ki, Mövlana son dəmlərini yaşayır. Şiddətli bir xəstəliyə məruz qalıb. Ona: "Allah tezliklə şəfa versin" deyə dua edir.

Mövlana deyir ki: "Bundan sonra artıq: "Allah şəfa versin" duası sizin üçün olsun. Çünki aşiq ilə məşuq arasında, Allah ilə qulu arasında kətan bir köynəkdən başqa bir şey qalmadı. Ölümə bu qədər yaxınlaşdım. Artıq mənə Allahdan rəhmət diləyin, dua oxuyun, amma şəfa tələb etməyin. Çünki artıq vüslət zamanı yaxınlaşdı." Məsnəvisində də deyir ki:

Mən təndən, xəyaldan soyunmuşam, cism və bədən kimi maddi şeylər dərdində deyiləm. Mən Allaha qovuşma arzusu ilə yoluma asudə davam edir. Niyyət və arzum, könlüm və bədənim ilə Ona qovuşmaqdır.[143]

Bu dünyada Allaha eşq, ibadət və itaət ilə qovuşma dərdində olan insanlar nəfs, dünya və ətraflarından qaynaqlanan min bir dərd və çilə ilə qarşılaşa bilərlər. Bunların heç birisi Allaha gedən yolda insana maneə olmamalı, qarşısını kəsməməlidir. İnsan Haqq-Təalanın rizasına nail olmaq məqsədilə durmadan çalışmalıdır. Necə ki, şairlərdən biri belə demişdir:

---

142. Buxari, Mənaqib, 25; Müslim, Salət, 119.
143. Məsnəvi, VI, 4617.

*Sevirəm mən bəlanı*
*Çün sevir bəla məni*

Haqq-Təalanın imtahan məqsədilə göndərdiyi bəla və müsibətlər məni sevir. Mən də onları sevirəm, neyləyək? Ondan gələn hər şey xoşdur. Füzuli deyir ki:

*Eşq dərdiylə xoşəm, əl çək əlacından ey təbib*
*Qılma dərman kim həlakım zəhri-dərmanımdadır.*

Mən eşq dərdi ilə Allaha qulluq etməkdən məmnum və xoşbəxtəm. Ey təbib, məni müalicə etmək üçün hazırladığın dərmandan əl çək. Mən sənin dərman olaraq verdiklərindən narahatam.

İnsan övladının bu dünyada qarşılaşdığı sıxıntı və müsibətlərdən bezməməsi, hamısının bir hikmətə görə olduğunu düşünməsi gözəl bir şeydir. Amma bunun üçün insan iman və itaət ilə Haqqa təslim olmalı və yüksək səviyyədə bir axirət inancına sahib olmalıdır. Çünki dünyanın fani, axirətin baqi olduğuna inanan insan, axirətdə Allah tərəfindən qarşılığının veriləcəyinə qəti şəkildə inandığı üçün bu dünyadakı müvəqqəti əziyyətlərə asanlıqla dözər.

İnsan ibadət, itaət və qulluq kimi edəcəyi xeyirxah və saleh əməlləri təxirə salmamalıdır. İnsanın əlinin ayağının tutmaz olduğu ixtiyar çağlarında ibadətdən həzz alması çətinləşir. Ona görə də gənc yaşlarından etibarən insanın özünü ibadətə və Haqq yolunda xidmətə verməsi insanın olğunlaşması baxımından əhəmiyyətlidir.

Bizim mədəniyyətimizdə qəbul edilmiş ümumi bir şey vardır. Qırx yaş bir dönüm nöqtəsidir. Yəni insanın xeyirə dönməsi əgər qırx yaşına qədər olmayıbsa, qırx yaşdan sonra bu işin olması çox çətindir. Qırx yaş insanın kamala çatdığı, fiziki yetkinliyin sona çatıb zəifləmə dövrünün başlaması dövrüdür. Bu dövr insanın mühakiməsinin güclənib hadisələri

şərh etmə və hikmət oxuma çağıdır. İnsanın gözünü gələcəyə dikməkdən vaz keçib arxaya baxma ehtiyacı hiss etdiyi bir dövrdür. Qırx yaşına qədər insan övladı həmişə gələcəyə baxar: “Nələr edəcəyəm, nə qazanacağam, nələr əldə edəcəyəm?” qayğıları ilə yaşayar. Amma qırx yaşına gəlincə bir də dönüb geriyə baxma ehtiyacı hiss edər. Ancaq bir buğda boyu qədər məsafə qət edə bilmədiyini gördükdə də peşmanlıqla özünü hesaba çəkmə imkanı əldə edər.

Qulluq, itaət və xidmət üçün ən dəyərli zaman gənclik dövrüdür. Peyğəmbərimizin (s.ə.s) ətrafına baxdığımız vaxt gənc bir heyət görürük. Ona malı ilə, canı ilə və bütün varlığı ilə xidmət edən insanların yaş ortalamaları olduqca gəncdir, əksəriyyəti etibarilə oruz-qırx yaş arasındadır. Ona hər cür maddi və mənəvi dəstəyi verən yaşlıların sayısı məhduddur. Peyğəmbərimiz vali və sərkərdələrini ümumiyyətlə gənclərdən seçmişdir. Məsələn: Muaz bin Cəbəli (r.a) Yemənə vali təyin etdiyi vaxt iyirmi bir yaşında idi. Üsaməni sərkərdə təyin etdiyi vaxt on yeddi-on səkkiz yaşlarında idi. Gənc insanların çevikliyi, dinamikliyi və həyəcanı nəticə əldə etmək baxımından olduqca əhəmiyyətlidir.

Qulluq və ibadətdə insanın gənc yaşlarda ikən qibləyə yönəlməsi, tövbəyə qayıtması vacibdir. Əhlullahın həyatlarından bəhs edən sufi təbəqatında tövbə ilə bağlı fəsillər vardır. Bəzi insanların daha əvvəlki məşğuliyyətlərindən bəzi fövqəladə hadisələr səbəbilə döndükləri rəvayət edilir. Məsələn İbrahim bin Ədhəmin, Fudayl bin İyadın, Bişr Xafinin dönüşlərindən bəhs edən hekayələr və qissələr bunlardandır.

Fudayl bin İyad bunlardan ən çox diqqət çəkici olanıdır. Fudayl bin İyad gənclik dövründə keçmişdəkilərin təbiri ilə “qatiut-tariq”, yəni yol kəsənlik və quldurluq edən bir adam idi. Bir gün yenə yol kəsib quldurluq etmiş. mallarını paylaşıb

istirahətə çəkilmişdilər. O, istirahət əsnasında belə bir nida ilə ayılır:

***"İman gətirənlərin qəlblərinin Allahın zikri və haqdan nazil olan (Quran) üçün yumşalması vaxtı gəlib çatmadımı?!"***[144] Sən nə vaxt tövbə edəcək, Haqqa yönələcəksən mənasındakı bu ayə sədasını eşidəndə birdən özünə gəlir və:

"Bu mənim üçün bir xəbərdarlıqdır" -deyərək dərhal quldurluqdan əl çəkir və Allah yoluna, zöhd və təqva yoluna yönəlir. Amma yaşı hələ gənc idi. Hələ heç qırx yaşına çatmamışdı.[145]

İbrahim bin Ədhəm də elədir. O da "sultan ibnus-sultan/ sultan oğlu sultan idi. Amma ovçuluğa yaman marağı vardı. Xorasan ətrafında adamları ilə ova çıxdıqda köpəyi bir ov tutur, o da axrasınca oxunu gərir. Tam nişan alıb atacağı əsnada:

"− Ya İbrahim! Sən bunun üçünmü yaradılmısan?" deyə bir səs eşidir. Səsin gəldiyi tərəfə baxır, fəqət heç kimi görə bilmir. "Hər halda mənə elə gəldi, xəyal görürəm" deyir. Yenidən yayını gərir, oxu tam atacağı əsnada:

"− Ya İbrahim! Sən bunun üçün xəlq edilmədin? Bunun üçün yaradılmadın" deyə ikinci dəfə səs eşidir. Yenidən ətrafına göz gəzdirir amma yenə də heç kimi görə bilmir. Bir daha "bu bir vəhm, ya da şeytandan bir səsdir!" deyir. Üçüncü dəfə eyni səsi eşitdikdə:

"− Bu səs üçüncü dəfə də gəldiyinə görə bu Haqqdan gələn bir səsdir!" deyir və dərhal səltənət libasını çıxarıb orada gördyü bir çobana verir və onun əynindəki yapıcını və yun qiyafəni geyinib tövbə və istiğfar ilə zöhd yoluna girir, səltənəti və sərvəti tərk edir, saleh bir qul olur. O da gənc yaşlarda idi.

144.əl-Hədid, 57/16.
145.Təzkirətul-övliya, 90-91; Tərc. I, 112-113.

Dolayısı ilə insanın gənclik illərində qırx yaşını keçmədən belə bir tövbə ilə şərəflənməsi bir bəxtiyarlıqdır.

Qırx yaş ilə bağlı xalq arasında gözəl sözlər var:

“Qırxında öyrənən qəbirdə çalar”, “Qırxından sonra azana çarə yoxdur”. Kırım Tatarları gənc mənasında “yaş” kəlməsini işlədirlər. “O çox yaş adamdır” demək o gənc adamdır deməkdir. Yaşlı mənasında da “qart” kəlməsini istifadə edirlər. Bizdə də istifadə olunur bu kəlmə, amma bir az kobud bir ifadədir. Kırımlılar “qart baba”, “qart ana” deyirlər. Qart baba:−baba, qart ana:−nənə deməkdir. Yaş kəlməsində bahar mövsümündə suyu yenicə gəlmiş, yəni yenicə canlanmağa başlayan bitkilərə yaş deyilməsində də bir gənclik ifadəsi var. Gənclikdə öyrənmək, elmə-irfana meyil etmək çox mühümdür. Necə ki, bu mənada belə deyilir: *“Gənc yaşda elm öyrənmək mərmərə/daşa yazı həkk etmək kimidir”*[146] Mərmərə yazılan yazı silinərmi? İllər keçsə, əsrlər keçsə asanlıqla silinməz. Amma yetkin yaşlarda, yaşlılıq dövrlərində üstəlik də yaş qırx-əllini keçdiyi vaxtda öyrənilən elm, suya yazı yazmaq kimidir. Öyrəndiyinizi zənn edərsiniz, amma suyun hərəkəti ilə yazının şəkli dərhal itib gedər.

Ona görə də hafizlik üçün hər zaman həddi-büluğ yaşlarından əvvəlki dövrlər tövsiyə edilir. O dövr hafizənin daha güclü olduğu zamandır. Hətta bizim mədəniyyətimizdə uşaq dörd yaş dörd ay dörd günlük olduqa ona “bədi-bəsmələ” mərasimi təşkil edilərdi. Yəni bir uşaq dörd yaş dörd ay dörd günlük olduqdan sonra “bismillah” deyə biləcək, hərfləri tanıya biləcək bir çağa gəlmiş deməkdir.

Bu gün pedaqoqlar deyirlər ki, dörd yaşındakı bir uşaq üç dili ləhcələri ilə eyni anda öyrənə biləcək bir səviyyədədir. Yəni anası bir dil danışsa, atası ayrı bir dil danışsa, küçədəki

146. Feyzül-qadir, V, 509.

insanlar başqa bir dil danışsa, bu üç dili uşaq eyni anda dialekt fərqlilikləri ilə birlikdə öyrənə bilər. Bu qabiliyyət iyirmi yaş həddinə gəldikdə yüzdə iyirmi aşağı səviyyəyə düşür. Amma dörd yaşında yüzdə yüz həddində olur. Dolayısı ilə kiçik yaşlarda elm öyrənmək, gənc yaşlarda irfan, ibadət, itaət və təqvaya yönəlmək son dərəcə mühüm və gözəl bir hadisədir.

Mövlana bu beytində bir mənada zamanın sürətlə gəlib keçməkdə olduğunu, vədənin yaxınlaşdığını ifadə edir. Hüdayi həzrətləri kimi:

*Günlər gəlib keçməkdədir,*
*Quşlar kimi üçmaqdadır*
*Əhli-fasadın yeri nar*
*Əhli-salah uçmaqdadır.*

Uçmaq əski türkcədə cənnət deməkdir. Günlər gəlib keçir. Quşlar kimi uçur. Günlər də zamanda quşlar kimi uçub gedirlər. Fəsad əhli olanların gedəcəyi yer nar/cəhənnəm, salehlərin gedəcəyi yer isə cənnətdir. Hafiz də deyir ki:

*Xoş vaxtlar dostla keçən zamanlardır*
*Qalanı faydasız və Ondan xəbərsiz olanlardır.*

Ən böyük dost Allah-Təaladır. “Haqq dost, haqq dost!” deyə zikr edilməyə layiq olan Odur. Yunusun: “Dosta gedəlim” dediyi Odur.

**Əli Nihad Tarlan müəllim** vardı. 1978-ci ildə vəfat etdi. Fakultədən dostlarımız ilə birlikdə 1997-də ondan *Şeyxi Divanı* dərsini oxuyurduq. Müəllim xəstələndi, bir dəfə onu görməyə getdiyimiz də belə dedi:

“Xəstələndim, iztirabım artdı. Tanıdığım dostlarıma zəng etdim, Ayhan Songarı, Ömer Kirazoğlunu və başqalarını... Heç birini tapa bilmədim. İztirabım daha da artdı və başladım: “Haqq Dost, Haqq Dost” deyə zikr etməyə. Belə zikr edirdim ki, qapı döyüldü. Oğlum qapını açdı. “Kimdir, övladım?” de-

dim, dedi ki: Atacan, Milli Türk Birliyindən gənclər gəliblər səni ziyarət etməyə, “bir əmriniz varmı?” deyə soruşurlar. Gəlsinlər içəri? “Hə, əlbəttə, gəlsinlər, övladım!” dedim. Gəldilər, görüşdük. Dosta sığındıqda O, dostlarını göndərir.

Gerçək dost Allah-Təaladır. Hafiz elə deyir: Dost ilə keçən zaman xoş vaxtlardır. Ən gözəl zaman Onunla keçən, Ona qulluq etməyə, Onu təfəkkür etməyə ayırdığımız vaxtlardır. Qalanı isə faydasız və Ondan bixəbər keçən zamanlardır. Yunus da elə deyir:

*Eşqinlə keçirən dəmi*
*Neyləsin qüssə və qəmi*

Bir insanın hər dəmini, hər zamanını, Sənin eşqinlə keçirirsə, onun qüssə ilə dərd ilə, qəm ilə nə işi var axı? O Səninlə xoşbəxtdir. O Sənə sığınmaqdan, Sənə dua etməkdən, Səninlə olmaqdan xoşbəxtdir.

Bu beytdə Mövlana hikmətli bir üslub ilə müxatəblərinin simasında əslində isə dolaylı yolla özünə tövsiyələr verir.

## ON ALTINCI BEYT

### *FANİ OLANI TƏRK ET, BAQİ OLANI SEÇ*

روزها گر رفت گو رو باك نيست
تو بمان اى آنكه چون تو پاك نيست

*Ruzha gər rəftü-gu rəv bak nist*
*Tu beman ey an ke çun tu pak nist*

❃

**Tərcüməsi**
*Günlər keçdiysə keçsin, heç də qorxusu yoxdur*
*Sən qal, ey o kimsə ki sənin kimi pak olanı yoxdur.*

***Mənzum Tərcüməsi***
*Keçməsindən günlərin yoxdur kədər,*
*Ey mübarək, burada sən varsan yetər.*

Bu beytdə Mövlana kamil insanın dilindən danışır: günlər və gecələr ilə zaman keçdisə, onsuz da keçib gedib. Sən də ki: Ey zaman, keçdinsə, keçmiş olsun, keçən keçdiyi ilə qaldı, amma mənim üçün qorxu yoxdur. Özü kimi pak, təmiz kimsə olmayan mənim ilə birlikdə olduqdan sonra mənim üçün zamanın keçmsinin heç bir əhəmiyyəti yoxdur, yaxşılar ilə dost olduqdan sonra zamanın keçməsinin nə əhəmiyyəti var?

Zaman bizim sərmayəmizdir, çünki ömür sərmayəsi zamandır. Əsas olan, zamanın qiymətləndirilməsidir. Əgər zamanı yaxşı insanlar ilə oturub-duraraq, ibadət, itaət və qulluq ilə dəyərləndirə bilmişiksə, kədərlənməyə lüzum yoxdur. Çünki bu bir itki deyildir. İtirilən zaman, ibadət, itaət və qulluqdan uzaq olaraq keçirilən zamandır.

Keçmiş zamana təəssüf etməyin və heyifslənməyin, gələcək zaman üçün də qayğı və əndişə etməyin faydası yoxdur. Çünki keçən keçdi, gələcək zamanı da bilmirik. Elə isə bizdən tələb olunan, yaşadığımız zaman və içində olduğumuz an və hazırkı vaxtdır. İndi bizdən nə gözlənilir, nə tələb olunursa, biz onu edə biliriksə, onda ibnul-vaxtıq/zamanın övladıyıq. Zaman sahib olan insanıq. Amma zaman bizi sövq edirsə, ona uyub gedir və onun bizə məcbur etdiklərini tətbiq etməyə çalışırıqsa, onda vaxtın/zamanın övladı deyil, zəmanə adamıyıq. İbnul-vaxt deyilən, zamanın övladı ilə zəmanə adamı arasında fərq vardır. İndi "*time management*" deyilən zamanın idarə edilməsi də hər halda belə bir şeydir.

İbnul-vaxt, vaxtı lazım olduğu kimi keçirən, zamanın haqqını verən və icra edəndir. Şükür vaxtında şükür, itaət zamanında itaət, tövbə zamanında da tövbə ilə məşğul olandır. Hər zaman nə edilməlidirsə, onunla məşğul olan insan ibnul-vaxtdır. Zamanın idarə etdiyi iradəsiz, mətanətsiz, müqavimətsiz insan isə zəmanə adamıdır. Zaman onu küləyin qabağına qatıb apardığı yarpaq kimi istədiyi yönə sovurur və bir saman çöpü

kimi sürüyüb aparır. Dolayısı ilə anı yaşamaq, anın tələblərini yerinə yetirmək lazımdır. **Mehmet Akif** deyir ki:

*Keçən keçmişdir, anı-müstəqbəl mübhəmdir*
*Həyatdan nəsibin bir bu keçmək istəyən andır.*

Keçən yaxşısı ilə, pisi ilə keçib getdi. Gələcək zaman isə bilinmir, nə olacağını deyə bilmərik. Elə isə insanın həyatından nəsibi indi yaşadığı, nəfəs aldığı, gözünü qapadığı anda özünü hiss etdiyi andır.

İnsanın gələcəyə aid plan və düşüncələrinin olması gözəldir, amma kifayət deyil. O planların nə qədər həyata keçirilə biləcəyi çox mühümdür.

"Dünən filan-filan şeyləri etdim", deyib öyünməyin bir mənası yoxdur. Eyni zamanda "Dünən filan şey belə olmuşdu" deyib kədərlənməyin də bir faydası yoxdur. Onlar keçdi, elə isə hazırda nəfəs aldığın ana bax. Çünki ölüm deyilən şey nəfəsin alınıb verilə bilməməsi qədər bizə yaxındır. Hal belə olduqda son nəfəs şüuru ilə zamanı və anı dəyərləndirmək lazımdır. İnsanları dəyərləndirərkən də keçmişləri ilə deyil, hazırkı vəziyyətinə görə dəyərləndirmək lazımdır. Keçmiş zamanda insanın qüsuru, zəif cəhətləri olmuş ola bilər. Ancaq bu gün tövbə edərək doğru yolu tapmışdırsa: "Keçmişdə belə idi" deməyin də mənası yoxdur. İnsanın, tövbə etməzdən əvvəlki hər qüsurun Haqq-Təala örtür, əfv edir. Dolayısı ilə bizim onları qurdalamağa və onlar ilə bağlı dedi-qodular çıxarmağa haqqımız yoxdur.

Əsri-səadətdə buna minlərcə misallar vardır. Müşrik ikən müsəlman olub Allah Rəsulunun səhabəsi olmuş və cənnətə girməyə haqq qazanmış insanlar var. Məsələn, Uhud döyüşündə iştirak etmək istəyən bir insan var. O soruşdu:

"− Ya Rəsulallah!" Döyüşdə iştirak edim ondan sonra müsəlman olum, yoxsa müsəlman olub sonra döyüşdə iştirak edim?" Peyğəmbərimiz (s.ə.s):

*"− Əvvəlcə müsəlman ol, sonra döyüşə gir!"* buyurdu. Useyrim adındakı bu səhabə iman etdi, Uhud döyüşünə girdi və şəhid oldu. Bəlkə üç saat, bəlkə də daha çox iman ilə yaşadı, amma cənnətlik oldu.

Əbu Hüreyrənin (r.a) həmin adamı qəsd edərək bir tapmaca kimi: "Heç namaz qılmadan cənnətə girən varmı, kimdir?", deyə soruşduğu rəvayət edilir. Heç namaz qılmadı, çünki namaz vaxtı keçmədi o İslamı qəbul etdiyi müddət ərzində. Müsəlman oldu, döyüşə girdi, şəhid oldu və birbaşa cənnətə getdi.[147] İndi onu, müşrik idi, namaz qılmamışdı deyə qınamağa haqqımız varmı? Əsla yoxdur.

Bir başqa hadisə: Yermuk döyüşündə möminlərin sayının 40 000, Bizanslıların 240 000 olduğu bildirilir. Xalid bin Vəlid sərkərdəliyindəki müsəlman ordusu olduqca sıxıntılı anlar yaşadı. Bizanslıların, qərargahlarına çadırlarına qədər hücum etdiyi vaxtlar oldu. Amma nəhayət zəfər müsəlmanların lehinə oldu. O döyüşdə müsəlmanların komandanı Xalid bin Vəlid vasitəsiylə General Yorgi müsəlman olmuşdu. Daha əvvəl müsəlman ordusunu darmadağın etmək niyyəti ilə gələn adam, dərhal müsəlmanların səflərində kafirlərə qarşı döyüşməyə başladı. Bir müddət əvvəl imansız idi, amma indi imana qovuşdu.[148] Dolayısı ilə onu keçmiş həyatına görə qiymətləndirib qınamağın mənası yoxdur. Hazırda yaşadığı ana baxmaq və ona görə qiymət vermək lazımdır.

Rəsulullahın (s.ə.s) nəzər etdiyi səhabələrdə buna aid çox örnəklər var. Səhabənin tərifini ümumiyyətlə "Rəsulullahı

147. Bax. Əhməd b. Hənbəl, Müsnəd, IV, 293 (18615)
148. İbnul Əsir, *əl-Kamil fit-Tarix,* Beyrut 1965, II, 412ş

(s.ə.s) İslamı qəbul edərək görən və bu iman ilə ölən insan" olaraq bilirik. Ona bir də "Rəsulullah tərəfindən görülən, onun nəzərinə tuş gələn insan" ifadəsini də əlavə etmək lazımdır. Çünki Rəsulullahı (s.ə.s) görmək çox mühümdür. O kainatın ən gözəl insanı, rəhmət peyğəmbəridir. Amma Onun tərəfindən görülmək, onun nəzərinin insana tuş gəlməsi də ən az onun qədər əhəmiyyətlidir. Çünki o nəzərdə insanı ehya edən, dirildən bir xüsusiyyət vardır. Rəsulullahın (s.ə.s) gördüyü və onun nəzərinə tuş gəlmiş səhabələr necə dünən imansız, sabahısı gün, yəni yaşadıqları anda mömin olaraq səhabə oldularsa, bu gün də belə olan yüzlərcə insanlar ola bilər. Dünən inancsız ikən, bu gün mömin olaraq qarşımıza çıxıb cənnətə nail ola bilərlər. Dolayısı ilə, önəmli olan son nəfəsdir. Şair deyir ki:

*Dər dəmi-axir, dəmi axar bud*
*Son nəfəsdə başqa bir dəm bulur vücud.*

Mühüm olan son nəfəsdir və o ayrı bir dəmdir ki, insana da son nəfəsinə görə hökm verilir. Son nəfəs nə olarsa, hökm də ona görədir. Dolayısı ilə, Peyğəmbər (s.ə.s) qıldığımız namazımızı "son namaz"mış kimi qılmağımızı istəyir.[149] Çünki növbəti namaza sağ qalıb-qalmayacağımız xüsusunda bir zəmanətimiz və məlumatımız yoxdur. Biz daim hər nəfəsimizi Allah-Təalaya qovuşma sevinc və qayğısı ilə almalı, ibadətlərimizi də bu düşüncə ilə etməliyik.

**İbni Ərəbi** Füsus əsərində Fassı-Süleymanidə deyir ki: "Kainat xəyaldan ibarətdir. O (Allah) həqiqətdə Haqq olaraq var olandır. Bunu anlayan təriqət sirlərinə vaqif olar."[150]

Mövlana: "Zaman keçdisə, mühüm deyil pak bir insan ilə birlikdə olduqdan sonra" deyərək, pak sözü ilə Şəmsi də

149. İbn-Macə, Zöhd, 15.
150. İbn ƏrƏbi, Füsusul-hikəm, nəşr. Əbul-Ala Afifi, Beyrut, 1980, I, 159.

nəzərdə tutmuş ola bilər. Şəmsin söhbətinə yaxınlıq qazandıqdan sonra günlərimiz eşq və şövq dərdi ilə keçdi, deyərək onunla bərabər yaşadığı dostluqdan qalan həzz və xatirələrə işarə edir.

Dost ilə birlikdə yaşanılan dəqiqələr, saatlar və zamanlar ayrı bir gözəllikdir. Günlərin keçdiyinə yanmıram. Biz fani olan şeylərə əhəmiyyət verməməliyik. Necə ki, belə bir söz vardır: "Nə zamani-zamana bağlı, nə də məkani-məkana bağlı ol!"

Mövlananın Şəms ilə birlikdə olması və onun söhbətindən həzz alması onun üçün böyük bir lütf idi. Mövlana Şəmsdən sonra Hüsaməddinə deyir ki: *"Sən qal, ey Hüsaməddin, sənin kimi pak dil, söhbətə layiq biri yoxdur."* Məqsəd onun vücudu/varlığı deyil, söhbətidir.

Beytdə bir məna ola bilər: "Sən qal, ey ani-vahidi, sərmədi-rahat və əbədi səadət ki, sənin kimi pak olan yoxdur". Yəni ey mənə Şəms ilə birlikdə olduğum vaxtda əbədi səadəti və rahatlığı daddıran o bir an ki, sənin kimi təmiz və dəyərli bir vaxtım heç olmamışdır.

İnsan həyatında qazanclı dəmlər vardır. Hətta ticarətdə belə bir söz işlədilir: "Elə saat vardır ki, günü, elə gün vardır ki, həftəni, elə həftə vardır ki, ayı, elə ay vardır ki, ili bəsləyər." Hətta bəzən elə gün və saat olur ki, ili bəsləyir. Ticarət həyatında insanın qazanclı olduğu bir an gələr ki, o qazancı insana bir ömür boyu kifayət edəcək qədər sərvət qazandırar.

Mənəvi həyatda da vəziyyət belədir, insanın gözəl insanlar ilə birlikdə olduğu, könlünə Rəbbani ilhamların dolduğu, həzz alaraq ibadət və itaətə yönəldiyi anlar, ya da dəmlər olur. Onların həzzi başqa olur. Məsələn ilk həccin, ilk dəfə Kəbəni görməyin və ilk təvafın həyəcanı ayrı bir gözəllikdir. Bəlkə o anlar insanın bütün ömründə unudulmayacaq izləri olan

mənəvi həzlərə yol aça bilər. Səhər vaxtında qalxıb iki rükət namaz qılmaq ömür boyu qılınan namazlardan daha dərin bir səmimiyyət və xüşu verə bilər. O ibadət bəlkə də heç vaxt unuda bilməyəcəyi bir əməl olaraq zehninin bir kənarına həkk oluna bilər. İnsan bir Allah dostunu görmüş, gözəl bir insanla görüşmüş ola bilər ki, bu anı üçün: “ Mənim üçün heç vaxt unuda bilməyəcəyim anlardan biri oldu”, deyə bilər. O zatı görməyi zehnində şirin bir xatirə və gözəl bir an olaraq yaşada bilər.

Mövlana sanki belə deyir: Mənim Şəms ilə birlikdə olduğum o an bir gözəllik idi. Günlər və zaman keçdi, indi onlar bir xatirə olaraq qaldı. Zehnim və könlüm, dostluğum onunla olduqdan sonra geri qalan şeylər əhəmiyyətli deyil. Mənə lazım olan dostlar ilə birlikdə olmaqdır, Allah ilə birlikdə olmaqdır.

Zaman heç kimin nəzarətində deyil, öz-özünə axıb gedir. Hətta suyun axışı kimi sürətlə axıb gedir və yığılıb saxlanıla bilməyən yeganə sərmayədir zaman. Ticarət sərmayənizi, pulunuzu, qənaət edərək yığıb saxlaya bilər, dəyərləndirə bilər, hətta çoxalda da bilərsiniz. Tarlanızı genişləndirə bilər, pullarınızı artıra bilər, amma zaman sərmayənizi yığıb saxlama və çoxaltma imkanına sahib deyilsiniz. Bu səbəbdən də onun saniyəsini, dəqiqəsini və hər anını çox səmərəli şəkildə istifadə etmək lazımdır.

**İmam Şafi** həzrətləri belə deyir: “Mənim sufilər ilə bir müddət dostluğum oldu. Onlardan iki şey öyrəndim: Birincisi: “Nəfsin ən böyük düşmənindir. Sən onu xeyir iş ilə məşğul etməsən, o səni şər iş ilə məşğul edər. İkincisi: Zaman qılınc kimidir. Sən onu kəsməz, yaxşı istifadə etməzsən, o səni kəsər, sürüyüb aparar, sovurub atar.”

“Oturmuşuq, amma gedirik. Zaman axıb gedir, yeni bir yer üçün hərəkətə keçmişik, ancaq sən görmürsən. Sən sər-

mayəni, yol ehtiyatını bu gün üçün deyil, gələcək üçün, gələcəkdə bir şey edə bilmək üçün hazırla! Ey yola tapınan! Yolçu o kəsə deyirlər ki, üzü və hərəkət istiqaməti irəliyə doğrudur."[151]

Yəni sən irəliyə, ölümdən sonraya hazırlıq etsən çox yaxşı olar. Ölümdən sonraya heç bir hazırlıq etmirsənsə, zaman sərmayəsini toplama imkanın olmadığı üçün demək ki, ziyandasan.

Fəxrəddin Razi ***"Zamana and olsun ki, insan övladı ziyandadır"***[152] ayəsini "insan övladı ömür sərmayəsi kimi istifadə etmə, yəni zamanı idarə etmə baxımından ziyandadır",[153] şəklində izah edir. İnsan zamanı yaxşı istifadə edə bilməmə, idarə edə bilməmə nöqtəsindən zərərdədi, ziyan içindədir. Zamanı dəyərləndirməyin şərti, ayənin davımında bizə bildirilir. İnsanın əsl problemi zaman ilə bağlı olan problemdir. Hamımızın zamanı dəyərləndirmə məsələsində ciddi problemlərimiz olduğunu düşünürəm.

Həyatın zəhmətlərinə, sıxıntılarına, çilələrinə qatlanmaq və bu həyatdan istifadə edərək o biri aləmə köçmək lazımdır. Necə ki, dilimizdə gözəl bir söz vardır: "İşləməyən dişləməz". Çilə və sıxıntı çəkmədən nemət əldə edilə bilməz. Ən adi bir işdə belə nəticə əldə etmək üçün tər tökmək və bir qarşılıq ödəmək lazımdır. Mövlana Məsnəvisində gözəl bir hekayə rəvayət edir:

İranda Qəzvin adında məşhur bir şəhər var. Qəzvinlilərdə vücudlarına döymə vurdurmaq dəbdə imiş. Bu orada çox geniş yayılmış bir adət idi. Cavan bir oğlan da bədəninə döymə vurdurmaq üçün döyməçiyə gedir. Döyməçi soruşur:

"− Nə istəyirsən?" Cavan oğlan cavab verir:

151. Məsnəvi, VI, b, 2777-79.
152. əl-Asr, 103/1-2.
153. Bax. Fəxrəddin ər-Razi, ət-Təfsirul-Kəbir, Beyrut, 1990,XXXI-XXXII, 83.

"− Belimdə iki kürək sümüyü arasında gözəl bir aslan şəkli." Döyməçi:

"− Yaxşı, çıxar əynindəki köynəyini", deyir. Cavan oğlan belini açır. Döyməçi ləvazimatlarını hazırlayır, gənci taxtanın üstünə yatırıb başlayır döymə etməyə. İynəni bir dəfə batıran kimi, cavan oğlan sıçrayır və:

"− Nə edirsən?" -deyir.

"− Aslan döyməsi çəkirəm," -deyir.

"− Harasını çəkirsən?"

"− Başını çəkirəm, yeni başladıq axı!"

"− Başı lazım deyil, başı qalsın."

"− Yaxşı." Sızlayan yeri bir az ovxaladıqdan sonra yenidən iynəsini batırır. Cavan oğlan yenə də yerindən sıçrayaraq:

"−Nə edirsən?" − deyir.

"− Aslan döyməsi çək dedin, mən də aslan döyməsi çəkirəm, başqa nə edəcəm?" deyir döyməçi.

"− Harasını çəkirsən?" deyir.

"− Quyruğunu çkirəm"

"− Quyruğu da lazım deyil, qoy quyruqsuz olsun".

"− Oldu," -deyir, döyməçi. Bir az sonra yenə bir iynə batırır və cavan oğlan yenə də yerindən sıçrayaraq:

"− Nə oldu, nə edirsən?"

"− Aslan çəkirəm".

"− Harasını çəkirsən?"

"− Qarnını".

"− Qarnı da lazım deyil", − deyincə, döyməçi əsəbiləşir və:

"− Dur ayağa, avaranın biri avara! Başı olmayan, quyruğu olmayan, qarnı olmayan aslan harada var? Allah belə bir aslan yaratmayıb. Ya döymə döydürmə, ya da gəlmisənsə, səbir et! Ağrısına dözə bilmirsənsə, nəyə gəlmisən döymə döydürməyə?" deyir.[154]

Bədəninə döymə ya da şəkil çəkdirmək istəyən insan belə, müəyyən qədər əziyyətlərə, çətinliklərə dözməlidir. Çilə, sıxıntı və əziyyətlərə dözmədən kürəyinə aslan şəkli çəkdirib aslan kimi gəzmək mümkün deyil.

Üstəlik də insanlar üçün faydalı olmaq istəyən, dünyam və axirətim abad olsun deyən, gərək bir az sıxıntılara da sinə gərsin. "Dərdləri özümə zövq bilirəm, məndə sevinc nə gəzir?" deməyi bacarmalıdır. Qulluq, ibadət, xidmət və çilə insanda zövq halına gəlməlidir.

Allah üçün edilən fədakarlıqlar həqiqətən də belədir. İnsanın sevdiyi üçün etdiyi hər cür dünyəvi fədakarlıq, hətta sevginin cövrü-cəfası, yerinə görə insana bir lütf kimi gəlir. Allah sevgisi bir insanın qəlbinə yerləşmişdisə, onun sınaq və imtahanı olaraq başına gələn müsibətləri o insan Allahdan gəldiyini bilərək xoş qəbul edər. Allah-Təala buyurur:

***"Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbir edən şəxslərə müjdə ver!"***[155]

Qısacası, döymə döydürərkən yerində dura bilməyən deyil, "Mən, madam ki, bu işə başladım, elə isə təslim olmalıyam, bu yolda bütün çətinliklərə dözməliyəm," -deyən, hamama girənin tərləyə biləcəyini bilən və Haqqa qul, xalqa məqbul olmaq üçün fədakarlıq etmək lazım gəldiyini idrak edən insan

154. Məsnəvi, I, b. 2980-3003.
155. əl-Bəqərə, 2/155.

olmalıyıq. Bu baxımdan Mövlananın nəsihətlərini cəlal içində camal axtarışı olaraq qəbul etmək lazımdır. Qulluğun, kamala, camala, hüsnə (yaxşılığa), əhsəni-təqvimə (ən gözəl şəkil) sirrinə və mütləq gözəlliyə yaxınlaşdıqca sevinci, xoşbəxtliyi nəfəs kimi ciyərlərinə çəkmək mənasına gəldiyini anlamaq lazımdır.

Bu beytdə Mövlana o dövrün insanlarının ən çox ehtiyacı olan ümid və səbir mövzusu üzərində durur və insanlara ümid və səbir qapılarını göstərir.

## ON YEDDİNCİ BEYT

### *BALIQ SUDAN DOYMAZ*

هر که جز ماهی، ز آبش سیر شد
هر که بی روزیست، روزش دیر شد

*Hər ki cuz mahi zi-abəşsir şod*
*Hər ki bi ruz ist ruzeş dir şod*

❃

**Tərcüməsi**
*Balıqdan başqası suya qandı*
*Nəsibsiz olanın rızqı gecikdi*

***Mənzum Tərcüməsi***
*Bir balıqdan qeyrilər qanmış suya,*
*Ən uzun gün ən nəsibsiz gündür axı!*

Haqqın feyz dənizi nəhayətsizdir. Bu sonsuz dənizdən istifadə edənlər üç dərəcədir:

**1- Kamil/çatan və mükəmmil/çatdıran mövqeyində olanlar.** Bunlar özlərinə gələn feyz və təcəllilərini daşıya bilən və artmasını istəyənlərdir. Yəni ki, bunlar ilahi cəzbə əsnasında cəzbəni daşırmadan həzm edənlərdir. Bu mövzu belə bir yöndən izah edilir: Cəhənnəm Allah-Təalanın ilahi cəlalının tam təzahürüdür. Bu səbəbdən onun dolması mümkün deyildir. Belə ki, Qurani-Kərimdə: ***"O gün Biz Cəhənnəmə: "Doldunmu?" – deyəcək, o isə: "Yenə varmı?" – deyə cavab verəcəkdir".*** [156] Allah Rəsulu Allahın rəhmət və camalının tam təzahürü olduğu halda hər gün yetmiş və ya yüz dəfə istiğfar ilə Allah-Təalaya dua edərdi. Çünki Haqqın əzəməti qarşısında heyrətə düşmək məqbul bir davranışdır. Belə ki, **Muallim Naci** deyir ki:

*Zövqi-heyrət əkməli-əzvaq imiş*
*Xaceyi-icaz gu "zidi" demiş*

Meracda Cəbrail (ə.s) daha da irəliyə keçə bilməyəcəyini ifadə etdiyi halda Allah Rəsulu yuxarılara doğru irəliləmişdir.

*Gər keçəm bir zərrə dənlü ilərü*
*Yanarım başdan ayağa ey ulu*
*Çün əzəldən mənə aşiq oldu dəlil*
*Yanar isəm mən yanaram, ey Xəlil*

**əl-Xadaiqül-vərdiyyənin** müəllifi, İbn Ərəbidən nəql edərək belə bir şey rəvayət edilir: Bəyazidin hüzurunda bir nəfər deyir ki:

− Elə içmişəm ki, artıq heç vaxt susamaram. Bəyazid bunun müqabilində belə deyir:

---

156. Qaf, 50/30.

− Gerçək ər/ərən odur ki, dənizi içib qurtarar, axırda susuzluqdan yenə dili çölə çıxar və: “Yenə varmı?” deyər. Eşq elə bir şərabdır ki, ondan doyulmaz.[157]

**2- Cüzi bir nəşə ilə qane olanlar:** bunlar feyzin yüksəkliyinə tab gətirə bilməyənlər, “Allahın eşq qədəhindən o qədər içdim ki, bir udum da içsəm yox olacam”, deyənlərdir. Bir mənada feyz üçün qabları kiçik olanlar da demək olar. Necə ki, çox yüksək təzyiq ilə axan suyun altına fincan, ya da stəkan qoyulsa içinə çox az su girər, hətta heç girməz, hamısı daşar. Amma daha böyük qablar qoyulsa vəziyyət fərqli olar. Bəyazid və Həllacın ilahi feyz və cəzbə qarşısındakı daşqınlıqları bu növdəndir.

**3- İrfan və mənəviyyat zövqündən məhrum, nəsibi olmayanlar.** Sudan doymayan suyun içindəki balıqdır. O qidası su olduğu və həyatını suyun içində keçirmək məcburiyyətində olduğu üçün sudan doymaz, amma suyun fərqinə də varmaz. Nə vaxt ki, sudan çıxar, onda suyun qədrini, qiymətini başa düşər. şairin dediyi kimi:

*O mahilər ki, dərya içrədir, dəryanı bilməzlər.*

Mövlana bu beytində ilahi feyzlərin sonsuz və hüdudsuz, ucsuz-bucaqsız br dərya olduğunu ifadə edir. İnsanların bu dəryadan nəsibləri öz qabiliyyətlərinə görədir. Mövlanə, Allahı sevən, aşiq qulu balığa bənzədir. Necə ki, balıq su içində həzz və zövq ilə yaşayırsa, Haqq aşiqi də Xaliqin feyzi ilə yaşayır. Su və həyat Quranın ifadəsi ilə daim bir-biri ilə əlaqəsi olan şeylərdir. Allah-Təala:

***“Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bil-***

157. Abdülməcid b. Məhəmməd əl-Hani, əl Hadaiqul-vərdiyyə, Misir 1306 s. 98.

***mirlərmi?! Yenə də iman gətirməzlər?"***[158] buyurur. Mövlana dəniz və eşq misalını buradan hərəkət edərək istifadə edir.

Burada göstərilən üç sinif başqa bir təsnifə görə belə dəyərləndirilir:

1- Balıq kimi, ruhları məna dəryasında üzən aşiqlər. bunlar sudan doymayan balıqlar kimi daim ilahi eşq ilə qidalanan və ondan həzz alanlardır.

2- Balıqdan başqa, yəni sudan doyma meyili və arzusu olan iki qrup: Əxyar və Əbrar yolunu təqib edənlər. Əxyar əhli durmadan zahidanə ibadət və itaət ilə ilahi eşqə nail olmağa çalışan, könüllərini Rəbbləri ilə qovuşdurub, həyatlarının hər anını ilahi eşq ilə doldurmağa çalışanlar; əbrar əhli isə mücahidə və riyazət ilə nəfslərinə ağır gələn az yemək, az yatmaq, az danışmaq, xəlvət və zikr kimi şeylər ilə özlərini yetişdirməyə çalışanlardır. Nəticədə hər ikisinin hədəfi sudakı balıq kimi ilahi eşqə nail olmaq, o nəsibi əldə etməkdir. Bunlar kəşf, kəramət və mükaşəfə ilə qənaət edərlər.

3- Ruzisizlər, yəni nəsibsizlər. Bunlar üçün edilə biləcək hər hansl bir şey yoxdur. İlahi təqsimatda nəsibləri yoxdur.

Mövlana insanlara Haqq-Təalanın özlərinə eşq və məhəbbət verməsi və kimisə sevmələri üçün İxlas surəsini və Muavvizəteyni (Fəlaq və Nas surələri) çox oxumalarını tövsiyə edir. İnsanların sevərək bəşər sevgisindən Haqq sevgisinə doğru yüksəlməyə çalışmalı olduqlarını ifadə edirdi.

Bu beytdə Mövlana həqiqətdən qurtum-qurtum doymağın yolunu göstərir və Əhadiyyət dəryasında qərq olmağı dilə gətirir.

---

158. əl-Ənbiya, 21/30.

## ON SƏKKİZİNCİ BEYT

### *XAM RUHLAR PÜXTƏ SÖZÜ ANLAMAZ*

در نيابد حال پخته هيچ خام
پس سخن کوتاه بايد والسلام

*Dər neyabəd hali-püxtə heç xam*
*Pəs süxan kütah bayd vəssalam*

❋

**Tərcüməsi**
*Xam ruhlu olanlar püxtə zatın halını anlamaz*
*O halda sözü qısa kəsmək gərək, vəssalam*

***Mənzum Tərcüməsi***
*Püxtələrin əhvalını bilməz ki xamlar*
*Söylə az söz yetsin artıq vəssalam*

Kamal sahibi olmayan xam ruhlu insanlar kamalın nə demək olduğunu bilməzlər. Mövlana, kamal əhli insanların, ancaq kamal əhli olan insanlar tərəfindən başa düşüləcəklərini, naqis/nöqsanlı insanların kamil insanları anlamasının mümkün olmadığını ifadə edir. Necə ki, bir şair belə deyir:

*Qədri-suxani şair bilər ancaq*
*Ruhul-Qüdüsun sirri İsrafilə əyandır*

Şairin sözünün dəyərini ancaq şair olanlar anlayar. Şair olmayan kəsin şeirdən anlaması mümkün deyildir. Elə isə kamal əhli olan insanların sözlərini və duyğularını, ancaq o sıxıntıları yaşamış və kamilləşmə mərhələsindən keçmiş olanlar idrak edə bilər. Dilimizdə: "Şairi xoşbəxt edən, şeiri anlayanların alqışlarıdır, yıxan isə şeirdən anlamayanların alqışlayıb, anlayanların susmasıdır", deyə gözəl bir söz vardır. Şeirdən anlayan susur, söz demir, anlamayanlar alqışlayırlarsa, şair: "Təəssüf! Mən bu işi deməli, bacara bilməmişəm," deyər. Şeiri, ancaq şair olan anlayar və təqdir edər. Başqaları təqdir edir, şeirdən anlayanlar susurlarsa, deməli, orada bir qüsur vardır.

Hər gözəlliyi ən yaxşı şəkildə idrak edənlər, gözəlliyə aşina olanlar və sənətdən anlayanlardır. Bir memarlıq əsərindəki gözəllikləri, memarlıqdan anlayışı olan, memarlıq savadı olan insanlar təqdir edə bilər. Xəttatlığın gözəlliyini bir "bəsmələ" (bismillah) lövhəsindəki "bə"-nin, "sin"-in, "mim"-in, gözəllik və ahəngini bu işdən başı çıxanlar təqdir edə bilər. Hərflər arasındakı tənasübü də yenə bu işi bilən bir insan fərq edə bilər.

Hər işi o işdə səriştəli olan kimsədən (ustasından) soruşmaq, ya da əhlinə danışmaq lazımdır. Səriştəli olmayan kimsələrə soruşduğunuz və onların ümidlərinə qaldığınız vaxt qaneedici cavab ala bilməzsiniz. Anlamayana danışdığınız şeylərdə də çətinlik çəkərsiniz. Sözü qısa demək istəyirsinizsə, anlayana deməlisiniz. Dilimizdə gözəl bir söz var: "Sözün

uzunu axmağa danışılar". Ləb demədən ləbləbini başa düşən adam üçün uzun sözə ehtiyac yoxdur.

Bir şeyi asanlıqla başa salmaq istəyirsinizsə, çilə çəkənə, onu yaşamış olana danışın ki, sözünüz başa düşülsün. Xam olan kəsdə, qanadları atəşdə yanmış pərvanənin gücü ola bilməz.[159] Bu səbəbdən, "Dadmayan bilməz", deyirlər. Bal yeməmiş adama balı başa salmaq mümkün deyildir.

*Belə nəql edirlər, Ərzurumlu demiş ki:*

*"− Bal, çox dadlı imiş".*

*"− Hardan bilirsən?" demişlər.*

Demiş ki:

"− Aşağıda yemişlər, qardaşıma demişlər, ondan eşitmişəm".

Yəni aşağı məhəllədə yeyiblər, qardaşıma deyiblər, o da ondan eşidibdir balın çox dadlı olduğunu. Yoxsa yazıq heç bala barmağını da batırmayıb. Bir insanın dadmadan, yaşamadan bir şey haqqında söz deməsi bax belə olur.

Onu yaşayan, dadan isə tamamən başqa cür anlayar. Hüdayi həzrətlərinin bu mənada gözəl bir şeiri vardır:

*Vüsalın zövqünü cana nə bilsin, zahidi-miskin*
*Əfəndi kandə fəhm eylər cimanın ləzzətin onun.*[160]

Tövhid zikrinin və tövhidi yaşamağın dadını, ancaq arif olan irfan əhli anlayar. Həqiqi tövhidi qavrayan anlayar. Kainata baxdığı vaxt hər zərrəsində Allahın əzəmətini, qüdrətini görən anlayar. Görən göz və eşidən qulaq, yalnız fərq edər. Belə bir xüsusiyyəti olmayan insanın bunu başa düşməsi mümkün deyildir.

159 . Ruhul-bəyan, V, 272.
160. M. Gülşen Efendi, Külliyyati-Hazreti-Hüdayi, s. 158.

Mənəviyyat elmi belə bir elmdir. Onu, ancaq dadan, yaşayan bilər. Amma onun izah edilməsi də mümkün deyildir. Bu səbəbdən Mövlana Məsnəvinin ikinci cildinin müqəddiməsində özünə: Eşq nədir?, deyə soruşana, “Mən ol da bil!” dediyini ifadə edir. Yəni mən sənə eşqi necə başa salım?

Görməyənə rəngi başa salmaq mümkündürmü? Heç gözü görməyən, anadangəlmə kor olan bir insana, sarı, qırmızı, yaşıl budur, deyərsiniz? Nə qədər deyirsinizsə deyin, başa salmağınız mümkün deyildir. Çünki rəngləri bir-birindən ayıra biləcək bir məlumatı yoxdur. Belə bir şeyi görməyib, dadmayıbdır ki, sizin dediyinizi başa düşsün.

Necə ki, kor bir adama rəngi başa salmaq mümkün deyilsə, mənəviyyatın həzzini də onu heç dadmayana başa salmaq mümkün deyildir. Bu beyt ilə bağlı olaraq **Əziz Nəsəfi** deyir ki:

Aləmdə mövcud olan hər şeyin bir nəhayəti vardır. Hər şeyin nəhayəti başa qayıtmasıdır. Yəni gəldiyi yerə geri qayıtmasıdır. Harada başlamışdısa, oraya da dönməsidir. Meyvə ağacda yetişdikdə öz nəhayətinə/sonuna çatmış olur. Ərəblər buna :”Meyvə hür oldu”, deyirlər. Nəhayətin əlaməti əvvəlinə vüslət/qovuşmaqdır. Öz əslinə, hər şey nəhayətə çatar. Hər şey Haqqdan gəlib Haqqa gedər. “İş Ondan başladı, Ona qayıdacaq.”

İnsan haradan gəldi? Bədəni torpaqdan gəldi, oraya qayıdacaq, ruh ilahi aləmdən gəldi, o da oraya; ruhlar aləminə geri qayıdacaq.

Cüneyd Bağdadi deyir ki: “Təsəvvüf işin sonunu başa, qaytarmaqdır”. İşin başı, “Ələst bəzmi”dir.

Allah-Təala ruhaları yaratdığı zaman, onalara xitab edərək: “Ələstu bi-Rabbikum/Mən sizin Rəbbiniz deyiləmmi?”

deyə soruşdu.[161] Ruhlar da “Bəla/bəli” dedi. Beləcə onlardan bir əhd aldı. Məhz bu əhdin idrak edilməsi təsəvvüfün yekun qayəsidir. Son nəfəs: “Lə iləhə illəllah” sirrinə uyğun bir şəkildə tamamlanarsa, onda təsəvvüfün məqsədi həyata keçmiş olar. İşin sonunu başına qaytarmaq da elə məhz budur.

Ən başda verdiyimiz bu söz ilə Rəbbimiz ilə görüşdük. Ölüm və vüslət ilə Onunla görüşəcəyik. Son olaraq da bu söz ilə Ona qovuşa bilməyi, “Bəli, Sən bizim Rəbbimizsən, ya Rəbbi!” deyərək könüldən bir nida ilə, Allah-Təalaya sığınmalıyıq. Çünki Allah-Təala bizdən bunu istəyir və buyurur ki:

***“Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda (müsəlman kimi) ölün!”***[162]

İşin sonunu başına qaytararaq həyatı başa vura bilmək ən şərəfli bir aqibətdir.

Kamil insan dünyada ikən Haqqa vasil olduğu üçün kainat ağacının yetişmiş meyvəsidir. Onun xaricindəki insanlar hələ yetişməmiş meyvələrdir. Yetişməmiş meyvə yetişmiş olanın halından bixəbərdir. Kal meyvə yetişmiş meyvənin yanında duraraq, ona baxaraq yetişər. “Üzüm üzümə baxaraq qaralar”, deyirlər. Kamal əhli olan insanların yanında durmaq, onların əhatəsində olmaq, yetişmək, püxtələşmək istəyən insanlar üçün təqib edilməli olan ən doğru yoldur.

Təcrübə sahibi olan, fələyin məngənələrindən keçmiş, bunlardan dərs götürmüş olan kamil insanların ətrafında olmaq, onların söhbətlərində iştirak etmək, irşad halqalarında olmaq, insan təliminin ən təsirli yollarından biridir. Çünki əxlaq təlimi kitabdan, yazılı mətndən oxuyaraq öyrənilməz. Tətbiqi olaraq öyrənilər.

---

161. əl-Əraf, 7/12.
162. Ali-İmran, 3/102.

*“Hal, əhli-hal ilə həmhal olmaq surətilə öyrənilər”.* Mənəviyyat duyğusu, hal sahibi olan insanlar ilə birlikdə olmaq ilə öyrənilə biləcək bir hadisədir. Kitabdan öyrənilməsi mümkün deyildir.

Peyğəmbərimizin (s.ə.s) ətrafında olan səhabələr, ondan dörd yolla istifadə etmişlər.

1- Peyğəmbərimizin (s.ə.s) əqvalını/sözlərini dinləmiş,

2- Əfalını/hərəkətlərini təqib etmiş,

3- Təqrirlərini/başqalarının etdiyi hərəkətlərə razılıq verərək təsdiq etdiyini görmüş.

4- Əhvalını/hallarını, duyğularını mənimsəmişlər.

Həyəcan və coşqularını görərək birbaşa Rəsulullahın (s.ə.s) könlündən və Nəbəvi qəlbindən hal və duyğu nəql etmək bəxtiyarlığına nail olmuşlar. Onunla həmhal olaraq eyni hala bürünmüşlər. Çünki Nəbinin halları: Səhabeyi-kiramın birbaşa Rəsulullahdan (s.ə.s) əxz etdikləri gözəlliklərdir.

Bizim öyrəndiklərimiz daha çox yazılı mətnlərdəndir. Səhabələr Rəsulullahı (s.ə.s) birbaşa halı ilə, duyğuları ilə, üzündəki ifadələri ilə görmə bəxtiyarlığına qovuşdular. Bizim də hal sahibi insanlar ilə birlikdə olmağımız, onların duyğularını könüllərimizə nəqş etməyə cəhd göstərməyimiz ən sağlam və qısa yoldur.

Beytin sonu vəssalam kəlməsi ilə qurtarır. Yəni sözü çox uzatmağa ehtiyac yoxdur. Xam insanlardan uzaq olun, kamal əhli olan əhli insanlar ilə birlikdə olun və kamil insanların mənəvi süfrəsinə, onların çevrələrinə daxil olmağa çalışın!

Bu dünyada insanın son hədəfi kamal əhli olmağa çalışmaq, imanımızı, halımızı kamala çatdırmaq və kamil möminlər olaraq əmanəti sahibinə təhvil verməkdir.

Bu beytdə Mövlana kamil və xam insanlar arasındakı fərqə işarə edərək, nəticədə xam insana ilişib qalmamaq lazım olduğunu ifadə edir.

Məsnəvinin bu ilk on səkkiz beytini Mövlana şəxsən özü yazmışdır. Geri qalanlarını isə Hüsaməddin Çələbiyə yazdırmışdır.

## ON DOQQUZUNCU BEYT

### *DÜNYA BAĞI VƏ HÜRRİYYƏT*

بند بگسل باش آزاد ای پسر
چند باشی بند سیم و بند زر

*Bənd bugsil baş azad ey pusər*
*Çən baçi bəni-simu, bəndi-zər*

❃

**Tərcüməsi**

*Qoparsan bağını ey oğul, azad olacaqsan*
*Nə zamana qədər altun və gümüş bağında qalacaqsan?*

***Mənzum Tərcüməsi***

*Ey oğul zəncir qırıb hür ol yetər!*
*Tapmamışdır kimsə qızıldan dəyər.*

Məsnəvinin giriş mahiyyətindəki 18 beytlik qismi tamamlandı. İndi isə Məsnəvinin 16 beytlik yeni bir ara bölümünə gəlib çatdıq.

Bu beytdə həyatda insanı ən çox aldadan dünyanın gözəllik və cazibəsi mövzusuna diqqət çəkilir. Çünki Allah-Təala dünya nemətlərinin insanlar üçün cazibədar və bəzədilmiş olaraq göstərildiyini, insanların da çox vaxt özlərini dünyanın cazibəsinə qapdırdıqlarını ifadə edir.

Ali-İmran surəsində bununla bağlı bir neçə ayə vardır. Xüsusilə 14-cü ayədə insanın dünya malına qarşı münasibəti və əlaqəsi haqqında danışılır. İnsanlar üçün nəfsani təmayül və şəhvətlər, bəzədilmiş və sevimli göstərilmişdir. Rəbbimiz buyurur ki:

***“Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir.”*** Allah-Təala bu ayədə dünyada insanlara cazibədar görünüb onları aldada biləcək hər şeyi sayır. Haqq-Təala arvad-uşaqdan, qızıl-gümüşə, cins atlardan, mal-qara və əkin sahələrinə qədər hər kəsin maraqlanacağı şeylərdən bəhs edir. Ayənin davamında buyurulur ki:

***“Bunlar dünya həyatının müvəqqəti mənfəətləridir. Halbuki gediləcək gözəl yer Allahın yanıdır.”***[163]

Bu dünyada qalma müqaviləmiz sona çatacaq və gəldiyimiz aləmə geri qayıdacağıq. Elə isə insan bəzədilmiş və cazibədar olaraq görünən dünya malına aldanıb Allaha qul olma şərəf və fəzilətindən uzaq qalmamalıdır.

Sonrakı ayədə Allah-Təala peyğəmbərinə xitabən buyurur ki:

163. Ali-İmran 3/14.

***“Ya Rəsulum!) Söylə: “Sizə bunlardan (dünya zinətlərindən) daha yaxşısını xəbər verimmi? Allahdan qorxub pis əməllərdən çəkinənlər üçün Rəbbi yanında (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada (hər cür eyibdən) pak olan zövcələr və (ən böyük nemət olan) Allah rizası (razılığı, hüsn-rəğbəti) vardır. Allah, həqiqətən, bəndələrini görəndir!”***[164]

Haqq-Təala əvvəlcə dünya nemətlərinin nələr olduğunu və bunların cazibəli göründüyünü bildirir. Hər kəsin ayağının sürüşə biləcəyini, könlünün meyil edə biləcəyi şeyləri sayır və ardınca Peyğəmbərimizə: “*Təqva sahibləri üçün Rəbblərinin yanında içlərindən çaylar axan, əbədiyyən qalacaqları cənnətlər, tər-təmiz zövcələr və (hamısından üstün)Allahın razılığı vardır*” buyuraraq bu dünyanın fani gözəlliklərinə, keçici həzz və zövqlərinə aldanmamağı, əbədi olana can atmağı, öz razılığına nail olmağı istəyir. Bir başqa ayədə isə belə buyurur:

***“Sevdiyiniz şeylərdən (haqq yolunda) sərf etməyincə savaba çatmazsınız. Şübhəsiz ki, Allah (Onun yolunda) xərclədiyiniz hər bir şeyi biləndir!”*** [165]

İnfaq ediləcək olan şeylər maddi və mənəvi baxımdan sahib olduğumuz hər cür dəyərlərdir. Maddi imkanlar, sağlıq, elm, irfan və zaman kimi sahib olduğmuz hər şey. Bunlar sadəcə fərdi olaraq faydalandığımız zaman deyil, başqaları ilə paylaşıldıqda gözəldir.

Allah-Təala hər şeyi yazır. Necə ki, bir kamera çəkirsə, ilahi kamera da hamımızı çəkir. Hamımız dünyada bir kitab yazırıq, ya da ifadə yerində isə özümüzə aid gündəlik tuturuq. Necə ki, bəzi maraqlanan insanlar edirlər. Günün mühüm

164. Ali-İmran, 3/15.
165. Ali-İmran, 3/92.

hadisələrini qeydlər şəklində yazırlar. Bəziləri bunu gələcəkdə kitab olaraq nəşr etmək üçün edir. Bəziləri də həzz aldığı üçün edir, amma gündəlik nə isə bir şey yazırlar. Eyni bunun kimi əslində bütün insanlar gündəlik tuturlar. Allah-Təala bütün insalara vəzifəli mələkləri ilə bir gündəlik tutdurur. Axirətdə o gündəlikləri oxumağımız bizdən tələb olunacaq və buyurulacaq ki:

***"(Və ona belə deyərik: ) "Oxu, kitabını (əməl dəftərini). Bu gün sən haqq-hesab çəkməyə özün-özünə (özün öz əməllərinin şahidi olmağa) kifayətsən!"***[166]

Bizə lütf edilən ömrümüz boyunca yazdığımız gündəlik, yəni əməl dəftəri qabağımıza qoyulacaq və: "Oxu bunu!" deyiləcək. Və ya kameranın çəkdiyi CD-lər kimi:

"Bax özünə! Nələr etmisən, yaxşılıq etmisən, yoxsa pislik? Bax gör!" deyiləcək. Baxdıqda da:

"Allah, Allah, bunları mən etmişəm?" deyə sevindiklərimiz olduğu kimi, "Allah, Allah, mən bunları da etmişəmmi?" deyə peşman olduqlarımız da olacaq.

Allah-Təala hansı əməli etsək görür, etdiklərimizi qeyd edir. İnfaq edib, başqalarına sədəqə veririkmi, yoxsa yığıb var-dövlət toplayırıqmı, malımızı, mülkümüzü, sağlığımızı səhhətimizi özümüzə ayırırıqmı, yoxsa övladlarımızın, ətrafımızdakıların, insanların, müsəlmanların bundan istifadə etmələri üçün onlar ilə bölüşürükmü?

Bunların hamısı qeydə alınacaq və qeydə alınanlara görə mükafat və ya cəza veriləcək.

Şahi-Nəqşibənd həzrətlərinə:

---

166. əl-İsra, 17/14.

"− Ustadım sizin silsiləniz, soyunuz və ya yolunuz hara gedib çıxır? Kimə gedib çatır?" deyə mənsub olduğu ailə ilə bağlı sual verilir. Şahi-Nəqşibənd həzrətləri buyurur ki:

"− Silsiləyə, yəni zincirə bağlı olanlar bir yerə gedib çıxa bilməzlər."

Bu cavabda həm məcazi, həm də həqiqi bir məna var. Həqiqətən özünü bir silsiləyə, bir zincirə bağlayan, onunla hərəkət sahəsini məhdudlaşdırar. Məcazi olaraq isə özünü; "Mən filan yerə mənsubam, filan ailənin uşağıyam, filan zatın övladıyam", deyə bağlayan və bunu özünə bir iftixar vəsiləsi olaraq qəbul edənə, onun qazandıra biləcəyi hər hansı bir şey ola bilməz. "Sən özün nəsən?" Əsas olan budur.

Peyğəmbərimiz (s.ə.s) sevimli qızı Hz. Fatiməyə (r. anhə): *"Ya Fatimə! Atanın peyğəmbər olduğuna güvənmə!"*[167] deyir. Yəni atanın peyğəmbərliyinin sənə fayda verməyəcəyini, hər kəsin öz əməli və davranışları ilə mükafat və cəza görəcəyini ifadə edir.

Şahi-Naqşibənd də, mənim soyum bağlı olduğum mənəvi və ya nəsil silsiləm mənə nə isə qazandıra bilməz. Üstəlik zəncirə bağlı olmaq, hürriyyətimi əlimdən alar. Siz çalışın özünüzü bağlamayın, xüsusilə nəfs və dünya ilə bağlanmayın! Hür olmağa, öz hürriyyəti əlində olan/əhrar insanlardan olmağa çalışın, əsarət altına düşməyin. Maldan keçməyə, malın köləsi yox, sahibi olmağa çalışın, deyir. Allah Rəsulu:

*"Lənətə gələsi dünya və dirhəm qulları/kölələri!"*[168] buyuraraq dünya qulluğundan çəkindirir.

Malın sahibi onu istifadə edəndir. Amma malın özünə sahib olub onların zəncirlərində həbs olunmuşların halı çatindir. Yunus necə də gözəl deyib:

167. İbni-Sad, II, 256, Buxari, Mənaqib, 13-14; Müslim, İman, 348-353.
168. Bax. Məcməüz-zəvaid, X, 434 (17821), 467 (17921).

*Mal sahibi, mülk sahibi*
*Hanı bunin ilk sahibi,*
*Mal da yalan, mülk də yalan*
*Var bir az da sən oyalan.*

Mövlananın dediklərinə görə var-dövlətdən keçmədən, var-dövlətdən sevdasını könüldən silmədən həqiqi qulluq tamamlanmış olmaz. Çünki var-dövlət sevgisi insanı, həyatı mal yığıb toplamaqdan və yeməkdən ibarət bir şey olaraq görmək kimi nöqsana sala bilər. “Yemək üçünmü yaşayırıq, yoxsa yaşamaq üçünmü yeyirik?” Yemək də, dünya malı da bir vəsilə və vasitədir, qayə deyildir. Allah-Təala ayədə belə buyurur:

***“Allahın sizə dolanmaq üçün bəxş etdiyi malları (və ya Allahın sizi üzərində qəyyum təyin etdiyi yetim malını) səfehlərə (ağılsızların əlinə) verməyin.”***[169]

Mal, insan həyatının davam etməsi üçün bir vasitədir, məqsəd deyildir.

Mövlananın dediklərindən və ayələrdən açıqca aydın olan budur ki: Dünya malı əlbəttə lazımdır. Amma dünya malı məqsəd olmamalıdır. Çünki insanın bu dünyada var olması, mal toplamaq üçün deyildir. İnsanın mülkiyyətində olan və bəşərin istifadəsi üçün təqdim etdiyi dünya malının bir mənası vardır. Amma insanın gözətçilik etdiyi bir malın isə heç bir mənası yoxdur.

Allah-Təala İbrahimi (ə.s) dost seçdiyi vaxt, mələklər: “Ey Rəbbimiz, onun nəfs, mal, övlad və qadınlar ilə məşğuliyyəti var ikən səninlə dost olması necə ola bilər?” — dedilər. Bunun müqabilində Allah-Təala:

“Mən qulumun zahirinə və var-dövlətinə baxmıram. Əksinə onun qəlbinə və əməlinə baxıram. Mənim dostum

169. ən-Nisa, 4/5.

məndən başqasına məhəbbət bəsləməz. İstəyirsinizsə, onu sınayın!” — buyurdu.

Bundan sonra Cəbrail (ə.s) Həzrət İbrahimin yanına gəldi. İbrahimin (ə.s) ov etmək və qoyun sürülərini gözətləmək üçün on iki iti vardı. Dünyanın dəyərsizliyini və xorluğunu göstərmək üçün itlərinin halqasını qızıldan düzəltdirmişdi. Cəbrail ona salam verdi və:

“− Bunlar kimindir?”, — dedi. İbrahim (ə.s):

“− Bunlar Allahındır, ancaq indi mənim əlimdədir,” - dedi. Cəbrail (ə.s.):

“− Onlardan birini mənə satarsanmı?” - dedi. İbrahim (ə.s):

“− Bir dəfə Allahı zikr et, sürünün üçdə biri sənin olsun,” - dedi. Bunun müqabilində Cəbrail (ə.s):

***“− Subbuhun, Quddusun, Rabbul-məlaikətu vər-ruh”,*** *(Mələklərin və ruhun Rəbbi ucadır, mən onu təqdis edirəm)”* − dedi. Hz. İbrahim (ə.s) da sürünün üçdə birini ona verdi və belə dedi:

“− İkinci dəfə Allahı zikr et və üçdə birini də al. Üçüncü dəfə zikr etsən, çobanları və itlərlə birlikdə hamısı sənindir. Dördüncü dəfə zikr etsən, mən də sənin kölən olaram”.

Aralarında keçən bu söhbətdən sonra Allah-Təala ona:

− “Ey Cəbrail, dostum sənin gözündə necədir?” − deyə soruşdu. Cəbrail (ə.s):

− “Bəli, bu qul sənin həqiqi dostundur, ya Rəbbi,” − deyə cavab verdi. Daha sonra Hz. İbrahim çobanlara xitab edərək:

− “Qoyunları bu dostumun arxasınca sürün,” − dedi. Cəbrail (ə.s) isə:

− “Mənim bunlara ehtiyacım yoxdur,” − dedi və özünü təqdim etdi. İbrahim (ə.s.) isə:

− “Mən Allahın dostuyam. Bağışladığım malı geri almaram,” − dedi.

Bunun qarşılığında Allah-Təala İbrahimə (ə.s) qoyunları satıb onun pulu ilə ərazilər və mülk almasını, onları da vəqf etməyini buyurdu. Məhz Xəlilullah Həzrət İbrahimin vəqfləri və onun qəbri üzərində yeyilən yeməklər, bu vəqflərdən gələn gəlirlərdəndir.

Bil ki, Allahı zikr etməyin qiymətini, ancaq böyüklər bilər. Görmürsənmi ki, Hz. Xəlilullah Allahı zikr edib Ona lazımınca hörmət edənə bütün malını bağışladıqdan sonra, nəfsini də necə fəda edir. Belə olan bir halda Haqq yolunun aşiqləri Qadiri-mütləq olan yaradıcını zikr etsinlər. Çünki gələnlərin cilası, qeybləri çox yaxşı bilən Allahın zikri ilədir.[170]

Dünyada yemək üçün yaşayan, süd və bal sevdasına düşən, nəfsani arzular ilə bulanmış könlün, könül sayılması mümkün deyildir. Süd içmək, bal yemək, gözəl və ləzzətli təamlar dadmaq üçün yaşayan bir könül, könül sayıla bilməz. Könlün ülvi məqsədləri və qayələri olmalıdır. O ülvi qayələrin ilk olanı Allah rizası və Allahın əmrlərinə hörmətdir, ikincisi Allahın yaratdıqlarına şəfqət və mərhəmətdir.

Xoşbəxt, sevincli və sevilən insan olmaq üçün, insana yaraşan, comərd olmaqdır, imkanları bölüşməkdir. İnsanın dilini dedi-qodudan, mənasız sözlərdən uzaq saxlaması, pulu və imkanı varsa, bunu başqaları ilə paylaşması da comərdlik sayılır.

Comərdlik sadəcə var-dövləti verməkdən ibarət deyildir. Şəhvətləri, nəfsani istəkləri, həzz və zövq alınan şeyləri tərk etmək comərdlik olduğu kimi, insanın nəfsini cilovlaya bilməsi də comərdlikdir. Belə ki, Hz. Ömər (r.a) bir gün oğlu Abdullahı, özünə dolu bir süfrə hazırlatdığını görür.

---

170. Ruhul-bəyan, V, 285-286.

“−Xeyir ola, oğlum, nə edirsən?” − deyə soruşur.

“−Atacan, ürəyim istədi, ət yeyirəm” − deyincə, Hz. Ömərin qaşları çatılır və deyir ki:

“−Oğlum, sən insanın nəfsinin hər istədiyini yeməsinin israf, israfın da haram olduğunu bilmirsənmi?”

Bunlar həqiqətən çox yüksək səviyyədə şeylərdir, amma ən azından bizim üçün bir ölçü, bir xəbərdarlıq və tənbehdir.

İnsanın əlində imkan olduğu halda bunlardan üz döndərə bilməsi fəzilətdir. Hüdayi həzrətləri belə deyir: “Nəfsin səndən gözəl və ləziz bir yemək istərsə, sən dərhal onu bir başqasına ikram et. Daha sonra isə yenə də başqasına verəcəksən deyə istəməkdən çəkin.”

Şəhvətə, nəfsin istək və tələblərinə özünü qapdıran bir daha asanlıqla xilas ola bilməz, insan zaman keçdikcə alışaraq nəfsinin köləsi və əsiri halına gələr. nəfsin istəklərinə qarşı çıxmaq isə daha sağlam bir dəstəkdir. İnsan bu dəstəkdən bərk tutarsa, ruhunu göylərə yüksəldər, uca mərtəbələrə çıxarar. Belə ki, Mövlana Məsnəvisində illər keçməsinə baxmayaraq mənəvi baxımdan tərəqqi edə bilməmiş bir insanın halından danışan belə bir hekayə var:

Bir evə kasıb bir adam gəlir, quru çörək və təzə nanə istəyir. Ev sahibi:

− “Burada çörək nə gəzir? Bura çörək satılan yer deyil ki?! Nanə haradan olsun? Bazar deyil ki?!” deyir. Kasıb adam da:

− “Bir az yağ da yoxdur?” deyincə, ev sahibi:

− “Bura qəssabxana deyil axı!” deyir. Kasıb kişi də:

− “Bari bir az un ver” dedikdə, ev sahibi

− “Yoxsa sən elə bilirsən bura dəyirmadır? − deyir. Kasıb da:

− “Onda heç olmasa bir qab su ver içim,” − deyir. Ev sahibi:

− “Bura bulaq ya da çeşmə deyil!” cavabını verir. Kasıb adam da bütün bu cavablardan sonra paltarının ətəklərini qaldıraraq, ehtiyacını dəf etmək istəyir ki, ev sahibi dərhal:

− “Ay həddini bilməz, sən nə etməyə çalışırsan? − deyincə, kasıb dilənçi də:

− “Belə içərisində heç bir şey olmayan, xaraba bir yerdə heç olmasa ayaqyolu ehtiyacımı dəf edim ki, bir az rahatlayım. Çünki burada yaşamaq mümkün deyil, bura, ancaq ayaqyolu ehtiyacını görmək üçün istifadə edilə bilər,” − deyir.[171]

Bu hekayə verməyi bacarmayan bir insanın həyatdan necə də nəsibsiz olduğunu göstərən gözəl bir nümunədir. Yunusun bu sözləri ilə mövzunu yekunlaşdıraq:

*Əgər gerçək qonaq isən*
*Aç gözünü oyaq isən*
*Sən bu sözə tanıq isən*
*Geri qalır mal ilə mülk*

171. Məsnəvi, VI, b. 1250-58.

## İYİRMİNCİ BEYT

### *DƏNİZ VƏ DAMLA*

گر بریزی بحر را در کوزه ای
چند ُگنجد؟ قسمت یك روزه ای

*Gər bi rizi bəhr-ra dər kuzeyi*
*Çənd qoçənd qisməti-yek ruzeyi*

❃

**Tərcüməsi**

*Dəryanı bir kasaya doldurmaq istəsən*
*Nə qədər sığar? Bir günlük qida qədər*

***Mənzum Tərcüməsi***

*Bir dəniz tökmüş olsan səhənginə*
*Qismətindən başqa ruzi olmaz yenə!*

Mövlana bu beytdə dərya və damla bənzətməsi ilə qənaətkarlıqdan danışır. Qənaət hərislik səbəbi ilə ruzi qayğısının insanı dəliyə çevirməməsi, insanın əməyinin nəticəsi olaraq bu dünyada özünə düşənə razı olmasıdır.

İnsan övladı çox vaxt ilahi təqsimat mövzusunda özündən yuxarılara, daha varlı olanlara, yaxşı və lüks yaşayanlara baxaraq həyatı özü üçün yaşanılmaz hala gətirər. Ancaq özündən aşağı olanlara, qablarının kiçik olması səbəbi ilə ilahi bölgüdən az nəsib alanlara baxdığı vaxt daha xoşbəxt və məsrur olar. Haqq-Təalaya şükür edəcək sayısız nemətə sahib olduğunun fərqinə varar. Peyğəmbərimizin (s.ə.s) Əbu Zərə (r.a) və onun timsalında ümmətinə tövsiyələri bu qəbildəndir.

Peyğəmbər (s.ə.s) Əbu Zərə buyurdu ki: “Ya Əba Zər, dünya nemətlərinə nailiyyət mövzusunda özündən aşağı olanlara bax. Axirət əməlləri, ibadət, itaət mövzularında isə özündən yuxarıda olanlara bax,”[172]

İnsan təqva, ədəb, nafilə ibadət və İslami yaşayışa daha çox dəyər verənlərə baxdıqda bu, onun özünü oradakılara yaxınlaşdırmağa və onlar kimi olmağa stimul verir. Amma əksini edən, dünya işlərində yuxarıdakılara, axirət işlərində aşağıdakılara baxan isə dünyalıq adam olur. Gözünü hərislik tutur və durmadan tamah ilə dünyaya dörd əl ilə sarılır. Çünki dünya nemətlərinin bir cazibəsi vardır. Allah dünya nemətlərini insanlar üçün cazibədar etmişdir. Bu cazibəyə qapılanların həyatı boşa gedər.

Halbuki biz bu dünyaya, dünya nemətlərinin arxasınca qaçmaq üçün deyil, Allaha qulluq və Allahın qullarına xidmət etmək üçün gəldik, insanların qarnını doyurmaq, susuzluğunu yatışdırmaq üçün istehlak edə biləcəyi suyun və qidanın miq-

172. Bax. Müslim, Zöhd, 9. Tirmizi, Qiyamət, 58, Libas 38, İbn Macə, Zöhd 9.

darı bəllidir. Elə isə hərislik və tamah ilə heç domayacaqmış kimi dünyaya sarılmağın bir mənası yoxdur.

*Səndən ədnanı görüb şükür ilə dəmsaz olmaq*
*Səndən əlalara rəşk eyləmənin mərhəmidir.*

Səndən aşağıda olanları görərək şükrə dost olmaq, şükür etməyin səndə bir xarakter halına gəlməsini təmin edən və səndən yuxarı olanlara həsəd etməməyin dərmanıdır. Həsəddən xilas olmağın yolu budur.

Şeyx Sədi Şirazi bir zamanlar başmaqsız gəzərmiş. Deyir ki:

"Həmişə kədərlənərdim ki, başmağım yoxdur, ayaqyalın gəzirəm, yollarda ayağıma tikanlar batır, daş dəyir. Bir gün ayaqları kəsilmiş birisini görüncə onda utandım və: Ya Rəbbi! Mənim ayaqqabılarım yoxdur, amma heç olmasa ayaqlarım var, deyə həmd etdim."

İnsanlar dünya nemətləri mövzusunda özlərindən aşağı olanların bir yolunu tapmalıdırlar. Belə ki, səhabələrdən birinin nəvəsinin ayağı qanqren olur. Həkimlər ayağının birinin kəsilməli olduğuna qərar çıxararaq deyirlər ki:

" − Müalicə olunmasını istəyirsinizsə, bu qanqren olmuş ayağı kəsəcəyik." O da kəsdirərək deyir ki:

"− Ayağımın birini mənə bağışlayan Rəbbimə həmd olsun. O birini də ala bilərdi. Amma heç olmasa birini mənə bağışladı."

Abdullah bin Ömərin (r.a) oğlu xəstələnmişdi. O bundan çox kədərlənirdi. Hətta camaat: Bu uşağa nə isə olsa, Ömər dərddən ölər, deyirdilər. Bir gün uşaq öldü. Cənazədə İbn Öməri təbəssüm edən bir çöhrə ilə görənlər təəccübləndilər. Dedilər ki: Övladın həyatda ikən çox pərişan halda idin, indi səni təbəssüm etdirən şey nədir belə?

İbn Ömər belə cavab verir: “Oğlum xəstə ikən çəkdiyi izdiraba üzülür və əlimdən bir şey gəlmədiyi üçün pərişan olurdum. Amma indi Haqqın əmri vaqe oldu. Ona razı olmaq lazımdır. Etdiyim budur.”

Hadisələrə belə bir prizmadan baxmaq, stəkana dolu olan tərəfindən baxmaq həyatı sevincli, xoşbəxt yaşamağın və hər şeydən həzz almağın yollarından biridir. Hər zaman hadisələrə mənfi yönləri ilə baxan, yalnız əskiklikləri və nöqsanları görər və rahatlıq tapa bilməz. Halbuki həyatda boş və əskik şeylər hər zaman mövcuddur.

*“Hər şey tam olduqda belə, mütləq hər hansı bir nöqsan möücud olur.”* Zehniniz və qəlbiniz nöqsanlara ilişib qalsa, öz-özünüz üçün həyatı yaşanılmaz hala gətirərsiniz. Amma Allaha şükür filan-filan şeylər var, qoy filan şey də əskik olsun, çatışmasın, deyə bilsəniz həyat daha asan hala gələr.

Əziz Mahmud Hüdayi taun səbəbilə biri 13, digəri 15 yaşında iki övladını ard-arda torpağa verdi. O zamanlarda hər hansı bir epidemik xəstəlik bütün bir şəhərin əhalisini qırıb qurtarardı. Hətta onun dövründə taun bəlasından xilas olmaq üçün padşahın fərmanı ilə İstanbul Okmeydanı tərəflərdə bütün xalq dua üçün səhraya çıxmışdı.[173] O iki övladını itirmiş bir ata olaraq bu duada iştirak etmiş və könüldəki təslimiyyət və bu imtahana razı olduğunu:

*Alan Sənsən, verən Sənsən, qılan Sən*

*Sən nə verdinsə odur dahi nəyimiz var* deyə ifadə etmişdi. Hər şeyi sən verdin, əlimizdə bizə aid bildiyimiz nə varsa hamısı Sənindir. Sənin verdiklərindən başqa bizim özümüzə aid bir şeyimiz yoxdur, deyərək Haqq-Təalanın bu imtahanını təslim olaraq və razılıq ilə qarşıladığını ifadə etmişdi.

173. Bax, H.Kamil Yılmaz, Aziz Mahmud Hüdayi Həyatı, Eserleri, Tarikati, İstanbul 2004, s.129

Eymen Topbaş Amerikada əməliyyat edildiyi zaman qardaşı Əhməd bəy çox kədərlənir və bu xəbəri aldığı vaxt bayıra çıxıb koridorda çöməlib ağlamağa başlayır. Qərbdə və Amerikada xəstəxanalarda rahiblər işləyir. Oradan keçən bir rahib Əhməd bəyin ağladığını görərək gəlir və:

"−Nə üçün ağlayırsan?" − deyə soruşur. Əhməd bəy deyir ki:

"− Qardaşımın xərçəng xəstəsi olduğunu öyrəndim, onun üçün ağlayıram." − Rahib:

"− Qardaşın sağdır?" − deyə soruşur. Əhməd bəy:

"−Sağdır," − deyir.

"−Onda deməli, hələ Allaha dua etməyə vaxtın var, kədərlənməyin və ümidinizi itirməyin!"

İnsanın hər nəfəsi və saniyəni şükür vəsiləsi kimi görə bilməsi necə də gözəl bir şeydir. Bursalı İsmail Hakkı deyir ki:

*Çünki bir loğma və bir xirqə yetər*
*Hirsi-qalibdən əfəndi nə betər*
*Hirsi-insani çu acı dəryadır*
*Vay ona kim aşina zəhər qatar*

Bir insanda hərislik xəstəliyi varsa, deməli, o yeməyinə zəhər qatır və hərisliyi ilə dünyanı özünə zindan edir.

Qəzali uzun-uzadıya danışır: İnsanın heç hərisliyinin olmaması gözəl deyil əslində. Hərisliyin mötədil səviyyədə, ehtirasa çevrilməmiş olanı, insanı iş həyatında, gündəlik və elmi həyatında müvəffəq edəcək bir stimulverici qüvvədir. Bu mənadakı mötədil bir hərisliyin faydası vardır. Pis olan, ehtiras səviyyəsinə çıxmış və sadəcə qazanmağı təlqin edən, halal-haram deməyən, heç bir zaman doymayan, "əlhamdulillah" deməyi bacarmayan hərislikdir. Yoxsa insanın daha çox çalışıb varlı olması, daha çox oxuyub dərin elm sahibi olması və ya icad sahibi olması mümkün olmaz.

Hərislik əslində mahiyyəti etibarilə pis deyildir. Hərisliyin dünyaya alət edilib, sadəcə dünya nemətlərini əldə etməkdə bir stimul kimi qəbul edilməsi qüsur və əskiklikdir. Bu səbəbdən Məsnəvi şərhində Bursalı İsmail Hakkı:

"Haris olmaq feyz üçün caizdir, amma halal ruzi üçün, yəni təqsim edilmiş ruzinin əldə edilməsi nöqtəsində insanın özünü həlak edəcək dərəcədə hərislik etməsi caiz deyildir," - deyir.

İnsanın işi, vəzifəsi, səbəblərə riayət etmək və çalışmaqdır. Amma ondan sonrası Haqq-Təalanın təqsimidir. Qənaətkarlıq baxımından, "mən bu qədər çalışdım, mənə filan qədər verildi. Filankəs filan qədər çalışdı, ona ancaq filan qədər verildi," kimi müqayisələr yanlışdır. Belə ki, Saib deyir ki:

*Saib çalışmaqla ruzini artıra bilməzsən,*
*Deyilsə mən dəyirmandan şübhə edirəm.*

Haqq-Təala bəzən çox az əmək ilə çox nemət verə bilər. bəziləri çox çalışmaqla digərlərindən daha az qazanmış ola bilər. Qənaət olana və gələnə razı olmaq, mənə nə üçün bu qədər verildi, deməməkdir. Oruc ibadətinin də insana qənaəti öyrədən və təqva təlim edən bir xüsusiyyəti vardır. Zənginlik Haqq-Təalanın təqdiridir.

əl-Adl (Ədalətli) sifətinin bir təcəllisidir, onu biz bilə bilmərik. Bizim vəzifəmiz:

***"İnsana ancaq öz zəhməti (səyi, çalışması, əməli) qalar!"***[174] ayəsinin hökmünə müvafiq olaraq çalışmaq, səbəblərə riayət etmək və nəticəni Allah-Təaladan gözləməkdir.

174. ən-Nəcm, 53/39.

## İYİRMİ BİRİNCİ BEYT

### *SƏDƏFİ İNCI EDƏN QƏNAƏT*

کوزۀ چشم حریصان پُر نشد
تا صدف قانع نشد، پُر دُر نشد

*Kuzeyi-çeşmi harisan pur nə şod*
*Ta sədəf qani nə şod pur dur nə şod*

❃

**Tərcüməsi**
*Hirs və tamah əhlinin gözü doymaz*
*Sədəf də qani olub, qapanmayınca inci olmaz.*

***Mənzum Tərcüməsi***
*Ac gözün doymaz ki, heç göz təstisi*
*Çün qənaətkar sədəf var incisi*

Rəvayətə görə əski İran və Türk ədəbiyyatı ilə şərq mədəniyyətində belə bir inanc var imiş: Aprel ayında sədəf açılar, onun içinə aprel yağışı düşər, qapanar və orada bəlli bir müddətdən sonra inciyə çevrilərmiş. Mövlana ona işarə edərək deyir ki:

“Sədəf ağzını açar və bir neçə damlacıq yaz yağışı ilə qane olarsa, inciyə çevrilər. Əgər sədəf acgözlük edib yaz yağışının bir neçə damlası ilə qane olmaq yerinə, dərya suyunu alacaq olsa, inci olması mümkün deyildir.” İnci olması üçün yaz yağışının da az miqdarda olması zəruridir.

“Sən də bu sədəf kimi dünya nemətinin azına qane olar, hərisliyə qapılmasan qiymətin daha çox olar, dəyərin artar və acgözlük səbəbilə heç kim tərəfindən qınanmazsan.”

Yaz yağışı ilə bağlı xalq ədəbiyyatında gözəl ifadələr vardır. Deyilir ki, aprel yağmuru üçün:

*Bəhrə/Dənizə düşər dürr inci olar,*
*Marə/İlana düşər, mürr/zəhər olar,*
*Bərrə/torpağa düşər gürr/canlı olar.*

Yaz yağışı bəhrə/dənizə, dənizdəki balıqqulağının üzərinə düşər inci meydana gələr. Torpaqdakı isinmə ilə başlayaraq canlanıb qış yuxusundan qalxan ilanın üzərinə düşən zəhər olar. İlanın zəhəri də yaz yağışı ilə əmələ gəlirmiş. Bərrə/torpağa, torpağın üzərinə düşər, gürr/canlı, yamyaşıl olmasını təmin edər. Yaz yazğışı torpaq üçün ən bərəkətli yağmurdur.

Bənzər bir təşbehi Füzuli, Hz. Peyğəmbər haqqnda da verir. O deyir ki:

*Dostu gər zəhri mar içsə olur abi-həyat*
*Həsmi su içsə dönər əlbəttə zəhri-marə su.*

Allah Rəsulunu/dostu ilan zəhəri içəcək olsa abi-həyat içmiş kimi olar. Düşməni isə abi-həyat/bəngü-su içəcək olsa şübhəsiz ki, ilan zəhərinə çevrilər.

Yaz yağışının feyz və bərəkətini tapmış olan sədəf necə inciyə çevrilirsə, sən də bərəkətli ilahi ehsanlara nail olub, könlünü onlar ilə təsəlli edər, Haqq-Təalaya bağlayar və dünya dərdini böyütmə sən, xoşbəxt və məsrur bir həyat sürərsən. Çünki hərislik, batini və qəlbə aid bəlalardan, insanın içini gəmirən xəstəliklərdəndir. Bundan qurtulmanın yolu qənaətdir, ilahi təqsimata razı olmaqdır.

Allah Rəsulu (s.ə.s) buyurur ki:

"İnsan övladı qocalar, amma iki duyğusu gəncləşər, onlardan birisi var-dövlət hərisliyi, digəri isə dünyaya qarşı çox arzuları olmaqdır".[175]

Bir başqa hədisdə belə buyurulur: "Adəm övladının iki vadi dolusu qızıl və gümüşü olsa, üçüncüsünü istəyər. Onun gözünü və qarnını ancaq torpaq doyurar."[176]

*Pis boğazlıq bağının əsiri olsan,*
*Heç bir ruzi iştahını kəsəməz,*
*Çox yeməyi özünə iş bilsən,*
*Gözünün doymasını gözləmə!*

Səndə hərislik, tamah varsa, özünü cilovlaya bilmirsənsə, onda heç bir nemətdən doymazsan. Dolayısı ilə hər nemətdən həzz almağa və hər nemətin Haqq-Təalanın ikramı olduğunu düşünməkdə həssas ol.

Bursalı İsmail Hakkı həzrətləri də:

*Çün sədəfi-peyman, əbri-növbahara ki vəfa*
*Abi-dəryanı qo kim əbr içrədir düri-səfa*

175. Buhari, Rikak, 5; Müslim, Zekat, 115.
176. Buhari, Rikak, 10.

Haqq-Təalaya bir vəd verdin, qul olmaq üçün söz verdin, Ona qarşı vəfalı ola ki, bu dünyada səfa ilə yaşayasan, o biri aləmə də səfa ilə gedəsən. Çünki söz sədəfi insan buluduna vəfasına görə dərya suyundan imtina edər. Çünki səfa incisi buludun içində gizlidir.

Hərislik batini bəlalardandır. Həyatı gözəl yaşamaq üçün hərislik bəlasına düçar olmamaq lazımdır. Belə ki, bir şair belə demişdir:

*Gözəl bir həyat istəyirsən, mal biriktir*
*Bunun üçün can incisini xərcləmək gərəkdir.*

Bu mənada Bursalı İsmail Hakkı da belə deyir:

*Mərifət bir düri-yektadır kim,*
*Karı dildir, qərargahı onun*
*Bulmadı dəymə ona kişi zəfər*
*Bilmədi qanını mahi onun*

Mərifət/bilgi, belə bir dəyərli incidir ki,
Onun qərargahı könülün dərinliklərindədir
Sıravi insanlar ona çata bilməzlər
Balıqlar onun qaynağını bilməzlər.

Sədəf ildə bir dəfə bir neçə damla ilə qənaət etmək surətilə dəyərli inciyə çevrildiyi kimi, Kəbə də ildə bir örtüyə qənaət edib, razı olaraq ehtiram və sayğı qazandı. Xalq onunla təbərrük etdi. Onun örtüyü belə xalq üçün bərəkət vəsiləsi oldu.

Rəbbani bilgiyə nail olmaq istəyənlər, içlərini boşaltmalı və mədələrini artıq yeməklərdən arındırmaldırlar. Çünki tənə (bədənə) düşkün olanlar, çox yedikləri üçün hikmət incilərindən məhrum qalarlar. Belə ki, Şeyx Sədi deyir ki:

*Həvalarına düşkün olanlar idrakdan uzaqdır,*
*Mədələri dolu olanlar hikməti qavraya bilməzlər*

Təsəvvüfi anlayışda mənəvi yüksəlişin üç mərtəbəsi vardır: Təxliyə, tahliyə və təcliyə.

1- Təxliyə; könül dünyasını mənfi duyğulardan, mənfi sifətlərdən təmizləmək və paklaşdırmaqdır.

2- Tahliyə; könlü və daxili aləmi, müsbət duyğular ilə, müsbət sifətlər ilə bəzəyib təchiz etməkdir.

3- Təcliyə; müsbət duyğuları və sifətləri tam olaraq yerləşdirib, inkişaf etdirmək, cilalamaq və beləcə ətrafa işıq saçar hala gətirməkdir.

## İYİRMİ İKİNCİ BEYT

### *EŞQ, HƏRİSLIK VƏ EYBİLƏRİ TƏMİZLƏYƏR*

هر که را جامه ز عشقی چاك شد
او ز حرص و عیب کلـّی پاك شد

*Hər ki-ra, camə zi-eşqi çak şod*
*U zi-hırs u eybi- küllü pak şod*

❃

**Tərcüməsi**

*Hər kimin ki, libası eşq pəncəsi ilə parçalanarsa,*
*O hırsdan və bütün ayıblardan pak və təmiz olar.*

***Mənzum Tərcüməsi***

*Eşqin uğrunda yırtsan köynəyi*
*Hırsdə qalmaz bil ki, könül istəyi.*

Eşq, yaxasından tutub dartmağa başladıqda insan bədən libasını, yəni bədən və dünyaya aid ehtiyaclarını yırtıb parçalayar, ona aid meyillərini azaldar. Onun altından tər-təmiz, gözəl əxlaq və xislətlər ortaya çıxar. Bu beytdə keçən libas sözü ilə nəzərdə tutulan şey, bədən libası, yəni əynimizdəki görünən libas, qiyafələr deyil, birbaşa olaraq bədəndir. Bir dost və bir post (dəri) demişlər. Dost Allahdır, post da bədəndir.

Mövlana Allaha yönələn eşq, məhəbbət, yüksək sevgi və duyğu sayəsində insanın həyacanının artacağını və beləcə tən (bədən) dərdindən və bədənə düşkünlükdən xilas olub ilahi duyğular tərəfinə meyil edəcəyini ifadə edir.

Mövcudatın təməli eşqdir. Belə ki, bir qüdsi hədisdə belə buyurulur: *"Mən gizli bir xəzinə idim. Mərifətimə/bilinməyimə məhəbbət etdim. Məxluqatı yaratdım."*[177] Təsəvvüf əhli bir hədisə görə varlığın var olma səbəbini məhəbbət və eşq olaraq qəbul etmişdir. Eşq məfhumu Quranda yoxdur. Ancaq İbn Ərəbi: İman edənlərin Allaha olan sevgiləri, məhəbbətləri, *"Əşəddü-hubb"*dur ayəsindəki yüksək (şiddətli) sevgi mənasınə gələn *"Əşəddü-hubb"*u eşq deyə tərif etmişdir.[178]

Həqiqi eşqin qələbəsindən bəzən libas yırtılır. Belə ki, ayrılıq dərdindən də, könül parça-parça parçalanır. Seyid Nəsimi deyir ki:

*Bir gün ola biləsən cübbəvü dəstarından*

Yəni bir gün cübbəndən, sarığından, maddi və zahiri qiyafələrindən xilas olsan məhz o vaxt həqiqi qulluğa yönəlmiş olarsan. Cübbə və dəstar dedikdə, kainat aləmi nəzərdə tutulur. Pərdə isə kainata aid nisbi varlıqlar və əşyalardır. Üftadə həzrətləri də deyir ki:

177. Acluni, Kəşfül-Xəfa, II, 1011.
178. əl-Fatihatül-Məkkiyyə, II, 337.

*Əhli-ürfan dedilər, sən çıxmayınca aradan*
*Bilməzsən kim, dürür kəndüyi pünhan eyləyən*

Sən özünü, nəfsini və mənliyini aradan çıxarmadıqca, "Mən-mən" demək dərdindən xilas olmadıqca, səni örtüb gizləyənin kim olduğunun fərqinə varmazsan.

Libasının eşq ilə yırtılıb parçalanması iki mənadadır:

1- İlahi eşqə nail olanların, pis əxlaqı parçalanıb məhv olar.

2- Bu sayədə görünməyən gözəl əxlaq ortaya çıxaraq qüvvədən hərəkətə çevrilər. çünki rəbbani eşq, mənəvi xəstəliklərin təbibi və istedadın otraya çıxma vəsiləsidir. Mövlanə Məsnəvinin bir başqa yerində belə deyir:

Eşqdən qeyri nə varsa, eşqin yemidir, yəni eşq tərəfindən yeyilib bitirilər. Ey bizim bütün xəstəliklərimizin həkimi![179]

Hikmət əhlindən biri, şövq, sevgi ağacının nuru, eşq isə, bu ağacın meyvəsidir, deyir. Sevgilinin qəlbindəki şövq, şamın fitilinə, eşq isə mumun yağına bənzəyir.

İnsan öz nəfsindən, mənliyindən; "Bunu mən edirəm, bu mənim əsərimdir", kimi eqoizm duyğularından xilas olub, *Lə Failə illəllah,* faili-həqiqi/gerçək fail Allah-Təaladır, məndən hər nə vaqe olmuşdursa, sahibi Odur, bunları mənə lütf edən Odur, mənim bunlara dəxlim yoxdur, deyə düşünə biləcək səviyyəyə çatarsa, məhz o vaxt kamala çatmış olar. O zaman həqiqi mömin və gerçək müvahhid olmuş olar.

Allah-Təala Bədirdə müşrikləri öldürənin müsəlmanlar deyil, məhz elə özü olduğunu, Hz. Peyğəmbərin (s.ə.s) müşriklərin üzərinə atdığı qum zərrəciklərini onun atmadığını, birbaşa özünün atdığını ifadə edir:

***"(Ey möminlər Bədirdə) onları (kafirləri) siz öldürmədiniz, Allah öldürdü. (Ya Peyğəmbərim! Düşmənlərin gö-***

---

179. Məsnəvi, V, b. 2725.

***zünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri (qənimət əldə etmək və zəfər çalmaq üçün) yaxşı bir imtahandan keçirtdi. Allah (hər şeyi) eşidəndir, biləndir!"***[180] Müsəlmanların bu zəfəri qazanmasını təmin edən Allahdır. Bu zəfəri öz adınıza çıxmağa çalışmayın, çünki həqiqi fail Odur.

Bu dünyada insan olaraq Haqq-Təalanın saysız-hesabsız nemətləri ilə pərvərdə olduğumuzu, özümüzə aid heç bir şeyimizin olmadığını, hər şeyin Rəbbimizin lütfü olduğunu dərk edə bilsək, gerçək qulluq oradadır. Çünki hamımız vaxt olur ki, bəzi şeyləri özümüzün etdiyimizi zənn etmə qəflətinə düçar oluruq. Haqq-Təala, Onun Peyğəmbərləri və Allah dostları bizə:

*Sən çıxınca aradan, qalar səni yaradan*

anlayışını təlim etməyə çalışırlar.

İnsan eşq sayəsində eqoizmdən, yəni "mən-mən" deməkdən, zahiri aləmdən xilas olar və bu sayədə pis xislətlərdən də yaxa qurtarar. Bursalı İsmail Hakkı deyir ki:

*Hər kim eylərsə bu qədəmə vüquf,*
*Olur əlbəttə nəqs ilə məvsuf*
*Fəzli qürbü-imamı bildin isə*
*Gözlə məsciddi ibtidai süfuf*

Bu varlıq aləmində özünün fərqinə varan, nöqsan ilə vəsflənmiş olduğunu başa düşər. İmama yaxın olmağın nə demək olduğunu anlayan, məsciddə ilk səflərdə yer tutmağı gözləyər.

Mövlananın bəyan etməyə çalışdığı, könülə eşq sevdasının düşməsidir. Eşq sevgi səbəbilə insanın qəlbinin həyəcan keçirməsidir. Quranın ifadəsi ilə:

---

180. əl-Ənfal, 8/17.

***“Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə (Onun heybət və əzəmətindən) ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman həmin ayələr onların imanlarını daha da artırar, onlar, ancaq öz Rəbbinə təvəkkül edər.”***[181]

***“Ondan (Quranın təhdidlərindən) Rəbbindən qorxanların tükləri biz-biz olar. Allahın zikrindən (öyüd-nəsihətlərindən, vədlərindən) sonra ürəkləri yerinə gəlib qorxuları gedər.”***[182]

Allah deyildikdə titrəyən, bir həyəcan hiss edən qəlbdəki duyğu eşqdir. Gerçək məhəbbət də budur. Rəsulullahın (s.ə.s) əshabı Allah və Rəsulunun adı anıldıqda, qəlbləri az qala yerlərindən çıxacaqmş kimi çırpındığı üçün əlləri ilə qəlblərinin üzərindən basardılar.

İnsandakı sevda istər məcazi, istər ilahi olana yönəlik olsun, qəlb onun ilə əlaqə qurduqda, çağırışım psixologiyasının nəticəsi olaraq bir həyəcan meydana gəlir.

Mövlana Məsnəvisində bunu padşah və cariyə hekayəsində izah edir: Dövrün padşahı bir cariyəyə aşiq olur və o cariyəni satın alır. Ancaq cariyə xəstələnir. Mum kimi əriməyə başlayır. Gün keçdikcə amansız dərd onu əridir.

Mövlananın dediyinə görə padşah böyük miqdarda pullar verərək aldığı bu cariyəyə sahib olmaq bir yana, heç yaxınlaşmır da. Həkimlər çağırır, işdən baş aça bilən bir adam tapmağa çalışır ancaq heç cür mümkün olmur. Nəhayət dua və niyazlar ilə Haqq-Təaladan onun sağalmasını diləyər. Bir gün bir mənəvi təbib gəlib çıxır. Dərhal saraya, cariyənin yanına aparılır. Mənəvi Təbib baxır ki yazıq qız xəstəlikdən tamam əriyib əldən düşüb. Padşaha deyir ki: “Məni xəstə ilə bir

181. əl-Ənfal, 8/2.
182. əz-Zümər, 39/23.

müddət tək başına buraxın. Mən onu danışdırmaq, dinləmək və dərdlərini anlamaq istəyirəm.” Xəstənin otağı boşaldılır.

Həkim cariyənin nəbzini əlinə alar və başlayar danışmağa. Ona məmləkəti, haralı olduğunu, haradan gəldiyini, qohumları haqqında soruşar, danışdırar. Məmləkətindən söhbət açar və söhbət əsnasında “İsfahan” adı keçən kimi cariyənin nəbzi, ürək döyüntüləri sürətlənər. Söhbət beləcə davam edərkən, həkim yenə də müxtəlif suallar soruşar, cavablar alar. Söhbət əsnasında, “zərgər” adı keçdikdə nəbzin döyüntüləri yenə də sürətlənər. Mənəvi təbib padşahı çağırıb deyir ki:

“Bu cariyə İsfahanlı bir zərgərə aşiqdir. Bundan sənə bir xeyir gəlməz. Sən, ya bu cariyəni oraya göndər, ya da o zərgəri buraya gətir.”[183]

Burada mühüm olan, sevgilisinin (sənətinin) adı və məmləkəti anıldıqda cariyənin nəbz atışlarının sürətlənməsidir. Damarlarındakı qan dövranının, nəbzinin döyüntülərinin yüksəlməsi, qəlbinin çırpınmasıdır. Məcazi eşqə tutulmuş olanda belə bu hal baş verdiyini nəzərə alsaq, əlbəttə ki, ilahi eşqə tutulanda da baş verər. Ayədə buyurulduğu kimi, qəlb ürpərər və titrəyər, həyəcan yüksək səviyyəyə çatar, çünki eşq yüksək və şiddətli sevgidir. Molla Cami deyir ki:

*Eşqə əsir ol ki, köləlikdən azad olasan*
*Eşq dərdini sinənə qoy ki şad olasan*

İlahi eşqə kölə ol ki, gerçək hürriyyəti əldə edəsən. O dərd Allah dərdi, qulluq dərdi və həyəcandır. Eşq insanın ürəyinə bunu əkər. İnsan könlü eşq ilə, ilahi sevgi ilə dolu hala gələr.

---

183. Məsnəvi, 1, b. 35 vd.

## İYİRMİ ÜÇÜNCÜ BEYT

### *EY EŞQ ŞAD OL!*

شاد باش ای عشقِ خوش سودای ما
ای طبیب جمله علتهای ما

*Şad baş, ey eşq-i xoş sevdayi-ma*
*Ey təbibi-cümlə illəthayi-ma*

❃

***Tərcüməsi***
*Bizim sevdamız, gözəl eşq, şad ol!*
*Ey bizim bütün xəstəliklərimizin təbibi*

***Mənzum Tərcüməsi***
*Şad olub qal! Sevdamız xoş eşqimiz*
*Dərdə dərman, sənlə bitmiş qayğımız*

Mövlana hər cür dərdin dəvası və qulluğun çarəsi olaraq gördüyü eşqə deyir ki: “Sən var ol, yaşamağa davam et, ürəyində eşq atəşi sönməsin.” Çünki Mövlanaya və Allah dostlarına görə eşq əxlaqi və ruhani xəstəliklərin ən mühüm, səriştəli təbibidir. Həm də müvafiq dərman, yəni onların dərdinə ən uyğun çarədir.

Nəfsin xəstəlikləri insanı cəhənnəmə və həlaka aparar. Nəfsin yeddi önəmli xəstəliyi vardır ki bunlar da cahənnəmin yeddi qapısına müqabil qəbul edilir. İnsan, nəfsin bu yeddi qapısını qapamadığı müddətcə cəhənnəmin yeddi qapısını qapamış olmaz. Nəfsin yeddi qapısı bunlardır:

**Ücb:** Özünü bəyənmişlik,

**Təkəbbür:** Təkəbbürlənmə, özünü başqalarından daha böyük görmə,

**Riyakarlıq:** Riyakarlıq etmə, gözəl əməl və davranışlarını izhar edərək; Allah rizasından daha çox insanlar tərəfindən təqdir edilmək və alqışlanmaq qayğısı güdmək.

**Qəzəb:** Hirslənmə. Qəzəb olduqda ağıl başdan gedər,

**Həsəd:** Qısqanclıq, ilahi təqsimə (bölünməyə) qarşı razı olmama,

**Var-dövlət sevgisi:** Var-dövlətə düşkünlük, həris olmaq,

**Hubbu-cah:** Mövqe, məqam sevgisi.

Nəfsə aid bu yeddi xüsusiyyət eşq sayəsində paklanar. Eşq bunların qarşısını alar və insana olan təsirini azaldar.

Ücbdən, təkəbbürdən, riyakarlıqdan, həsəddən, var-dövlət sevgisindən, məkan sevgisindən xilas olub həqiqi səadətə və cənnətə nail olmağın yolu eşqə çatmaqdır. Nəfsin ən böyük xəstəlikləri bunlardır. Bu yeddi bəd xislətdən xilas olmağın yolu eşqdir.

Ruh mərtəbəsində insanın ən böyük problemi, cəhalət; yəni Rəbbini tanımaqdakı qüsurdur. Qulluq və mənliyi tanıma məqamındakı nöqsanıdır. Necə ki, fiziki bir xəstəlik, vücudumuzdakı hər hansı bir problem və qüsur bizim vücudumuzu tam olaraq işlədə bilməyimizə mane olursa, bu yeddi xəstəlik də bizim fəzilətə sahib olmağımıza manedir.

Necə ki, gözün görməməsi, əlin tutmaması, ayaqdakı hər hansı bir xəstəlik kimi fiziki xəstəliklər dünyəvi bəzi qazancları əldə etməyimizə əngəl törədirsə, eyni zamanda nəfsani xəstəliklər də insanları pisliklərə, pis inanclara doğru sövq edərək mənəvi axirət qazancının qarşısını alır. Bunların da mütləq surətdə yaxşılaşdırılması və islah edilməsi zəruridir.

Bədən xəstəlikləri insanı zərərli şeylərə meyil etdirdiyi kimi, nəfsani xəstəliklər də insanları pis inanclara doğru sövq edər. Xəstəyə soruşurlar: “Nə istəyirsən?” Deyir ki: “Heç nə istəməməyi.”

*Bədənə zərərli bir şey istəməyin faydası yoxdur*
*Nəfsə zərərli şeyə meyil etmədə isə bəla çoxdur.*

Riyazət və mücahidə nəfsin istəklərinin qarşısını almaq üçündür. Çünki nəfsin azğınlığının qarşısını ancaq bu yolla almaq mümkündür. Belə ki, bir təsəvvüf yolunda bəddua mahiyyətində belə deyildiyi rəvayət edilir: “Allah sənə nəfsin dadını daddırsın.” Çünki nəfsin dadından, təbiətin iştahından betər bir xəstəlik yoxdur. Bu səbəbdən: “Pəhriz bütün dərmanların başıdır,” deyilmişdir.

Eşqə mübtəla olanda masiva (Allahdan qeyri hər şey) dərdi qalmaz. Eşq sevdası ilə xoş hal olar. İnsanlar eşq sayəsində əqli-məaş ilə muğayət olma sərxoşluğundan qurtular. Necə ki, Saib deyir ki:

*Sevdalı könül məhşər günü niyə maraq etsin?*
*Viran olan köyün seldən nə qorxusu*

Sevdalı könülün sahibi dünya dərdindən qurtulduğu üçün axirət qayğısından da qurtulmuş, dolayısı ilə könlünü, talibi Mövla olmaq surətilə abad etmişdir. Hz. Əbu Bəkr (r.a) kimi: “Mən Mövlanın talibi oldum,” deməkdir.

Hz. Əbu Bəkr (r.a) deyir ki: “Mən insanları iki qrup olaraq gördüm. Bir qrupu dünyaya talibdir, dünyanın dalınca qaçar; bir qrup da axirətə talibdir. Mən nə dünya talibi, nə də axirət talibi oldum. Mövlanın talibi olmağı hər ikisindən də üstün tutdum”. İnsanın tələbi Mövla olduğu zaman könlünə sevda düşər, eşq düşər. beləcə dünya dərdindən də axirət dərdindən də, xilas olub könlünü Haqqa təslim etmiş olar.

Necə zahiri və maddi dərmanlar insanın bədənini müalicə etmək üçün istifadə edilirsə, eşq də könül xəstəliklərini müalicə etmək üçün istifadə edilən bir dərman kimidir. Bədən xəstəliklərinin müalicə edilməsində dərmanların təsir etməsi sual altındadır, amma ruh və könül xəstəliklərinin müalicə olunmasında eşq yolu ilə müalicə mütləq həll yoludur. Çünki o masivanı (Allahdan qeyri hər şey) yandırıb yaxan bir cövhərdir. Elə xəstəlik dediyin şey də məhz masivaya meyil etməkdən ibarətdir. Həqiqi eşqi əldə edən bir insanın ruhu, qəlbi, mənəvi problemləri Allahın yardımı ilə həllini tapmış deməkdir. Bursalı İsmail Hakkı deyir ki:

*Yanıma gəlsə əlacı ilə təbib*
*Başqa bir dərd olar əlacı onun*
*Şirindir eşq vəli kim ki onu*
*Dadmadıysa, halına acı onun!*

Bir həkim dərmanı ilə yanıma gəlsə, onun dərmanı mənə başqa bir dərd və xəstəlik verər. Eşq çox şirindir, amma onu dadmayan insan övladının halına acımaq lazımdır. İnsan övladı eşq dərdi ilə xoş olmalıdır ki: *Əl çək əlacından təbib,* deməyə gücü çatsın.

Eşq hansı cür olursa olsun, ruhaniyyət və ülviliyə dəlalət edər. İnsanda ilahi eşq artdıqca feyz də artar. Qəlb və ağıl şübhələrdən xilas olar. Hər şeyin Xaliqinə duyulan ilahi eşq ən yüksək eşqdir. Necə ki, uşaq yaşındakı biri, iyirmi, otuz yaşlarındakı gəncin eşqini anlaya bilmirsə, məcazi eşq sahibləri də ilahi eşqi tam olaraq başa düşə bilməzlər. Ancaq bununla birlikdə məcazi eşq də faydalıdır. Mehmet Galib bəy bunu belə ifadə edir:

*Eşq dursun qoy məcazi isə də sinəndə sənin*
*Ab-i encur hum içində duraraq badə olar*

Üzüm suyu küp içində duraraq badə olar. Dolayısı ilə sənin könlündə məcazi də olsa bir eşq varsa, bu ilahi eşqə istedadın varlığı mənasına gəlir. Ruhun oraya istiqamətlənməsi mümkündür. Amma insan ürəyinin sevgidən heç bir nəsibi yoxdursa, onda talesizlik də məhz oradadır. Son hədəf insan könlünün Allah ilə qovuşması, Ona çatmasıdır.

Ümumi qəbul edilən görüşə görə eşqin böyük bir hissəsi ruhanidir. Cüzi bir qismi isə cismanidir. Çünki eşq ruhun ruha meylidir. Bədənin bədənə meyil etməsi isə şəhvətdir. Belə ki, cismi çox güclü və şəhvəti dominant olan bəzi insanların eşqi az olur; əksinə cismi zəif və çəlimsiz olanların eşq şüaları o qədər güclüdür ki, yanar və yandırarlar. Belələri gözəl bir surət görüncə düşünərək eşq şiddəti ilə ya kədərlənər, ya da ki, sevinər.

İlahi eşq ruhun külli ruha, Haqq-Təalaya yönəlməsidir. Eşq deyildikdə başa düşülməli olan, Haqqa aid olan yüksək sevgi, Ona qəlbən yönəlmədir. Həyəcan və coşqu ilə o tərəfə meyil etməkdir.

Haqq-Təala hamımıza o ilahi eşqə nail olma mövzusunda rəhməti ilə müamilə etsin. Çünki Haqq-Təala rəhməti ilə müamilə edərsə, könlümüzdə sevda da, sevgi də, eşq də qulluq,

şüuru da təzahür edər. O hər şeyin sahibidir: ***“Çünki O, rəhm edələrin ən rəhmlisidir! (Mən Allahdan sizin bağışlanmanızı diləyərəm. O da sizi bağışlayar!).”***[184] ***“Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!”***[185] ***Biz Ondan dünyada da, axirətdə də gözəllik diləyərək deyirik ki: ““Ey Rəbbimiz, bizə dünyada da, axirətdə də gözəl nemətlər ver, bizi cəhənnəm əzabından qoru!” deyirlər.”***[186]

184. Yusuf, 12/92
185. əl-Mumin, 23/14
186. əl-Bəqərə, 2/201.

## İYİRMİ DÖRDÜNCÜ BEYT

### *TƏKƏBBÜR VƏ EQOİZMİN DƏRMANI EŞQ*

ای دوای نخوت و ناموس ما
ای تو افلاطون و جالینوس ما

*Ey dəvayi-nəhvətu-namusi-mal*
*Ey tu Əflatunu-canu-Calinusi-ma*

❃

**Tərcüməsi**
*Ey təkəbbür və əzəmətimizə dəva olan eşq!*
*Ey bizə görə Əflatun və Qalinos olan eşq yaşa!*

***Mənzum Tərcüməsi***
*Həm əzəmət, təkəbbürümüz, namusumuz*
*Sənsən Əflatun və Qalinosumuz*

Düşüncə müstəvisində və fəlsəfədə Əflatun, tibb sahəsində də Qalinos necə mühüm işlər görmüşlərsə, eşq də bizim könlümüzdə və qəlbimizdə elə canlılıq və dərinliklər meydana gətirmiş, kainatı tanımaqda və kainatın Xaliqini tapıb Ona çatmaqda mühüm təsirlər göstərmişdir.

Əflatun qədim bir Yunan filosofudur. Bilginin riyazət və mücahidə yolu ilə əldə edilə biləcəyi düşüncəsindədir. Hz. İsadan 600 il əvvəl 81 il yaşamışdır. Qalinos isə Rodosludur. 87 il ömür sürmüş bir həkim olub 400-ə qədər kitabı olduğu bildirilir. Hz. İsanın müasiri olmuşdur. Qalinos sağlıq mövzsunda bu məsləhətləri ilə məşhurdur:

1- İnsan sağlam ikən sağlığının qayğısına qalmalı,

2- Xəstə olduqda, xəstəliyini müalicə etmək yolu ilə sağlığını bərpa etmək üçün çalışmalıdır.

Bilindiyi kimi İslam tarixi boyunca bilgini əldə etməkdə iki mühüm metod üzərində durulur. Bunlardan biri nəzər və istidlal təriqi, digəri isə riyazət və mücahidə metodudur: Birincisi, nəzər yolu ilə ətrafa baxaraq, dəlil çıxarma və məntiq yürütmək yolu ilə bilgi əldə etmək. İkincisi isə, insanın yeməyi, içməyi azaldıb, dünya ilə əlaqəsini kəsərək daha çox daxili aləminə yönəlmək yolu ilə bilgi əldə etməsidir.

Bu metod qədim Yunanstanda da hikmət (fəlsəfə) ilə məşğul olan filosofların tətbiq etdikləri bir üsuldur. İslam dünyasında təsəvvüf çevrələrində çox mənimsənilmişdir. Peyğəmbərimizə (s.ə.s) peyğəmbərlik gəlməzdən bir müddət əvvəl altı aylıq bir müddət boyunca riyazət və hazırlıq dövrü keçirmişdir.

Peyğəmbərimiz içində müşriklərin yaşadığı Məkkə cəmiyyətindən uzaqlaşaraq altı ay Hira mağarasına çəkilib, bir yandan Kəbəni seyr etmiş, bir yandan da öz könül dünyasına qərq olmuşdur. Bir yandan da ibadət və təfəkkür ilə məşğul

olarkən hədislərin ifadəsi ilə xəla və xəlvəti, yəni yalnızlığı üstün tutmuşdur. Onun bu dövrü bir mənada daxili aləmini vəhyə hazır hala gətirmək üçün ilahi bir təsərrüf olaraq dəyərləndirilmişdir.[187]

Bilgini əldə etmə yollarından birisi, bu cür inziva və xəlvət ilə riyazətdir. İnsanın təzəkkür və təfəkkür ilə məşğul olaraq gerçək bilgini əldə etdiyi vaxtlar olmuşdur.

Belə ki, Qəzali *Ehya*da bunu bilgini əldə etməyin bir yolu olaraq qeyd edir. Qəlb haqqında danışarkən, qəlbi bilgini əldə etməyin yollarında bəhs edərkən bu mövzudan uzun-uzadıya bəhslər açır.[188]

Qurani-Kərimdə zikr ilə fikir ard-arda əvvəlcə zikr, sonra fikir şəklində keçir. Belə ki, Allah "*ulul-əlbab*" ağıl, idrak, incə qavrayış sahibi insanların, səmimi möminlərin xüsusiyyətlərini sayarkən belə buyurur:

***"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və yerin yaradılması haqqında düşünər (və deyərlər): "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi cəhənnəm odunun əzabından (Özün) qoru!"***[189]

Ayədə əvvəlcə inanan insanın qəlbən Allah ilə məşğuliyyətindən danışılır. Əvvəlcə zikr edərlər, yəni kim olduqlarını, haradan gəlib haraya getdiklərini, Allah ilə olan əlaqələrini xatırlayarlar. Allahın gündəmlərinə qoyduğu qulluğu anar, ondan sonra: "Ya Rəbbi, Sən nə böyüksən, əzəmət sahibisən, deyərlər. Kainatdakı gözəlliklərə, ulduzlara, göyə, aya və ərzə baxaraq düşünər, təfəkkür edərlər.

---

187. Bax. İbn Əbi Cəmrə, Bəhcətün-nüfüs, Beyrut, ts; Darül-cil, I, 9-14.
188. Ehyau-ulumiddin-Misir, c.III, 19.
189. Ali-İmran, 3/191.

İslami anlayışda zikr, əbədiyyət və əzəlilik aləmi ilə qovuşduğu üçün fikirdən üstün qəbul edilmişdir. Zikr daha mühüm və daha əhatəlidir.

Könül təzəkkür və təfəkkürə vəsilə olan eşq ilə məşğul olaraq həqiqi qulluğa sahib ola bilər. Eşq yolundakı sevgi, təkəbbür və arın dərmanıdır. Eşqin iltifat nəzərinin toxunması fincan dükanına girib şüşələri (qabları) qırmaq kimidir. Aşiqlərin gözündə belə bir iltifat ilə bir bütün qırılması nafilə ibadətdən daha dəyərlidir.

Aşiq məşuquna niyaz, məşuq da aşiqinə naz edər. Qulları Allah-Təaladan tələblər edərlər. Qul acizliyinin fərqindədir. Sahib olduğu nə varsa bunların heç birini özünə aid görməz. Bu səbəbdən: “Bizim nəhvətimizin/təkəbbürümüzün, mənlik duyğumuzun əlacı eşqdir,” deyilmişdir.

İnsan aşiq olanda sevgilisindən bir şey istəməkdən, tələb etməkdən utanmaz, həya etməz. Çünki mənim hər şeyim sənsən, varlığım sənsən, dedikdən sonra nə üçün utansın ki?! Qul hicab pərdəsini yırtarsa, mənlikdən, ənaniyyətdən xilas olar, Haqqa qul və xalqa məqbul olar.

Eşqin atəşləndirici bir xüsusiyyəti vardır. Eşqə, yəni həqiqi məhəbbət və sevgiyə nail olmaq üçün İmam Qəzali *Ehya*da dörd yol göstərir.

1- İnsanın ilk sevdiyi şey, özüdür. Hər kəs əvvəlcə “Nəfsi, nəfsi” deyər, özünü sevər, özünə aid şeylərdən həzz alar. Öz rahatlığını və bəqasını düşünür. Hətta insanın övladını sevməsi də özünü sevməsi ilə əlaqəlidir. Çünki insan özünün davamını övladında görər və onu sevər.

2- İnsan övladı ehsanı sevər. Ehsan əhli və comərd olanları, işlərini sağlam tutanları sevər. Aralarında bir münasibət olmasa da, ondan hər hansı bir ehsan görməsə də mütləq ehsan sahiblərini sevər. İnsan bir ölkədə ədalət və ehsanı ilə,

xalqa gözəl münasibəti ilə tanınmış bir dövlət başçısı eşitsə, onun ehsan və xalqına gözəl davranması səbəbilə könlündə ona qarşı bir məhəbbət duyar. Belə adil və ehsan sahibi olan insanlar, özlərini heç tanımayan başqa ölkə vətəndaşlarında belə xidmətləri ilə məhəbbət oyadar. Çünki insan ehsanı sevər.

3- İnsan hüsn və camalı/gözəlliyi sevər. Mütləq hüsn və mütləq camal Allaha aiddir. Bu kainatda gözəllik naminə nə varsa Onun əsəri, lütfü və təcəllisinin təzahüratıdır. Amma insan övladı bütün bunlara baxmayaraq kainatda gördüyü gözəllikləri, yaşıllığı, baharın oyanışını, quşların nəğmələrini, suların axışını, ay işığının gözəlliyini seyr etməkdən həzz alar. Çünki bütün bunlarda bir camal və hüsn vardır. İnsanda camala və hüsnə qarşı bir bağlılıq vardır. *"Allah gözəldir və gözəlliyi sevər."*[190] Cəmil və Camal Haqq-Təalanın isim və sifətlərindəndir.

Bu kainatda Haqq-Təalanın camal və cəlal sifətlərinin təcəlliləri və təzahürləri vardır. Camalından gözəllik, yaxşılıq, cənnət, işıq, aydınlıq, iman zahir olar. Cəlalından qaranlıq, küfr, cəhənnəm və hər gür pislik zahir olar.

"Sadiq mömin camalı axtarandır, hətta cəlal içində camalı axtarandır." Tikana ilişib qalmayandır. Gül camaldırsa, tikan da cəlaldır. Amma siz tikana ilişib qalırsınızsa, deməli, onda camal içində cəlala ilişib qalırsınız. Əsas olan, cəlal içində belə camalı görmək, onu axtarmadır. Onu axtardığımız zaman isə sevgi səbəblərinə sarılmış, məhəbbətə, eşqə sarı pərvaz etmiş olarsınız. Dolayısı ilə kainatdakı hüsn və camal da sevgi səbəblərindəndir.

4- Bir başqa sevgi səbəbi isə bənzəməkdir. Bənzərlik də sevgi səbəblərindən birisidir. İnsanların əxlaqlarının, davranış-

190. Müslim, İman, 147. Əlavə olaraq bax. Əbu Davud, Libas 26, Tirmizi, Birr, 61.

larının bir-birinə bənzəməsi, aralarındakı ülfətin, məhəbbətin, sevginin əhəmiyyətli təsirlərindən, faktorlarından birisidir.[191]

Hətta deyilir ki, insan öz övladları arasında özünə ən çox bənzəyəni daha çox sevərmiş. Əxlaqı, davranışları və s. baxımından özünə bənzəyənə qarşı fərqində olmadan könlündə bir az daha fərqli bir təmayül göstərir. Allah Rəsulu bu halı:

*“Allah-Təala insan övladına öz sifətlərindən/vəsflərindən bir qismini kütf etdi, onu öz surəti, Rəhman surəti üzrə yaratdı,”*[192] kəlmələri ilə ifadə edir.

Mövlana Yunan fəlsəfəsinin nəfs və həva ifadəsindən ibarət olduğunu qeyd edir. Digər yandan iman əhlinin hikmətlərinin isə Hz. Peyğəmbərin buyuruqları olduğunu deyir. Bu səbəbdən fəlsəfə çoxdur, hikmət və təsəvvüf təkdir. O Məsnəvinin bir çox yerində filosofları tənqid edir, onların göstərişlərinə qarşı çıxır. Çünki filosoflar ilə sufilər həmfikir deyildir.

Mövlana bu beytdə eşqə çox yüksək bir dəyər biçir. Onu, biri təbib, digəri hakim olan iki zata bənzədir. Eşqdə elə bir möcüzəvi güc vardır ki, hakim olan Əflatunun fəlsəfəsi ilə, təbib olan Qalinosun təbabət ilə etdiyini, eşq insanda ruhani və cismani olaraq meydana gətirir. Pis əxlaq, təkəbbür həyasızlıqdan qaynaqlanır.

Haqq-Təala öz sifətləri ilə özünə xəlifə olaraq yaratdığı qullarını əlbəttə ki, sevir. İnsanlar da özlərinə bu qədər sonsuz, hüdüdsuz lütflər edən Allah-Təala həzrətlərini sevməli, Ona qul, xalqa məqbul olmağın yolunu axtarmalıdır. Bu insanı Rəbbi ilə qovuşduran, Rəbbinə doğru könüldən bir sevda ilə cəzb edən mühüm bir daxili cazibə və stimuldur.

---

191. Qəzali, Ehya, Qahirə, IV, 288 vd.
192. Bax. Müslim, Birr, 115.

## İYİRMİ BEŞİNCİ BEYT

***BƏDƏN EŞQ İLƏ ƏFLAKİ OLAR***

جسمِ خاك از عشق بر افلاك شد
كوه در رقص آمد و چالاك شد

*Cismi haqq əz eşqibər əflak şod*
*Kuh dər rəqs amədu çalak şod*

❃

**Tərcüməsi**

*Torpaqdan olan bədən eşq sayəsində əflaki oldu*
*Dağ belə təsir altında qaldı, çeviklik bulub oynadı*

***Mənzum Tərcüməsi***

*Torpaq insan, eşq ilə göylərdən keçər,*
*Eşq üzündən Tur ki coşmuş rəqs edər*

Eşq elə bir möcüzədir ki, mənşəyi və əsli torpaq olan insan cismi o sayədə əflakə, səmalara yüksələr. Əflak, fələk sözünün cəm haldır. "Ulduzların yolu" deməkdir. Belə ki, ***"Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların (həmçinin ulduzların) hər biri (özünə məxsus) bir göydə üzür (öz hədəqəsində, öz dairəsində hərəkət edir)",***[193] ayəsində bu mənada işlədilir.

Turi-Sina eşq ilə nəşələndi, titrədi və rəqs etdi. Burada Hz. Musanın duası ilə Haqq-Təalanın dağa təcəllisi və dağın sarsılmasına işarə edilir. Eşq və məhəbbət, Musanın Haqq-Təalanı görmə sevdası və Rəbbin dağa təcəllisi, dağı hərəkətə keçirdi. Bu beytdə torpaq ifadəsi ilə nəzərdə tutulan, insan bədənidir. Çünki Allah, bədəni və insanı torpaqdan yaratdığını bildirir.[194] İnsanın əsli və bədəni torpaq olduğu halda Quranın bəyanına görə İsa, İdris və Məhəmməd (s.ə.s) göylərə yüksəlmişdir. İdris (ə.s) və İsa (ə.s) kimi bütün peyğəmbərlər ilahi eşq ilə göyün qatlarına qaldırıldılar. Qurani-Kərimdə də birincisinə belə işarə edilir: ***"Ya Rəsulum!) Kitabda (Quranda) İdrisi də yad et! O, həqiqətən, büsbütün doğru danışan kimsə (siddiq) – bir peyğəmbər idi. Biz onu yüksək bir məqama (Cənnətə, yaxud dördüncü göyə) qaldırdıq."***[195]

Hz. İsanın (ə.s.) göylərə yüksəldildiyini isə Qurani-Kərimdə: ***"Ya İsa, həqiqətən, Mən sənin ömrünü tamam edib Öz dərgahıma qaldırıram,"***[196]şəklində ifadə edilir.

Hz. Məhəmməd (s.ə.s) bəşər peyğəmbər olmasına baxmayaraq,[197] İsra və Merac möcüzəsi ilə bir anda Məkkədəki

193. əl-Ənbiya, 21/33.
194. ər-Rum, 30/20
195. Məryəm, 19/56-57
196. Ali-İmran, 3/55.
197. əl-Kəhf, 18/110.

Məscidi-Haramdan Qüdüsdəki Məscidi-Əqsaya aparılmış,[198] oradan da səmanın qatlarına yüksəlmişdir.

Allah Rəsulunun varisləri də qatı torpaqdan yaradılmış olduqları halda ilahi eşq sayəsində fələklərə yüksələrlər. Çünki eşq dağ kimi cansız bir kütləni belə yerindən oynadır. Eşqin təsiri olmasa heç bir şey yerindən tərpənə bilməz. Səhradakı tük belə uçmaq üçün küləyə möhtacdır.

İnsan tərkibində iki ünsür; hava və atəş yüngüldür. Bu xüsusiyyət əksəriyyət təşkil etdikcə insan uçmağa istedadlıdır. Belə ki, Tur dağı da eşqin təsiri ilə hərəkətə keçmişdir.

Mövlana demək istəyir ki; bədənləri torpaq olan İdris və İsa (ə.s) kimi iki peyğəmbər ilahi eşq səbəbi ilə əflaki oldular, səmalara yüksəldilər. Belə ki, Peyğəmbər (s.ə.s) İsra gecəsində, Məscidi-Həramdan Qüdüsdəki Məscidi-Əqsaya aparıldı.[199] Hədisi-şəriflərdə bəyan edildiyi kimi oradan da səma qatlarına merac möcüzəsi ilə təltif olundu.[200] Üç peyğəmbərin də səmalara yüksəlməyinin səbəbi ilahi eşqdir. Torpaqdan olan bədənləri eşq sayəsində səma qatlarına yüksəldi. Maddi və mənəvi yüksəlişin yolu eşq və sevgidən keçər. “Eşq olmadan məşq olmaz” deyilmişdir. Dolayısı ilə insanı hərəkətə keçirəcək sözdən əmələ keçmiş davranışlar qazandıacaq olan ünsür eşq, məhəbbət və sevdadır.

Kainatdakı hərəkət və canlılığın təməlində eşq və cazibənin təsiri olduğu qəbul edilmişdir. Belə ki, müsbət yüklü buludun mənfi yüklü buluda tərəf hərəkət etməsi yağışı; qadının kişiyə, kişinin qadına meyli, insan nəslinin davam etəməsini təmin edər. Bütün kainatda cari olan *Akaşa????* nəzəriyyəsi deyilən bir düşüncə vardır. Akaşa bütün kainatın eterik (etheric/efir) maddəsindən əmələ gəldiyini iddia edən bir düşüncə

198. əl-İsra, 17/1.
199. əl-İsra, 17/1.
200. İbn Hişam, II, 5.

sistemidir. Bu maddə dəyişkən, elektromaqnit, qazabənzər bir enerjidir. Etdiyimiz, gördüyümüz, fikirləşdiyimiz, dediyimiz və reaksiya verdiyimiz hər şey enerji yükü yayar və əmələ gətirər. Bu enerji yükünə titrəşim/vibrasiya deyilir.

Hər səs, düşüncə, işıq, hərəkət və duyğu titrəşimləri ilə elektromaqnit efirlərə təsir edər. Bu bütün titrəşimləri cəzb edən maqnit bir lövhə kimidir.

Akaşik qeydlər, düşürülmüş, hiss edilmiş, həyata keçirilmiş, hər şeyin qeyd edilmiş bir icmalı qeydiyyatı mahiyyətindədir. Akaşa fəzada bir bulud kimi dayanır.

İntra səs, eşitmə qabiliyyətimizin xaricində olan bütün titrəşimlər deməkdir.

Kainatda hər şeyin bir ruhu və təsbihi olduğu gerçəyindən hərəkət edərək varlıq aləmindəki hərəkətləri anlamaq daha da asanlaşır. Belə ki, atom nüvəsi içindəki neytron və protonların hərəkəti də bu qəbildən bir cazibə və eşq məhsuludur və dolayısı ilə bir təsbih sayıla bilər.

İbn Ərəbi deyir ki: Kainatda Allahı an çox təsbih edən cəmadatdır/cansızlardır; dağlar, daşlar və qayalardır. Onlar durmadan Rəbblərini təsbih etməklə məşğuldurlar, başqa bir ehtiyacları olmadığı üçün, qar yağması, yağış yağması, günəşin çıxması və ya fırtına olması onları maraqlandırmır. Onlar mütəmadi olaraq təsbih ilə məşğuldurlar.[201]

Ondan sonra nəbatat/bitkilərdir. Onlar təsbihlərini/zikrlərini davam etdirmələri üçün günəşin çıxmasına, yağmurun yağmasına ehtiyacları var. Məhz elə buna görə də cəmadata görə təsbihləri/zikrləri daha azdır. Torpaq ilə əlaqələri kəsildiyi zaman təsbihlərindən uzaq düşərlər.

201. Müq. Ət. El-Fütühatül-Məkkiyə, III, 490-491; Füsusul-hikəm A. Avni Konuk, Haz. M. Tahralı, S. Eraydın, İstanbul 1989, II, 97-99.

Üçüncü sırada heyvanat vardır. Onların ehtiyacı nəbatata görə bir az daha çoxdur. Yemək, içmək, artıb-çoxalmaq ehtiyacları vardır. Onlar Haqq-Təalanı zikr etməkdə üçüncü sırada yer alırlar.

Dördüncü sırada isə insan gəlir. Çünki insanın ehtiyacı və problemləri daha da çox, əlaqəsi də çox dağınıqdır. Dolayısı ilə bu dağınıq əlaqələrin, çox arzularının olması – məlumdur ki, hər əməl(arzu) bir ələm (kədər) doğurur − məntiqi olaraq da insanın zikrini azaldır. İnsandan gözlənilən şüurlu şəkildə təsbihdir. İnsan zehni və qəlbi ilə, şüurlu bir şəkildə Allaha qul olmalıdır. Allah-Təala buyurur ki, ***"Şükr edən qullarım çox azdır."***[202]

İnsanıların şüurlu şəkildə etdikləri qulluqların keyfiyyətini artıran, məhəbbətdir, sevgidir, eşqdir. İbadət və məhəbbət bərabər olmalıdır. Bu iki ünsürü ayırdığımız zaman kamal olmaz.

Bir Bektaşi babası belə demişdir: "Şeyxim, biz məhəbbət, məhəbbət deyə-deyə ibadəti ehmal etdik, sizlər də ibadət-ibadət deyə-deyə, məhəbbəti ehmal etdiniz. Bu ikisi birlikdə olmalıdır." Həqiqətən çox düzgün və yerində bir təsbitdir. İbadət və məhəbbət birlikdə olmalıdır. Məhəbbət və ibadət bərabər olarsa, insanı nizama salar və ehsan şüuruna çatdırar, qulluqda ucaldar.

İbadət sayca çox, amma məhəbbət yoxdursa, lazımi nəticənin əldə edilməsi mümkün deyildir. Məhəbbət çox yüksək səviyyədə, amma ibadət yoxdursa, ondan da gözlənilən nəticənin əldə edilməsi mümkün deyildir. Ona görə də məzhəbimizin imamı, İmam Maturidi deyir ki: "İmanın iki ayağı vardır: Biri mərifət, o biri məhəbbət." Yəni Allahı sifət və isimləri ilə bütün camal və kamalı ilə tanımaqdır. Ondan sonra bu ca-

202. Səbə, 34/13.

mal və kamala məhəbbət və sevgi ilə bağlanıb, gerçək qul olmaqdır. Bütün təsbit və məlumatlar bu nöqtədə birləşirlər. Məhəbbət və ibadət; məhəbbət və mərifət. İkisi bərabər olduqda insanı kamal yolunda yüksəlməyə doğru hazırlayır.

Haqq-Təaladan dua və niyazımız; ibadətlərimizi məhəbbət ilə, imanımızı da, mərifət ilə doldurması və bəsləməsidir. Rəbbimizdən kamil iman, tam məhəbbət və eşq niyaz edirik.

## İYİRMİ ALTINCI BEYT

### *TUR DAĞINI MƏST EDƏN EŞQ*

عشق جان طور آمد عاشقا
طور مست و خَرّ موسی صاعقا

*Eşq cani-Tur aməd eşqinə*
*Tur məstü xarrə Musa saiqə*

❃

**Tərcüməsi**

*Ey eşq! Eşq Tur dağına ruh kimi təsir etdi*
*Tur məst oldu, Musa da bayılıb yıxıldı*

***Mənzum Tərcüməsi***

*Tura basqın eşqdi, əlbət eşqdi nur*
*Düşdü Musa, məsd olub keçdi Tur*

Mövlana, Musanın (ə.s) Tur dağında Haqq-Təala ilə görüşməsinə və bu görüşmədəki eşq və sevgisinə işarə edir. Qurani-Kərimdə belə bildirilir: "***Musa ilə otuz gecə (oruc tutub dua edəcəyi, bunun müqabilində ona Tövratı nazil edəcəyimiz və özü ilə danışacağımız) barədə vədələşdik, sonra ona daha bir on gün də əlavə etdik. Beləliklə, Rəbbinin (ibadət üçün) təyin etdiyi müddət tam qırx gecə (gün) oldu."***[203]

Ayədə 30+10=40 gecə ifadəsi keçməsinin hikməti budur ki: Allah adamları böyük aydınlıq və uca təcəlli səhərlərinə çıxa bilmək üçün gecələr qədər qaranlıq, iztirab saatları ilə çilə çəkməlidirlər. Çünki ilahi feyz və ilhamlar ümumiyyətlə gecələr vaqe olar. Bütün uğurlu səhərlər iztirablı gecələrin ardınca gələr.

Musa (ə.s) qövmünü Allah düşmənlərindən xilas etmək üçün dua etdi. Duası qəbul edilib Firon həlak olduqda, Allah-Təala ona bir kitab vermək məqsədilə onu Turi-Sinaya (Sina dağına) dəvət etdi. Vəd edilən kitabı vermək və onunla görüşmək üçün bu görüş vədəsi yetişdikdə Musa (ə.s.) qardaşı Haruna bu halı belə izah etdi: ***"Musa qardaşı Haruna dedi: "Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!"***[204]

Musa Harunu yerinə vəkil qoyaraq Tur dağına çıxdı. Turda ona kitab verildi. Bu görüş əsnasında Musa (ə.s), Haqq-Təaladan daha xüsusi şeylər tələb etdi. Ayədə belə deyilir: "Musa Rəbbinin miqatına/görüşünə gəldi və Rəbbi onunla danışdı. Yəni Kəlimullah/Allah ilə danışmağının səbəbi gerçəkləşdi. Allahın xitabına və xüsusi lütflərinə məzhər/layiq oldu. Belə xüsusi bir qəbula nail olması Musanın (ə.s) könül

203. əl-Əraf, 7/142.
204. əl-Əraf, 7/142.

dünyasını cuşa gətirdi və Haqq-Təaladan daha yüksəyini istədi. Dedi ki: "Mənə Özünü göstər, mən də Sənə baxım, Səni seyr edim, ey Rəbbim." Üns və naz ilə, coşqu ilə Haqq-Təalanın zatını görmək dilədi. Allah-Təala insan övladının Özünü görməsinin mümkün olmadığını bildirmək üçün Musaya dedi ki: ***"Məni görməyəcəksən."*** Sənin qabiliyyətin/gözlərinin Məni görməyə qabil deyil. ***"Ancaq bu dağa bax, əgər o yerində dura bilsə, sən də Məni görəcəksən, −buyurdu. Rəbbi o dağa təcəlli edincə o dağı parça-parça etdi, Musa (ə.s.) da bayılıb yıxıldı."*** O təcəlliyə gücü çatmadı və dözə bilmədi. Bir müddət sonra: ***"Ayılanda dedi ki, Səni nöqsan sifətlərdən tənzih/təqdis edirəm, Sənə tövbə etdim."*** Səni görüm, Sənə baxım, dedim. Səni idrak edə biləcəyimi zənn etdim. Bu zəifliyim və qüsurum səbəbilə sənə tövbə edirəm. ***"Mən (İsrail oğullarından Səni görməyin mümkün olmadığına) iman gətirənlərin birincisiyəm!"***[205]

Səni əzəmət və kibriyan/böyüklük və ucalığın ilə idrak edən, ancaq gerçək mənada idrakının mümkün olmadığını şəxsən yaşayıb görərək təsdiq edən ilk müsəlman mənəm.

Mövlana Tur dağında Musanın Haqq-Təala ilə görüşməsini danışaraq belə deyir: Musanın (ə.s) tələbi ilə Allah dağa təcəlli etdi və elə bir eşq və cuşi-xuruş meydana gəldi ki, dağ məst oldu, bihuş oldu, toz kimi oldu. Musa da bayılıb yerə yıxıldı. Yəni eşq və sevda, Haqq-Təala ilə görüşüb Ona daha yaxın olma arzusu insanı da, dağı-daşı da beləcə toz kimi edər, onun əzəməti də hər tərəfi əhatə edər.

Bu ayəyə görə dünyada Allahı görmək mümkün deyildir. Ancaq axirətdə görə biləcəyini Hz. Peyğəmbər (s.ə.s) bir hədisində xəbər verir: *"Ayın on dördüncü günündə bədirlənmiş ayı görürmüş kimi Rəbbinizi görəcəksiniz"*[206]

---

205. əl-Əraf, 143/7
206. Buxari, Tövhid, 24, Müslim, Məsacid, 37.

Bu Nəbəvi ifadədən bəzi sufilər: "Sən, sən olduqca Onu görməyəcəksən," mənasını anlamışlar. Belə ki: "Sən çıxınca aradan, qalar Səni yaradan," sözündə də ifadə edildiyi kimi insan mənlikdən sıyrılıb həqiqi tövhidə çatdıqda bir olanı görəcək və yaşayacaqdır. Hz. Əliyə (r.a) aid edilən: "Görmədiyim Rəbbə qulluq etmərəm" və: "Pərdə qalxsa da yəqinim artmazdı" sözləri kamal əhli qulların Haqqın zatını görməsələr də Onun əsma/adlar və sifət təcəllilərini görə biləcəklərini ifadə edir. Təcəlli Haqqın zühuru deməkdir. Üç cür təcəlli vardır:

1- Təcəlleyi-əfal: Salikin əməllərinin Haqqın əməllərində,

2- Təcəlleyi-sifət: Salikin sifətlərinin Haqqın sifətlərində,

3- Təcəlleyi-zat: Salikin zatının Haqqın zatında fani olmasıdır.

Bənövşə çiçəyinin yarpağı, gül yağının içinə qoyulsa əvvəlcə rəngi, sonra quxusu, sonra da özü yox olar. Sakarya suyu da Qara dənizə qarışdıqdan sonra artıq çay suyu deyil, dəniz suyudur. Bütün bu təcəlliləri idrak etmək bir zövq və kəşf işidir. Burada mühüm olan həri Birə çevirməkdir. Yoxsa Biri hər edərək panteizmə düşmək deyildir.

Bülbülün gülə fəryadı belə ilahi eşqin, əzəli sevginin bütün varlıqlara sirayət etməsindən və hər varlıqda bir sevmə və meyil etmə duyğusunun mövcud olmasından qaynaqlanır.

Bu beytdə Tur dağı cismə, eşq isə can və ruha bənzədilir. Musanın bayılıb, dağın isə toz kimi olması, Musanın dağdan güclü olmasını göstərir.

İbn Ərəbi deyir ki: "Alimlər cəmadatın/cansız varlıqların ağıl və dərrakələrinin olmadığını, danışan cansız varlıqların o anda Allahın elm və həyat verməsi ilə bunu gerçəkləşdirdiyini deyirlər. Həyat sirri bütün aləm cüzlərinə sirayət etmişdir. Cəmadatın da Haqqdan verilmiş bir həyatı vardır. Onun üçün müəzzinin səsini eşidən yaş və quru bütün varlıqlar yəqin ki,

qiyamətdə şahidlik edəcəklər. Şahidlik həyat və bilgi üzərinə qurulmuşdur. Belə ki, Tur dağının təcəlli əsnasında titrəməsi, dağın İlahi əzəməti idrak etdiyini göstərir."

Əslində cəmadat və insan arasında da mütəmadi bir əlaqənin var olduğu, hətta cəmadatın insanın ruhunu anladığı və bu mənada şahidlik edəcəyi ilə bağlı rəvayətlər vardır. Məsələn, namaz qıldığımız yerləri dəyişdirməyimiz tövsiyə edilir. Fərz qıldığımız yerdə sünnə namazını qılmamağımız, bir namazı qıldığımız yerdə başqa bir namazı qılmamağımız tövsiyə edilir. Çünki hər zaman qılınan yerin şahidlik edəcəyi bu hədisdən aydın olur: Rəsulullah əshabına: *"Qiyamət günündə Ərzin verəcəyi xəbərlər nələrdir?*− deyə soruşdu. Onlar da: "Allah və Rəsulu daha yaxşı bilər", − deyə cavab verdilər. Bunun qarşılığında Allah Rəsulu belə cavab verdi: *"Ərz qadın və ya kişi, hər kəsinin üzərində işlədiyi əməllərə şahidlik edəcək və filan gün filan vaxtda üzərimdə filan işləri etdi deyə danışacaqdır."*[207]

Deməli, əşyanın, məkanın, fiziki şərtlərin də bir yaddaşı vardır. Bəlkə də əşyanın kamera kimi insanları çəkdiyi bir cihazı və ya elə bir xüsusiyyəti var. Və sabah Qiyamət günündə bunun ilə şahidlik edəcəkdir. Allah-Təala buyurur: ***"Bu gün (Allaha and olsun ki, biz müşrik, kafir deyildik – dediklərinə görə) onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri Bizimlə danışar, ayaqları isə şəhadət verər."***[208] Əllər danışdığı kimi məkanlar da danışacaq, onlar da qeyd etdikləri bilgiləri qarşımıza qoyacaqdırlar. Bizim haqqımızda şahidlik edəcəkdir. Deməli, fiziki məkanların da bir dili var. Allah Rəsulu: *"Uhud bizi*

207. Tirmizi, Qiyamə, 7/2429, Təfsir, 99/3353.
208. Yasin, 36/65.

*sevər, biz də Uhudu sevərik,"*[209] buyurur. Allah Rəsulu oradan bir məna çıxarır. Molla Cami belə deyir:

*Əzəli eşqin sirri bütün əşyaya yayılmamış olsaydı*
*Bülbül könülsüz gül üçün fəryad etməzdi.*

Haqqın təcəlli və eşq imtahanına insandan daha dözümlüsü yoxdur. Çünki Allah-Təala: ***"Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən (götürüb özləri ilə daşımaqdan) qorxub çəkindilər. Onu insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir,"***[210] buyurur. İnsanın üzərinə götürdüyü əmanət, eşq məsuliyyəti, hesab vermə qayğısıdır. İnsan bunu öhdəsinə götürmüşdür və bu əmanətin haqqını vermək məsuliyyətini daşıyır. Füzuli deyir ki:

*Olsa istedadı arif qabili idraki-vəhy*
*Lütfi-eşq irsalinə hər zərrədir bir Cibril*

Əgər arifin istedadı olsa, vəhyi idrak etməyə qabiliyyəti olsa, əslində kainatdakı hər zərrə Allahın lütfü ilə Cəbrayıl kimi insana irfan verər. Amma insanda bunu anlayacaq idrak, qavrayacaq fəhm yoxdur. Yoxsa bütün əşyaların dili vardır. Quşların, bitkilərin və torpağın dili var. O dili başa düşəcək insan lazımdır. Bunu qavrayacaq könül və qəlb lazımdır. Bursalı İsmail Hakkı da:

*Eyləsə Tura təcəlli ol nur*
*Edər nur içində nar zühur*
*Kül edər cismi Turu ta-pa*
*Həm xarab eylər anı həm məmur.*
*Kimsə bu atəşə gətirməz tab*
*Cismi Musa edər zəruri hürur...*

---

209. Buxari, Cihad, 71; Müslim, Həcc, 504.
210. əl-Əzhab, 33/72.

Haqq-Təalanın nuru Tur dağına təcəlli etsə o dağda atəş zühur edər və o dağı yandırar. Dağ bir anda yox olar. Həm bir anda dağı xarab edər, həm də eyni zamanda məmur/abad edər. Həm öldürər, həm də canlandırar. Heç kimin buna gücü çatmaz. Musa (ə.s.) ulül-əzm peyğəmbərlərdən olmasına baxmayaraq bu təcəlliyə tab gətirə bilməmişdir və huşunu itirərək yerə yıxılmışdır. Halbuki, Allah Rəsulu Meracdakı təcəlli əsnasında təcəllini gözü səyirmədən və həddini aşmadan tamaşa etmişdir.[211]

211. Bax. ən-Nəcm, 53/17.

## İYİRMİ YEDDİNCİ BEYT

## *SİRDAŞ TAPANDA LAZIM OLANI DEYƏRƏM*

با لب دمساز خود گر جفتمی
همچو نی من گفتنیها گفتمی

*Bab ləbi-damsazi xod gər coftəmi*
*Həm çü ney mən qoftəni ha-qoftəmi*

❃

**Tərcüməsi**

*Əgər öz dəmsazımın dodağı ilə bərabər olsaydım*
*Mən deməyə layiq olan hər şeyi deyərdim*

***Mənzum tərcüməsi***

*Bax dodaq olsaydı sirrin sahibi*
*Sirri biz söylər durardıq ney kimi*

Mənimlə sirdaş ola biləcək gözəl bir dost tapsaydım, ney kimi içimdəki bütün dərdləri, gözəllikəri və bütün bildiklərimi danışardım. Məni anlayacaq, sözümü tam olaraq qavrayacaq insan tapa bilmədiyim üçün həmsöhbətlərimin anlaya biləcəyi qədər danışıram. Daha artıq şey danışıb, onların beyinlərini bulandırmaq istəmirəm.

Həmsöhbətin anlayış istedadı olduqca mühümdür. Mövlana Məsnəvini yazarkən həmsöhbəti Hüsaməddin Çələbi idi. Bu səbəbdən sözlərini ona görə dedi. Əgər həmsöhbəti Şəms olsaydı, şübhəsiz ki, daha fərqli şeylər danışardı.

Beytdə keçən dəmsaz kəlməsi həmraz, yəni sirdaş, nəfəs uyduran deməkdir. Yarı ilə bir olanın danışdığı, özü deyil, yarıdır. Belə ki, bu gün musiqi repertuarında playback/fonoqram deyə bir anlayış vardır. Fonoqram ilə oxuyan əslində sahibinin səsini yansıdır. Başqasının duyğuları ilə danışan fonoqram edənə bənzəyir. Bu səbəbdən hər səs sahibinin səsidir. Deyilən söz insanın elmi qiymətini, mənəvi ağırlıq dərəcəsini yansıdar. İnsanı tanımaq üçün sözünə baxmaq lazımdır. İnsan danışdığı vaxt irfanı varsa irfanını, axmaqlığı varsa da onu biruzə verər. Sirkə qabından sirkə, bal küpündən də bal sızar, deyirlər. Hər kəs danışması əsnasında öz zəif cəhətlərini və qabiliyyətlərini də ortaya qoymuş olar. Onun üçün irfan əhli danışmağı bacarmayanlar üçün susmağı tövsiyə edirlər:

*Bilirsənsə danış, ibrət alsınlar,*
*Bilmirsənsə sus, adam sansınlar.*

Bunlar hamısı bizim irfan məktəbimizin gözəllikləridir. Bilən insanların bilgilərini başqaları ilə bölüşməsi, bilməyənlərin də sükut ilə öz karyeralarını qoruma mənasında gözəl nəsihətlərdir.

Hər bilgini və hər düşüncəni hər kəs ilə bölüşmək də münasib olmaya bilər. Hikməti və sirri anlaya biləcək olanlara açmaq

və onlar ilə paylaşmaq lazımdır. Əks təqdirdə onların dəyəri hədər olar. Belə ki, hicri üçüncü əsr məlamət düşüncəsinin təmsilçilərindən, Əbu Osman Hiriyə on illik müddət boyunca xidmət edən bir tələbəsi baş-başa qaldıqları bir əsnada deyir ki: "Hazır baş-başa qalmış ikən, elmi-həqaiq və dəqaiqdən bəlkə bəhs edəsiniz?" On illik xidməti boyunca tələbəsinin istedad və qabiliyyətini çox yaxşı bilən Əbu Osman Hiri bu cavabı verir: "Oğul! Sən dəstəmazını yaxşı al və təmizliyinə diqqət et, bundan başqasına da baş sındırma!" Əbu Osman Hirinin vermək istədiyi məna çox açıqdır. Müridinə "Sən bu mövzuları dərk edə biləcək qabiliyyətdə deyilsən," demək istəyir.

Allah Rəsulu Allahdan üç növ elm almışdır:

1- Hər kəsə şamil olan şəriət elmi,

2- Seçkinlərə aid mənəviyyat/təriqət elmi,

3- Allah ilə Rəsulu arasında sirr olan həqiqət elmi.[212]

Hürufi-müqətta deyilən bəzi surələrin başındakı ayələr bu qəbildəndir. Bunlar Allah ilə Rəsulu arasında bir şifrə və işarə mahiyyətindədir. Bundan başqa Allah Rəsulunun: *"Siz mənim bildiklərimi bilsəydiniz, çox ağlayar, az gülərdiniz, yataqlarınızda yata bilməz, səhralara düşərdiniz,"*[213] – hədisi də bu mənanı ifadə edir.

Səhl b. Abdullah əd-Düstəri deyir ki: Alimin üç cür elmi vardır. Zahir, batin və sirr; yəni iman həqiqəti.

Bu beyt, üçüncü beytdə keçən: "Mən ayrılıq dərdindən parça-parça olmuş bir könül istəyirəm," mənasını qüvvətləndirir. Hər kəsə anladığı dil ilə xitab edilməlidir. Hər söz hər kəsə deyilməz. Söz deyilmədən əvvəl yaxşıca ölçülüb-biçilməlidir. Sözü dediyiniz vaxt qarşınızdakının sizin yaxşılığınızı dü-

212. Bax. Əbu Nasr əs-Sərrac ət-Tusi, əl-Lüm a, Qahirə, 1960, s. 455-456.
213. Buxari, Küsuf, 2; Müslim, Küsuf 1.

şünüb-düşünmədiyini yaxşı görməli və sirr saxlayıb-saxlamayacağını dərindən araşdırmalısınız.

Bu beytdə Mövlana yeni başlayan saliki neyə, kamil mürşidi neyzənə, dodaqdan çıxan danışığı isə neyi nəfəs ilə üfürməyə bənzədir.

Yunus Əmrə Tapduq qapısında tam iyirmi il odun daşıyaraq xidmət etdikdən sonra şeyxinin duasına məzhər oldu və şeyxi ona belə dua etdi: "Yunusum, söylə!" Beləcə Yunus ustad şair oldu. Aləmdə onun tayı-bərabəri yoxdur. Belə ki, Bursalı İsmail Hakkı onun haqqında belə deyir:

*Görmədi qəlibi-xaki hərgiz*
*Belə bir ruhu-müsəvvər adəm*
*Zahirən ümmü əbcəd amma*
*Vəli elmi lədünnidən vurur dəm*

Mövlana bu beytdə bunu ifadə etmək istəyir: Əgər qürbünəvafil[214] ilə Haqqa yaxınlaşıb Haqq lisanıyla danışa bilsəm: ***"Allah (mərhəməti ilə hər şeyi əhatə edən) genişdir və (hər şeyi) biləndir."***[215] hökmünə görə mən necə sirlərdən danışardım. Yenə bir qəzəldə belə bir ifadə var:

*Qəzəlimin içində gizlənmək istəyirəm ki,*
*Sən qəzəlimi oxuyarkən mən dodaqlarını öpüm*
Bursalı İsmail Hakkı deyir ki:
*Nola ayineyi-məcaz içrə*
*Ola rüxsari-həqiqət məşhud*
*Hər kimin çeşmi-dili olsa küşad*
*Edər əlbəttə ruyi-Haqqı şühud*

Nə olardı kainatdakı məcaz aynası içində həqiqətin üzü görünəydi. Bir insanın qəlb gözü açılsa o insan haqqın üzünü görər.

---

214. Buxari, Riqaq 38.
215. əl-Bəqərə, 2/268; əl-Maidə, 5/54.

Qəlb gözünün açıla bilməsi üçün itaət, ibadət, qulluq və irfan lazımdır. Qəlb gözü özlüyündən açılmaz. Məhəbbət və ibadət ikisi birlikdə olduğu zaman irfan yaranar. Məhəbbət olmadan sadəcə ibadət kifayət deyildir, eləcə də ibadət olmadan da məhəbbət kifayət deyil. İbadət və məhəbbət birlikdə olduğu zaman irfan, idrak olar, fəhm açılar. Dildən-dodaqdan irfan tökülməyə başlayar. Bir hədisi-şərifdə buyurulur: *"Kim qırx gün müddətincə ixlas ilə qulluq edərsə, Allah o kimsənin qəlbindən lisanına/dilinə hikmət bulaqları axıdar."*[216]

İxlas ilə qulluq edənin, könlü üzərində diqqətlərini cəm edənin könlündən lisanına Allah-Təala hikmət çeşmələri axıdar. Bir başqa hədisi-şərifdə də: *"Bildiyi ilə əməl edənə Allah bilmədiklərini öyrədər,"*[217] buyurulmuşdur.

Mühüm olan odur ki, insan bildiklərini həyata tətbiq etsin, onlar ilə əməl etsin. Allah onun İrfan çeşmələrini açar, könül dünyasını zənginləşdirər və dilindən gözəlliklər axmağa başlayar.

Haldan, sirdən anlamayana hikmət və mərifət danışmaq birbaşa hikmətə zülmdür. Hikməti, irfanı və mərifəti ancaq səriştəsi olana və talib olana demək lazımdır. Müştəri olmayana, anlamayana onu təqdim etmək, ona zülm etmək, onu layiqi olmayan kimsələrə vermək deməkdir. Qızılın qədrini bilməyən uşağın əlinə qızıl vermək, ən qiymətli əşyanı dəyərsiz görmək kimidir. Əlinə almaz versəniz, uşaq onu zibilliyə atar, torpağa atar, dəyərini bilməz. Onu qiymətini bilən insanlara vermək, onların mühafizəsi altına almaq insani və Rəbbani bir vəzifədir.

---

216. Acluni, Kəşfül-Xəfa II, 310.
217. Əbu Nuaym, Hilyə, X, 15.

## İYİRMİ SƏKKİZİNCİ BEYT

### *BAŞA DÜŞÜLMƏ QAYĞISI*

هر که او از همزبانی شد جدا
بینوا شد، گر چه دارد صد نوا

*Hər ki o əz həm zəbani şod cüda*
*Bi-zəban şod gərçi darəd sad nəva*

❃

**Tərcüməsi**
*Danışdığı dildən ayrı olan kimsə*
*Yüzlərcə dil və nəğmə bilsə yenə susar.*

***Mənzum Tərcüməsi***
*Öz dilindən ayrı düşmüş kimsələr*
*Yüz dil, yüz nəğmə bilsələr də susarlar*

Bir adam təsəvvür edin ki, yüz dil bilir. Qarşısında isə onun bildiyi yüz dildən birini belə bilən insan yoxdur. O insanın onlara dərdini başa sala bilməsi, məramını çatdıra bilməsi necə də çətindir. Bildiyiniz dili bilən varsa o işə yarıyar, onun anlayıb bilmədiklərini siz tamamıayarsınız. Amma bildiyiniz bütün dillər qarşınızdakı üçün məchuldursa, siz lal kimi qalmağa məhkumsunuz.

Bəzən susmaq ən yaxşı xitabdır. Xüsusilə dinləyəndə qabiliyyət olmadığı zamanlarda susmaq danışmaqdan daha yaxşıdır.

Xətibi danışdıran həmsöhbətləridir. Qarşınızdakı söylədiklərinizi nə qədər anlayırsa, dediyiniz sözlər, ifadə etdiyiniz mənalar onun qulağına, ürəyinə və qəlbinə nə qədər sirayət edirsə, sizin danışmağınıza stimul verən də məhz o dinləyənin qabiliyyətidir. Dinləyəndə qabiliyyət yoxdursa bir şey etmək müşkül məsələdir. Bu mənada Şeyxulislam Yahya Əfəndiyə aid edilən bir beyt vardır:

*Bilmərik bir dil ki tuti kimi qoftar eyləyə,*
*Söylədərmi yox cahanda bilmərik söylərmi yox?*

Bilmirik titi/tutuquşu kimi söz söyləyən kimsə qaldı, ya yox. Yoxsa onları danışdıran yoxdur ya da dinləyənlərdə bir qüsurmu var? Söyləyən azdı yoxsa, bilmirəm.

Danışma səviyyəsinin yüksəlməsi üçün həm danışanın, həm də dinləyənlərin səviyyəsinin yüksək olması lazımdır. Səviyyə nə qədər yüksək olarsa, ifadə ediləcək kəlmələr də, ləfzlər də o qədər artar. Kəlmə sayısının artması, mədəniyyət səviyyəsini və inkişafı, azalması da əksini göstərir. Dolayısı ilə dili inkişaf etdirmək, dünya görüşünü, bilgi boğçasını zənginləşdirmək lazımdır.

Əslində deyiləcək sözün yerini və zamanını yaxşı bilmək lazımdır. Sözü yerində deyəyin adı bəlağətdir, gözəl söz söy-

ləməyin adı isə fəsahətdir. Natiqin həm bəlağətli, həm də fəsih lisanlı olması üçün ləfzlər və mənanı düzgün istifadə etməklə yanaşı yerində və lazım olan vaxtda istifadə edilməsi vacibdir. Yerində deyilən söz çox ciddi təsirlər icra edər. Yunus necə də gözəl ifadə etmişdir:

*Söz ola kəsə savaşı*
*Söz ola kəsdirə başı*
*Söz ola ağulu aşı*
*Yağ ilə bal edə bir söz*

İnsan, əgər onun dilini anlayanlar varsa danışmalıdır, yoxsa susmalıdır. Ərəbcədən türk dilinə bəzi kəlmələr də qarışdırılaraq belə bir hikmətli yanıltmac vardır.

*Likulli məqamin ma qal,*
*Və likullu ma qalin rical*
*Və li kulli ormanin çaqqal*

Hər məqamın danışılacaq öz sözü vardır.
Hər sözü də söyləyəcək söz ustası adamlar vardır.
Hər meşənin də bir çaqqalı vardır.

Orada qarnını doyuracaq və ya özünə görə ağıllılıq/çaqqallıq edəcəkdir. Amma əsas olan hər sözü hər yerdə deyil, anlayanların olduğu yerdə danışmaqdır. Çünki başa düşməyənlərə deyilən söz ayaq altına düşər, qədir-qiyməti bilinməz. Farscada bu mənada belə bir ifadə vardır:

*Hər sözün vaxtı, hər nöqtənin yeri vardır*
*Dilsizlərin dilini ancaq anaları anlayar*

İşarət almaq, ya da işarədən anlamaq hər kişinin işi deyildir. Bəziləri anlamaz, bəziləri anlayar dərk edə bilməz, bəziləri də dərk edərkən yanılar. Bu səbəbdən eyni dili danışan və

eyni dili anlayan insanlara ehtiyac vardır. Belə ki, Mövlana Məsnəvisində[218] belə bir hekayə danışır.

Bir Türk, bir Ərəb, bir Fars və bir də Yunan birlikdə səfərdə ikən birisi onlara: “Bununla nə isə bir şey alarsınız,” deyərək bir miqdar pul verir. Dörd nəfər və dördünün də dilləri fərqli olduğu üçün ixtilafa düşərlər. Fars deyir ki:

“− Bu pul ilə əngür alaq.” Türk deyir ki:

“− Olmaz, üzüm alaq.” Ərəb deyir ki:

“− Olmaz, innab alaq.” Yunan deyir ki:

“− İstafil alaq.”

Bir birilərinin dilini anlamadıqları üçün hər biri müxtəlif fikirlər səsləndirir. hər kəs öz istəyinin olmasını tələb edir və beləcə bir-birləri ilə əlbəyaxa olurlar. Nəhayət dil bilən bir nəfər taparlar və ona:

“−Bizim müşkülümüzü həll et, fikir birliyinə gələ bilmirik. Bir nəfər bizə bir miqdar pul verdi. Onunla nə alacağımız mövzusunda bir qərar verə bilmirik.” Bu dörd dili də bilən adam hamısından bir-bir soruşur:

“− Sən nə istəyirsən?”

“− Əngür.”

“− Sən nə istəyirsən?”

“−Üzüm”.

“−Sən nə istəyirsən?”

“− İnnab”.

“−Sən nə istəyirsən?”

“−İstafil.” Bu halı görən dil bilən adam:

---

218. Məsnəvi, II, 3667 vb.

“− Siz dördünüz də eyni şeyi istəyirsiniz. Çünki fars dilində əngür, ərəbcə innab, yunanca istafil hamisi Türk dilində üzüm deməkdir. Dilləriniz fərqlidir, eyni dildə danəşmırsınız. Ona görə də bir-birinizi başa düşə bilmirsiniz. Eyni dildə danışdığınız zaman baxın necə də bir-birinizi başa düşürsünüz. Hamınızın istəyi də eyni imiş, deyir.”[219]

Dil bilmək, dildən və haldan anlamaq və anlaşılmaq həqiqətən də çox əhəmiyyətli bir hadisədir. Ona görə də deyilmişdir ki:

*Olmasa ortada bir əhli-lisan,*
*Sözü fəhm eyləməz, qalar insan.*

Bu hadisədə olduğu kimi insan əhli-lisan/dil bilən birini tapa bilməzsə, nə məramını başa sala bilər, nə də həmsöhbətinin məramını başa düşə bilər. Dolayısı ilə dil bilmək, ortaq dil tapmaq, könül dili ilə anlaşacaq bir mühit tapmaq lazımdır.

Haldan, dildən, sözdən anlaya biləcək ortaq zəmin və məkanlar təşkil etmək çox mühümdür. İnsan övladı nə qədər irfan sahibi olursa olsun, sahib olduğu irfan və mərifəti anlayan insanlar yoxdursa, susmaq məcburiyyətində qalar. Desə, danışsa qarşısında bunlara qulaq asıb, dinləyəcək insanlar yoxdursa, susmaq məcburiyyətində qalar. Onda yenə də dilsiz kimi olar. Eynən Təməl ilə Dursunun hekayəsində olduğu kimi. Təməl ilə Dursun Sultanəhməd parkında oturarkən yanlarına bir turist qrupu yaxınlaşır: “Do you speak English?”/ İngiliscə bilirsiniz?” − deyə soruşur. Təməl “Xeyr” mənasında başını yelləyir. Turistlər təkidlə Almanca, Fransızca, İtalyanca bilib-bilmədiklərini soruşurlar. Hamısından “Yox” cavabı aldıqda çıxıb gedirlər. Dursun bunun ardınca Təmələ üzünü çevirərək belə deyir:

219. *Məsnəvî,* II, 3681-3691

“−Təməl, XXI əsrə gəldik, hələ də xarici bir dil bilmirik. Artıq bir dil öyrənməyin vaxtıdır. Təməl də durmayıb:

“−Sən onları görmürsən, beş dil bilirlər, amma yenə də dərdlərini başa sala bilmədilər, sən bir dil ilə başa salacaqsan?” Qarşınızdakı anlayışsız olduqdan sonra neçə dil bilsəniz də bir faydası yoxdur.

Mövlana demək istəyir ki; öz dilində anlayan birini tapa bilməyən insan yüz dil bilsə yenə də sakit olmaq məcburiyyətindədir. Əsas olan ortaq bir dil tapmaqdır.

Həmraz/sirdaş və dəmsaz bir dost tapa bilsəm, ney kimi necə nəğmələr söyləyərdim...

İnsan övladı özünə bir həmraz və dəmsaz, yəni sirdaş, halını başa düşən, vaxtını, zamanını, könlünü onunla paylaşacaq bir dost tapmaq istər. belə bir sirdaş tapsa, onda ürəyini açar, dərdini danışar və xoşbəxt olar.

Bu gün psixoloji statistikaya görə insanlar özləri ilə impatiya edən, yəni danışarkən özünü həmsöhbətinin yerinə qoyan insanlar ilə daha asan dil tapa bilirlər. “Mən səni dinləyirəm, anlayıram, hətta sənin dərdini, sıxıntını şəxsən yaşayıram,” deyə biləcək bir dost onları xoşbəxt edirmiş.

Amma dərdinizi danışarkən, sizi interaktiv olaraq dinləməyən, başqa şeylərdən bəhs edən biri ilə eyni şeylərdən danışsanız belə könül dilləriniz eyni deyildir. Könül dili eyni olduğu zaman kəlmələr bilinməsə də, *“Minəl-qəlbi, iləl qəlbi səbilə”/Qəlbdən qəlbə yol vardır,”* ifadəsində deyildiyi kimi insanlar çox asalıqla bir-birlərini başa düşərlər.

Sirr və əmanət, ancaq əmanətin qədrini bilən insanlara danışılmalıdır. Birisi sizə bir sirrini danışıb könlünü açmışdırsa, onu saxlamaq lazımdır. Kiminsə sirrini başqa birisinə açmamalıdır. Sirrini danışan insan sizə güvənib, sizin sadiq olduğunuza inanmış və sizə sirrini faş etmişdir. Siz onu başqa-

sına açsanız məsuliyyət altına düşmüş olarsınız. Allah-Təala buyurur: ***“Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir.”***[220] Bu sirlər üçün də, ləyaqət üçün də eynidir. Bir iş kiməsə verilməlidirsə, insanlardan o işə ən çox layiq olanını tapmaq lazımdır.

Hz. Əbu Bəkr (r.a.) və Peyğəmbərimiz (s.ə.s) birlikdə bir məclisdə ikən Hz. Ömər (r.a) gəlir və Həzrət Ömər (r.a) deyir ki:

“Danışılanları dinlədim. Tövhiddən, mərifət və hikmətdən dnışırdılar. Mən özümü əcəm, heç ərəb dili bilməyən kimi hiss etdim. Dediklərindən heç nə başa düşmədim.” Deməli, hər kəsin anlayacağı və qavraya biləcəyi bir səviyyə vardır. Hər kəsə o səviyyəsinə görə xitab etmək lazımdır. Hz . Peyğəmbərin (s.ə.s) də Hz. Əbu Bəkr və Hz. Ömər ilə danışdığı səviyyə fərqlidir.

Peyğəmbərimizin (s.ə.s) ümmətə bəyan etdiyi şəriət dilində fərqlilik yoxdur, amma elmi-həqaiq və dəqaiq ilə bağlı mövzularda səhabələrdən seçkin olan bəzilərinə sirlər verdiyi məlumdur. Belə ki, Hüzeyfətül-Yəmana (r.a) münafiqlərin adlarını bildimişdir. Bu, ona əmanət edilmiş bir sirr olaraq onunla birlikdə o biri aləmə getdi.[221]

Səhabeyi-kiram cənazə namazlarında Hüzeyfəyə baxardılar. Hüzeyfə kiminsə cənazə namazını qılırsa, həmin adamın münafiq olmadığını, möminlərdən olduğunu anlayardılar və həmin adamların cənazə namazlarını qılardılar. Rəsulullah bunlar özünə bildirildiyi halda bir əmanət olduğu üçün bütün ümmətinə bildirməmiş, sadəcə Hüzeyfəyə bildirmişdir.

Türkcə bilən, amma Çin dili bilməyən kimsə çinlilərin yanında yad kimi qalar. Eyni şəkildə ağıl və fikir adamı özünü

220. ən-Nisa, 4/58.
221. Əbu Davud, Fitən, 1; müq. Et. Beyhəqi, Sünəni-Kübra, VIII, 199 (16620)

başa düşməyənlərin yanında susmaq məcburiyyətində qalar. Anlamayana deyiləcək hər hansı hikmətli söz, xəstə qəlbi olanın mərəzini/xəstəliyini artırmaqdan başqa bir fayda verməz. Dolayısı ilə, Mövlana sözü sözdən anlayanın və başqasının yanında açmamaq lazım olduğunu ifadə edir.

Üç cür xəstəlik vardır ki, bunlar dərman qəbul etməz. Onlar da: Həsəd, axmaqlıq və idrak nöqsanlığıdır. Belə ki, Hz. İsanı qaçdığı yerdə görənlər soruşurlar: “Ey Ruhullah, kimdən qaçırsan?” Hz. İsa deyir ki, axmaqdan. Ləyaqəti olmayana deyiləcək hikmətli sözlər və sirli ifadələr, həddi-büluğa çatmamış bir uşağa evlilik məhrəmiyyətlərindən bəhs etməyə bənzəyər. hər şey vaxtında və yerində gözəldir.

## İYİRMİ DOQQUZUNCU BEYT

### *GÜL GETDI GÜLÜSTAN SOLDU*

چون که ُگل رفت و گلستان در گذشت
نشنوی زآن پس ز بلبل سر گذشت

*Çünki gül rəftü-gülistan dər güzəşt*
*Nəşinəvi-zən pəs zi bülbül sər güzəşt*

❃

**Tərcüməsi**
*Gül getdi, gül mövsümü də keçib getdi*
*Artıq bülbülün aşiqanə sədasını duymazsan.*

***Mənzum Tərcüməsi***
*Soldu gül, bağlar pərişan, bağ viran*
*Susdu bülbül, inləyiş bitmiş yazıq.*

Mövlana bu beytdə Şəms ilə keçən günlərinə olan həsrətini ifadə edir. Sipehsaların bəyanına görə, Şəms ona sirlərinə məhrəm olacaq bir dost istəmiş və ona Rum diyarı ilham edilmişdi. Şəms ilə Mövlana Konyada Pirinçilər bazarında görüşdülər və aralarında böyük bir dostluq yarandı. Ancaq Şəms xalqın təzyiqi və dedi-qoduları səbəbindən bir müddət gözdən uzaq oldu. Mövlana onu oğlu Sultan Vəlidi göndərərək Şamdan Konyaya geri gətirtdi. Amma bu bərabərlik də çox uzun müddət davam etdi. Şəms yenidən qeyb oldu və bir rəvayətə görə də öldürüldü. Bu beytdəki ifadələr ilə Mövlana Şəmsi gül, Şəms ilə bərabər olduğu günləri də gül mövsümü olaraq dəyərləndirir.

Bülbül daha çox bahar mövsümündə gül açdığı zaman gülə olan eşq və həsrətindən ağlayar və fəryad ilə nəğmə oxuyar. Gül mövsümü keçdikdən sonra, bülbül susar və sükut edər. Necə ki, “tut yemiş bülbül” deyirlər ki, tut çıxan kimi bülbülün səsi kəsilir. Çünki bülbülü oxudan, gülün gözəlliyinə olan eşqidir.

Deyirlər ki: “Bülbülün, gülün qarşısında fəryad ilə oxuması, gülə elə təsir edir ki, o da şəbnəmi ilə bülbülün eşqini qarşılıqsız qoymaz.” Məlumdur ki, gecənin sərinliyində gülün ləçəkləri üzərində şəbnəm deyilən bir şeh damlası əmələ gəlir. Məhz o şəbnəm də bülbülün eşqinə müqabilə etmək üçün gülün tökdüyü göz yaşıdır. Gül bülbülə sanki belə cavab verir: “Sən mənə eşqini elan edir, sevgini bildirmək üçün gözəl nəğmələr söyləyirsən. Mənim də sənə cavabım, göz yaşım olan şəbnəmimdir”. Gül mövsümündə bülbüllərin səsləri hər tərəfdən eşidilər, amma gül mövsümü keçən kimi bülbüllər susar.

Mövlananın danışmasına, bülbül kimi oxumasına səbəb olan, könlündəki vulkanı coşduran Şəmsi-Təbrizidir. Şəms onun ən böyük mürşidi və dostu idi. Onu tanıdıqdan sonra:

“Xam idim, bişdim və yandım,” dediyi insan idi. Onun ölməsi ilə Mövlana gül mövsümü keçdikdən sonra bülbüllərin susması kimi, özünün hikmətli sözlər deməyəcəyini, susmaq məcburiyyətində qaldığını ifadə edir.

*Fiğanu-nalişinlə sən saraldın, qönçələr saraldı*
*Nə eşqsən ki, olmuş gül dahi nalanın ey bülbül!*

Güllər solub bülbül susunca elə bir vəziyyət meydana gələr ki, artıq ariflər ləfzlərdən çox, rəmz, simvol və şifrələr ilə danışmağa başlayar. Çünki arifə işarət kifayətdir. Onsuz da sözü hər kəs öz fəhm qabiliyyətinə görə anlayar, qavrayar və yozar.

Zəkəriyyə (ə.s) Qurani-Kərimdə adı zikr olunan peyğəmbərlərdən Yəhyanın (ə.s) atasıdır. Ali-İmran surəsində ondan bəhs edilir. İşarət və rəmz ilə danışması bildirilir. Zəkəriyyə (ə.s) ixtiyarlıq çağında Allah-Təalaya əlini açıb Ondan saleh bir nəsil və övlad istəyərək belə dua edir:

***“(O zaman) Zəkəriyyə Rəbbinə dua edərək dedi: “Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!”***

***(Zəkəriyyə) mehrabda (ibadətgahda) ayaq üstə durub namaz qılarkən mələklər ona müraciət edib dedilər: “Allah sənə Özü tərəfindən gələn kəlməni (İsanı) təsdiq edən, (tayfasını) ağa, nəfsinə hakim və əməlisalehlər zümrəsindən bir peyğəmbər olacaq Yəhyanın (dünyaya gələcəyi) xəbərini müjdə verir.”***

***(Zəkəriyyə:) “Ey Rəbbim, üzərimə qocalıq çökdüyü və zövcəm qısır (doğmayan) olduğu halda, mənim necə oğlum ola bilər? “ – söylədi. (Allah isə: ) “ (Bəli) dediyin kimidir, (lakin) Allah nə istəsə, onu da edər”, - deyə buyurdu.***

***(Zəkəriyyə:) "Ey Rəbbim! Mənə (zövcəmin hamilə olduğu vaxtı bilmək üçün) bir nişanə göstər," - dedikdə, (Allah:) "Sənin nişanən üç günün ərzində adamlarla yalnız işarə ilə (əl, baş və gözlə) danışmaq olacaqdır. O vəziyyətdə belə Rəbbini çox yada sal (zikr et) və səhər-axşam şəninə təriflər deyib şükür et!"***[222]

Ayəyə görə Zəkəriyyənin (ə.s.) danışma qabiliyyəti alınacaq, insanlar ilə əl və işarə ilə, bədən diliylə, qaş və gözlə danışacaq. Bu onun belə bir övlad ilə müjdələnməsinin doğru olduğunun əlaməti olacaq.

Mövlana bu beyti ilə demək istəyir ki: Bülbül kimi aşiqanə sözlər deyən arif, gözəl əxlaq və üstün zəkaları ilə gül kimi qoxular saçan kimsələrdən uzaq olduqda, sirlərdən dəm vurmaz, aşiqanə sözlər söyləməz hala gələr. Çünki ürəyinə ayrılıq dərdi düşmüşdür. Buna görə də aşiq susar və "Gül soldu, gül mövsümü keçdi, gülüstan xarab oldu. Artıq bizə bu vadidə deyəcək bir şey qalmadı", deyər.

*Pür-gövhər olsa qaçan dili-pak*
*Sədəf əsa olar o dəm hamuş*
*Razı salmaz cərəs-əsa daşra*
*Söyləməz Şəms cəhətindən olar guş.*

Nə vaxt tərtəmiz könül cövhər ilə dolsa, o dəm yuxuya dalar. Zınqırov kimi sirrini kənara çıxarmaz. Şəms tərəfini dinləyər, özü dinməz.

Bursalı İsmail Hakkının da ifadə etdiyi kimi bu beytlərdə danışan nə qədər Mövlana olsa da, onun ilham qaynağı Şəmsdir.

Gül solub gülüstan xarab olunca, gülün qoxusu haradan öyrənilər? Ancaq gül suyundan. Mövlana üçün Şəms gül, Hü-

222. Ali-İmran, 3/38-41.

samәddin dә Şәmsә görә gül suyu kimidir. Belә ki, Mәsnәvinin bir başqa yerindә Mövlana deyir ki: "Bu dediklәrim sәnin idrak vә anlayışına görәdir. Mәn, sözü doğru anlayanın hәsrәti ilә gedirәm."[223]

Hәr şey yerindә vә vaxtında gözәldir. Bu sәbәbdәn deyilmişdir ki, "Quş bazarında dәvә satılmaz." İnsanların bәsirәtlәri vә fәrasәtlәri fәrqli-fәrqlidir. Belә ki, Hz. Peyğәmbәrin Vida Hәcci әsnasında: ***"Bu gün dininizi sizin üçün kamil etdim, sizә olan nemәtimi tamamladım vә sizin üçün din olaraq islamı bәyәnib seçdim,"***[224] ayәsi nazil olduqda bütün sәhabәlәr cuşa gәlib sevinmişdilәr. Yalnız Hz. Әbu Bәkrin (r.a) gözlәri nәmli idi. Çünki o, bu ayәnin hikmәtli mәnasını anlayıb belә yozmuşdu: "Dinin kamala çatması Peyğәmbәrin qürub vaxtının xәbәrçisidir. Din nemәtinin tamamlanması gözәldir, amma bu eyni zamanda Peyğәmbәrin ölüm vaxtının yaxınlaşdığının xәbәrçisidir."

O heç kimin fәrq etmәdiyi bir tәfәrrüatı anlamış vә hüznlü bir sevinc ilә gözlәrindәn yaşlar süzülmüşdü. Bu Hz. Әbu Bәkr Siddiqin (r.a) idrak vә fәhm qabiliyyәtinin bir tәzahürü idi. Bu idrak vә fәhm qabilyyәti, әlbәttә Allahın bir ehsanıdır. Yaqubun Yusifin köynәyinin qoxusunu hiss etmәsi da bu növdәndir. Hiss etdirәn Allahdır. Çünki faili-mütlәq Allahdır.

---

223 . Mәsnәvi, III, 2097.
224. әl-Maidә, 5/3.

## OTUZUNCU BEYT

### *HƏR ŞEY SEVGİLİDƏN İBARƏTDİR*

جمله معشوق است و عاشق پرده ای
زنده معشوق است و عاشق مُرده ای

*Cümlə məşuq əstü-aşiq pərdeyi*
*Zində məşuq əstü aşiq mürdeyi*

❃

**Tərcüməsi**

*Hər şey məşuqdan ibarətdir, eşq isə pərdə*
*Diri olan sadəcə Sevgilidir, aşiq isə ölü.*

***Mənzum Tərcüməsi***

*Cümlə məşuqdur və aşiq örtülü*
*Canlı canandır və aşiqdir ölü*

Bu aləmdə faili-mütləq, hər cür qüvvət, qüdrət və varlığın qaynağı, gerçək sevgili, sevgililər sevgilisi Allah-Təaladır. Ondan qeyri varlıqların hər biri bir kölgə mahiyyətindədi.

Allahın bu aləmdəki zühur və təcəllisi o qədər yüksəkdir ki, bu zühurun şiddətindən insanla çox vaxt bunun fərqində olmazlar. Necə ki, Əziz Mahmud Hüdayi deyir ki:

*Zühuru pərdə olmuşdur zühura*
*Gözü olan dəlil istərmi nura*
*Şol qədər heyrətdə olsun canu-dil*
*Kandə baxarsam Əfəndim sanayım*

Necə günəşin ziyasına çılpaq gözlə baxmaq da onu inkar etmək də mümkün deyilsə, eyni şəkildə bu aləmdə Allah-Təala həzrətlərini bəşər gözü ilə görmək də Onun varlığını, əsərlərini, təcəllilərini görmək də mümkün deyildir.

Aləmə bu göz ilə baxan "faili-mütləqi", "vücudi-mütləqi" görər, görməməsi özünün nöqsanıdır. Çünki O, varlığa aid hər cür əsma və sifətləri ilə "qaim-binəfsihi" (özü-özlüyündən qaim olan) xüsusiyyəti ilə zahirdir, batindir, əvvəldir, axırdır. Necə ki, bir şair deyir ki:

*Mən bilməz idim gizli-əyanı həp Sən imişsən*
*Canlarda vü tənlərdə nihan həp Sən imişsən*
*Səndən bu cahan içrə nişan istər idim mən*
*Axir bunu bildim ki cahan həp Sən imişsən*

Bu beyt kainatdakı gerçək qaim-bi-nəfsihi varlığın Allah-Təaladan ibarət olduğunu, digər varlıqların Onun qüvvəti, varlığı, elmi və qüdrəti ilə var olduğunu ifadə edir.

Rəvayətə görə balıqlar bir yığıncaq edirlər və aralarından bir balıq haqqında: "Bu suyu görmüşdür", deyirlər. Yanına gedib sudan soruşurlar. O balıq deyir ki: "Sudan başqa bir şeyin varlığını mənə göstərin ki, mən də suyu sizə göstərim," deyir. Bu sözün mənası odur ki, balığın varlığı suya pərdədir. Çünki

balıq suyun içində yaradılmışdır. Ona görə də sudan başqa bir şey olmadığını zənn edər.

İnsanlara hədəf göstərən Mövlana hədəf və məqsədlərin ən alisini və ucasının Allah və Allah rizası, cənnət və camalullah olduğunu ifadə etmiş olur. Belə ki, Allah-Təala belə buyurur:

***"Allah, möminlərin canlarını və mallarını Cənnət müqabilində satın almışdır."*** [225]

Bu ayədə həqiqi könül veriləcək və son hədəf olaraq qəbul ediləcək varlığın Allah-Təala və Onun rizası olduğu, Onun lütf etdiyi cənnətə bu vəsilə ilə layiq ola biləcəyi ifadə edilir.

Mövlana, "hayy/diri olan sadəcə məşuqdur. Var olan da sadəcə Odur," deməklə hədəf olaraq Allahı və rizasını göstərir: *"Ridvanun minallah/Allahın rizası."*

Bəşəri mənada bir eşqə, bir sevdaya düşmüş insan yaşadığı hər saniyəni, gördüyü hər varlığı sevgilisi ilə eyniləşdirir. Baxdığı hər şeydə onu görür. Gecənin qaranlığı sevən üçün sanki sevgilisinin saçlarını xatırladır. Gündüzün aydınlığı, onun parlaq üzündən bir nişanədir. Külək sanki onun nəfəsidir. Şimşək onun təbəssümüdür.

Şairlər öz sevgililəri üçün söylədikləri sözlərdə kainatın gözəlliyinə aid olan xüsusları sevgililərində də gördüklərini ifadə edirlər. Bir şair deyir ki:

*Kəkilindən şəb, cəbinindən səhərlər məvc-hiz*
*Zülmətü ənvar olar, səndən hüveyda rəng-rəng*

Sənin saçından, kəkilindən gecənin qaranlığı, alnından isə pərdə-pərdə parlaq səhərlər açılar. Həmçinin başqa bir şair deyir ki:

225. ət-Tövbə, 9/111.

*Mən mən deyiləm, mən dediyim sənsən hep*
*Canım dediyim, tən dediyim sənsən hep*

Sevgidə eyniləşmə, sevən ilə sevilənin eyni varlıq olduğu məqama çatma fenomeni bizim ədəbiyyatımızda geniş yayılmış bir dünyagörüşü tərzidir. Hümam Təbrizi deyir ki:

*Mənimlə sevgili arasında pərdə oldu Hümam*
*Pərdəni bərtərəf edəlim ki, iş olsun tamam*

Füzuli Məcnunun dili ilə Leyliyə belə səslənir:

*Gər mən mən isəm nəsən sən ey yar*
*Gə sən sən isən nəyəm mən-izar*

Məcazi eşqdə belə olarsa, ilahi eşqdə Haqq-Təalanı hədsiz-hüdudsuz sevgi ilə sevən bir insan, hər nəyə baxsa, Onun adlarının və vəsflərinin təcəllilərini görərək Onunla üz-üzə gələr.

İmam Əli (r.a) belə deyir: “Əgər gözümdəki pərdə qaldırılsa, yəqinim artmazdı.” Mən onsuz da bu bədən pərdəsi ilə pərdəli olduğum halda da Allahın əzəmət və kibriyasını, adlarını və təcəllilərini hiss edirəm.

Rəsulullah (s.ə.s) məktəbində oxumuş, onun əlinin altında elmi, ehsanı və İslamı əxz etmiş əshabi-kiramın hər birində bu iman və eşq zənginliyini görmək mümkündür. Onların Allah və Rəsulullah sevgiləri hər sevgidən üstündür. Belə ki, Qurani-Kərimdə: ***“Halbuki iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir,”***[226] şəklində ifadə edilir.

Hər şeyi verən qüdrət sahibi olması səbəbilə Allah belə buyurur: “Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!”[227] O, yaratma gücü ən ülvi, sifətləri ən yüksək olandır. Onu bu mənada tamaşa edən insan, kainatın hər zərrəsində Onun qüdrət əsərlərini, camal və cəlalını

226. əl-Bəqərə, 2/165.
227. əl-Muminun, 23/14.

idrak edər. Haqq-Təala: ***"Harada olursunuzsa olun, O sizinlədir,"***[228] sirri ilə yaxınında və yanında görər. Bundan başqa Qurani-Kərimdə: ***"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!"***[229] ayəsində ifadə edildiyi kimi, Allahın özünə yaxınlığını anlamağa çalışar. Bütün bu var olan nemətlərin və varlığın sahibi olan qüdrətə könüldən bağlanar.

Onu sevməyin yolu Onu tanımaqdan keçir. Mərifət və məhəbbət bir-birini tamamlayan iki mühüm əsasdır. İnsan əvvəlcə tanıyar, mərifət yaranar. Tanıdıqdan sonra qüdrətini idrak etməklə nemətlərinin fərqinə vardıqdan sonra Onu eşq və məhəbbət ilə sevməyə başlayar.

İlahi eşqdə insanlar seviləni deyil sevənləri görə bilərlər. Kənardan baxanlara görə sevgili, sanki sevənlərin hördükləri bir pərdə arxasındadır. İnsanların sevən deyə gördükləri də əlində məşuq, yəni seviləndir. Çünki var olan, varlığı özündən olan sadəcə Odur. Sevənlər ilahi eşqdə fani olmuşlar, varlıqlarından təcrid olunmuşlar. Necə ki, Yunusun bu sözü bu mənanı ifadə edir:

*Məni məndə demən, məndə deyiləm*
*Bir mən vardır məndə məndən içəru*

Şeyx Məğribi də deyir ki:

*Səndən başqası olmayan necə başqasını görər?*
*Bu səbəbdən Sən hər şeyin elə özüsən*

Sən bütün varlıqların həqiqi sahibisən: *"Lə havlə və lə quvvətə və lə qudratə illə billəh".* "Hər cür hövl, qüvvət, qüdrət, enerji, taqət ancaq Allahdandır." İnsanın özünə xas bir taqəti, qüdrəti və bir gücü yoxdur. Gücü, enerjisi, taqəti olmayan

228. əl-Hədid, 57/4.
229. Qaf, 50/16.

gerçək güc və qüdrət sahibinə görə: "Kə-ən ləm yəkun" yəni yox mahiyyətindədir.

Bütün bu var olanlar nisbi varlıqlardır. Biz onları varlıq olaraq görürük, nəfəs aldıqlarını müşahidə edirik, kainatda yer tuturlar, deyirik. Amma bunları həqiqi varlıq sahibi Allah ilə müqayisə etdiyimiz vaxt, bunlara varlıq libasını geyindirənin Allah olduğunu görüncə yox kimi qəbul edirik.

Bu səbəbdən mütləq vücuda biz: *"Vahdəhu lə şərikə ləhu /* O ortağı olmayan Təkdir", deyərkən Onun qüdrətinə, elminə və ifranına başqasının əsla şərik olmayacağını ifadə etmiş oluruq.

Bu eşqdə, sevgidə də belədir. Allah-Təala mütləq və ən yüksək səviyyədəki sevginin özünə aid olmasını istəyir. Qurani-Kərimdəki: ***"Allah bir adamın sinəsində (daxilində) iki ürək yaratmamışdır,"***[230] ayəsinin mənasını izah edən könül dostları deyirlər ki: "İnsanın biri Allaha, biri də masivaya aid iki qəlbi ola bilməz, qəlbin həqiqi sahibi Allahdır, qəlb Onu sevməli və ona qul olmalıdır".

Allah Rəsulu (s.ə.s) dünyanı, masivanı, pulu-paranı Allah sevgisindən üstün tutanlar üçün ciddi xəbərdarlıqlar edir və onlar üçün: *"Lənətə gələsi dinarın, dirhəmin və dünyanın qulları..."*[231]buyurur.

Bursalı İsmail Hakkı deyir ki:

*Çünki Haqdan ərişdi xəlqə vücud*
*Haqq ilə kain oldu hər mövcud*
*Bildirir sirrini ismi-Qəyyum*
*Göstərir özünü əsəri-vücud.*

---

230. əl-Əhzab, 33/4.
231. Bax. Məcmaüz-zəvaid, X, 434 (17821), 467 (17921).

Haqdan gələn var etmə (yaratma) əmri "kun!" deyə gəldikdə; bu kainatdakı bütün varlıq Haqq ilə qaim olmaq üzrə zahir oldu və varlıq meydanına çıxdı. Allah "Qəyyum" sifətinin sirrini "Kun!" əmri ilə yaratmaqla göstərmiş oldu. Mütləq vücudunun əsərlərini yenə "Kun!" əmri ilə kainatı meydana gətirmək surətilə izhar edir.

Şeyx Sədi deyir ki:

*Aşiqlər sevgililərini axtaranlardır*
*Ancaq öz avazlarından tapa bilməzlər.*

Sevgililərini axtaranlar öz səslərindən, öz hayqırışlarından tapa bilməzlər və yollarını itirərlər.

Aşiqin ölü olması xüsusiyyətlərinin fani olmasındandır. Aşiq quldur, insandır. İnsan isə fanidir, fani olan insanın xüsusiyyətləri əlbəttə özündən olmadığı üçün, yox hökmündə, ölü mahiyyətindədir. Amma məşuq olan Allah isə varlığı, rəhmət və qüdrəti özündən olduğu və bu varlığı qəyyumluq və təkvin (yaratma) sifəti ilə var etdiyi üçün daima Hayy/diridir, əsla ölməz. Dirildən və öldürən odur. Çünki böyük həyat baqi yar ilə yaşamaqdır. Qeyrisi isə fani ilə həyatdır ki, yox mahiyyətində bir həyatdır. Baqi olan Allah ilə yaşamaq bəqaya qanad açmaq və o tərəfə sarı yol qət etməkdir.

*Xızır vəş gər ömrü-baqi istər isəm müttəsil*
*Ola gör abi-həyatı feyzi-haqdan zində-dil*

Əgər Xızır (ə.s) kimi baqi bir ömür, əbədi yaşamaq istəyirsənsə, Haqq-Təalanın abi-həyat feyzi ilə diri olmağa çalış. Onun məhəbbət və eşqindən pay sahibi olmağa, ondan doyuncaya qədər içərək insan olmağa çalış!

## OTUZ BİRİNCİ BEYT

### *EŞQSİZ OLAN QANADSIZ QUŞ KİMİDİR*

چون نباشد عشق را پروای او
او چو مرغی ماند بی پر وای او

*Çün nə başəd eşq-ra pərvayi-o*
*O çü mürgi mənd bi-pər-vayi o*

❃

**Tərcüməsi**
*Aşiqdə eşqin ələminə dözüm yoxdursa,*
*O qanadsız bir quş halına gələr*

***Mənzum Tərcüməsi***
*Eşqdə səbri olmayan bir sərsəm adam*
*Bir qanadsız quşdur artıq, vah işi!*

Bu beytdə keçən iki "pərva"dan birincisi fərağat/meyil və həvəs mənasına; digərində isə pər/qanad, geri qalan "vayi o" isə fəryadu-fəğan mənasındadır. Buna görə aşiq səbir və təhəmmül ilə eşqin çiləsinə qatlanmalı, sevgilisinin naz və qəhrinə səbir etməlidir ki, bunun nəticəsində mütləq sevgiliyə və sevgiyə məzhər/layiq olsun. Bu beytdə insan bədəni quşa, eşq isə qanada bənzədilmişdir. Necə ki, bir quş qanadı olmadan uça bilməzsə, eşqi olmayan da əsla irəli gedə bilməz.

Mövlana daha əvvəlki beytlərdə eşqin; fəlsəfədə Əflatunun, tibdə Qalinosun icra etdiyi bir təsir meydana gətirərək insanı ehya etdiyini söyləmiş və eşqin insanı danışdıran bir güc və enerji olduğuna diqqət çəkmişdir. Buradan hərəkətə keçərək bu beytdə də deyir ki:

İnsan övladını bu dünyada olğunlaşdırma, kamala çatdırmada zöhd səyyarə/yeridən təsiri icra edər, eşq isə təyyarə/uçuran təsiri göstərərək mənən qanadlanıb uçma təsiri icra edər. Beləcə salik eşq sayəsində durmadan Allaha tərəf can atar. Füzulinin dediyi kimi:

*Eşq rəsmin aşiq, öyrənmək gərək pərvanədən*
*Kim yanar gördükdə şəmin atəşi-süzanına*
*Canını canana verməkdir kamali-aşiqin*
*Verməyən can etiraf etmək gərək nöqsanını*

Atəşin ətrafında işıq sevdası ilə fırlanan pərvanə özünü atəşə atıb yandırmadıca eşqi dada bilməz. Və həqiqi aşiqliyini isbat edə bilməz. Eynilə onun kimi, sevən də sevdiyində fani olmadığı müddətcə həqiqi eşqə nail ola bilməz.

Eşq qanadı ilə uçmayan kimsə torpağa və maddi şeylərə bağlanıb qalmış deməkdir. Uçmaq üçün xəfifləşmək, yəni torpaq və su cəhətini azaldıb atəş və hava tərəfini çoxaltmaq lazımdır. Nəfsə mahkum olaraq şəhvət qəfəsində qalan insan öz aldadıcı varlığından və dünya cazibəsindən xilas ola

bilməmiş sayılır. Beləlləri Allahın camalına və kamalına doğru qanad aça bilməz. Ağırlığından yerindən tərpənə bilməz. Ağıla gedib çatacaq olan işıq, ancaq eşqdən keçər. Bir başqa şair belə deyir:

*Ayaq basmaq ilə göy üzünü aşa bilməzsən*
*Ruzigar kimi şövq ilə qol-qanad açman gərək*

Ayağını yerə basmaq surətilə yuxarılara, səmalara çıxmağın mümkün deyildir. Sən ancaq külək kimi eşq və şövq ilə yol qət edərək və ayaqlarını yerdən kəsərək yuxarılara yüksələ bilərsən.

İnsanın səadət və xoşbəxtliyi hikmət ilədir. Hikmət öyrənmək ilə, öyrəndiyini həyata keçirmək ilə olur. İşin sonunda mütləq və mütləq əməl və hərəkət olmalıdır. Əməl, tətbiqat, hərəkət və fəaliyyəti olmayan bilginin bir fayası yoxdur.

İmam Qəzali:*"Salehlərin anıldığı yerə ilahi rəhmət enər,"*[232] rəvayətini izah edərkən deyir ki: Salehlərin sadəcə adlarının anılması ilə ilahi rəhmət enməz. İlahi rəhmətin enməsi üçün onlardan bəhs edilən məclisdə dinləyənlərin də onlar kimi olmaq, onların gözəl davranışlarını model qəbul etmək duyğusu olmalı, hətta bu duyğu tətbiqata keçməlidir. Əmələ çevrilən duyğu, ilahi rəhmətin enməsinə vəsilə olar. İlahi rəhmət, insanların niyyətləri, əzmləri və əmələ çevrilən davaranışları ilə gerçəkləşər. Bu baxımdan insanın öyrənməsi əməl etmək üçün olmalı, əməl etməsi də olmaq və kamala çatmaq üçün olmalıdır.

Eşqə çatmağın yollarından biri də insanın riyazət ilə nəfsini tərbiyə etməsidir. Məcazi eşqə düçar olmuş kəs nə edər? İnsan övladı qarşı cinsə aşiq olmuşdursa:

232. Kəşfül-Xəfa, II, 70.

Gözünə yuxu getməz, yeməkdən-içməkdən kəsilər, tək-tənha gəzər, durmadan sevgilisindən bəhs etmək istəyər. Bu hal məcazi eşqə tutulan insanın təbii hallarıdır.

Bu səbəbdən ilahi eşqə gedən yolun birisi də riyazət və mücahidə metodudur ki, o da :

Qılləti-təam/az yemək,

Qılləti-kəlam/az danışmaq

Qılləti-mənam/az yatmaq

Uzləti-anil-ənam/Xalqdan uzaqlaşmaq

Zikri müdam/durmadan zikr etmək

Haqqa vasil olmaq üçün kəşf lazımdır. İnsanın axtarışı elm ilə sakitlik tapmaq, necə ki, ac olan su ilə doymaz. Susuz olan da çörək ilə doymaz. Susamışa su lazım olduğu kimi, elm əhlinə də eyn/zat lazımdır. Hər kəsin vüsləti özünə görədir. Ağıl üçün şəriət lazımdır. Fəlsəfəçilərin ibadətləri şəriət ilə deyil, tabe olmaqladır. Tabe olmaları həva ilədir, ilahi əmr ilə deyil. Şəriətin olduğu yerdə eşq lazımdır. Şəriətin əmr etdiyi zikrə davam etməkdə eşq, eşqdə də mükaşəfə/kəşf vardır. Eşqə ayaq basmamış riyazət əhli bəzən kəşvə nail olmuş ola bilər. Ancaq süfli/adi kəşflər mötəbər deyildir. Kəşfin əvvəlində məhəbbət nuru, sonunun da eşq narı, yəni eşq atəşi olması lazımdır ki, masivanı yandırsın. Sadəcə riyazət kifayət deyildir. Bu səbəbdən Bursalı İsmail Hakkı deyir ki:

*Olmaz isə eşqi-mütləq vasitə*
*Xəlqi-aləm Haqqa bulmaz rabitə*
*Rişteyi-eşqi dilin qıl müntəzəm*
*Bu durar üşşaq üçün zabitə*

Haqq eşqi vasitə olmazsa, insan bu aləmdə Haqq ilə rabitə qura bilməz. Çünki qulun könlünü sağlam bir bağ ilə bağlayan, aşiqləri cilovlayan ən  mühüm şey eşqdir.

Yunusun dediyi kimi:
*Eşqin aldı məndən məni*
*Mənə səni gərək səni*
*Yararım dünü günü*
*Mənə səni gərək səni*
*Nə varlığa sevinərəm*
*Nə yoxluğa yerinərəm*
*Eşqin ilə ovunaram*
*Mənə səni gərək səni*
*Sufilərə söhbət gərək*
*Axilərə əxrət gərək*
*Məcnunlara Leyli gərək*
*Mənə səni gərək səni*
*Yunus durur mənim adım*
*Gün gəldikcə artar odum*
*İki cahanda məqsudam*
*Mənə səni gərək səni*

Bu aləmdə bütün mömin qulların son hədəfi Allahın eşqinə və rizasına nail olmaqdır. Çünki Allah bu aləmi və insanları özünün tanınması, bilinməsi və sevilməsi üçün yaratmışdır. İbadət və itaətimiz məhəbbətlə olduğu, sevgiylə dolduğu zaman bir məna ifadə edir. İnsanı ibadətə, itaətə və xitmətə can atdıran Allah sevgisi, məhəbbət və eşqdir.

## OTUZ İKİNCİ BEYT

## *İDRAK HAQQIN NURU İLƏDİR*

من چگونه هوش دارم پیش و پس؟
چون نباشد نور یارم پیش و پس

*Mən çi günə xuş darəmpişu-pəs*
*Çün nə başəd nuri yarəm pişu pəs*

❃

**Tərcüməsi**
*Mən necə idrak edə bilərəm önümü və arxamı?*
*Yarimin nuru mənim önümdə və arxamda olmayınca*

***Mənzum Tərcüməsi***
*Yarımın nuru mənə bələdçi olmadan*
*İlk və son bilməm çəkilmiş ortadan*

Bu beytə iki cür məna verilə bilər.

1- Mən necə idrak edə bilərəm önümü və ardımı, yarımın nuru mənim önümdə və arxamda olmayınca

2- Mən necə ilklik və sonluq ilə məhdudlaşdırıla bilərəm, yarımın nuru ilklik və sonluq ilə məhdud deyildirsə.

Eşq qanad, ağıl ayaq məhiyyətindədirı. Eşqə tabe olmayan ağıl ilə hərəkət edilə bilməz. Çünki ayaq mahiyyətindəki ağıl dirənər və eşqə uymazsa, hərəkət olmaz. Addım atmaq üçün ayaq basacağın yeri görməlisən

Mövlana dərin bəhslərə girməyəcəyini ifadə etdikdən sonra, yarının ilklik və sonluq kimi hüdudlardan münəzzəh olan nurunun özünü aydınladacağını deyir. Qayğı ilə bağlılıqdan uzaq olma lazım gəldiyinə diqqət çəkir.

Yar ilə vüslətə vəsilə olan nur dedikdə eşq nəzərdə tutulur. Eşq nura bənzədilmişdir. Quranda: ***"(İnsanlar gecə vaxtı) yollarını (və qibləni) ulduzlar vasitəsilə taparlar,"***[233]buyurulur. Mütləq nur bütün cahanı göstərdiyi kimi eşq də bütün orqanlara və bəşəri güclərə əks edər. Bu səbəbdən qəmər "Nur" ilə ifadə edilir. ***"Allah ayı nur etmişdir."***[234]

Qəmər insanın qəlbinə bir işarə sayılır. Qəlb də şüşə kimi içində yanan zeytun yağı ilə işıqlandırar. **"*Onun (Peyğəmbərimizin və möminlərin qəlbində olan) nuru, içində çıraq olan bir taxçaya (çıraqdana) bənzər; taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə, sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə (aləmin ortasında) olan mübarək bir zeytun ağacından yandırılır. (Şərqdə deyildir ki, günəş batdıqda, qərbdə də deyildir ki, günəş doğduqda qaranlıqda qalsın). Onun (zeytun ağa-***

233. ən-Nəhl, 16/16.
234. ən-Nuh, 71/16.

***cının) yağı özünə od toxunmasa da, sanki (haradasa) işıq saçır.”***[235]

Haqq-Təala insana bəsirət nuru verməz, önünü və arxasını görəcək, sağını-solunu biləcək bir bilgi ehsan etməzsə, bəşər nə önünü, nə də arxasnı görə bilər.

Görmək, idrak etmək, işin əsl mahiyyətini dərk etmək ancaq və ancaq Allah-Təalanın lütfü və nuru ilədir. Onun lütf edəcəyi idrak ilədir. Və ya bir başqa ifadə ilə:

*Mən necə ilklik və sonluq ilə çərçivələnə bilərəm axı*
*Yarımın nuru ilklik və sonluq ilə məhdud deyildirsə?*

Mənə ilk-son, əvvəl-axır deməyin, mən onsuz da yoxam. Əsl var olan Odur. Mənə aid əvvəldə və sonda nə varsa hamısı Onun lütfündən ibarətdir.

Buradakı ifadələr ilə Mövlana insanın əldə etdiyi hər cür maddi və mənəvi imkanlar ilə bütün məzhəriyyətlərin Rəbbin lütfü olduğunu iqrar/etiraf edir. Heç kim yanlış zənnə qapılaraq nəyi isə özünə aid etməsin. Var olan nə varsa, varlıq deyə nə görürsə, hamısı Allah-Təalanın lütfünün və qüdrətinin əsəridir.

Peyğəmbər (s.ə.s) Buxarinin Dəavat/Dualar bölümündə nəql etdiyi bir duada Haqqa belə yalvarır:

اللَّهُمَّ اجْعَلْ فِي قَلْبِي نُورًا وَفِي بَصَرِي نُورًا وَفِي سَمْعِي نُورًا وَعَنْ يَمِينِي نُورًا وَعَنْ يَسَارِي نُورًا وَفَوْقِي نُورًا وَتَحْتِي نُورًا وَأَمَامِي نُورًا وَخَلْفِي نُورًا وَاجْعَلْ لِي نُورًا

235. ən-Nur, 24/35.

*“Ya Rəbbi! Sən mənim qəlbimdə bir nur qıl, qəlbimi və könlümü nurlandır. Qulağımda da bir bəsirət nuru qıl. Qulağım da ilahi nur ilə sənin nurun ilə gerçəkləri eşitsin, həqiqətləri idrak etsin. Gözümdə də bir nur qıl, gözümə bir aydınlıq lütf eylə! Sağımda, solumda, önümdə, arxamda, üstümdə bir nur qıl! Ya Rəbbi! Sən məni nur et! Məni Sənin nurun ilə nurlandır.”*[236]

Çünki ***“Allah göylərin və yerin nurudur,”***[237] ayəsi ilə ifadə edildiyi kimi, Sən hər şeyin nurusan və sahibisən.

Peyğəmbərimizin bir hədisi-şərifində *“Namaz nurdur,”*[238] deyə bir ifadə var. Bu ifadəni Sədrəddin Konəvi belə izah edir: Qəmər də nurdur. Allah Qurani-Kərimdə də: ***“Günəşi işıqlı (parlaq), ayı nurlu edən, illərin sayını və hesabı biləsiniz deyə, ay üçün mənzillər müəyyən edən məhz Odur,”***[239] – buyurur.

Qəmər/ay işığını günəşdən alır, işığının qaynağı günəşdir. Ancaq ay günəşin tam qarşısına gəldiyi vaxt aydınlıq olur. Günəş ilə ay nə qədər qarşı-qarşıya gəlmişlərsə, ay günəşdən aldığı işıq ilə o qədər aydınlanar. Ay hilal olaraq aydınlanmağa başlayar, sonra yarım ay, sonra bədir olar. Onun aydınlığı aradakı dünya maneəsinin aradan qalxıb birbaşa günəş ilə eyni tuşda olmasına bağlıdır.

Namazda insanın könlü və qəlbi nə qədər Rəbbi ilə eyni yerə gələr, sağa-sola, yuxarı-aşağı, başqa tərəflərə meyil etmədən Rəbbi ilə eyni mövqedə olarsa, namazı o qədər nur olar.[240]

Sədrəddin Konəvi açıqlamalarının ardınca bunu əlavə edir. Peyğəmbərimiz (s.ə.s) namazda səflərin düzülməsi əs-

---

236. Buxari, Dəavat, 10 (5957).
237. ən-Nur, 24/35.
238. Müslim, Taharət 1, Tirmizi, Dəavat 85/3517.
239. Yunus, 10/5.
240. Şərhul-ərbəin hadisən, nşr. H. Kamil Yılmaz, İstanbul 1990 səh. 48-49.

nasında camaatına xəbərdarlıq edərkən buyururdu ki: *"Əshabım, əsla rüku və səcdədə məndən əvvəl hərəkət etməyin, məndən əvvəl rükudan və səcdədən qalxmayın! Çünki mən namazda ikən axamda olanı, önümdəki kimi görərəm."*[241]

Rəsulullah (s.ə.s) namazda tam Rəbbi ilə qarşı-qarşıya olduğu üçün nur olurdu. Artıq yönlər aradan qalxar, ön-arxa, sağ-sol, alt-üst qalmazdı. Önünü gördüyü kimi, arxasını da görərdi. Burada əslində çatdırılmaq istənilən məna namazın nur olması və qulun namazı nur halına gətirmək üçün qəlbini tam olaraq Haqq-Təalaya yönəldib xüşu ilə namaz qıla biləcək səviyyəyə gəlməsinin lazım olduğudur. Çünki namazdan istənilən nəticəni əldə edə bilmək üçün xüşu lazımdır. Haqq-Təala buyurur: ***"Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)"***[242] Allah-Təala namazlarını qılanlar demir, namazlarını xüşu ilə qılan möminlər deyir.

Xüşu qəlbdəki təzim duyğusudur. İnsanın aəlbinin namaz üzərində cəmlənməsidir. İnsanın sağında və solunda, önündə və arxasında nəyin və kimin olduğunun fərqində olmayacaq qədər namaza yönəlməsidir. Diqqətini dağıtmadan namaza yönəlməsi ehtiram və təzim duyğusu ilə Allah-Təalanın hüzurunda durmasıdır. Məhz bu xüşu duyğusu nə qədər artıq olarsa, Konəvinin də ifadə etdiyi kimi insanın namazı, könlü, zehni, sağı-solu, önü və arxası Peyğəmbərimizin dualarında buyurduğu kimi o qədər nur olar.

Mövlana könlün Allaha qovuşmasına vəsilə olan nur ilə yəqin ki, məhəbbətullahı/Allah sevgisini nəzərdə tutur. Kö-

241. Müslim, Salət, 112.
242. əl-Muminun, 23/1-2.

nüldəki o sevgi ayədə ifadə edildiyi kimi Allah ilə qulu arasında qarşılıqlıdır. ***“(Allah) onları, onlar da (Allahı) sevərlər.”***[243]

İnsan könlü nə qədər Allah nurundan aydınlanarsa, o qədər ərşi-Rəhman olar. Belə ki, mömինin qəlbi Rəhman olan Allahın ərşidir.

***“Siz harada olsanız, O sizinlədir”***[244]ayəsindəki, “maiyyət”(dostluq, bərabərlik) mənasını dərk etmə qabiliyyətinə sahib olan bir idrak, ancaq zikri-xəfi sirri ilə qazanıla bilər. Belə ki, Tövbə surəsində ifadə edildiyi kimi: ***“Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri (ikinin ikincisi) olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna (Əbu Bəkrə): “Qəm yemə, Allah bizimlədir!” –dediyi zaman (göstərmişdi). O vaxt Allah ona bir arxayınlıq (rahatlıq) nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı.”***[245]

Bu ayədə iki nəfərin ikincisi olan Hz. Əbu Bəkr Siddiq (r.a) ilə Hz.Peyğəmbərin (s.ə.s) Səvr mağarasındakı birlikdə olduqları hadisədən bəhs edilir. Peyğəmbərimiz ona deyir ki: *“Qorxma, hüznlənmə, Allah bizimlə birlikdədir.”* Peyğəmbərimizin (s.ə.s) Hz. Əbu Bəkrə dediyi bu ifadə əslində bir zikri-xəfi/gizli zikr təlqinidir.

Allah Rəsulu (s.ə.s) Əbu Bəkrə (r.a) deyir ki: *“Allah bizimlə birlikdədir.”* “Məa” kəlməsi ilə izah edilən maiyyət birlikdəlik deməkdir. Peyğəmbərimiz Əbu Bəkrə qəlbən və xəfi/gizli olaraq “Rəbbimiz bizimlə birlikdədir,” deyə təlqin edir. *“Harada olursunuzsa olun, O sizinlə birlikdədir,”* ayəsi də bu maiyyəti dəstəkləyən başqa bir ayədir.

---

243. əl-Maidə, 5/54.
244. əl-Hədid, 57/4
245. ət-Tövbə, 9/40.

***“Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!”***[246] Dolayısı ilə biz onu fərq etmirik. Mövlana Qurani-Kərim və hədisi-şəriflərdən iqtibaslar ilə bizi Onun fərqində və şüurunda olmağa dəvət edir.

Allah Rəsulu (s.ə.s) Meracda cəhət və surətdən münəzzəh olaraq Allahın camalını müşahidə və gözü ilə görməklə şərəfləndi. Belə ki, Allah-Təala: ***“Allah göylərin və yerin nurudur.”***[247] – buyuraraq nurun mütləq sahibi olduğunu ifadə etmişdir. Hədisi-şərifdə isə yaradılış, nur və zülmət münasibəti belə açıqlanır: *“Allah məxluqatı qaranlıq içində yaratdı. Sonra onlar üzərinə nurundan yaydı.”*[248]

Bu beytdə ağıl ilə eşq müqayisə etdirilir və eşqin yeri olan könlün Rəhmanın ərşi olduğuna işarə edilir. Belə ki Bursalı İsmail Hakkı belə deyir:

*Eşq bir atəşdir onda masiva çün xəru-xas*
*Xəru-xas hərgiz dayanmaz ursa gər atəş nəfəs*
*Şeş cihatı ğərqeyi-dəryayi nuri Haqq olar*
*Hər kim eylərsə bu nari-eşqdən əxzi kabes*

Eşq bir atəşdir, masiva deyilən Haqdan başqa hər şey onun üçün çör-çöp mahiyyətindədir. Eşq atəşi bir nəfəs vurarsa, çör-çöp əsla dayana bilməz. Altı cəhət Haqqın nur dəryasına qərq olar. Haqq atəşindən bir məşəl alan bu ləyaqətə nail olar.

246. əl-Hədid, 57/3.
247. ən-Nur, 24/35.
248. Tirmizi, İman 18.

## OTUZ ÜÇÜNCÜ BEYT

### *EŞQ DİNDİRƏR, DƏRD İNLƏDƏR*

عشق خواهد کاین سخن بیرون بود
آینه غمّاز نبود، چون بود؟

*Eşq xahəd kin suhan birun buvəd*
*Ayinə gammaz nəbvəd çün buvəd*

❃

**Tərcüməsi**
*Eşq bu sözün açığa çıxmasını istəyir*
*Ayna yansıdıcı olmazsa nə ola bilər?*

***Mənzum Tərcüməsi***
*İstəyir eşq cümlə söz olsun ayan*
*Ayna vaz keçməz ki rəsmi sunmadan*

Ayna necə özünə əks edəni göstərirsə, könül aynası da iradə və ixtiyar olmadan qəlbdə yaranan sirləri ortaya tökər. Çünki eşq işin açığa çıxmasını istəyir. Necə ki, deyirlər, eşq dindirər, dərd inlədər. Aşiq eşqini danışmaq, dərd içində olan adam, onu danışmaq, ondan bəhs etmək istəyər. Ayna, ancaq əks etdirər.

Qammaz/Yansıdıcı nə deməkdir? Bir sözü bir yerdən başqa bir yerə daşıyan deməkdir. Ayna da elədir. Sizin surətinizi eynən olduğu kimi əks etdirər. Dolayısı ilə aşiq olan insan sevgilisinin aynası kimidir. Necə ayna özünə görünəni əks etdirirsə, sevən də sevdiyindən danışmaq, onun gözəlliklərindən bəhs etmək istəyər. Məcazi eşqə düşən durmadan sevgilisindən bəhs etmək istəyər. Onun haqqında bəhslər açar.

Rəbbini sevən, ilahi eşqə düşən, könlü ona bağlı olan kəs də hər sözündə, hər vəsilə ilə onun kamalını, sonsuz lütfünü, kərəmini tərif etmək, həmd, şükür və nemətlərini saymaqla Rəbbinin gözəlliklərini anmaq, Ondan bəhs etmək istər. Bütün dili, zikri, virdi-zəbanı həmişə O olar: "Ya Rəbbi, bu dünyada bizə saysız-hesabsız ehsanlar etdin. Sonsuz nemətlər verdin", deyər.

Əgər insanın qəlbi tər-təmiz olmuş, ilahi eşqə layiq bir səviyyəyə gəlmiş isə o, sadəcə Haqq-Təalanın gözəlliklərindən danışar, ondan bəhs edər. Çünki ayna, ancaq özünə yansıyanı göstərər. Könül eşq ilə dolduqda, cilalanmış bir ayna kimi olar. O, Rəbbinin gözəlliklərini yansıtmaq və başqaları ilə bölüşmək istəyər.

Necə ki, ayna təmizlənməklə parıldayır, onun kimi qəlb də eynilə saflaşdırılmaqla təmizlənər, nəfs də təzkiyə ilə arınar. Eşq ayna kimi qəlbi alovlandırır. Bir qəlbdə eşq nuru varsa, orada bir çox mənalar zühur edər. Pak olan qəlbə mənəvi həqiqətlərin əks etməməsi mümkün deyildir.

Mövlana kimi mücəlla/cilalanmış, təmiz bir qəlbə sahib olanın Məsnəvini izhar etməməsi mümkün deyildir. Çünki bu Haqqın verdiyi bir istedad, Rəbbani bir ilhamdır.

Belə ki, rəvayətə görə, İmam Əli danışarkən bəzən qafiyəli sözlər deyərmiş. Xalq da onun bu danışığını anlamaqda çətinlik çəkər və ondan belə danışmamağı tələb edərmiş. O da: "Yaxşı, bundan sonra belə danışmayacağam," – deyir. Amma bu yöndəki qabiliyyət və istedadı çox olduğu üçün bir gün danışarkən yenə də qafiyəli danışır və verdiyi sözü xatırlayaraq: "Səcətu və ləkin racətu/Səci etdim/qafiyəli danışdım, ancaq fərqinə vararaq vaz keçdim," – deyərək yenə də qafiyəli danışmışdı. Qabiliyyət olduqda, etməmək müşkül məsələdir. Ona görə də: "şair olunmaz, şair doğular," deyə bir söz vardır.

Qardaş Azərbaycanda Səməd Vurğun deyə məşhur bir şair yaşamışdır. Rəvayətə görə Səməd orta məktəbdə tələbə ikən bir qıza aşiq olur və şeirlər yazmağa başlayır. Beləcə bu qabiliyyət getdikcə inkişaf edir və Səməd xalq şairi olmuş və aşiq mənasına gələn "Vurğun" ləqəbini almışdır. Qədərin işinə bax ki, şəninə şeirlər yazdığı aşiq olduğu qız ilə evlənə bilməmişdir.

İllər sonra Səməd ilə tələbəlik eşqi Bakı küçələrindən birində qarşılaşırlar. Səməd tək, qadının yanında isə həyat yoldaşı var. Səməd tələbəlik eşqini heç tanımır. Amma qadın tanıyır. Çünki Səməd Azərbaycanın tanıdığı, hətta dünyanın tanıdığı şöhrətli bir insan olmuşdur. Qadın ayaq saxlayır və:

"− Səməd, sən necə tanımırsan məni? Səni mən şair etmişəm," – deyir. Səməd də:

"− Sən məni şair etdiyini deyirsən? Səndə elə qabiliyyət varsa, yanındakını niyə şair etmirsən?" − deyə cavab verir.

Bəli, bu bir qabiliyyət işidir.

Bu beytdə aşiqin qəlbi aynaya, qəlbdəki duyğular aynaya yansıyan surətlərə bənzədilmişdir. Aynanın yansıdıcı olmaması mümkün deyildir. Qəlb də eşq ilə masivadan təmizlənincə özlüyündən orada mənalar zahir olar. Necə ki: “Hər qab içindəkini sızdırar,” sözü də bu mənanı ifadə edir.

Comərdlərin kasasından yerin də bir nəsibi vardır. Çünki onlar alıb-verərkən bol-bol verərlər. Xalq ikram edilən şeyi bolca verənə “Borc verirsən?” – deyər. Çünki borc alıb-verməkdə ölçüyə riayət etməyin, əskik verib, artıq almamağın əhəmiyyətinə diqqət çəkərlər:

***“Vay halına çəkidə və ölçüdə aldadanların! O kəslər ki, özlərini insanlardan (bir şey) aldıqları zaman onu tam ölçüb alar, Onlar üçün ölçdükdə və ya çəkdikdə isə (onu) əskildərlər.”***[249]

Saib deyir ki:

*Eşq toxumunu torpaqda gizlətmək çətindir*
*Eşq qığılcım dənələri kimi sıçramaq istər.*

Eşqin sözləri danışıq əsnasında daşmaq və hər kəs ilə paylaşılmaq istər. Onu gizləmək elə də asan deyildir.

Ancaq bunu ayırmaq lazımdır: Haqq-Təalanın insanlara lütf etdiyi bəzi ilahi sirlər vardır. Bunların hər kəsə açılması doğru deyildir. Allah bəzi insanlara bəzi sirlər və bilgilər lütf edər, bəzi ehsanlar verər. Onları gizlətmək əsasdır. Hər şeyi hər kəsə deməyə icazə yoxdur.

Peyğəmbərimiz özünə vəhy ilə bildirilən hər şeyi xalqa təbliğ etmək ilə vəzifəli idi:

***“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni (Quranı) təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini***

249. əl-Mütəffifin, 83/1-3.

***(sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq.”***[250]

Bununla birlikdə Allah-Təala Rəsuluna münafiqlərin adlarını bildirmiş, O da Hüzeyfətul-Yəmana, başqa birisinə deməmək şərti ilə bu sirri əmanət etmişdi. Hüzeyfə bunları əsla başqası ilə bölüşməmişdir. Belə ki, Hz. Ömər belə birisi vəfat etdiyi zaman, Hüzeyfənin onun cənazə namazını qılıb-qılmadığına baxardı. Qılırsa, o da qılardı.[251]

Hz. Ömər bəzən soruşardı: “Ya Hüzeyfə, həmin siyahıda mənim də adım varmı?”

İnsanın çılpaq göz ilə görməyi mümkün deyildir. Günəşi görməyin ən asan yolu yanımızdakı bir su qabına günəşin kölgəsini düşürməkdir.

Göy üzünə çılpaq göz ilə baxsanız günəşi rahatlıqla görə bilməzsiniz Amma yanınızdakı bir su qabının içərisinə günəş işığı düşərsə, oraya baxa bilərsiniz. Çünki o suyun zərrələri günəş şüalarını bəlli nisbətdə qırır və çılpaq göz ilə ona baxmağa imkan verir.

Eyni şəkildə Haqq-Təalanın sonsuz ziyası, nuru birbaşa qavrana bilməz. Amma Haqq-Təalanın insanın könlünə, qəlbinə təcəlli edən nuru, ən asan və ən gözəl qəbul edilə biəcək nurdur. Mühüm olan bizim qəlbimzi Onu qəbul edə biləcək su saflığında tər-təmiz hala gətirə bilməyimizdir.

250. əl-Maidə, 5/67.
251. Beyhəqi, Sünəni-Kübra, VIII, 199 (16620)

## OTUZ DÖRDÜNCÜ BEYT

### *QƏLB AYNASI*

آینه ات دانی چرا غمّاز نیست؟
زآنکه زنگار از رخش ممتاز نیست

*Ayinət danı çi-ra qammaz nist*
*Zanke zəngar əz ruxaş mümtaz nist*

❃

**Tərcüməsi**

*Sənin aynan niyə əksini vermir?*
*Çünki könlün pasdan xali deyil*

***Mənzum Tərcüməsi***

*Verməmiş can aynamız heç yansıma*
*Hər tərəf his-pasla dolmuş baxsana*

Könül aynasında nəyinsə naxış halında zühur etməsi üçün, əvvəlcə qəlb masivadan təmizlənməlidir. Necə ki, hədisi-şərifdə buyurulmuşdur: *"Hər şeyin bir cilası vardır. Qəlbin cilası da Allahı zikr etməkdir."*[252]

Necə ki, şair deyir ki:

*Müncəli ayineyi-dildə nüxuşi kainat*
*İş o miəti-müsəffaya cila verməkdədir.*

Könül evi Allahın təcəlligahıdır. Necə ki, könlün ilahi nəzərgah olduğunu ifadə edən sözlər vardır. Ancaq Allahın bir könülə təcəlli etməsi üçün o könül masivadan təmizlənməlidir. Necə padşahın gələcəyi bir ev, ya da saray o gəlməzdən əvvəl təmizlənir və o gəlməzdən əvvəl bir hazırlıq işləri görülərək padşahın gəlişinə hazırlanırsa, eyni şəkildə qəlb məkanı da ilahi təcəllilərin məkanı olması üçün qonağına hazırlanmalıdır. Bu gerçəyi bir şair necə də gözəl ifadə etmişdir:

*Sür çıxar əğyari-dildən ta təcəlli edə haqq*
*Padşah girməz saraya xanə məmur olmadan*

Sultan Əhməd xan ilə Əziz Mahmud Hüdayi arasındakı dostluq məşhurdur. Biri dünya, o biri məna sultanı olan bu iki gözəl insan könül evini Haqqın təcəllisinə açma yolunda bir-biriləri ilə nəzirə tərzində şeir ilə ünsiyyət etmişdirlər. Əziz Mahmud Hüdayi deyir ki:

*Zakir səfaya ərişir,*
*Ənvari-zikrullah ilə*
*Aşiq Xudaya ərişir,*
*İksari-zikrullah ilə*
*Nəfin həvasından kəsil,*
*Zikr eylə Haqqı müttəsil*
*Sayqallanar (cilalanar) mirəti-dil*
*Təkrari-zikrullah ilə*

---

252. Beyhəqi, *Şuabul-iman*, I, 396 (522).

Sultan Əhməd xan Hüdayinin şeirinə bu nəzirə ilə cavab verir:

*Dil xanəsi pür nur olar*
*Ənvari-zikrullah ilə*
*İqlimi-dil məmur olar,*
*Memari-zikrullah ilə*

Məlum olduğu kimi, insan qəlbi bir ayna kimi olduğu üçün bəzən buğulanar, kirlənər və nəticədə qaralar. Hədisi-şəriflərdə işlənən günahların nəticəsində qəlbin üzərində qara bir ləkə meydana gələcəyindən bəhs edilir. İşlənən bu günahın ləkəsi tövbə ilə təmizlənir. Ancaq təmizlənməyən ləkələr zaman keçdikcə qəlbi qaraladar və qatılaşdırar. Belə ki, bu ayədə buna işarə vardır: ***"Xeyr (belə deyildir). Əslində onların qəlblərini qazandıqları (günahlar) qaplamışdır."***[253]

Qəlblərin qaralması və qatılaşması ilə bağlı Quranda çox ibrətli ifadələr vardır:

***"Bundan (bu əhvalatdan) sonra qəlbləriniz yenə sərtləşərək daş kimi, bəlkə, daha da qatı oldu. Həqiqətən, bəzi daşların içərisindən nəhrlər axar, bəzisi yarılıb içindən su fışqırar və bəzisi də Allahın qorxusundan (uca yerlərdən, dağdan) yuvarlanıb düşər. Allah sizin etdiklərinizdən, əlbəttə, qafil deyildir!"***[254]

Bir əvvəlki beyti oxuyanın ağlına gələ bilər ki; "Madam ki, elədir, bəs nə üçün mənim qəlbimə belə bir zühur olmur?" Cavab olaraq deyilir ki: Bəli, sənin qəlbin yaradılış etibarilə buna münasib olmasına baxmayaraq, sən onu paslandırmısan, eşq ilə ibadətə davam etsən, sən də elə təcəllilərə məzhər/layiq olarsan.

253. əl-Mütəffifin, 83/14.
254. əl-Bəqərə, 2/74.

Qəlbi təmizləməyin yolu nəfsi paklaşdırmaqdan keçir. Nəfsi paklaşdırmağın ən təsirli yolu da Allahı zikr etməkdir. Zikr sayəsində qəlb zakir olduqda, nəfsin qəlb üzərindəki təsiri azalar. Beləcə iradə güclənərək, ayədə işarə edilən təzkiyə/paklaşma baş vermiş olar: ***“And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki, Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!”***[255]

Ən böyük axirət sərmayəsi qəlbi-səlimdir. Qəlbi-səlim; inciməyən və incitməyən, mənəvi xəstəliklərdən xilas olmuş qəlbdir. Necə ki, İbrahim (ə.s) ilə bağlı ayədə Allah-Təala: ***“O gün ki, nə mal-dövlət, nə də övlad bir fayda verər! Ancaq sağlam (təmiz, daxilində şəkk-şübhəyə, küfrə, şirkə və nifaqa yer olmayan) bir qəlblə Allahın hüzuruna gələn kimsədən (möminlərdən) başqa!”***[256] deyə bildirilir.

255. əş-Şəms, 91/7-9.
256. əş-Şüəra, 26/88.

# MÜNDƏRİCAT

Neyin Hekayəsi İnsanın Macərası .......... 9
Neyin və İnsanın Vətəni .......... 23
Həsrəti Çəkən Bilər .......... 31
Mənəvi Vətən Həsrəti .......... 45
Yaxşı Da Pis Də Neyin Dostudur .......... 57
Hər Kəs Özünə Görə Anlayar .......... 67
Neyin Fəryadının Sirri .......... 77
Ruh-Bədən Əlaqəsi .......... 87
Ney Səsi Yandıran Bir Atəşdir .......... 97
Ney və Meydəki Eşq Atəşi .......... 105
Yarından Ayrılanın Sirdaşı Ney .......... 115
Ney Həm Zəhər, Həm Panzəhərdir .......... 125
Ney Qanlı Eşq Hekayəsi Danışır .......... 135
Ağlından Keçmək .......... 145
Qəmli Günlər Uzanıb Gedər .......... 155
Fani Olanı Tərk Et, Baqi Olanı Seç .......... 165
Balıq Sudan Doymaz .......... 177
Xam Ruhlar Püxtə Sözü Anlamaz .......... 181

Dünya Bağı və Hürriyyət.................................................189
Dəniz və Damla ...............................................................199
Sədəfi İncı Edən Qənaət ...................................................205
Eşq, Hərislık və Eybiləri Təmizləyər ................................. 211
Ey Eşq Şad Ol! ................................................................217
Təkəbbür və Eqoizmin Dərmanı Eşq.................................223
Bədən Eşq İlə Əflaki Olar ..................................................229
Tur Dağını Məst Edən Eşq ................................................235
Sirdaş Tapanda Lazım Olanı Deyərəm..............................243
Başa Düşülmə Qayğısı......................................................249
Gül Getdı Gülüstan Soldu..................................................257
Hər Şey Sevgilidən İbarətdir..............................................263
Eşqsiz Olan Qanadsız Quş Kimidir ...................................271
İdrak Haqqın Nuru İlədir ....................................................277
Eşq Dindirər, Dərd İnlədər .................................................285
Qəlb Aynası .....................................................................291